**Kərəm Cahangir oğlu Məmmədov**

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRA ANTANTA - OSMANLI MÜNASİBƏTLƏRİ (1918-1923)



Kərəm Cahangir oğlu Məmmədov

**BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRA ANTANTA - OSMANLI MÜNASİBƏTLƏRİ (1918-1923)**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 25 oktyabr 2008-ci il tarixli 1101 saylı əmri ilə dərs vəsaiti kimi tövsiyə edilib.

Bakı-2008

Elmi redaktoru:

Tarix elmləri doktoru, professor Cəmil Poladxan oğlu Həsənli

Rəyçilər:
Tarix elmləri doktoru, professor Pərvin Qulam oğlu Darabadi
Tarix elmləri doktoru, professor İsmayıl Məhərrəm oğlu Musa

**Məmmədov. K.C. Birinci dünya müharibəsindən sonra Antanta - Osmanlı münasibətləri (1918-1923). Bakı, 2008, 335s**.

Əsərdə Birinci dünya müharibəsindən sonrakı dövrdə Antanta dövlətlərinin Osmanlı imperiyasını parçalamaq məqsədi ilə apardıqları danışıqlar, müqavilə və konfranslar dövrün hüquqi sənədləri, ictimai-siyasi xadimlərin memuarları, müxtəlif ədəbiyyatların müqayisəli şəkildə təhlili verilmiş və Antanta dövlətlərinin əsl məqsədləri araşdırılmışdır.

Kitab beynəlxalq münasibətlər, tarix, politologiya və digər humanitar ixtisaslar üzrə ixtisaslaşan mütəxəssislər, ali məktəb tələbələri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.



## MÜNDƏRİCAT

Giriş……………………………………………………………..3

I FƏSİL.
**Birinci dünya müharibəsinin Türkiyə üçün nəticələri**
1.1.Müttəfiqlərlə Türkiyə arasında Mudros barışığı…………..24
1.2.Paris sülh konfransında Türkiyə məsələsi…………………47

II FƏSİL
**Müttəfiq dövlətlərin Türkiyəni parçalamaq cəhdləri**
2.1.İstanbulun Antanta dövlətləri tərəfindən işğal edilməsi…...88
2.2. Anadolunun bölüşdürülməsinin rəsmiləşdirilməsi
Sevr müqavilləsi……………………………………………16

III FƏSİL
**Antantanın Türkiyəni parçalamaq cəhdlərinin iflası. Müttəfiq ordularının Türkiyəni tərk etməsi**
3.1. Müttəfiqlərin ilk məğlubiyyətləri və
Sevr müqaviləsinə yenidən baxmaq haqqında
Londn konfransı.................................................................43
3.2. Yunan-Türk müharibəsinin başa çatması:
Mudaniya barışığı……………………………..……..……168

IV FƏSİL
Lozanna sülh konfransı…………………………………..….206
a) Qara dənin boğazlarında rejim məsələsi…………………..213
b) Kapitulyasiya rejimi……………………………………….218
c) İqtisadi və maliyyə məsələləri……………………………..226
ç) Azlıqda qalan millətlər məsələsi........................................229
d) Mosul məsələsi……………………………………………..233
Nəticə………………………………………………………254
Əlavə 1. Mubros barışığı……………………………………269
Əlavə 2. Sevr müqaviləsi…………………………………….273
Əlavə 3. Boğazlardan keçid rejimi haqqında konvensiya…327

## GİRİŞ

Avropanın böyük dövlətlərinin Osmanlı Türkiyəsi ilə münasibətləri tarixinin ən gərgin dövrlərindən biri birinci dünya müharibəsindən sonrakı illərə təsadüf edir. Osmanlı imperiyasının mövcud olduğu yüzilliklər ərzində Avropa-türk münasibətlərindəki ziddiyyətlərin "həllinin" bu son mərhələsində Avropanın böyük dövlətləri geniş və təbii ehtiyatlarla zəngin, strateji baxımdan əhəmiyyətli ərazilərin Osmanlı imperiyasından qopardılması yolunda son və qəti addımlarını atmaq qərarına gəldilər. Avropanın böyük dövlətlərinin Osmanlı Türkiyəsinə münasibətdə yeritdikləri xarici siyasət xətti siyasi qüvvələrin yerləşməsində ciddi dəyişikliklərə, bütün beynəlxalq vəziyyətin dəyişməsinə və son nəticədə müharibəyə səbəb oldu. Osmanlı imperiyasının yarandığı gündən etibarən Avropa dövlətlərinin bu ərazilərə maraqlarıda artırdı və toqquşurdu. Məhz bu maraqların toqquşması nəticəsində Osmanlı imperiyasının "yaşı"da çoxalırdı.

Balkan müharibələri, boğazlar məsələsi və böyük dövlətlərin bu ziddiyyətli məsələlərə münasibətdə yürütdükləri siyasət Osmanlı imperiyasının parçalanmasının labüd olduğunu göstərdi. Çünki bu parçalanmanın qarşısını alacaq amillər artıq yox idi. Bundan əvvəl böyük dövlətlər arasında mövcud olan ziddiyyətlər artıq son həddə çatmış və müharibəqabağı qruplaşmalar baş vermiş, Avropa qəti olaraq iki hərbi bloka ayrılmışdı. Osmanlı Türkiyəsi isə dövlətlərarası ziddiyyətlərin dərinləşməsində əsas mübahisəli ərazi olduğuna görə bu qruplaşmalardan kənarda qala bilməzdi və dünya müharibəsi ərəfəsində uzun sürən diplomatik çəkişmələrdən sonra Türkiyə avstriya-alman bloku tərəfindən müharibəyə qoşulmaq qərarına gəldi. Müharibə başlayandan sonrakı gün Türkiyə Almaniya ilə gizli olaraq hərbi ittifaq haqqında müqavilə bağladı. Amma



Türkiyənin hansı qrup tərəfindən müharibəyə qoşulmasından asılı olmayaraq hər bir tərəfin qələbəsi təsadüfündə o, heç bir ciddi mənfəət güdə bilməzdi. Çünki müharibəyə qoşulan tərəflərin hər ikisinin Türkiyədə öz məqsəd və maraqları var idi. Bu heç də Türkiyənin xeyrinə deyildi.

Bu dövlətlərdən İngiltərə Yaxın Şərqdə aşağıdakı məqsədlərin həyata keçirilməsini güdürdü: İraq neftini ələ keçirmək; boğazlara nəzarəti qazanmaq; Osmanlı xənədanına aid olan xilafət quruluşunu aradan qaldırmaq və ya etibarlı bir nəzarət altına almaq; Şərqə, Süveyş və Hindistana gedən yolun təhlükəsizliyini təmin etmək.

Almaniya isə Balkan ölkələri, Türkiyə və bütün Yaxın Şərqi özünə tabe etməyə çalışırdı.

Rusiyanın məqsədləri isə türk tarixçisi Yusif Akçuranın təbirincə desək, "XVIII əsrin sonlarından... Qara dənizdə və Rumildə irəliləyib boğazları zəbt edərək Ağ (Aralıq) dənizə çıxmağı, Qafqaziya təriqi ilə də İsgəndərun körfəzində Ağ dəniz, Mesopotomiya və İranda irəliləyərək Bəsrədə Hind okeanına qovuşmağı nəzərdə tuturdu".[1]

Fransızlar həmçinin Yaxın Şərqdə möhkəmlənməyə çalışırdılar. Sonradan müttəfiqlər tərəfindən müharibəyə qoşulan Yunanıstan yaranmış əlverişli beynəlxalq vəziyyətdən istifadə edib Türkiyəyə olan tarixi düşmənçiliyin əvəzini çıxmağa çalışırdı.

Bütün bu məqsədləri həyata keçirmək üçün hələ müharibə illərində müttəfiqlərarası diplomatik danışıqlar aparıldı və 1917-ci ilin əvvəli üçün bu gizli danışıqlar başa çatdı.

Artıq 1918-ci ilin payızında dünya müharibəsi sona yaxınlaşmaqda idi. Türkiyənin müttəfiqləri bir-birinin ardınca məğlub olaraq müharibədən çıxırdılar. Oktyabrın 30-da isə Türkiyə Mudros barışığını imzaladı.

Beləliklə, problemin elmi aktuallığını nəzərə alaraq monoqrafiya dünya müharibəsindən sonra Antanta dövlətlərinin Osmanlı imperiyasını parçalamaq planlarına həsr olunduğundan müharibədən sonra Türkiyəni parçalamaq məqsədi ilə müttəfiq dövlətlərin imzaladıqları müqavilələr və bu müqavilələrin həyata keçirilməsində yürütdükləri siyasət araşdırılmışdır.

Dünya müharibəsindən sonra bölünmüş dünyanın yenidən bölüşdürülməsi uğrunda qalib dövlətlər mübarizəyə başladılar. Nüfuz dairələrinin bölgüsünü beynəlxalq hüquqi baxımdan əsaslandırmaq məqsədilə 1919-cu il Paris sülh konfransında diplomatik çəkişmələr daha da gücləndi. Türk məsələsi bu çəkişmələrdən kənarda qalmasa da, Versal konfransında bu məsələni həll etmək mümkün olmadı və konfransdan sonra müttəfiq dövlətlərin keçirdikləri çoxsaylı görüş və müşavirələrdə türk məsələsinə dair qərarlar qəbul edildi. Bu qərarların həyata keçirilməsi üçün Türkiyəyə qarşı 1922-ci ilin payızınadək hər vasitədən istifadə edildi. Lakin bu təzyiqlər, hərbi əməliyyatlar, diplomatik səylər türk xalqının qürurunu sındıra bilmədi.

Əsrin əvvəlində Türkiyəyə münasibətdə müttəfiq dövlətlərin yürütdükləri siyasətin öyrənilməsi müasir dövrdə dövlətlərarası münasibətlərin bir çox məqamlarını tam anlamaq baxımından çox gərəklidir. Çünki, XX əsrin əvvəlindəki siyasətlə, əsrin sonundakı siyasət arasında böyük oxşarlıq vardır. Bunları araşdırmaq tədqiqatçıların əsas vəzifələrindən biridir.

Birinci dünya müharibəsindən sonra Antanta dövlətlərinin Osmanlı Türkiyəsini parçalamaq planları ayrıca tədqiqatın mövzusu olmamışdır. Lakin Antantanın Türkiyəyə münasibətdə yürütdüyü işğalçılıq siyasətinin bir çox cəhətlərinə ayrı-ayrı müəlliflər müraciət etmişlər və onu daha çox tarixi baxımdan araşdırmışlar. Bu araşdırmalar



içərisində qardaş Türkiyə tədqiqatçıları daha böyük işlər görmüşlər. Bunun səbəbi də aydındır: sovet ideologiyasından kənara çıxmaq səlahiyyətlərinə malik olmayan Azərbaycan tədqiqatçılarından fərqli olaraq müstəqil Türkiyə tədqiqatçıları üçün daha böyük imkan və şərait var idi. Həmçinin sovet dövründə Azərbaycanda beynəlxalq münasibətlər ixtisası üzrə mütəxəssis yetişdirən heç bir təhsil müəssisəsi olmadığından Antanta-Türkiyə münasibətləri ayrıca tədqiqat obyekti olmamışdır. Türkiyə tədqiqatçıları zəngin məlumatlara malik olsalar da, amma əksər nəşrlərdə geniş siyasi təhlilə yer verilmədiyindən onlar yalnız məlumat xarakteri daşıyır.

Monoqrafiyanın hazırlanmasında görkəmli türk tarixçisi Səlahəttin Tanselin Mudrosdan Mudaniyaya qədər[2] dörd cildlik kitabı əhəmiyyətə malikdir. S.Tanselin bu kitabları xronoloji baxımdan dünya müharibəsini Türkiyə üçün ən ağır şərtlərlə başa çatdıran Mudros barışığından, Antantanın Türkiyəni parçalamaq planlarının iflası ilə nəticələnən Mudaniya barışığınadək olan dövrü əhatə edir. Müəllifin bu kitabları Türkiyədə iki dəfə nəşr edilmişdir.

Kurat Tekinin Osmanlı imperiyasının bölüşdürülməsindən bəhs edən kitabı mövzunun araşdırılmasında xüsusi əhəmiyyətə malikdir. Müəllif bu kitabında Avropa dillərində olan mənbələrdən istifadə edərək müttəfiqlərin Türkiyəyə münasibətdə yürütdükləri siyasətin bəzi məqamlarını açıqlamışdır. Kitabda dünya müharibəsindən sonra Antantanın məqsədlərinin həyata keçirilməsində ən ağır müqavilə olan Sevr müqaviləsindən bəhs edərək göstərir ki, "çox ağır şərtlər içərisində belə bir müqavilənin imzalanması ilə Osmanlı imperatorluğunun parçalanması kağız üzərində həll edilmiş olurdu".[3]

Əli Fuat Türkgəldinin 1948-ci ildə nəşr edilmiş "Mudros və Mudaniya mütarikələrinin tarixi" və 1949-cu

ildə nəşr edilmiş “Görüb eşitdiklərim” adlı kitabı da maraqlı məlumatlar verir.[4]

Zafer Tunaya 1952-ci ildə İstanbulda nəşr edilmiş “Türkiyədə siyasi partiyalar”[5] kitabında Türkiyəni belə bir ağır vəziyyətə gətirən “İttihad və tərəqqi” partiyasının da fəaliyyətinə diqqət yetirib, müharibədə məğlub olduqlarına görə partiyanın özünü buraxdığı sonuncu toplantısı haqda məlumat verir.

Sina Akşinin İstanbul hökumətləri və milli mücadilədən bəhs edən kitabı[6] Antanta planlarına qarşı Sultan hökuməti ilə Ankara hökumətlərinin fəaliyyətini paralel olaraq müqayisəli şəkildə öyrənmək üçün əhəmiyyətlidir.

S.Selek,[7] T.Biyiklioğlu,[8] S.Sebahattin,[9] A.Sabis,[10] K.Özalp[11] kimi türk tarixçiləri öz əsərlərində ölkədə xarici müdaxiləyə qarşı baş qaldıran milli mübarizəyə geniş yer vermişlər. Bunlarla bərabər olaraq Antantanın həyata keçirdiyi siyasi-hərbi planlara da nəzər salınır. Qiymətli məlumatlarla zəngin olduğuna görə bu əsərlərdən mövzu işlənərkən geniş istifadə edilmişdir.

Q.Jaevskinin 1970-ci ildə Ankarada türkcə nəşr edilən kitabı[12] mövzunun araşdırılmasında əhəmiyyətli rola malikdir. Müəllif kitabda Mudros müqaviləsi imzalanandan Mudaniya müqaviləsinədək türk azadlıq müharibəsini xronoloji ardıcıllıqla vermişdir. Müəllif zəngin mənbələrə malik olmuş və Antantanın planlarına geniş nəzər salmışdır.

Mühittin Gül “Türk inqilab tarixi”[13] kitabını Türkiyə Respublikası qurulmasının 75 illiyinə həsr etmişdir. Kitabda Antantanın Türkiyədə işğalçı siyasətinə geniş yer verilməsə də, qiymətli məlumatlarla zəngindir. Müəllif kitabda ölkə daxilində Antantanın siyasətinə dəstək verən zərərli ictimai təşkilat və qruplar haqda maraqlı məlumatlar verir. Müəllif bu ictimai təşkilatlar içərisində Mudros barışığındakı 6 erməni vilayəti məsələsini əldə bayraq edən erməni



təşkilatları, yunan təşkilatları və b. daha geniş fəaliyyətini də işıqlandırır. Bu təşkilatların fəaliyyətinə nəzər salmaq üçün Kamuran Gürün “Erməni dosyası”[14] adlı əsəri qiymətlidir. Müəllif mötəbər sənədlər və müxtəlif dillərdə olan geniş çeşidli ədəbiyyatları araşdıraraq böyük dövlətlərin Osmanlı imeriyasına münasibətdə yürütdükləri siyasəti və erməniləri öz siyasətlərinin bir alətinə çevirdiklərini açıb göstərmişdir. Yalçın Ayhan[15] isə geniş mənbələrə əsaslanaraq erməni-türk məsələsinin iç üzünü açmağa çalışmışdır. Sadi Koçaşın[16] əsəri də erməni məsələsinə həsr edilmişdir. İlter Ərdal[17] və Uras Əsat[18] da öz əsərlərini erməni məsələsinə həsr etmişlər.

Ölkədəki Antanta əlaltısı kimi çıxış edən cəmiyyətlərdən yunan cəmiyyətləri də geniş fəaliyyətləri ilə seçilirdilər. Bunların fəaliyyətindən bəhs edən Yılmazın “Ponti məsələsi”[19] kitabıda maraqlı məlumatlar verir.

Antantanın Türkiyədə yürütdüyü siyasəti genişliyi ilə araşdırmaq üçün iki tərəf arasında imzalanan müqavilələrin təhlili xüsusi əhəmiyyətə malikdir. Bu məqsədə nail olmaq üçün isə ilk növbədə həmin müqavilələrin mətnlərini tapmaq gərəkdir. Bu sahədə İsmayıl Soysalın,[20] Salahi Sonyelin,[21] Yəhya Akyüzün, Kamuran Kürün, Ömər Kürkcüoqlunun[22] əsərlərinin böyük faydası dəymişdir.

Səha Məray və Osman Olqayin “Osmanlı imperatorluğunun çöküş belgələri” kitabı[23] mövzunun araşdırılmasında bəzi məqamları açmağa yardım etmişdir. Kitabda Mudros, Sevr müqavilələri və başqa razılaşmalar haqda maraqlı məlumat verilmişdir.

Araşdırdığımız dövrün siyasi hadisələri haqda F.Sönməzoğlunun, E.Ulubelinin, N.Erimin, V.Şimşirin[24] əsərləri qiymətli məlumatlar verir.

Türk milli azadlıq hərəkatının lideri, Antanta planlarının iflasının bayraqdarı olan M.K.Atatürkün

memuarları və onun haqda yazılmış əsərlər mövzunun araşdırılmasında faydalı olmuş və onlardan məqsədyönlü istifadə edilmişdir.[25]

Bütün bunlardan başqa bir çox türkdilli ümumi əsərlərdən də geniş istifadə edilmiş və lazımi məlumatlar əldə edilmişdir.[26]

Problemin araşdırılmasında Amerika və Qərbi Avropa ölkələrində nəşr olunmuş ədəbiyyatlardan istifadə olunmuşdur.

Belə nəşrlərdən "ABŞ xarici əlaqələri"[27] adı ilə nəşr edilən və çoxlu sənədlər daxil olunmuş Dövlət departamentinin məcmuəsindən istifadə edilmişdir. Məcmuənin 2-ci (1919) və 3-cü (1920) cildlərində ABŞ-ın Yaxın Şərq uğrunda fəal mübarizə apardığı dövrün sənədləri verilmişdir. 2-ci cilddə general Harbordun Türkiyədəki missiyasının hesabatı bütünlüklə öz əksini tapmışdır. 3-cü cilddə isə Türkiyə ilə sülh müqaviləsi hazırlanması məsələsində dövlətlərin mövqeyini müəyyənləşdirmək üçün qiymətli sənədlər vardır.

ABŞ-da 1943-1948-ci illərdə 13 ildə nəşr edilmiş Paris sülh konfransının materialları da problemin araşdırılmasında əhəmiyyətli məlumatlar verir.[28] Bu nəşrin III-XIII-cü cildləri Paris sülh konfransının materiallarını əks etdirir. Qordonun "1830-1930-cu illərdə Amerikanın Türkiyə ilə münasibətləri"[29] kitabı bir əsrlik dövrü əhatə etsə də, birinci dünya müharibəsindən sonra ABŞ-ın Türkiyəyə mandat almaq uğrunda mübarizəsini açıqlamaq üçün qiymətli məlumatlar vardır.

Hələ Paris sülh konfransının işlədiyi zaman Nyu-Yorkda "Amerika Ermənistana mandata sahib"[30] adı altında məcmuə dərc edilmişdi. Həmin məcmuədə Ermənistana mandat almanın vacibliyi sübut edilir.

Hovardin "Türkiyənin bölüşdürülməsi. 1913-1923-cü



illər diplomatik tarixi"[31] kitabı böyük arxiv materiallarına əsasən hazırlanmışdır. Müəllif kitabda İngiltərə və Fransanın işğalçı siyasətini də açıb göstərmişdir.

Mişel Payaresin "Kamalizm müttəfiqlər məhkəməsi qarşısında"[32] kitabı da problemin araşdırılmasında qiymətli məlumatlar verir. Müəllif Türkiyəyə birləşmiş müttəfiqlər mandatı tərəfdarı kimi çıxış etmişdir.

İngiltərədə 1948-1949-cu illərdə nəşr olunmuş "Böyük Britaniya xarici siyasət sənədləri"[33] mövzunun arardırışması üçün qiymətlidir. Kitabda 1919-cu il iyunun 28-dən sonrakı sənədlər verilsə də, türk məsələsi ilə bağlı çoxlu yeni materiallar əldə etməyə imkan verir. Belə ki, burada 1919-cu il London konfransının materialları haqda ilkin məlumatlar verilmişdir.

R.Lansinqin sülh danışıqlarından bəhs edən kitabı[34] mövzunun araşdırılmasında bir çox məqamları açmaq üçün qiymətlədir. Müəllif kitabda sülh danışıqları haqda öz icmalını vermişdir.

X.U.Temperlinin Paris sülh konfransının tarixindən bəhs edən kitabı[35] konfransda Türkiyə məsələsinin müzakirəsi zamanı bir çox məsələlərə aydınlıq gətirmək üçün qiymətli vəsait kimi istifadə edilmişdir.

A.Toynbenin Yunanıstanda və Türkiyədə Qərbin siyasətindən bəhs edən kitabı müttəfiqlərin Türkiyədə yürütdükləri siyasətin bir çox məqamlarını açmağa imkan yaratdığı üçün qiymətlidir.[36]

Bunlardan başqa C.İ.Stritin,[37] C.L.Qordonun,[38] C.A.Spenderin,[39] L.Evansın,[40] və b. Müəlliflərin[41] əsərləri monoqrafiyanın işlənməsində qiymətli məlumatla zəngin olduqlarından geniş istifadə edilmişdir.

J.Makkartinin birinci dünya müharibəsindən sonra şərqi Anadolunun amerikan missiyaları tərəfindən öyrənilməsinə həsr edilmiş əsərindəndə istifadə edilmiş,

lazımi məlumatlar götürülmüşdür.[42]

Keçmiş sovet tarixçiləri tərəfindən aparılan araşdırmaların əksəriyyətində əsasən Türkiyədə xarici müdaxiləyə qarşı baş qaldıran milli-azadlıq hərəkatı tarixi öyrənilmişdir. Bununla yanaşı, Antanta dövlətlərinin Türkiyədə məqsədlərinə nail olmaq üçün həyata keçirdikləri siyasətin ayrı-ayrı hissələrinə də toxunulmuşdur. Türkiyənin ən yeni dövr tarixini araşdıran A.M.Şamsutdinov əsasən türk milli-azadlıq hərəkatından bəhs edən əsərində[43] az da olsa Antantanın Türkiyəyə münasibətdə yürütdüyü siyasətə də toxunulmuşdur. Müəllif bu kitabında dünya müharibəsindən sonra Osmanlı Türkiyəsi ilə Antanta arasında imzalanan Mudros barışığından bəhs edərək göstərir ki, "Mudros barışığı ilə Antanta dövlətləri Türkiyənin varlığına hakim oldular və onu özlərinə tabe etdilər". A.M.Şamsutdinov başqa bir əsərində xronoloji baxımdan yalnız 1918-1919-cu illər hadisələrini əks etdirsə də, bu əsər bir sıra ideoloji fikirləri nəzərə almasaq, mövzunun araşdırılmasında əhəmiyyət kəsb edir. Müəllif göstərir ki, "1918-ci ilin yanvarında müttəfiqlərin Türkiyə ilə separat sülh bağlamaq cəhdləri baş tutmadıqdan sonra, Türkiyəyə qarşı hərbi əməliyyatları daha da genişləndirmək qərarına gəldilər.

Antanta dövlətlərinin Türkiyəni parçalamaq planlırını araşdırmaq üçün sovet tarixçisi A.F.Millerin[44] elmi məqalə və əsərləri çox qiymətlidir. Müəllif bu əsərlərində Antanta dövlətlərinin Osmanlı Türkiyəsini parçalamaq məqsədi ilə həyata keçirdikləri diplomatik fəaliyyətlərinin ayrı-ayrı hissələrinə müraciət etmişdir. Bu baxımdan A.F.Millerin 1919-cu il Paris sülh konfransında Amerika Birləşmiş Ştatlarının İstanbul və boğazları zəbt etmək üçün hazırladığı planlardan bəhs edən əsəri də diqqətə layiqdir.

Müttəfiq dövlətlərin Osmanlı imperiyasını parçalamaq planlarının araşdırılmasında 20-ci illər və 30-cu illərin



birinci yarısınadək olan araşdırmalar daha qiymətlidir. Çünki bu əsərlərin əksəriyyəti demək olar ki, sovet ideologiyasına uyğunlaşdırılmamış və hadisələri olduğu kimi qiymətləndirmişlər.[45] Lakin 40-cı illərin ikinci yarısından bu problemin araşdırılmasına diqqət artsa da sovet tarix elmində ən çox maraqlandıqları məsələ məhz milli-hərəkət və inqilab olmuşdur.

Bu əsərlərin əksəriyyətində türk milli hərəkatı Antanta planlarına qarşı baş qaldırmış hərəkat kimi deyil, yanlış olaraq məhz "oktyabr inqilabının təsirinin nəticəsi kimi" qiymətləndirilir.[46]

Osmanlı imperiyasını parçalamaq planları dünya müharibəsi illərində gizli müqavilələrlə dəqiqləşdirildiyindən və müharibədən sonra bu müqavilələrlə yerinə yetirilməsi uğrunda müttəfiqlərarası ziddiyyətləri daha da gərginləşdirdiyindən bu gizli müqavilələrin nəzər salmamaq mümkün deyil. Bu gizli müqavilələrin öyrənilməsində isə V.V.Qotlibin, V.Adamovun, R.Puankarenin, E.F.Ludşuveytin, Q.X.Sadjentin əsərləri maraqlı məlumatlar verir.[47]

Dünya müharibəsi başa çatandan sonra Almaniya və onun müttəfiqləri ilə sülh müqaviləsi hazırlamaq üçün 1919-cu ildə Parisdə sülh konfransı işə başladı. Əlbəttə, müttəfiqlərin maraqlarının toqquşduğu ərazilər olduğundan Türkiyə məsələsi müzakirələrdən kənarda qalmadı. Paris sülh konfransında türk məsələsinin müzakirəsini araşdırmaq üçün V.İ.Şpilkovanın məqaləsi[48] qiymətli məlumatlar verir. Müəllif bu məqaləsində türk məsələsinin konfransda müzakirəsinin bir çox məqamlarına toxunmuşdur. V.İ.Şpilkova başqa bir əsərində ABŞ-ın Türkiyəyə münasibətdə yürütdüyü müstəmləkə siyasətinə geniş yer vermişdir.[49] Bundan başqa A.E.Kunina, B.M.Potsxveriya, E.Xauz, S.Beker və digərlərinin əsərlərində Birləşmiş Ştatların Türkiyəyə münasibətdə yürütdüyü siyasətdən bəhs

edilir, Amerika nümayəndələrinin bu maddi ehtiyatlarla zəngin, geniş ərazilər uğrunda apardıqları diplomatik mübarizə və buna qarşı Avropa dövlətlərinin mövqeyi öz əskini tapır.[50]

Tədqiq edilən dövrün hadisələrindən bəhs edən bütün sovet tarixçiləri Rusiyadakı oktyabr hadisələrindən sonra çar Rusiyası ilə müqayisədə sovet Rusiyasının Türkiyəyə münasibətdə siyasətinin tamamilə dəyişdiyini qeyd edir və göstərirlər ki, guya siyasi sistemin dəyişməsi ilə Rusiyanın yeni hökuməti dünya müharibəsi illərində Osmanlı imperiyasını parçalamaq məqsədilə Antantadakı müttəfiqləri ilə imzaladığı gizli müqavilələrlə ona verilmiş ərazilərə iddiadan imtina etdi. Lakin bir sıra türk mənbələri[51] və həmin vaxt verilən rusdilli məlumatları müqayisə edərkən belə bir nəticəyə gəlmək olur ki, sovet Rusiyası türk ərazilərinə münasibətdə çar Rusiyasının yürütdüyü siyasətdən yalnız dövrün beynəlxalq vəziyyətinin dəyişməsi və Sovet Rusiyasının özünün ictimai-siyasi vəziyyətinin gərgin olması ilə əlaqədar imtina etdi. Rusiyada yeni hökumət möhkəmləndikdən sonra isə artıq beynəlxalq vəziyyət, həmçinin Avropanın Türkiyəyə münasibəti də dəyişmişdi.

Versal müqaviləsi imzalandıqdan sonra müttəfiqlər Türkiyə məsələsi ilə "ayrılıqda" məşğul olmaq və onunla sülh müqaviləsi hazırlayıb imzalamaq üçün daha əlverişli şərait yarandı. Bu məsələdən bəhs edən bir çox müəlliflərin əsərləri problemə münasibətdə bəzi məqamları araşdırmağa yardım edir.[52]

1953-cü ildə İ.V.Stalinin ölümündən sonra Sovet hökumətinin Türkiyəyə münasibətdə siyasətində müsbət dəyişiklik baş verdi və iki ölkə arasında dostluq münasibətləri qurulması üçün ciddi təşəbbüslər edildi. Bu "yeni dostluq" siyasəti sovet elmi sahəsində də böyük dəyişikliklərə səbəb oldu və Türkiyə tarixinin öyrənilməsində geniş həcmli tədqiqatlar aparılmağa başlandı. Bu dəyişikliklər təbii ki, sovet elminin bir hissəsi olan Azərbaycan elmindədə özünü göstərdi və 50-ci illərin ortalarından başlayaraq Azərbaycan tarix elmində Türkiyə tarixinin öyrənilməsinə diqqət artmağa başlandı.



Lakin bu tədqiqat işlərinin demək olar ki, əksəriyyətində Türkiyədə dünya müharibəsindən sonra baş verən hadisələrə geniş yer verilsə də, bunlar dövrün ideologiyasının tələblərinə müvafiq olaraq yalnız "oktyabr inqilabının təsiri ilə baş qaldıran milli-azadlıq hərəkatının tarixinə" həsr edilmişdir və siyasi münasibətlər, Antanta-Türkiyə münasibətləri baxımından araşdırmalar aparılmamışdır.[53] Bunlarla bərabər demək olar ki, Antanta Türkiyə münasibətlərinə aid yeganə əsər kimi Y.A.Bağırovun "Türkiyə Lozanna konfransında[54] tədqiqat işi problemin araşdırılmasında qiymətlidir. Müəllif bu monoqrafiyasında Lozanna konfransında iştirakçı dövlətlərin diplomatik fəaliyyətini, konfransın gedişini və müttəfiq dövlətlərin Türkiyəni bir çox ağır şərtlərlə yeni bir müqavilə imzalamağa çalışdıqlarını açıqlamışdır. H.Z.Əliyevin kitabı da mövzunun araşdırılmasında müəyyən məqamları açıqlamaq üçün qiymətlidir.[55] Müəllifin bu kitabında Osmanlı imperiyasının dağılması ilə nəticələnən gənc türklərin xarici siyasətinin və Antantanın Türkiyəni parçalamaq məqsədi ilə yürütdüyü siyasətin bəzi məqamlarını araşdırmaq üçün əhəmiyyətli məlumatlar vardır.

C.P.Həsənovun kitabı mövzunun işlənməsində çox qiymətlidir.[56] Müəllif kitabda Türkiyə ilə bağlı çox geniş çeşidli materiallardan istifadə etmişdir. Kitabda həmçinin Türkiyə ilə bağlanan müqavilələrə də toxunulmuşdur. C.P.Həsənovun dövrü mətbuatda verilmiş məqalələri də mövzunun araşdırılmasında faydalı olmuşdur.[57]

Birinci dünya müharibəsindən sonra müttəfiqlərin ilk

növbədə aparıcı dövlətlər kimi Böyük Britaniya və ABŞ-ın xarici siyasətindən bəhs edən müəlliflərin kitabları da problemin araşdırılmasında əhəmiyyət kəsb edir. Bu müəlliflərdən İ.Leminin, N.İnozemtsevin və başqalarının əsərləri maraq doğurur.[58]

Problemin araşdırılmasında V.Qurko-Kryajinin əsərləri də dəyərli məlumatlarla zəngindir.[59]

Antanta dövlətlərinin Türkiyəyə münasibətdə yürütdükləri işğalçı siyasətin məğlubiyyətlə başa çatmasından sonra müttəfiqlərlə Türkiyə arasında münasibətləri müəyyənləşdirmək üçün Lozannada sülh konfransı çağırıldı. N.L.Rubinşteyin əsəridə[60] bu konfransa həsr edilmişdir.

P.Kitayqorodskinin "Yeni Şərq" jurnalında nəşr olunmuş məqaləsi[61] isə Türkiyə üçün həyati əhəmiyyətə malik olan və Lozanna konfransında çox geniş müzakirə və mübahisələrə səbəb olmuş kapitulyasiya rejimi məsələsinə həsr edilmişdir.

Lozanna konfransında ən əhəmiyyətli və mübahisəli məsələlərdən biridə Boğazlarda rejim məsələsi idi. Bu məsələni araşdırmaq üçün B.A.Dranovun,[62] M.L.Lopatinin,[63] P.D.Barabelyanin[64] əsərləri qiymətli məlumatlar verir.

Problemin araşdırılmasında bir çox başqa müəlliflərin əsərlərinin və ümumi nəşrlərin də əhəmiyyətli yardımı dəymişdir.[65]

Monoqrafiyada istifadə olunmuş mənbələri bir neçə qrupa bölmək mümkündür. Belə ki, monoqrafiyada arxiv materialları, dövrü mətbuat, siyasi xadimlərin memuarları və dövlətlərarası müqavilələr ilkin mənbə kimi istifadə edilmişdir.

Azərbaycan Respublikası Dövlət Arxivində xarici işlər nazirliyinin 28-ci fondunda saxlanan sənədlər ilk dəfədir ki,



elmi dövriyyəyə çıxarılır.[66] Həmin fondda Türkiyədəki siyasi hadisələr haqda Azərbaycan diplomatik nümayəndəliyinin hesabatları toplanmışdır. Bundan başqa Türkiyə Dövlət Arxivində 451-ci fondun sənədlərindən də mənbə kimi istifadə edilmişdir.[67]

Öyrənilən problemin araşdırılmasında müttəfiq dövlətlərin dövlət başçıları və diplomatlarının memuarlarından geniş istifadə edilmişdir.[68]

Problemin araşdırılmasında Rusiya xarici işlər nazirliyinin bülletenləri və dövrü mətbuat materiallarından mənbə kimi lazımi səviyyədə istifadə edilmişdir.[69] Həmçinin dövlətlərarası müqavilələrdə mənbə kimi istifadə edilmiş və işə əlavə edilmişdir.[70]

Tədqiqatın metodoloji bazasını beynəlxalq münasibətlər və siyasi elmlərin ümumən qəbul olunmuş və xüsusi metodlar təşkil edir. Problemin araşdırılmasında xüsusən müqayisəli təhlil, sistemli struktur, beynəlxalq münasibətlər elmində qəbul edilmiş başqa metodlardan istifadə edilmişdir. Mövzunun əhati etdiyi dövr ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilə və razılaşmalarla zəngin olduğundan müqayisəli siyasi təhlilə daha geniş yer verilmişdir.

---

1 Éóñóô Àê÷óðà. Îñìàíëû äåâëåòèíèí äàüûëìà äåâðè (XVIII âå àñèðëàðäà). 3 áàñêû. Àíêàðà, 1988, ñ.21.

2 Òàíñåë Ñ. Ìîíäîðîñ'òàí Ìóäàíéà'éà êàäàð. úèëò I-IV. Àíêàðà, 1973-1978; 1990-1993.

3 Êóðàò Ò.É. Îñìàíëû èìïåðàòîðëóüóíóí ïàéëàøìàñû. Àíêàðà, 1986.

4 Òöðêýåëäè À.Ô. Ìîíäðîñ âå Ìóäàíéà Ìöòàðèêåëåðèíèí òàðèùè. Àíêàðà, 1948; Éåíÿ îíóí. Ýþðöï èøèòòèêëåðèì. Àíêàðà, 1949.

5 Òóíàéà Ò.Ç. Òöðêèéåäå ñèéàñè ïàðòèëåð (1859-1952). Èñòàíáóë, 1952.

6 Àêøèí Ñ. Èñòàíáóë Ùöêóìåòëåðè âå Ìèëëè Ìöúàäèëå. Èñòàíáóë, 1983.
7 Ñåëåê Ñ. Ìèëëè Ìóúààèëå. Èñòàíáóë, 1982.
8 Áèéèêëèîüëó Ò. Òðàêèéààà Ìèëëè Ìöúàäåëå. Àíêàðà, 1955.
9 Ñåàëùåòòèí Ñ. Àíàäîëó ëùòèëàëû. ú.1. Èñòàíáóë, 1966.
10 Ñààèñ À.Û. Áèðèíúè äöíéà ùàíðáè. ú.3. Èñòàíáóë, 1990.
11 Þçàëï Ê. Ìèëëè ìöúàäèëå. ú.1. Àíêàðà, 1988
12 Jaesche G. Òöðê êöðòóëóø ñàâàøû êðîíîïîëèñè. Àíêàðà, 1970.
13 Ìöùèòòèí Ý. Òöðê èíêèëàï òàðèùè. Àíêàðà, 1996.
14 Êàìóðàí Ê. Åðìåíè äîñéàñû. Àíêàðà, 1985.
15 Éàë÷ûí À. Áåëãåëåð èøûüûíäà òöðê-åðìåíè ìåñåëåëåðèíèí è÷éöçö. Èñòàíáóë, 1975.
16 Êà÷àø Ñ. Òàðèù Áîéóíúà Åðìåíèëåð âå òöðê-åðìåíè èëèøêèëåðè. Àíêàðà, 1967.
17 Èëòåð Å. Åðìåíè Ïðîïàãàíäàñûíû êàéíàêëàðû. Àíêàðà, 1994.
18 Óðàñ Å. Òàðèùäå åðìåíèëåð âå åðìåíè ìåñåëåñè. Èñòàíáóë, 1976.
19 Éûëìàç. Ïîíòóñ Ìåñåëåñè. Àíêàðà, 1995.
20 Ñîéñàë È. Òöðêèéåíèí Ñèéàñàë Àíëàøìàëàðû. Àíêàðà, 1983, Éåíÿ îîí. Òöðê-ôðàíñûç ñèéàñàë èëèøêèëåðè (1919-1984). ú.1. Àíêàðà, 1983.
21 Ñàíéåë Ð.Ñ. Òöðê êöðòóëóø ñàâàøû âå äèø ïîëèòèêà. ú.1. Àíêàðà, 1983; Éåíÿ îîí. Òöðê êöðòóëóø ñàâàøû âå äèø ïîëèòèêà. ú.II. Àíêàðà, 1987.
22 Àêéöç É. Òöðê êöðòöëóø ñàâàøû âå ôðàíñûç êàíîíéó. Àíêàðà, 1975; Ýöðîí Ê. Òöðê-Ñîâéåò èëèøêèëåðè (1920-1953). Àíêàðà, 1991; Êöðê÷öîüëó Þ. Òöðê-èíãèëèñ èëèøêèëåðè. Àíêàðà, 1978.
23 Ñåùà Ë.Ì. Îëúàé Î. Îñìàíëû èìïåðàòîðëóüóíóí úîëöç áåëãåëåðè (Ìîíäðîñ Áûðàêûøìàñû, Ñåâð àíäëàøìàñû, èíãèëèñ áåëãåëåð). Àíêàðà, 1977.
24 Ñþíìåçîãëó Ô. Òöðê äèø ïîëèòèêàñûíûí àíàëèçè. Èñòàíáóë, 1994; Óëóáåëåí Å. Ýèçëè èíýèëèñ áåëãåëåðèíè à÷ûêëûéîðóç. Àíêàðà, 1967; Åðèì Í. Äåâëåòëåðàðàñû ùóêóê âå ñèéàñàë òàðèù ìåòèíëåðè. Àíêàðà, 1953; Øèìøèð Á. Èíýèëèñ áåëýåëåðèíäå Àòàòöðê. ú.1-11. Àíêàðà, 1973-1979.
25 Àòàòöðêöí ñþéëåâ âå äåìåúëåðè. ú.1-111. Àíêàðà, 1981; Éåíÿ îîí. Путь новой Турции, 1917-1927. Ì., 1934; Àòàé Ð.Ô. Àòàòöðêöí ùàòèðàëàðû. Àíêàðà, 1965; Êîúàòöðê Ó. Àòàòöðê âå Òöðêèéå Úöìùóðèéåòè òàðèùè êðîíîëîæèñè. 1918-1938. Àíêàðà, 1988; Àòàòöðêöí Ùàòèðàëàðû (1914-1919). Èñòàíáóë, 1989; Êàíñó Ì.Ó. Åðçóðóìäàí þëöìöíå êàäàð Àòàòöðêëå Áåðàáåð. Àíêàðà, 1966; Áîðàê Ñ. Àòàòöðêöí þçåë ìåêòóïëàðû. Èñòàíáóë, 1961. âÿ á.
26 Àéáàðñ Å. Úöìùóðèéåò òàðèùè. Èçìèð, 1987; Øàïîëèî Å.Á. Òöðêèéå Úöìùóðèéåòè òàðèùè. Èñòàíáóë, 1969; Ñàðèùàí Ô. Êóðòóëóø ñàâàøû ýöíëöüö. ú.1. Àíêàðà, 1993; Êåñêèí Ì. Ùèíäèñòàí ìöñëöìàíëàðûíûí ìèëëè ìöúàäåëåäå Òöðêèéåéå éàðäûìëàðû (1919-1923). Êàéñåðè, 1991; Àêøèí Ñ. Ýåíåðàë Ùàðàðäàí ýàçèñè âå ðàïîðó. Èñòàíáóë, 1981; Áåëåí Ô. Áöéöê òöðê çàôåðè, Àôéîíààí Èçìèðå. Èñòàíáóë, 1970; Îëàéëàðëà òöðê äûø ïîëèòèêàñû. Èñòàíáóë, 1993; Ìèàèëëèëàè À. Òöðê èñòèêëàë ùàðáèíèí áàøûíäà ìèëëè ìóúàäåëå. Àíêàðà, 1929; Óëóãàé Î. Àìåðèêàí áàøûíûíäà òöðê êöðòóëóø ñàâàøû. Èñòàíáóë, 1974; Ìåñèðîãëó Ê. Òöðêöí Ñèéàù êèòàáû. Èñòàíáóë, 1966; Íóðãîüàí Ò. Åääàà Êöðòöëöø Ñàâàøû Áàøëàðêÿí. Èñòàíáóë, 1971; Éóðòñåâåí Ð. Òöðê äåâðèìè âå êöðòöëóø ñàâàøû. Àíêàðà, 1976; Øàïîëèî Å.Á. Òöðê èíêèëààû òàðèùè Íîòëàðû. Èñòàíáóë, 1949; Àðûáóðíó Ê. Ìèëëè Ìöúàäåëå'äå Èñòàíáóë Ìèòèíãëåðè. Àíêàðà, 1951; Êàðàë Å.Ô. Îñìàíëû òàðèùè. ú.III. Àíêàðà, 1963; Éåíÿ îîí. Èòèëàô äåâëåòëåðè âå Èçìèð. Àíêàðà, 1939; Éåíÿ îîí. Áèðèíúè Úèùàí Ùàðáèíäàí Ëîçàí Ìöàùåäåñèíå êàäàð Òöðêèéåíèí Ñèéàñè Îëàéëàðû. Èñòàíáóë, 1959; Ìåðàé Ñ.Ë. Äåâëåòëåð Ùóêóêóíà úèðèø. Àíêàðà, 1960; Éàçûúû Ò. Òöðêèéå Úöìùóðèéåòè èíêèëàï òàðèùè. Êîíéà, 1986 âÿ á.
27 United States. Departments of State. Papers relating to the Foreign relations of the United States. Washington, 1949.
28 Papers relating to the Foreign relations of the United States. Paris Peake conference. Washington, 1943-1948.
29 Ciordon. Amerikan relations with Turkey 1830-1930. Philadelphia, 1932.
30 America as Mandatory for Armenia. N.Y. 1919.
31 Howard Y.N. The partiton of Turkey. Diplomatic history 1913-1923. Oklahoma, 1931.
32 Paillares M. Le kemalisme devant les allies. Paris et Constantinople. N.Y. 1922.
33 Documents on British Foreign Policy 1919-1939. First Series. vol.I-II. Oxferd. 1948-1949.
34 Lansing R. The Peane negotiations. A personal narrative. London, 1921.
35 Temperley H.W. A history of the Peace conference of Paris. t.VI. L., 1924.
36 Toynbee A.J. The western Question in Grece and Turkey. London, 1990.
37 Stereet G.I. Life of Lord Reading. London, 1928.
38 Cordon L.J. American Relations with Turkey. Philadelphia, 1932.
39 Cpender L.A. Great Britain. Empire and Commonwelth. London, 1936.
40 Evans L. United States Policy and the Patition of Turkey. 1914-1924. Baltimore, 1965.
41 Pesh E. La Turquie et les Allirs. Paris, 1925; Larcher M. La qucree Tarque

dans la querre mondiale. Paris. 1926; Sherson E. Townshend of critical and kut. London, 1938; Gaillard G. Les Turcs of L'Europe. Paris, 1961. âÿ á.

42 Mc.Carthy J. The report of niles and Sutherland on American investigation of castern Anatolia after word war. Ankara, 1994.

43 Шамсутдинов А.М. Национально-освободительная борьба в Турции. 1918-1923 гг. М., 1966. Шамсутдинов А.М. Планы раздела султанской Турции и использовании ее в вооруженной интервенции Атланты против Советской России в 1918-1919 гг. М., 1958; Éåíÿ îîóí. Турецкая Республика. Краткий очерк истории. М., 1962.

44 Миллер А.Ф. Американский план захвата Константинополя и проливов в 1919 г. Вопросы истории 1951, №3; Yenə onun. Турция М., 1983; Yenə onun. Очерки новейшей истории Турции. М., 1948; Yenə onun. Чанакский кризис и вопрос о Проливах. М., 1966; Yenə onun. Турция и проблемы проливов. М., 1947.

45 Адамов Е. Константинополь и проливы. Т. I М., 1925; Павленко П. Стамбул и Турция. М., 1930. Yenə onun. Великолепная политика Греции и великие державы. - «Новый Восток», 1922, №2; Севрский мирный договор и акты подписанные в Лозанне. М., 1927; Астахов Г. От Султаната к демократической Турции. Очерки из истории капитализма. М.-Л., 1926.

46 Аварин В.Я. Великая Октябрьская социалистическая революция в Востоке: «Современный Восток», 1955, №5. с.3-12; Агаев С. Октябрьская революция и межгосударственные отношения на Ближнем и Среднем Востоке. - Известия АН Аз. ССР. Баку, 1976, № 3-4; Паномарев Ю.А. Великая Октябрьская социалистическая революция и национально-освободительное движение народов Турции. Ташкент, 1967.

47 Готлиб В.В. Тайная дипломатия во время первой мировой войны. М., 1960; Адамов Р. Раздел Азиатской Турции М., 1924; Пуанкаре Р.Ф. На службе Франции. Воспоминания. 1914-1918 г. Т. 1-2. М., 1956; Лудшувейт Е.Ф. Турция в годы первой мировой войны/1914-1918 г. Т. 1-2. М., 1966; Саджент Г.Х. Стратегия на Западном фронте/1914-1918 г. Т. 1-2. М., 1923.

48 Шпилькова В.И. Турецкий вопрос Парижской мировой конференции в 1919 году. МГПИ. Т.59, вып. 5, 1957.

49 Шпилькова В.И. Империалистическая политика США в отношении Турции 1914-1920 гг. М., 1967.



50 Кунина А.Е. Провал американских планов завоевания мирового господства в 1917-1920 гг. М., 1954; Поцхверия В.М. Турецкий вопрос в сенате США/конец 1919-середина 1920 гг/. Краткие сообщения Института Востоковедения. Т. 19. М., 1956; Хауз Э. Архив полковника Хауза Т.З. М., 1939; Вэкер С.В. Вильсон. Мировая война. Версальский мир. М.-Л., 1925.

51 Ñþíîâçîãëó Ô. Òöðê äûø ïîëèòèêàñûíûí àíàëèçè. Èñòàíáóë. 1994. Êàìöðàí Ú. Òöðê-Ñîâåò èëèøêèëÿðè (1920-1953). Àíêàðà, 1991.

52 Лазарев М.С. Крушение турецкого господства на Арабском Востоке. М., 1960; Из истории общественных движений и международных отношений. М., 1957; Дипломатические отношения западноевропейских стран между двумя мировыми войнами. М., 1976; история дипломатии т. III. М., 1946; 2-е изд. т. III. М., 1965; История международных отношений и внешняя политика СССР. Т. 1. М., 1986; Туганова О.Е. Политика США и Англии на Ближнем и Среднем Востоке. М., 1960; Джордан В.М. Великобритания, Франция и Германская проблема в 1918-1939 гг. М., 1945; Лан В.И. США: от первой до второй мировой войны. М., 1976; Тардье А. Мир. М., 1943. Интервенция союзников, грекотурецкая война и консолидация национального фронта 1920-1921 гг. т. III. М., 1934; Новичев А.Д. История Турции. Л., 1968; Астахов Г. От султаната к демократической Турции. М.-Л.; Гастарян М.А. Очерки истории Турции. М., 1983.

53 Алиев А.Г. Влияние Великой Октябрьской социалистической революции на национально-освободительное движение в Турции и образование Турецкой буржуазной революции. - «Ученые записки АГУ». Баку, 1963, № 1; Багиров Ю.А. Влияние Великой Октябрьской социалистической революции на возникновение и развитие национально-освободительной борьбы турецкого народа. М., 1957; Yenə onun. Социалистическая революция в России и и развитие национально-освободительной борьбы турецкого народа. М., 1970.

54 Áàüûðîâ É.À. Òöðêèéÿ Ëîçàííà êîíôðàíñûíäà. Áàêû, 1957.

55 Алиев Г.З. Турция в период правления младотурок (1908-1918 гг.). М., 1972.

56 Ùÿñÿíîâ Ú.Ï. Àçÿðáàéúàí áåéíÿëõàëã ìöíàñèáÿòëÿð ñèñòåìèíäÿ. 1918-1920. Áàêû, 1993.

[57] “Õóäàôÿðèí” æóðíàëû, 1993, ¹1 (Ïîëøà).

[58] Лемин И. Внешняя политика Великобритании от Версаля до Локарно 1919-1925 гг. М., 1947; Иноземцев Н. Внешняя политика США в эпоху империализма. М., 1960; Трухановски В.Г. Внешняя политика Англии на первом этапе общего кризиса капитализма (1918-1939). М., 1962.

[59] Гурко-Кряжин В. Ближний Восток и державы. М., 1925; Yenə onun. Борьба держав и возникновение национально-освободительного движения в Турции. - «Новый Восток», 1928, № 23.

[60] Рубинштейн Н.Л. Ближний Восток после мировой войны. Лозаннская конференция. М., 1952.

[61] Китайгородский П. Вопрос о капитуляциях на Лозаннской конференции «Новый Восток», 1924, № 5.

[62] Дранов Б.А. Черноморские проливы (международно-правовой режим). М., 1948.

[63] Лопатин М.Р. Международные проливы и каналы: правовые вопросы. М., 1985.

[64] Бараболя П.Д. Международно-правовой режим важнейших проливов и каналов. М., 1965.

[65] Лазарев М.С. Империализм и курдский вопрос (1917-1923). М., 1989; Авалов З. Независимость Грузии в международной политике 1918-1921. Париж, 1924; Меликов В.А. Марна, Висла, Смирна. М., 1937; Павленко М. Стамбул и Турция. М., 1930; Тарле Е. Вопрос О Константинополе и о разделе Турции в эпоху мировой войны. - «Борьба классов», 1924, № 1; Версальский мирный договор. М., 1925; Европа в международных отношениях 1917-1939 гг. М., 1979; Завирев Д.С. К новейшей истории северно-восточных вилайетов Турции. Тбилиси, 1947; Ирандуст. Зигзаги английской политики на Ближнем Востоке. «Международная жизнь», 1926, № 4; Шеф К. Оккупация Смирниы греками и национально-освободительное движение в Анатолийской Турции. - «Армия и революция», 1922, № 5; История дипломатии, т. III. М., 1965.

[66] Àçýðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28. ñàé.1.

[67] F.P. 451/185. ¹147/5. Òöðêèéÿ. ¹6 (1921).

[68] Джордан Л. Военные мемуары. Т. I-VI. М., 1934-1938; Yenə onun. Правда о мирных договорах. Т. 2. 1957. Черчилль У. Мировой кризис. М., 1932; Нити Ф. Европа без мира. М., 1928; Пуанкаре Р. Происхождение мировой войны. М., 1924; Берти Л. За кулисами Антанты. Дневник Британского посла в Париже. 1914-1918. М., 1927; Марескотти А.Л. Дипломатическая война. Воспоминания и отрывки из дневника (1914-1910). М., 1944; Никольсон Г. Как делался мир в 1919 г. М., 1945 вя б.



[69] Еуропе Ноувелле, 3.1.1920; Правда, 20.ХЫЫ.1920; Правда, 28.ЫЫЫ.1920; Правда, 1.ХЫЫ.1920 вя б. Известия, 15.ХЫЫ.1922, Бюллетень НКИД РСФСР. 1919-1922. Годовой отчет НКИД к ЫХ съезду Советов РСФСР (1919-1921 гг.). М., 1923; Годовой отчет НКИД за 1923; 1924; - «Новый Восток», № 1-2-3; «Темрс» 1.1.1920; 9.ЫЫЫ.1921; «Тимес» 21.ЫЫ.1920; 12.ХЫ1920; 9.ЫЫЫ.1922; 2.Х.1922; Тан, 21.ЫЫЫ.1920; 5.ХЫ.1921; «Днйли-Мейл», 2.ЫВ.1929; «Епруп», 18.В.1921, «Патрис», 25.Х.1920; «Соз», 5.ХЫ.1920; «Икбал», 7.Х.1920; «Икдам», 6.ВЫ.1927; «Истикбал», 19.ЫХ.1920 вя б.

[70] ßëàâÿ 1-2.

# I FƏSİL

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN TÜRKİYƏ ÜÇÜN SİYASİ NƏTİCƏLƏRİ

## §1. Müttəfiqlərlə Türkiyə arasında Mudros barışığı və onun nəticələri

Birinci dünya müharibəsinin sonuna yaxın Türkiyənin vəziyyəti daha da pisləşdi. Antanta dövlətləri Türkiyənin bu vəziyyətinə Üçlər ittifaqını darmadağın etmək planlarını həyata keçirmək üçün xüsusi əhəmiyyət verirdilər. Çünki Üçlər İttifaqının üzvlərini bir-birinin ardınca məğlub etməklə İngiltərə və Fransa Osmanlı imperatorluğunu parçalamaq haqqında imzaladıqları gizli müqavilələri həyata keçirmək sahəsində növbəti addımlar atırdılar. Hələ 1917-ci il dekabrın 1-də müttəfiqlərin Ali hərbi şurasının ilk iclasında Fransanın baş naziri J.Klemanso demişdi ki, “Avstriya-Macarıstan kimi Türkiyə də məğlubiyyətdən uzaqda deyil və onların məğlubiyyəti ilə pruss millitarizmi də məğlub olacaqdır”.[1]

1918-ci il yanvarın əvvəlində müttəfiq dövlətlər Türkiyə ilə separat sülh bağlamaq üçün cəhdlər etdilər.[2] Amma bunlar müvəffəqiyyətlə başa çatmadıqdan sonra Türkiyəni təslim olmağa məcbur etmək məqsədi ilə müttəfiqlər hərbi əməliyyatları genişləndirmək qərarına gəldilər. Ali hərbi şura 21 yanvar tarixli iclasında belə bir qərar qəbul etdi: “Fransa, İtaliya və Balkanlarda müdafiə mövqeyi

saxlanılsın və türk ordusunu məhv edib müqavimətini qırmaq məqsədi ilə Türkiyə üzərinə güclü hücuma



keçilsin”.[3]

Müharibənin taleyinin Avropa cəbhəsindəki vəziyyətdən asılı olmasına baxmayaraq Yaxın Şərq o qədər də əhəmiyyət kəsb etmirdi. Amma bu ərazilər imperialist ziddiyyətlərinin düyünləşdiyi ən mübahisəli yerlərdən biri olduğu üçün hər iki koalisiya buraya daha çox diqqət yetirirdilər. Tədqiqatçı A.M.Şamsutdinovun yazdığı kimi, Yaxın Şərqin əhəmiyyəti Rusiyadakı oktyabr hadisələrindən sonra daha da artdı.[4] Yaxın Şərqin və boğazların “tək” hakimi Osmanlı imperiyasının olduğunu nəzərə alsaq onda müttəfiqlərin bu ərazilərdə öz hegemonluqlarını yaratmaq üçün Osmanlı Türkiyəsini “xırda pul kimi” parçalayıb darmadağın etmək istəkləri aydın olar. Bundan başqa türk ordularını darmadağın etməkdə müttəfiqlərin məqsədləri bir tərəfdən, Asiyada alman-türk “ağalığına” son qoymaq, digər tərəfdən isə bolşevizmin Türkiyəyə və Şərqə yayılmasının qarşısını almaq idi.

İngiltərə İraqda, Fələstində, İordaniyada, Ərəb yarımadasında öz hegemonluğunu yaratmaq, Misirdə möhkəmlənmək, İran və Əfqənıstanda öz mövqeyini gücləndirmək, Hindistanda imperiya kommunikasiyalarının mühafizəsini təmin etmək və nəhayət Qara dəniz boğazlarında öz hökmranlığını təsdiq etmək və bütün Türkiyəni öz nüfuz dairəsinə almaq istəyirdi.[5] Bu planı həyata keçirmək üçün İngiltərənin burada 500 min əsgər və zabiti var idi.

İngilis ordularının 1918-ci il sentyabrın ikinci yarısında Fələstin və İrakda əsas hücumu dördüncü, yeddinci və səkkizinci türk ordusunun məğlubiyyəti ilə başa çatdı.[6] Onların qalıqları Anadolunun içərilərinə çəkildilər. Gənc türklərin vəziyyətdən çıxmaq üçün Qafqazdan gətirilmiş

ordulardan istifadə etmək cəhdləri də bir nəticə vermədi. Müharibənin Türkiyə üçün uduzulduğu aydın oldu.

Hücum əməliyyatlarını Suriya ərazisində sürətləndirən ingilis ordusu oktyabrın 1-də Dəməşqi tutdu, oktyabrın 6-da Beyrutu, nəhayət, oktyabrın 26-da Hələb şəhərini zəbt etdi.[7] İngilis komandanlığı Hələbin zəbtinə böyük əhəmiyyət verirdi. Çünki ingilis baş naziri L.Corcun fikrincə, Hələbin təslimi Türkiyənin müharibədən çıxmasına gətirib çıxar-dacaqdı.[8]

1918-ci ilin sentyabr-oktyabr ayları ərzində keçirilən hərbi əməliyyatlar Mesopotomiya və Suriya-Fələstin cəbhələrində türk ordularının məğlubiyyəti ilə başa çatdı və müttəfiq orduları tərəfindən Mesopotomiyanın bir hissəsinin, Fələstinin və Suriyanın zəbti ilə nəticələndi. Bu məğlubiyyətlər müharibənin Türkiyə üçün sona çatmasını xeyli sürətləndirirdi.

1918-ci il oktyabrın 5-də İstanbuldan sonuncu "Bağdad ekspresi" uzaqlaşdı. Türkiyə öz müttəfiqləri olan Almaniya və Avstriya-Macarıstanla bütün əlaqələrdən məhrum oldu və müttəfiqləri tərəfindən hansısa bir yardım almaq ümidini tamamilə itirdi. Müttəfiq dövlətləri üçün İstanbula quru yolu açıq vəziyyətdə idi. Belə bir təhlükəli anda türk komandanlığı Çatalci cəbhəsindən buraya hərbi hissələr gətirmək məcburiyyətində qaldı. Lakin ordunun buraya gətirilməsində qarşıya böyük çətinliklər çıxdı.

Yaranmış bu vəziyyətdən İngiltərə öz məqsədləri üçün istifadə etdi. İngilis hökuməti müharibənin son günlərində Türkiyəyə münasibətdə digər müttəfiqlərinin həlledici rola malik olmamasına, Türkiyəni parçalamaq haqqında müttəfiqlərin hələ müharibə illərində imzaladıqları razılaşmalar kənarında bütün türk ərazilərini öz nüfuz dairəsinə almalarına mane olmağa çalışırdı.[9]



L.Corc və J.Klemanso arasında olan fikir mü-badiləsindən sonra ingilis hökuməti istədiyinə nail oldu. Müttəfiqlərin Ali hərbi şurası 1918-ci il oktyabrın 7-də keçirilən iclasında Franşe dEsperinin Budapeşt-Vyana yürüşünə başlamaq fikrinin əksinə olaraq Frakiya və boğazlar zonasına hücum əməliyyatına başlanılmasını qərara aldı.[10] Bu məqsədlə də Franşe dEsperinin ordusundan xüsusi hərbi hissə ayrılaraq Qərbi Frakiyaya göndərildi. Bu hərbi hissəyə ingilis generalı C.Miln komandan təyin edildi.

1918-ci ilin oktyabr ayı ərzində Milna hərbi hissəsi Qərbi Frakiyadan Ədirnə-Dədəağaç dəmir yolu xəttini zəbt etməklə məşğul oldu. Bu hissəyə yardım etmək üçün ingilis hökuməti oktyabrın 28-də Dədəağaça desant çıxartdı. İndi müttəfiq qoşunlarının İstanbula daxil olması üçün kiçik bir əməliyyat lazım idi. Həmçinin oktyabrın 18 və 25-də ingilis hava qüvvələri şəhərin üzərini alan təhlükəni artıraraq İstanbulu havadan bombardman etdi.[11]

Müharibənin son günlərində Türkiyə müttəfiqlərin hücumlarına qarşı dura biləcək qüvvəyə malik deyildi. Türk ordu hissələrinin yalnız adı qalmışdı. Yaranmış belə bir vəziyyətdən Türkiyə üçün yeganə çıxış yolu təslim olmaq və barışıq haqqında saziş imzalamaq idi.

Türkiyənin məğlubiyyətinin gün-gündən yaxınlaşması öz siyasi nəticələrini verməkdə idi. Artıq "İttihad və tərrəqi" partiyasının hakimiyyətdə qalması qeyri-mümkün idi.[12] 1918-ci ilin payızında ölkədə kiçik bir təkanla böyük partlayış yarada bilən ictimai-siyasi vəziyyət meydana gəldi.

Hakimiyyətdən getməzdən əvvəl "İttihad və tərəqqi" partiyasının liderləri hər ehtimala qarşı Antanta ilə sülh sazişi bağlamağa nail olmağa və hakimiyyətlərini saxlamağa cəhd etdilər. Bu məqsədlə Türkiyə hökuməti oktyabrın 5-də Vilsonun 1918-ci il yanvarın 8-də bəyan etdiyi məlum "14

bəndi"nə əsaslanaraq sülh təklifi ilə ona müraciət etdi. Vilson özü bu müraciətə heç bir cavab vermədi. Lakin oktyabrın 30-da Mudros barışığı imzalanan zaman ABŞ dövlət katibi Lansinq bu müraciətə etirazını bildirdi.

Türkiyə İngiltərə və Fransa ilə birbaşa danışıqlar vasitəsilə sülhə nail olmağa da cəhd etdi. Bu məqsədlə polkovnik Mehmet bəy Franşe dEsperinin yanına göndərildi. Lakin Franşe dEsperi ilə əlaqə yaratmaq ona müəssər olmadı. İngiltərə türk hökümətinin Franşe dEsperi ilə əlaqə yaratmasına imkan vermədi. Müharibənin sonuna yaxın İngiltərə Türkiyə ilə barışıq imzalanmasında müttəfiqi olan Fransanın aparıcı rola malik olmasını istəmirdi. Eyni zamanda frankofil Rəhmi bəy hökumətin tapşırığı ilə Mitilen adasına sülh təklifi ilə bir parlament nümayəndə heyəti göndərdi. İngilislər bu heyəti həbs edib Mitilendən Afinaya göndərdilər və xarici aləmdən təcrid etdilər. İngilis hərbi hissələri hələlik Hələb və Mosul kimi strateji məntəqələri ələ keçirtmədiklərindən İngiltərə "İttihad və tərəqqi" partiyasının nümayəndəsini qəbul belə etmək istəmirdi. Sonralar 1918-ci il noyabrın 1-də Britaniya kabinetinin üzvü Berns parlamentdə açıq-aşkar bildirirdi: "15 gün ərzində türklər barışıq imzalanmağa cəhd etdilər, amma biz Hələb şəhərini zəbt etməmiş türklərlə məsələni həll etmək istəmirdik".[13]

Müttəfiqlər sülh danışıqlarından imtina etdikdən sonra Türkiyənin daxilində siyasi vəziyyət gərginləşdi. İqtidarda olan partiya daxilindəki müxalifət onun liderlərinə qarşı hücuma başladı. Nəticədə oktyabrın 7-də partiyanın rəhbərliyi kabinetə etimadsızlıq rəyi verdi və oktyabrın 9-da Tələt paşa istefaya getdi.

Belə bir siyasi böhrandan çıxmaq, həmçinin müttəfiqlərdə Türkiyənin parlament sisteminə keçməsi haqqında



rəy yaratmaq məqsədi ilə Sultan oktyabrın 13-də parlamentin fövqəladə V sessiyasını çağırdı.

Parlament qarşısında duran əsas məsələ ölkədə sonrakı siyasi kursu müəyyənləşdirmək idi. Bununla bərabər mövcud kabinetin hakimiyyətdə qala bilməməsi və dəyişdirilməsi aydın idi. Bunu əvvəlcədən görən Mehmet Tələt paşa və Ənvər paşa hakimiyyətin onların siyasi rəqibi olan "Azadlıq və həmrəylik" partiyasına keçməməsi üçün tədbirlər görməyə başladılar.

Bu məqsədlə də onlar kabinetə rəhbərliyə heç vaxt "İttihad və tərəqqi" partiyasının üzvü olmayan, öz siyasi baxışı ilə "Azadlıq və həmrəylik" partiyasına yaxın olan, lakin partiyanın İngiltərə ilə "yaxınlaşmaq" siyasətinə qarşı çıxış edən marşal Əhməd İzzət paşanın namizədliyini irəli sürdülər.

Bu namizədi həmçinin ittihadçıların qəti və barışmaz rəqibi olan Mustafa Kamal da müdafiə edirdi.[14] O, Sultana bu haqda xahiş etdikdə özünün hərbi nazir təyin edilməsini də istəmişdi. Ancaq İzzət paşa müdafiə naziri vəzifəsini boş saxladığına görə bu gerçəkləşmədi.

İzzət paşa bu təklifi qəbul etdi və oktyabrın 14-də yeni kabineti deputatlar palatasına təqdim etdi.[15] Amma İzzət paşa hökuməti suçlamalar qarşısında cəmi 25 gün iqtidarda oldu. O, "İttihad"çı liderlərin qaçmalarına mane olmadığına və hökumətdə "İttihad"çılardan bir neçəsini saxladığına görə günahlandırıldı.[16]

Yeni kabinet təşkil edilən zaman, oktyabrın 14-dən 19-dək "İttihad və tərəqqi" partiyasının tarixdə sonuncu qurultayı keçirildi. Qurultayda Mehmet Tələt paşa çıxış edərək bildirdi: "Bizim siyasətimiz məğlubiyyətə uğradı. Bunun nəticəsi olaraq biz heç bir formada hakimiyyətdə qala bilmərik".[17] Geniş diskussiyalar nəticəsində partiyanın bura-

xılması qərara alındı.

Yeni təşkil olunacaq hökumətin qarşısında duran əsas vəzifə müharibənin dayandırılması və barışıq imzalanması idi. İzzət bəyin yeni kabinet təşkil etdiyi zaman Almaniyanın Vilsonun "14 bəndi"ni qəbul etdiyi barədə məlumat alındı.[18] Yaranmış belə vəziyyətdə türk hökuməti də öz növbəsində prezident Vilsona onun sülh "şərtlərini" qəbul etməyə hazır olduqlarını bildirdi.[19]

Oktyabrın 14-15-də bu teleqrama veriləcək cavabın ağır və gərgin diskussiyası keçirildi. Guya prezident Vilsonun və ümumiyyətlə, Antantanın Türkiyə ilə barışıq bağlamaq istəmədiyi, əksinə türk ərazilərini zəbt etmək və onu bir dövlət kimi yox etmək istəkləri barədə şayiə yayıldı.[20]

Oktyabrın 16-da Vilsondan alınan cavab barışıq haqda danışıqlara yol açırdı. Bu xəbər alınandan barışıq imzalananadək "barışıq" yoxsa müharibənin olacağını hamı böyük həyacanla gözləyirdi. Lakin burada da məyusluq yaranırdı. Çünki İstanbula təzyiqlər davam edirdi. Amma gözləməyə vaxt yox idi, İstanbul hər an işğal oluna bilərdi. Bundan başqa Almaniyadan qabaq və ayrılıqda barış imzalanardısa müttəfiqlərin yumşaq davranacağına ümid var idi. Müttəfiqlərlə əlaqə yaratmaq üçün İzzət paşa həmin vaxt əsirlikdə olan ingilis generalı Taunshenddən istifadə etmək qərarına gəldi. Oktyabrın 17-də Taunshendi qəbul edən İzzət paşa söhbət arasında İngiltərə ilə müharibə aparmanın Türkiyə üçün cinayət olduğunu qeyd etdi.[21] Növbəti gün Taunshend İzmirə yola düşdü. Oktyabrın 20-də isə buradan Lemnos adasına getdi və barışıq haqda danışıqlara başlandı.

Müttəfiqlərlə qarşıdakı danışıqlarda tam loyallıq göstərərək İzzət paşa bu məsələ barəsində alman səfirini xəbərdar etdi. Türkiyə ilə barışıq imzalanacağı təqdirdə



müttəfiqlərin boğazlara tam sahib olacaqları alman hökumətinə aydın idi. Bu isə Qara dəniz zonasında hərbi əməliyyatlar aparan bütün alman hərbi qüvvələri üçün fəlakət demək idi.

Taunshendin vasitəçiliyi öz bəhrəsini verdi. Türk məsələsində daha çox maraqlı dövlət kimi İngiltərə müttəfiqlər adından barışıq imzalanmasını öz üzərinə götürdü və oktyabr ayının 27-də rəsmi olaraq danışıqlara başlandı.[22] Dörd gün davam edən danışıqlardan sonra birtərəfli olaraq hazırlanmış şərtlər türklərə təqdim edildi.

Oktyabrın 16-dan noyabrın 3-dək Türkiyə xarici işlər nazirliyi iki məsələ ilə məşğul idi: 1. Barışıq şərtləri hansılardır; 2. Keçmiş nazirlərdən kim hara qaçıb və vəzifədən necə sui istifadə etmişdir. Amma barışıq şərtləri haqda heç bir rəsmi məlumat verilmirdi. Yalnız bir məsələ – barışıq şərtlərinin çox ağır olduğu aydın idi.[23]

Oktyabrın 27-də İstanbuldan bütün alman qoşunları çıxardıldı. Bundan sonra ölkənin paytaxtının müttəfiqlər tərəfindən nəzarətə alınacağı məlum oldu.[24]

Müharibənin sonu üçün hərbi teatr meydanlarına nəzər salınması Yaxın Şərqin tam səlahiyyətli hakiminə çevrilən İngiltərənin əvvəllər müttəfiqləri ilə imzaladağı gizli müqavilələrlə hesablaşmaq niyyətindən uzaq olduğunu göstərir.[25] Buna görə də Türkiyə ilə barışıq haqqında danışıqlar müttəfiqlərarası münasibətləri gərginləşdirirdi və Yaxın Şərq məsələsində yeni ziddiyyətlər doğururdu. L.Corc özü etiraf etmişdi ki, "türklərlə barışıq mənim ilk dəfə Klemanso ilə ciddi mübahisəmə səbəb oldu".[26]

Barışıq haqqında danışıqlar Egey dənizində İngiltərə tərəfindən işğal olunmuş Lemnos (Saqqız) adasındakı Mudros limanında yerləşən Ağamemnon gəmisində aparılırdı. VI Mehmet Vahideddinin istəyinin əksinə olaraq

İzzət paşanın təkidi ilə türk nümayəndə heyətinə Hüseyn Rauf bəy başçı təyin olundu. Müttəfiqləri isə həmin vaxt Aralıq dənizində Britaniya baş komandanı, sonradan İstanbulda Britaniya ali komissarı, vitse-admiral ser Somerset Kaltorp təmsil edirdi. Egey dənizindəki fransız donanmasının baş komandanı admiral Amyet danışıqlarda iştirak etmək cəhdlərinə baxmayaraq buna nail ola bilmədi. Çünki Kaltorp bunu istəmirdi. Bu isə müttəfiqlərarası münasibətlərdə barışmaz ziddiyyətlərin mövcudluğundan xəbər verirdi.

Kaltorpun türk nümayəndəliyinə təqdim etdiyi barışıq şərtləri çox ağır idi. Bu şərtləri Sultana xəbər verəndə o, Əhməd İzzət paşaya bildirmişdi: "Nə qədər ağır olsa da şərtləri qəbul edək. Mən inanıram ki, ingilislər Şərqdə bizə qarşı dostluq münasibətlərini dəyişməyəcəklər. Biz sonra onlardan barışıq şərtlərinin yüngülləşdirilməsinə nail olarıq". Oktyabrın 30-da müttəfiqlərlə Osmanlı Türkiyəsi arasında Mudros barışıq sazişi imzalandı.[27]

Türkiyə ilə Antanta dövlətləri arasında imzalanan bu barışıq 1914-1918-ci illər dünya müharibəsini Türkiyə üçün ən ağır şərtlərlə başa çatdırdı. Bu müqavilə layihəsi Türkiyəyə müttəfiqlər adından təqdim edildi. Lakin Fransa və İtaliya rəhbərləri hətta belə bir layihənin olmasını güman belə etmirdilər.[28]

Mudros barışığına əsasən boğazlar müttəfiqləri tərəfindən işğal edilirdi (maddə 1). Osmanlı sularındakı bütün sualtı silahlar və silahlı mövqelər haqda müttəfiqlərə məlumat verilməli və onların zərərsizləşdirilməsi üçün yardım edilməli idi (maddə 2-3). Müttəfiqlərin hərbi əsirləri İstanbula gətirilərək müvafiq ölkəyə təslim edilməli idi (maddə 4). Osmanlı hökuməti daxili nizam-intizamı və sərhədləri qorumaq üçün lazım olacaq hərbi qüvvələrdən başqa



qüvvə saxlamaq hüququndan məhrum edilirdi (maddə 5). Ölkənin daxilində asayişi qorumaq üçün lazım olacaq qüvvələrin sayı müttəfiqlər tərəfindən müzakirə edildikdən sonra müəyyən edilməli idi. Osmanlı sularında üzən hərbi gəmilər müttəfiqlərə təslim olunmalı idi (maddə 6). Əgər müttəfiqlər öz mövqelərinə təhlükə hiss etsəydilər, onda imperiyanın istənilən strateji nöqtəsini işğal etmək hüququna malik idilər (maddə 7). Osmanlı limanlarından Türkiyə müttəfiqlərinin istifadə etmələri qadağan edilirdi (maddə 8-9). Barışıq şərtlərinə əsasən İranın şimali qərbindəki Osmanlı hərbi birləşmələri dərhal oranı tərk etməli, onlar tərəfindən nəzarətə alınmış Qafqaz ərazisinin müttəfiqlərin nəzarətinə keçməsinə heç bir etiraz etməməli idilər. Müttəfiqlərin nəzarəti altına keçən ərazilər sırasında Qafqaz dövlətləri də var idi. Müttəfiqlər Batumu və Bakını da işğal etməli idilər (maddə 11 və 15).

Mudros barışığında sonra göstərilirdi: Hicaz, Yəmən, Suriya və Mesopotomiyadakı türk qarnizonları mütləq müttəfiqlərə verilməlidir (maddə 16). Tripolitaniyada və Kirenaikdəki türk emissar-zabitləri mütləq yaxınlıqda yerləşən İtaliya qarnizonuna gəlib tabe olmalıdır. Türkiyə Tripolitaniya və Kirenaikdə güclə əldə etdiyi limanları Misurat-da daxil olmaqla müttəfiqlərə verməlidir (maddə 17-18). Almaniya və Avstriyanın bütün məmurları bir ay müddətinə Osmanlı ərazilərini tərk etməli idi (maddə 19). Türkiyə özünün bütün hərbi ehtiyatlarını müttəfiqlərə verməlidir. Bununla bərabər xüsusi olaraq göstərilirdi ki, hər hansı hərbi əmlakın məhv edilməsi qadağandır (maddə 20-21). Osmanlı hərbi əsirləri müttəfiqlərin nəzarəti altında mühafizə ediləcəkdi... (maddə 23).[29] (Daha ətraflı əlavə 1).

Mudros barışığı ilə müttəfiqlər faktik olaraq İngiltərə Türkiyənin varlığına hakim oldular və onu özlərinə tabe

etdilər. Hakimiyyət dəyişikliyi və Türkiyənin müharibədən çıxması türk xalqını bu soyğunçuluqdan xilas etmədi.

İngilislər Mudros barışığını türklərə özləri diqtə etsələr də, bununla kifayətlənmək istəmirdilər. Mudros barışığı imzalanandan dərhal sonra müttəfiqlər hər tərəfdən işğala başladılar. Barışıq imzalanan zaman Türkiyənin dəniz naziri Hüseyn Rauf bəy üç dəfə Kaltorpdan soruşmuşdu ki, İngiltərə Türkiyə üçün bu qədər ağır şərtləri saxlayacaqmı? Kaltorp qəti olaraq bu fikirdə olduqlarını bildirdi. Amma elə növbəti gün razılaşmanın pozulmasına başlandı. Oktyabrın 31-də ingilis orduları Mosulun 14 millik məsafəsinə yaxınlaşdılar və Bağdaddakı Britaniya qüvvələrinin baş komandanı türklərdən Mosulu və bütövlükdə İraqı tərk etməyi tələb etdi.[30] Mosuldakı türk komendantı Mosul rayonunun heç vaxt İraqın bir hissəsi hesab edilmədiyini və barışığa qədər ingilislər tərəfindən zəbt edilmədiyinə görə Türkiyə tabeliyində qaldığını bildirdi. Britaniya generalı üzərində ingilislər tərəfindən çəkilmiş xəritə göstərdi. Bu xəritədə təkcə Mosul deyil, həmçinin bütün Mosul vilayəti (Diyarbəkir və daxil olmaqla), Cənub-Şərqi Anadolu da İraqın tərkibində verilmişdi. Britaniya komandanlığı eyni zamanda güc tətbiq etməyə başladılar. İngilis qoşunları barışıq imzalanan zaman dayandıqları xətti keçdilər və 1918-ci il noyabrın 8-də Mosul vilayətinin inzibati mərkəzi üzərinə ingilis bayrağını qaldırdılar.

Eyni hadisə İskəndərunda da baş verdi. Barışıq imzalanana qədər türklər bu strateji əhəmiyyətli məntəqəni öz əllərində saxlaya bilmişdilər. Burada türk ordularına Mustafa Kamal komandanlıq edirdi. O, ingilislərin bura desant çıxartmalarına mane oldu və bu haqda Əhməd İzzət paşaya teleqram göndərdi.[31] Baş vəzir Mustafa Kamala müqaviməti təcili olaraq dayandırmaq barədə göstəriş verdi.



Həqiqətən də baş nazir bildirmişdi ki, barışığa görə ingilislər İskəndərunu işğal edə bilməzlər.[32] İstanbuldakı britaniya nümayəndəliyi bu məsələni Türkiyənin xeyrinə dəqiqləşdirməyi vəd verdiyini, bunun əvəzində türklərin İsgəndərun dəmir yol xəttindən ingilislərin istifadə etmələrinə razılıq verdiyini bildirdi. Mustafa Kamal cavab olaraq bildirdi ki, ingilislərin burada məqsədləri İsgəndərun rayonunu zəbt edib gələcəkdə Kilikiya və Anadoluya hücum etməkdir.[33] Mustafa Kamal 6 noyabr tarixli teleqramında isə "belə vəziyyətdə özünün istefaya getdiyini" bildirdi.

Həmin vaxt Mustafa Kamalla Sultan arasında olan söhbət də maraq doğurur. Mustafa Kamal Anadolu və ordunun vəziyyətini bilən bir şəxs kimi fikrini söylərkən Sultan ona "səni ordunun komandir və əsgərlərinin çox sevmələrinə əminəm. Mənə onlardan bir fənalıq gəlməyəcəyinə təminat verirmisən[34] demişdi. Bu söhbət Sultanın hadisələr qarşısında hansı mövqeyi tutduğunu açıq göstərir.

Sultanın o günlərdəki mövqeyi Fransadan gələn bir nümayəndəliyə yer verilməsi məsələsində özünü göstərir. Fransızlar üçün bəzi yerlərin boşaldılması üçün narazılığa qarşı o demişdi: "Canım, siz necə bir başa maliksiniz. Biz hal-hazırda əsir vəziyyətindəyik. Dolmabaxcanı istəsələr nə edəcəyik".[35]

Bu sözlərdən də göründüyü kimi Sultan səltənət və xilafət barədə düşünürdü. Sultanın müttəfiq güclərinə qarşı olan belə mövqeyi onları daha da cəsarətləndirmişdi. Milli azlıqlar da öz fəaliyyətlərini genişləndirmişdilər. Ancaq Sultanın bu mövqeyinin yalnız bir müsbət nəticəsi oldu. Bu da başda İstanbul olmaqla işğal edilən yerlər tamam dağıdılmamış, talan edilməmiş və aparılmamışdı. Bu, bəlkə bilərək, bəlkə də bilməyərək olmuşdu amma yararlı olduğu bir gercəkdir.

Hökumətlərin tez-tez dəyişməsi ardıcıl siyasət yürütməyə imkan vermirdi.

Sultan hökumətinin belə xidmətləri öz məqsədlərinə nail olmaqda ingilislərin işlərini yüngülləşdirirdi. İngilis orduları İsgəndərunu tutdular. Sonradan İsgəndərun və Kilikiya fransızlara verildi. İtaliya Antaliyadan Konyayadək olan əraziləri zəbt etdi.

Kürdüstanda Britaniya agentləri "müstəqillik" bayrağı altında kürdlərin qiyamını hazırladılar. İlk başlanğıcda kürdlər ingilis ordularını alqışla qarşıladılar. Lakin tezliklə ingilis-kürd münasibətləri düşmənçiliyə çevrildi.[36]

1918-ci il noyabrın 13-də müttəfiqlərin hərbi eskadraları Qızıl Burun buxtasına daxil oldular və Dolmabağçadakı Sultan sarayı qarşısında lövbər saldılar. Bu vaxtdan da İstanbul Türkiyə və ərəb Şərqindəki milli-azadlıq hərəkatına qarşı mübarizə qərargahına çevrildi. Noyabrın 14-də isə İstanbula ingilis ordusu, onun ardınca isə fransız və italyan əsgərləri gətirildi. Özünün hərbi dəniz qüvvələrini boğazlara yeridən və möhkəmlənmiş limanları işğal edən ingilislər faktik olaraq boğazların yeni sahibinə çevrildi.[37]

Mudros barışığı imzalanandan sonra türk torpaqlarını işğal etməyə hazır olan Müttəfiq ordularının durumu belə idi:

Fransızlar general d'Esperinin komandanlığı altında Solonikidə durmuşdular, İngilislər, Limnidə admiral Kaltorpun komandanlığı altında, Suriyada general Allenbin, İraqda general Karsvell və Qafqazda general Tomson komandanlığındakı ordular.

Bundan başqa, İngiltərə Bağdad dəmir yolunda bütün hakimiyyəti öz əlinə alaraq Konya, Ağşəhər, Afon-Karahisar, Kütahya, Əskişəhr, Adapazarı, Usküdərdə möhkəm dayaq



məntəqələri yaratdılar.[38]

Qara dəniz və Aralıq dənizi limanları da həmçinin Britaniya gəmilərinin tabeliyinə keçdi. Samsun və Trabzona kiçik ingilis dəstələri gətirildi, Samsundan isə Merzifona soxuldular.

İngiltərə Türkiyəni birbaşa öz siyasətinə tabe etdi. Türk ordusunun qərargahı və hərbi nazirlik, həmçinin korpusların qərargahları general Milnaya tabe edildi. Ölkənin müxtəlif yerlərində silahların yığılması üçün məntəqələr yaradıldı, 1918-ci ilin sonu üçün türklərdən 145 min silah müsadirə edilmişdi.

Fransa orduları Adana vilayətini və Şərqi Frakiyanın böyük hissəsini zəbt etdilər.

Sultan və onun hökuməti ingilis-fransız imperializminin etibarlı xidmətçisinə çevrildi.

İngilis kralı V Georqa göndərdiyi şəxsi məktubunda Sultan VI Mehmet istənilən razılaşma müqabilində onun taxttacının saxlanılmasını xahiş etdi. Lordlar palatası qarşısında çıxış edərkən L.Corc bildirdi: "Biz məlumat almışıq ki, türk Sultanı yalnız iki bəndi saxlamaq şərti ilə istənilən razılaşma imzalamağa razıdır: 1) taxt tacını saxlayır; 2) Türkiyə müstəqil qalır".[39]

Sultanın bu məktubunda hansı müstəqillikdən söhbət getdiyini İzzət paşa hökumətinin fəaliyyətindən başa düşmək olur. Çünki İzzət paşanın özünün dediyi kimi, "onlar nəinki ingilislərdən, əksinə əhalinin üsyanından daha çox qorxurdular. Ona görə də işğalçıların istənilən tələblərini yerinə yetirməyə hazır idilər".

İzzət paşa Mudros barışığını əsas tutaraq ordunun və əhalinin Müttəfiqlərin Türkiyə ərazilərini işğal etmələrinə qarşı müqavimət göstərməsini "qadağan" etmişdi. Bundan başqa Türkiyənin xilası bəhanəsi altında o, İngiltərə ilə

ittifaq yaradılması barədə təbliğat aparırdı: "Biz cəzalanmanı özümüz qazanmışıq, amma qoy bizi keçmiş dostumuz – İngiltərə cəzalandırsın".[40]

Antantanın Türkiyədə həyata keçirdiyi tədbirlərlə bərabər ölkənin daxilində fəaliyyət göstərən "milli azlıqlar cəmiyyətləri"də hər vasitə ilə ölkənin parçalanmasına çalışırdılar. İşğalçı dövlətlər bu cəmiyyətlərin fəaliyyətini dəstəkləyir, öz məqsədləri üçün istifadə edirdilər. Bu cəmiyyətlərdən bir neçəsinin fəaliyyətinə nəzər salaq:

a) Mavri Mira cəmiyyəti. Bu cəmiyyəti yunanlar yaratmışdılar. Məqsədləri "Böyük Yunanıstan" yaratmaq üçün fəaliyyət göstərmək idi. Cəmiyyət Osmanlı imperatorluğu dağıldığı üçün "Megalo Idea" (Böyük ölkə) ideyasını gerçəkləşdirmək üçün əlverişli məqam yarandığını hesab edirdi. Onlar İstanbul da daxil olmaqla Qərbi Anadolunu Yunanıstana birləşdirməyə çalışırdılar. Cəmiyyət Venizelosdan göstərişlər alırdı. Yunan Qızılhacı və Köçkünlər komissiyaları da bu cəmiyyətə mənsub idi. Cəmiyyət Ayasofyanı kilsə etmək və İstanbulu yenidən paytaxta çevirmək ideyası ilə fəaliyyət göstərirdi. Onlar L.Corcla görüşərək İstanbulun Yunanıstana verilməsini və ya dövlətlər arası idarəyə verilməsini istəmişdilər. Beləliklə, Mavri Mira cəmiyyəti ətrafında birləşənlər Böyük Yunanıstan qurmaq istəyi ilə hər şey edir, hər yola əl atırdılar.[41]

b) Ponti yunan cəmiyyəti yunanların qurduğu başqa bir cəmiyyət idi. Bu cəmiyyət Mərkəzi Samsun-Trabzon olan Qara dəniz bölgəsində bir dövlət qurmaq, Ponti dövlətini bərpa etməyə çalışırdılar. Amma bu mümkün deyildi. Yunanlar yalnız müttəfiqlərin dəstəyini aldıqlarına görə buna inanırdılar. Bu cəmiyyətin qurulmasında Amerika kollecinin də rolu vardı. Çünki orada bu fikri təsdiqləyən



dəlillər tapılmışdır.[42]

v) Ermənilərin fəaliyyəti. Milli azlıqların fəaliyyətləri içərisində ermənilərin xüsusi yeri var idi. Mudros barışığındakı "altı erməni vilayəti" ifadəsini əsas tutan ermənilər geniş fəaliyyətə başlamışdılar. Ermənilər yunanlarla əlaqəli işləyirdilər. Müttəfiqlərin dəstəklərini aldıqlarına görə ermənilər Aralıq dənizindən Qara dənizədək olacaq bir Ermənistan yaratmaq xəyalına düşmüşdülər. Amma bu həqiqətə çevrilə bilməzdi. Çünki bunu müttəfiqlərdə istəmirdilər.[43]

q) Yəhudilərin fəaliyyəti. Yəhudilər Osmanlı dövlətində azlıq təşkil edən qrup idi. İspaniyadan qaçıb gəlmişdilər və dövlət zəiflədiyi bir zamanda yunanlarla birgə fəaliyyətə başlamışdılar. Ticarətlə varlandıqları üçün bu cəmiyyətlərə çoxlu pul buraxırdılar. Yəhudilərin Mkabi cəmiyyəti, Alyans İsrail və b. cəmiyyətləri fəaliyyət göstərirdi. Ölkədəki bütün yəhudilərin belə fəaliyyət göstərməsindən danışmaq olmaz. Yalnız bəzi qruplar belə fəaliyyətlə məşğul olurdular.

Bütün bu zərərli cəmiyyətlərdən başqa ölkədə milli cəmiyyətlər də yaradılmışdı. Bu cəmiyyətlər aşağıdakılardan ibarət idi: Trakiya Müdafiə hüquq cəmiyyəti; İzmir Müdafiə hüquq cəmiyyəti; Şərqi Anadolu Müdafiə hüquq cəmiyyəti; Kilikiyalılar cəmiyyəti; Trabzon Mühafizə hüquq cəmiyyəti; İstanbul milli konqress cəmiyyəti; Anadolu Qadınları Müdafiə Vətən cəmiyyəti.[44] Bu cəmiyyətlər Mudros barışığı imzalanandan 1919-cu ilin əvvəlinədək yaradılmışdı və məqsədləridə vətənin müdafiəsi uğrunda çalışmaq idi.

Öz növbəsində ingilis hökuməti İstanbulda işğal rejimi elan etməkdə tərəddüd edirdi. İngilis ordusu şəhərdə qalaraq əsasən Mudros barışığı şərtlərinin yerinə yetirilməsi üçün

Sultan hökumətinə təzyiq göstərirdi. Türkiyənin vassala çevrilməsi imkanını ingilis hakim dairələri türk məsələsinin əlverişli həlli kimi qiymətləndirirdilər və zahirən Asiya Türkiyəsinin bölüşdürülməsinə dair imzalanan gizli müqavilələrə guya sadiq qaldıqlarını göstərməyə çalışırdılar.[45] Bunun səbəbləri var idi. İngilislər müttəfiqləri ilə münasibətlərinin gərginləşməsini istəmirdilər. Bu, ilk növbədə Fransaya aid idi. Çünki o, müharibə illərində Türkiyənin parçalanması haqqında bağlanan gizli müqavilələrin yerinə yetirilməsini təkidlə tələb edirdi. Bundan başqa bütün Türkiyənin işğalı üçün ingilis mütəxəssislərinin göstərdiyi kimi, yüz mindən çox əlavə əsgər lazım idi.

Yenicə yaranmaqda olan xalq hərəkatını boğmaq üçün ingilislər İzzət paşa hökumətini dəyişdirmək qərarına gəldilər. 1918-ci il noyabrın 11-də Sultan hökumətinin başına Əhməd Tevfiq paşa gətirildi. O, bütün gücü ilə ona edilən ümidləri doğrultmağa çalışdı. 1918-ci ilin dekabrında Əhməd Tevfiq paşa İngiltərə ilə gizli razılaşma imzaladı. Bu müqaviləyə əsasən Kilikiya ilə Cənubi Anadolu ingilis işğalçı ordularının hakimiyyəti altına keçirdi.[46]

Müttəfiqlərin qələbə paradında iştirak etmək üçün İstanbula gəlmiş general Allenbi ilə türk hökuməti arasında imzalanan bu razılaşma Mudros barışığına general Allenbin on şərti adı aldı.

Bu razılaşmaya əsasən 1919-cu ilin yanvarında ingilis orduları Urfa, Antəpi və Maraşı işğal etdilər. İki həftə ərzində əhalidən çoxlu silah yığıldı və kütləvi həbslər həyata keçirildi.

1918-ci il dekabrın 21-də deputatlar palatası buraxıldı. Deputatlar palatasının buraxılmasının ardınca ictimai klublar, elmi birliklər, siyasi partiyalar da bağlandı. Bundan başqa



milli azlıqlara da iş verilirdi. Bu da çox bəlalar doğururdu. Fransız generalı F.dEsperi yunanlar Sultan Mehmetin qarşısında ağ at üzərində İstanbula daxil etdilər. Bu isə türk xalqının səbrini daşdırdı. Türk jandarmeriya və polisi də işğalçı orduların nəzarəti altına alındı. İstanbulda inqilabi çıxışlarla əlaqədar olaraq müttəfiq orduları komandanı türk hökümətinə məlumat verdi ki, İngiltərədən alınan təlimata uyğun olaraq sonra polis və sanitar müəssisələri üzərində nəzarət onun ixtiyarına keçir.[47]

Beləliklə, birinci dünya müharibəsinə Üçlər ittifaqı tərəfindən qoşulan Osmanlı Türkiyəsi üçün müharibə çox faciəli və ağır bir vəziyyətdə başa çatdı. Osmanlı Türkiyəsi ilə Antanta dövlətləri arasında imzalanan Mudros barışığı hələ yekun sülh deyildi. Bununla kifayətlənməyən müttəfiqlər Türkiyəyə münasibətdə öz müstəmləkə siyasətlərini davam etdirməkdə qəti mövqe tutmuşdular. Əvvəllər olduğu kimi indi də Osmanlı ərazilərinin gələcək taleyi məsələsində dövlətlərarası ziddiyyətlər qalmaqda idi. Maraqlar toqquşduğundan bu gərginliyi aradan qaldırmaq çox çətin idi. Müttəfiqlərinə nisbətən müharibədən sonra daha üstün mövqeyə malik olan İngiltərə Osmanlı ərazilərinin parçalanması haqqında imzalanan müqavilələrlə hesablaşmaq istəmirdi və həmin müqavilələrə yenidən baxmaq arzusunda idi. Amma Fransa və İtaliya bununla razılaşmaq istəmirdi. 1919-cu ilin yanvarında dünya müharibəsindən sonra "dinc nizamasalma" problemlərini həll etmək üçün Parisdə sülh konfransı işə başladı. Konfransda Türkiyə məsələsi geniş müzakirələrə səbəb oldu.

---

[1] Хауз Э. Архив полковнока Хауза. Т. 3. М., 1939, с. 191
[2] Базил Генри Лиддел Гарт. Полковник Лоуренс М., 1939, с. 182.
[3] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 68. â.76.

4 Шамсуддинов А.М. Планы раздела султанской Турции и использование европейских в вооруженной интервенции Антанты против Советской России в 1918-1919 гг. М., 1958, с. 78.

5 Нотович Ф.И. Дипломатическая борьба в годы первой мировой войны т. 1. М.-Л., 1947, с. 151.

6 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.894, ñèé.10. èø 31. â.27.

7 Николсон Г. Как делался мир в 1919 г. М., 1925, 122.

8 Джордж Л.Д. Военные мемуары. Т. VI. М., 1938, с. 115. Carl Muhlmann. Das dcutsoh turkischc Waffrnbundnis im Weltkriege. Leipsig. 1940., s.239.

9 Лудшувейт Е.Ф. Турция в годы первой мировой войны (1914-1918 гг.). М., 1966, с. 259.

10 Джордж Л.Д. Правда о мирных договорах. Т.II М., 1957. с. 367.

11 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.894, ñèé.10. èø 31. â.4; Авалов З. Независимость Грузии в международной политике, 1918-1921. Париж, 1924, с. 142-144.

12 Алиев Г.З. Турция в годы правления младотурок М., 1972, с. 324-325.

13 Gaillard C. Les murcs el l'Europe. Paris, 1961, p.48.

14 "Ikdam" ãÿçåòè, 6 nisan 1927.

15 Мустафа Камал. Путь новой Турции. Т.Ы. М., 1929, с. 390.

16 Àêøèí Ñ. Èñòàíáóë ùöêóìåòëåðè âå Ìèëëè Ìöúàäèëå. Èñòàíáóë, 1983, ñ.78.

17 Òóíàéà Ò.Ç. Òöðêèéåäå ñèéàñè ïàðòèëåð (1859-1952). Èñòàíáóë, 1952, ñ. 407.

18 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.894, ñèé.10. èø 152. â.3.

19 Йеня орада.

20 Йеня орада.

21 Sherson E. Townshend of chitral and Kut. London, 1938, p.346.

22 Гурко-Кряжин В. Борьба держав и возникновение национально-освободительное движение в Турции. - «Новый Восток», 1928, №. 23, с. 49.

23 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.894, ñèé.10. èø 152. â.5.

24 Йеня орада. â.6.

25 Йеня орада. ô.28, ñèé.1. èø 68. â.70-74.

26 Джордж Л.Д. Военные мемуары. Т. VI. с. 139.



27 Ñåâð äîñéàñû. Èñòàíáóë, 1997, ñ.126-128, "Àçÿðáàéúàí ãÿçåòè", 19.XI. 1918. (¹.39).

28 Пуанкаре В. На службе Франции. Воспоминания 1914-1918 г. Т.2. М., 1956, с. 400. Ùÿì÷èíèí. Òåêèí Ö. Êóðàò. Îñìàíëû Èìïàðàòîðëóüóíóí Ïàéëàøìàñû. Àíêàðà, 1986, ñ.19. Òöðêãåëäè À. Ìîíäðîñ âå Ìóäàíéà Ìöòàðèêåëåðèíèí Òàðèõè. Àíêàðà, 1948, ñ.31. Úàùèò Ê.

29 Áàõ. ßëàâÿ 1.

30 Лазарев М.С. империализм и курдский вопрос (1917-1923). М., 1989. с. 31

31 М.Кемал Путь новой Турции. Т.I с. 38.

32 Йеня орада. ñ.39.

33 Àòàòöðêöí ñïéëåâ âå äåìåúëåðè. Àíêàðà, 1981, ñ.895.

34 Àòàé Ðèôêè À. Àòàòöðêöí Ùàòèðàëàðû. Àíêàðà, 1965, ñ.84.

35 Òöðêÿåëè Ô.À. Úîðöï èøèòòèêëåðèì. Àíêàðà, 1949, ñ.191.

36 Лазарев М.С. Империализм и курдский вопрос. с. 33.

37 Ñåëåê Ñ. Ìèëëè Ìöúàäèëå. Èñòàíáóë, 1982, ñ.71.

38 Øàïîëëî Å.Â. Òöðêèéå Úöìùóðèéåòè Òàðèùè. Èñòàíáóë, 1969, ñ.89.

39 Джордж Л.Д. Военные мемуары. Т. VI. с. 140-141.

40 Черчилль У. Мирный кризис. М., 1931, с. 247.

41 Àéáàðñ Å. Úöìùóðèéåò òàðèùè. Èçìèð, 1987, ñ.115.

42 Ñåëàùåääèí Ò. Ìäíîðîñ'òàí Ìóäàíéà'éà êàäàð. ú.1. Àíêàðà, 1973. ñ.90; Éûëìàç. Ïîïóóñ Ìåñåëåñè. Àíêàðà, 1973, ñ.190. Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 192. â.8.

43 Éàë÷ûí À. Áåëãåëåð ûøûüûíäà Òöðê-åðìåíè ìåñåëåëåðèíèí è÷éöçö. Èñòàíáóë, 1975, ñ.125-128.

44 Áûéûêîüëó Ò. Òðàêèéàäà Ìèëëè Ìöúàäèëå. Àíêàðà, 1955, ñ.140-144; Ñåáàùàòòèí Ñ. Àíàäîëó èùòèëàëû. ñ.1. Èñòàíáóë, 1966, ñ.95; Àéáàðñ Å. Úöìùóðèéåò Òàðèùè, ñ.128-129.

45 Раздел Азиатской Турции по секретным документам. - «Бюллетень МИД РСФСР», М., 1924. с. 114.

46 Òàíñåë Ñ. Ìäíîðîñ'òàí Ìóäàíéà'éà êàäàð. ú. 111. Èñòàíáóë, 1991, ñ.39; Àêøèí Ñ. Èñòàíáóë ùþêóìåòëåðè âå Ìèëëè Ìöúàäèëå, ñ.78-79.

47 Ñàëàùè Ð. Ñîíéåë. Òöðê êöðòöëöø ñàâàøû âå äèø ïîëèòèêà. Àíêàðà, 1973, áþëöì IV, ñ.201.

## §2. Paris sülh konfransında Türkiyə məsələsi

Birinci dünya müharibəsi başa çatdıqdan sonra dünyanın ərazi cəhətdən bölüşdürülməsi və dünya hökmranlığına nail olmaq uğrunda mübarizə Paris sülh konfransında davam etdi. Bu konfransda Almaniya və onun müttəfiqləri ilə sülh müqavilələri imzalanmalı idi.

Müttəfiqlər bu konfransa müharibə başa çatmazdan daha əvvəl hazırlaşmağa başlamışdılar. Lakin Rusiyadakı oktyabr çevrilişindən sonra Antanta dövlətlərindən birinin bu sıradan çıxması müttəfiqlərin planlarına öz təsirini müəyyən dərəcədə göstərdi.[1]

ABŞ prezidenti V.Vilsonun məlum "14 bəndi"nin on ikincisi Osmanlı imperiyasına aid idi. Həmin bənddə deyilirdi: "İndiki Osmanlı imperiyası ərazisində yaşayan başqa xalqlara sarsılmaz müstəqillik verilməli, onların həyatı təhlükəsizliyini mütləq təmin etməli, Dardanel bütün gəmilərin keçməsi və beynəlxalq təminat altında bütün millətlərin ticarəti üçün açıq olmalıdır".[2]

Osmanlı imperiyasının başqa xalqlarına suverenlik deyərkən ABŞ prezidenti nəzərdə tuturdu ki, "İstanbul və boğazlar böyük dövlətlərdən birinə ya mandatla idarəçiliyə, ya da beynəlxalq kollektiv nəzarətə verilməlidir. Amerikalılar Anadolunu türklərə verməyi vəd edirdilər. Amma onlar Ermənistan, İstanbul və boğazlara mandatı göstərməmişdilər. ABŞ bu əraziləri sonradan öz nəzarətinə götürmək istəyirdi. Türkiyədə yaşayan digər xalqlara gəldikdə isə onlara pozulmaz muxtariyyat vəd edilirdi. Əslində bunda məqsəd qeyri-türk ərazilərini mandataltı ölkələrə çevirmək idi. Mesopotomiyanı, Fələstini və



Ərəbistanı mandataltı ərazi kimi İngiltərəyə vermək nəzərdə tutulurdu. Yunanlar çoxluq təşkil etdiyi Anadoluya yaxın ərazilərdə beynəlxalq nəzarət təşkil etmək təklif olunur və mandatçı kimi Yunanıstan göstərilirdi. İstila edilmiş ərazilərin bölüşdürülməsini Paris sülh konfransında davam etdirmək təklif edilirdi. Ərazi bölgüsündə böyük "hissə" əldə etmək məqsədi ilə amerikanlılar konfransa hazırlığı böyük diqqətlə izləyirdilər.[3]

Sülh konfransında türk məsələsinin müzakirəsi Türkiyənin bölüşdürülməsi uğrunda müttəfiqlərarası mövcud ziddiyyətləri daha da gərginləşdirdi. L.Corc öz xatirələrində göstərir ki, "türk məsələsi ən çətin və mübahisəli məsələ idi və onun həlli böyük zəhmət tələb edirdi".[4]

Konfransda türk məsələsinin müzakirəsinə Yunanıstanın ərazi iddiaları irəli sürməsi ilə əlaqədar baxıldı. Yunanıstan 1917-ci il iyulun 29-da müttəfiqlər tərəfindən müharibəyə qoşulmuşdu. Bunun əvəzində ona İzmir, Şərqi Frakiya, Albaniya və Bolqarıstan ərazilərinin bir hissəsi vəd edilmişdi.[5]

1919-cu il yanvarın 30-da Yunanıstan hökuməti sülh konfransına memorandum göndərdi. Həmin memorandumda göstərilirdi: "Anadoluda 2,5 milyondan çox yunan yaşayır və yunan krallığına birləşmək üçün can atırlar. Qara dənizin şimali-şərq sahilində yerləşən ərazilərdə yaşayan yunanlar Yunanıstan protektorluğu altında qədim yunan Ponti dövlətinin bərpa edilməsini istəyirlər. Türk dövləti Mərkəzi Anadoluda mövcud olmalı və Millətlər Cəmiyyətinin təyin edəcəyi qubernatorun nəzarətinə verilməlidir".[6]

İstanbulun sonrakı taleyi məsələsinə toxunaraq memorandumda göstərilirdi: "Bura Millətlər Cəmiyyətinin idarəsinə verilməlidir ki, öz komissarları vasitəsilə bo-

ğazlardan gəmilərin azad keçməsini təmin etsin. Əgər hər hansı bir səbəbdən Millətlər Cəmiyyəti təşkil edilməzsə, onda boğazlar və İstanbulun idarəçiliyi altı dövlətin – İngiltərə, Fransa, İtaliya, Rusiya, Yunanıstan, Rumıniyanın təyin etdiyi qubernatorun idarəçiliyinə verilsin.[7]

1919-cu il fevralın əvvəlində yunan memorandumuna Onlar Şurasında baxılmağa başlandı. İtaliyanın baş naziri Orlando bu iddialara qarşı çıxış edərək bəyan etdi ki, London müqaviləsinə görə İzmir Yunanıstana deyil, İtaliyaya vəd edilib.[8]

Prezident V.Vilson həmin iclasda İzmir və Frakiyaya yunan iddialarının əleyhinə olduğunu bildirdi. L.Corcun təklifi ilə yunan memorandumu ətraflı öyrənilmək üçün ekspertlər komissiyasına göndərildi. ABŞ-ın ekspertləri Qərbi Anadoluda çoxlu sayda türk olduğunu və bu ərazinin Yunanıstana verilə bilməyəcəyini prezident V.Vilsona bildirmişdilər. Bunun yarada biləcəyi nəticələri də ona anlatmışdılar. Amma bu açıqlamalara rəğmən V.Vilson İtaliyanın Egey dənizindəki işğalları qarşısında İngiltərə və Fransa fikrinə meyl etdi.

L.Corc müharibənin əvvəlində türklərin Avropadan qovulması təklifi ilə çıxış etmişdi.[9] Lakin Sovet Rusiyası gizli müqavilələri dərc etdirəndən sonra 1918-ci il yanvarın 5-də L.Corc bildirdi ki, biz müharibəni Avstriya-Macarıstanın bölünməsi, Türkiyənin öz paytaxtından məhrum edilməsi, yaxud onun Kiçik Asiyada və Frakiyadakı zəngin ərazilərindən məhrum edilməsi üçün aparmırıq. Biz Türkiyənin türklər çoxluq təşkil edən ərazilərə, yaxud onun paytaxtına iddia etməsək də Aralıq dənizi ilə Qara dəniz arasındakı boğazlar bitərəfləşdirilməli və beynəlmilləşdirilməlidir. Ərəbistan, Ermənistan, Mesopotomiya, Suriya və Fələstin bizim fikrimizcə xüsusi



milli imtiyazların tanınması hüququna malikdirlər... Göstərilən ərazilərdə Türkiyənin əvvəlki hüquqlarının bərpa edilməsi qeyri-mümkündür.[10]

İngiltərə Türkiyə paytaxtına heç bir iddia etmədiyini elan etsə də, Paris sülh konfransında ingilis diplomatiyası türklərin Türkiyənin Avropa hissəsindən tamamilə qovulması haqqında çıxış etdi. Onlar Türkiyədə ya öz hökmranlığını, ya da vassal dövlətin hökmranlığını qurmaq niyyətində idilər. Bu, İngiltərənin əlində sözə baxan bir "silah" ola bilərdi. Belə bir vassal dövlət həmin vaxt Yunanıstan ola bilərdi. Çünki Türkiyəyə olan tarixi düşmənçilik münasibəti Yunanıstanı Antanta dövlətlərinin müttəfiqinə çevirmişdi.[11]

Türkiyənin Asiya hissəsinə gəldikdə isə ingilislər bu əraziləri də öz nüfuz dairələrinə qatmaq fikrində idilər. Konfransın ilk dövründə İngiltərənin bu işğalçılıq planlarını L.Corc başda olmaqla ingilis nümayəndə heyəti təkidlə tələb edirdi.

Türkiyədə külli miqdarda kapital qoyuluşuna malik olan Fransa İngiltərənin Yaxın Şərq siyasətinə öz mövqeyinə qarşı ciddi təhlükə kimi baxırdı.[12] İngiltərənin müharibə illərində imzalanan gizli müqavilələrlə Fransaya vəd edilmiş Suriya, boğazlar və İstanbula olan iddiaları Fransanı daha çox narahat edirdi. Buna görə də Fransa nümayəndələri konfransda İngiltərə planlarına qarşı çıxış edirdilər. Onlar İstanbulun beynəlxalq nəzarət altına verilməsinə Sultanın İstanbulda qalması şərti ilə razı idilər. Bununla bərabər, Fransa Kilikiyanı zəbt etmək və oradan şimala öz nüfuz dairəsini genişləndirmək niyyətində idi. Amma bu ərazidə Fransanın marağı ABŞ-ın marağı ilə toqquşurdu. ABŞ, Kilikiyanı ermənilərə verməklə ABŞ nəzarəti altında Böyük Ermənistan yaradılmasını irəli

sürürdü.

Digər tərəfdən konfransa qatılmış erməni təmsilçiləri Anadolunun bütün şərq bölgəsi ilə Diyarbəkr, Maraş, Adana və İskəndərun da daxil olmaqla bütün Güney və Güney boyu bölgələrin Türkiyədən ayrılaraq 20 il müddətinə böyük dövlətlərin birgə himayəsinə verilməsini istəyirdilər.[13]

Türkiyənin bir sıra ərazilərinə İtaliya da iddia edirdi. Konfransda onlar 1917-ci ildə müttəfiqlər tərəfindən vəd olunmuş Anadolunun cənub-qərb hissəsinin, Antalya da daxil olmaqla, Konya və İzmirin İtaliya "nüfuz dairəsinə" daxil edilməsinə nail olmağa cəhd edirdilər.

Amerika nümayəndələri isə konfransa Türkiyənin bölüşdürülməsinə dair dəqiq planla gəlmişdilər. Birləşmiş Ştatların hakim dairələri ingilisləri Türkiyədən sıxışdırıb çıxarmağa, Türkiyənin hərbi-strateji vəziyyətindən istifadə edərək bütün Yaxın Şərqdə öz mövqeyini möhkəmləndirməyə çalışırdılar.

Amerika diplomatları konfransa çoxsaylı sorğu kitabları, sənədlər, həmçinin dövlət katibi R.Lansinqin hazırladığı xüsusi təlimatla gəlmişdilər və Amerikanın marağı olan bütün məsələlər haqqında müzakirələrə hazır idilər.

Türkiyənin parçalanması planı öz əksini 1919-cu il 21 yanvar tarixdə dövlət departamenti tərəfindən hazırlanmış xəritədə daha ətraflı tapmışdı. Bu xəritədə Türkiyə üç "dövlətə" bölünürdü: 1.Türkiyə; 2.Ermənistan; 3.İstanbul. Türk dövləti bütün Anadolu, Anti-Tavra şəhərindən Şərqədoğru Bursa şəhərindən keçərək Bosfor və Dardanel boğazlarına paralel xətlə müəyyənləşdirilirdi. Türkiyənin paytaxtı Konya şəhəri təklif olunurdu.[14]

"Erməni dövlətinə" Anadolunun şərq hissəsi verilməli



idi. "İstanbul dövlətinin" tərkibinə Bosfor və Dardanel boğazları ilə bərabər Avropa Türkiyəsi və Mərmərə dənizinin bütün sahili, həmçinin Bursa və Bandırma şəhəri ilə bərabər Anadolunun qərb hissəsi daxil edilməli idi. "İstanbul dövlətinin" xəritə üzrə şərhində bildirilirdi ki, gələcəkdə buraya bütün Şərqi Frakiyanın deyil, hətta Qərbi Frakiyanın da daxil edilməsi nəzərdə tutulur.[15] Buradan belə bir nəticə çıxır ki, ABŞ "İstanbul dövlətinə" mandat almaqla gələcəkdə Makedoniyanın zəbtini nəzərdə tuturdu. R.Lansinqin təlimatına əsasən, İstanbul və boğazlar beynəlxalq nəzarət altında olan ayrı-ayrı dövlətlərə bölünməli, yaxud da Millətlər Cəmiyyəti adından mandataltı ərazi kimi hansısa bir dövlətə verilməli idi. Avropa Türkiyəsindən türklər Anadoluya köçürülməlidilər. Anadoluya sərhəd, əhalisi yunanlardan ibarət olan ərazilərdə beynəlxalq nəzarət qoyulmalı və mandat altında Yunanıstana verilməli idi. Fələstin, Mesopotomiya və Ərəbistana mandat İngiltərəyə, Suriya – Fransaya keçirdi[16]. Ermənistan, İstanbul, boğazlar və Anadolu isə mandatlı ərazi kimi qeyd edilməmişdi. Çünki onlar bu əraziləri öz əllərində saxlamaq istəyirdilər.

Ümumiyyətlə, konfransda – Türk məsələsinin müzakirəsini üç hissəyə bölmək olar: 1.İstanbul və boğazların taleyi; 2.Türkiyənin Kiçik Asiya torpaqlarının taleyi; 3.Ərəb ərazilərinin (Mesopotomiya, Suriya, Livan və Fələstin) taleyi.

1919-cu ilin mart ayının ortalarınadək türk məsələsi Onlar Şurasının iclaslarına rəsmi olaraq çıxarılmadığına baxmayaraq, bu məsələ müttəfiq dövlət başçılarının danışıqlarında və nümayəndəlik daxilində geniş müzakirə olundu. Yanvarın 30-da müttəfiqlər bəyan etdilər ki, "Osmanlı imperiyası artıq mövcud deyil".[17] Müttəfiqlər

L.Corcun təklifi ilə ümumən razılığa gəldilər ki, Ermənistan, Suriya, Fələstin, Ərəbistan və Mesopotomiya Türkiyədən ayrılmalı və mandataltı ərazilərə çevrilməlidir.

1919-cu il fevralın 3-də Venizelos yenidən Yunanıstan hökuməti adından çıxış edərək həm Avropa Türkiyəsində, həm də Kiçik Asiyanın qərb hissəsində yunan iddialarının təsdiqini tələb etdi. O, İstanbul, Şimali Epir, Egey adaları, Frakiya və Kiçik Asiyanın qərb hissəsi – Aydın, Bursa və Dardanell sancağı və İzmir də daxil olmaqla yunan dövlətinin təşkilini tələb edirdi.[18] Kiçik Asiyanın qərb hissəsinin türklərdən qopardılmasını Venizelos burada yunanların çox olması ilə əsaslandırdı.

Venizelos bununla kifayətlənmədi. O, Vilson proqramının 12-ci bəndini əsas tutaraq İstanbulun Türkiyədən qopardılmasını və Millətlər Cəmiyyətinin müəyyən edəcəyi dövlətin mandatı altına verilməsini tələb edirdi. Venizelos türk dövlətinin ərazisini Kiçik Asiyada paytaxtı Konya, yaxud Bursa şəhəri olmaqla məhdudlaşdırırdı.

Fikir mübadiləsi nəticəsində müttəfiqlər ərazi məsələsini dəqiqləşdirmək üçün ABŞ, İngiltərə, Fransa və İtaliya nümayəndələrindən ibarət komissiya yaratmaq barədə qərara gəldilər. Bu komissiya Venizelosun təkliflərini, ümumilikdə bütün nümayəndələrin planlarını nəzərdən keçirdi və burada müxtəlif nöqteyi-nəzərlər toqquşdu.

Komissiyada Türkiyə məsələsi müzakirə olunan zaman Amerika nümayəndəsi açıq surətdə Türkiyəyə mandatın ABŞ-a verilməsini tələb etdi. Amerika nümayəndəsi Vesterman bildirdi ki, onun hökuməti türk məsələsinə böyük maraq göstərir və bu məsələnin həm mənəvi, həm də praktik həllində çox maraqlıdır.[19]



Amma konfransın ilk dövründə, yəni 1919-cu il martın 14-dək türk məsələsində amerikalılar gözləmə mövqeyi tuturdular. ABŞ hələ də bütün türk ərazisinə, yaxud bir hissəsinə mandat iddiasında olduğunu qəti deməmişdi. Amerikalılar bunu yalnız sonralar bildirirdilər. Amerika nümayəndəsinin ilk açıq çıxışı bu məsələyə dair polkovnik Xauz tərəfindən edilmişdi. 1919-cu il martın 7-də Almaniyanın tərksilah edilməsi məsələsi müzakirə olunan zaman təsadüfən Türkiyə məsələsinə də toxunulmuşdu. L.Corc türk ərazilərinin sonrakı taleyinə aid ABŞ nümayəndəsinin fikrini öyrənmək məqsədilə Klemansonun iştirakı ilə polkovnik Xauza belə bir sual verdi ki, ABŞ Türkiyə imperiyasına, əsasən də İstanbula və Ermənistana mandatı öz üzərinə götürə bilərmi? Xauz cavab verdi ki, ABŞ Ermənistana və İstanbula mandat almağa hazırdır. Onun belə planı vardır ki, İstanbul iqtisadiyyatını inkişaf etdirmək üçün vəsaiti haradan tapmaq olar. O, əlavə etdi ki, "ABŞ hətta ümumən Anadoluya da nəzarət edə bilər".

ABŞ Türkiyənin ərəb ərazilərinin müzakirəsini də diqqətlə izləyirdi. Bu məsələyə dair əsas mübarizə Fransa və İngiltərə arasında gedirdi. İngiltərənin Yaxın Şərqdə olan hərbi üstünlüyündən L.Corc siyasi məqsədlər üçün istifadə etməyə çalışırdı. İngiltərə əsas neft mərkəzi olan Mosul da daxil olmaqla yalnız Fələstin və İraqa deyil, həmçinin Suriyanın böyük hissəsinə iddia edirdi. Bu ərazilər 1916-cı il müqaviləsi[20] ilə Fransaya vəd edilmişdi. Fransa bununla razılaşmırdı. Suriya və Livan üstündə ingilis-fransız qarşıdurmasının tarixi keçmişi vardır. Bu qarşıdurma XIX əsrin ikinci yarısından başlamışdı. 1918-ci ilin dekabrında ingilis hökuməti Sayks-Piko müqaviləsini qüvvədən düşmüş hesab etdi. Hələ sentyabr ayında Suriya ingilislər tərəfindən işğal edilmişdi. Dəməşqdə Feysal əl Haşimi başda olmaqla

"müstəqil" hökumət təşkil edilmişdi.

Konfransda Fransa Suriyanın bölüşdürülməsinə qarşı çıxıb, buradan ingilis ordularının çıxardılmasını və bütün Suriya ərazisində Fransa mandatı təyin olunmasını tələb edirdi. Suriyanın çox hissəsinə İngiltərə iddiaçı idi. Lakin L.Corc konfransda çıxış edərkən Suriyada İngiltərənin siyasi marağı olmadığını söylədi. Bununla bərabər, burada İngiltərənin iqtisadi marağının saxlanılmasını istədi. Klemanso Mosulu İngiltərəyə güzəştə getdikdən sonra L.Corc Fransanın Suriyaya olan iddialarına etiraz etmədi. Amma işdə İngiltərə Fransanın iştahasını azaltmağa çalışırdı. 15 fevral tarixli notada Klemanso Mosulun İngiltərəyə verilməsini təsdiq etdi. Həmin notaya cavabda L.Corc keçmiş Osmanlı imperiyası ərazilərində yerləşən orduların xəritəsini təqdim etdi. Bu xəritədə Fransa nəzarəti altına keçəcək ərazilərin çox hissəsinin azaldığı göstərilirdi. Klemanso bu layihəyə baxmaqdan belə imtina etdi.

Suriyaya həmçinin ABŞ-ın da iddiası var idi. Amerika imperializmi Yaxın Şərqdə sarsılmaz mövqeyə malik olmadığından Suriyaya mandat almaq iddiasında olduğunu açıq-aşkar deyə bilmirdi. Buna görə də V.Vilson bu məsələdə vasitəçi rolunda çıxış etmək istəyirdi. Amma ABŞ ərəblərin deyil, öz mənafeyi naminə çalışırdı.

1919-cu il fevralın 14-də V.Vilson konfransda Millətlər Cəmiyyətinin Nizamnaməsinin qəbuluna nail olaraq bir ay müddətinə vətənə qayıtdı. ABŞ-a gəldiyi müddətdə o, hökumətin türk mandatını qəbul etməsinə çalışdı. Amerika imperialistləri işğalçılıq siyasətində Ermənistana mandata böyük əhəmiyyət verirdilər. Hələ 1918-ci il dekabrın 10-da senator Loc senata bir qətnamə təqdim etdi. Bu qətnaməyə görə gələcək Erməni dövlətinin tərkibinə Kilikiya və Türkiyənin altı əyaləti, Ermənistanın



Rusiya hissəsi və Cənubi Azərbaycanın şimal hissəsi daxil edilirdi. Gələcək Ermənistanın ərazisi üç dəniz – Qara dəniz, Aralıq dənizi, Xəzər dənizi – arasında olmalı idi. Locun fikrincə, ABŞ ermənilər yaşayan bütün ərazilərdə – Ermənistanda, Gürcüstanda, Azərbaycanda və Türkiyədə – tam hakimiyyətə malik olmalıdır.[21] Ermənilər yaşayan bütün ərazilərin mandataltı ərazi kimi ABŞ nəzarətinə verilməsini, onlar "Ermənistanın müstəqillik uğrunda mübarizəsi" adı altında həyata keçirmək istəyirdilər.

Beləliklə, amerikalılar özlərini Ermənistanın ərazi müstəqilliyinin müdafiəçisi kimi qələmə verərək, Ermənistan, Gürcüstan, Azərbaycan, Türkiyə və İranın bir hissəsini zəbt etməyə çalışırdılar. Ermənistana mandata sahib olduqdan sonra isə bütün Yaxın və Orta Şərqdə öz hegemonluğunu təmin etmək istəyirdilər.

1919-cu ildə amerikalılar "Amerika-Ermənistana mandata sahib" adı altında məcmuə dərc etmişdilər.[22]

Parisdən qayıtdıqdan sonra Vilson senatda Türkiyə ərazilərinə mandat məsələsini müzakirə etməyi təklif etdi. Müzakirə zamanı iki müxtəlif istiqamət meydana çıxdı: Vilson başda olmaqla demokratlara qarşı duran respublikaçılar ABŞ-ın mandat sistemi ilə dünya hegemonluğu siyasətinə əllərini bulamaq istəmirdilər. Fevralın 28-də Ağ evdə senatın xarici işlər komissiyası ilə keçirdiyi müşavirədə Vilson bildirdi "Əgər ABŞ Millətlər Cəmiyyətindən hansısa bir əraziyə mandat alacaqsa bu ərazi Türkiyə Ermənistanı olmalıdır".

Fevralın 26-da Onlar Şurası qarşısında çıxış edən erməni nümayəndəsi Türkiyə, Rusiya, İran və Azərbaycan ərazilərini tutmaqla Böyük Ermənistan dövlətinin yaradılması tələbi ilə çıxış etdi. Lakin belə bir dövlətin yaradılmasına Fransa etiraz etdi. Çünki həmin dövlətin

tərkibinə Kilikiya da qatılırdı. Burada isə Fransanın öz marağı var idi. Eyni zamanda həmin vaxt Vilson bəyan etdi: "ABŞ Ermənistanın ərazisi dənizdən dənizə olduqda mandatı qəbul edəcəkdir".

1919-cu il martın 14-də Vilson Parisə gəldi. Bu vaxtadək beynəlxalq vəziyyət, həmçinin türk məsələsinə ABŞ-ın münasibəti də dəyişmişdi.

Şərqin bir sıra ölkələrində, o cümlədən İranda, Türkiyədə, Hindistanda və b. milli-azadlıq hərəkatı başlanmışdı.

1919-cu ilin martında polkovnik Xauz yazırdı: "Parisdə həll ediləcək problemləri Mərkəzi Avropada, Rusiyada və Yaxın Şərqdə baş verən özbaşınalıqlar daha da gərginləşdirirdi.[23]

Həm İngiltərə, həm də Fransa ABŞ-ın Türkiyəyə mandat alıb bu regionda azadlıq hərəkatını yatıracağına ümid edirdilər. Amma bu məsələdə müttəfiqlərarası ziddiyyətlər daha barışmaz və gərgin xarakter alırdı.

Əgər ABŞ birinci dövrdə gözləmə mövqeyi tuturdusa, Vilson Parisə qayıdandan sonra yalnız Ermənistan və İstanbula deyil, bütün Türkiyəyə mandat uğrunda qəti mübarizəyə atıldı. ABŞ-ın mövqeyinin belə dəyişməsi onunla izah olunurdu ki, İngiltərənin İstanbulda və boğazlarda şəriksiz hökmranlığı, baş vəzir vəzifəsinə ingilispərəst Damad Fərid paşanın təyini gələcəkdə də İngiltərənin boğazları tamamilə zəbt etməsinə gətirib çıxarardı.

1919-cu il martın 20-də Türkiyə məsələsinin müzakirəsi çox çoşğun keçdi. S.Beker göstərir ki, "bu müşavirə digər üzvlərdən gizli keçirildi və hətta Dördlər Şurasının hesabat protokoluna belə salınmadı.[24] Bu müşavirədə türk məsələsinin tamamilə həllinə cəhd olundu.



Osmanlı varisliyinin bölüşdürülməsi uğrunda mübarizə İngiltərənin Suriyaya olan iddialarından sonra daha da kəskinləşdi. Fransa isə bu məsələdə güzəştə getmək istəmirdi.

Fransa xarici işlər naziri M.Pişon müharibə illərində imzalanan gizli müqavilələrin bütün dəqiqliyi ilə yerinə yetirilməsini tələb edirdi. İngiltərə ilə Fransa arasındakı ziddiyyətlərdən ABŞ öz məqsədləri üçün əlverişli istifadə etməyə çalışırdı. ABŞ müharibə illərində Osmanlı imperiyasını parçalamaq haqqında imzalanan müqavilələrin iştirakçısı olmadığından bu müqavilələrin həyata keçirilməsində maraqlı deyildi. Buna görə də V.Vilson J.Klemansoya və L.Corca qarşı çıxış edirdi. O, öz fikrini müəmmalı şəkildə ifadə etdi. Ərəb xalqının "müdafiəçisi kimi" V.Vilson bildirdi ki, mandatın qəbulu bu xalqın öz istəyidir, amma Suriya əhalisinin Fransa mandatına, Mesopotomiya əhalisinin isə İngiltərə mandatına razı olduğuna əmin deyildir. Buna görə də Vilson bu məsələnin qəti həllinədək mandat nəzərdə tutulan ərazilərin əhalisinin mandata razı olub olmamasını öyrənmək üçün xüsusi komissiya göndərilməsini və aydınlaşdırılmasını təklif etdi. Komissiya dörd dövlətin bərabərhüquqlu nümayəndələrindən ibarət olmalı idi. Bu komissiya Vilsona ABŞ-ın müstəmləkə siyasətini malalamaq üçün gərək idi. İngilis və fransız mandatına ərəb xalqının etiraz edəcəyini əvvəldən bilərək Vilson komissiyanın ABŞ xeyrinə daha çox səs toplayacağına və ABŞ-ın Yaxın Şərq siyasətini qanuniləşdirəcəyinə ümid edirdi.

L.Corc və J.Klemanso komissiyanın nəticələrinin onların xeyrinə olmayacağını başa düşdüklərinə görə Vilsonun təklifini soyuq qarşıladılar. Fransızlar daha ciddi etiraz etdilər. İngilislər isə bu təklifi rədd edərək

komissiyanın işinin türk məsələsinin həllini daha da uzadacağını bildirdilər.

Son nəticədə İngiltərə və Fransa bu komissiyanın tərkibinə öz nümayəndələrini qatmaqdan imtina etdilər. Amerikalılar isə bu komissiya ilə oyunu başa çatdırmaq istəyirdilər.

Martın 30-da müttəfiqlərin ərazi iddialarını öyrənmək üçün təşkil olunan komissiya Dördlər Şurasına öz işi haqqında hesabatını və Türkiyənin parçalanması sxemini təqdim etdi. Komissiya iştirakçılarının mövqeyi bir sıra məsələlərdə ayrılırdı. Komissiya İstanbulun, Mərmərə dənizinin və boğazların ayrı-ayrı dövlətlərə bölünməsini və onların hansısa dövlətə mandataltı ərazilər kimi verilməsini təklif etdi. Kiçik Asiyaya münasibətdə komissiya iştirakçıları birgə fikrə gələ bilmədilər. İngiltərə və Fransa nümayəndəliyi Kiçik Asiyada yunan iddialarına razılaşsalar da, amerikalılar Asiya Türkiyəsinin parçalanmasına etiraz etdilər və bu ərazilərin bütöv olaraq mandataltı ərazi kimi hansısa bir dövlətə verilməsini irəli sürdülər.[25]

Türkiyə məsələsində İngiltərə və Fransaya nisbətən ABŞ-ın üstünlüyü Yaxın və Orta Şərtdə milli azadlıq hərəkatının köhnə müstəmləkə dövlətlərinə qarşı çevrildiyindən ibarət idi. Ümumiyyətlə, müsəlman aləmində, ilk növbədə Türkiyədəki milli-azadlıq hərəkatı ingilislərə qarşı çevrilmişdi. Bu isə Fransa və İngiltərəni ABŞ-a nisbətən daha ağır vəziyyətə salırdı.[26] Nəhayət, konfransda müttəfiqlərarası ziddiyyətlərin gərginləşməsi də ABŞ üçün əlverişli idi. Bu ziddiyyətlər sırasına aşağıdakılar daxil idi: Suriya və Mesopotomiya nefti uğrunda ingilis-fransız mübarizəsi; Kiçik Asiya üstündə İtaliya ilə İngiltərə-Fransa arasındakı ziddiyyət, həmçinin İstanbul uğrunda Yunanıstanla ingilis-fransız-italiya rəqabəti.



Müttəfiqlər Yunanıstanın müharibəyə girməsinin əvəzində İzmiri onlara vəd etmişdilər. Mudros barışığından sonra yunanlar İzmirdə geniş təbliğata başlamışdılar. Konfransda Venizolos bölgədə yunan varlığını qəbul etdirməyə çalışırdı. Venizolosun bu fəaliyyəti və istəklərini ABŞ və İtaliyadan fərqli olaraq İngiltərə qəbul edirdi. Konfransdakı hadisələr yunanların xeyrinə gedirdi. İtaliyanın istəkləri qəbul edilmədiyi üçün Orlandonun konfransı tərk etdiyi bir zamanda L.Corc çıxışında "İtalyanlılardan şərq üçün narahat olduqlarını, bu bölgələri işğal edə biləcəklərini və sonra onları Anadoludan çıxarmaq çox çətin olacağını[27] qeyd edərək yunanların bölgəyə girmələrinə icazə verilməsini istədi və mayın 5-6-da italyanlılar Parisə dönmədən bunu qəbul etməyi təklif etdi. Bu zaman bölgədə yunanların "öldürülməsinin qarşısını almaq üçün" tələsməyi və yunan əsgərlərinin tezliklə buraya çıxarılmasını istədilər. Vilson və Klemanso ingilislərin bu fikirlərinə uydular və İzmirin yunanlara verilməsini qəbul etdilər.

İzmirin yunanlar tərəfindən işğal olunacağını eşidən italyalılar cənubi-qərbi Anadoluya təcili olaraq ordu çıxartmağa başladılar. Çünki imzalanan gizli müqavilələrlə bu ərazilər İtaliyaya verilməli idi. Hələ mayın 4-də İtaliya orduları Quş adasına çıxardılmışdı. Mayın 11-12-də onlar Fəthiyi, Bodrum Makri, Mərmərisi və Ağşəhəri tutmuşdular.[28]

İtaliyanın bu "özbaşına" hərəkətləri müttəfiqlərdə ciddi narazılığa səbəb oldu. Onlar İtaliyanın bu hərəkətləri barədə izahat verməyi tələb etdilər.

İtaliyanın 19 may tarixli cavabında göstərilirdi: "Kiçik Asiyada həyata keçirilən İtaliya işğalları ictimai qayda-qanunu saxlamaq üçündür".[29]

1919-cu il mayın 14-də ingilis admiralı Ueb baş vəzir

Damad Fərid paşaya müttəfiqlərin İzmirin işğal edilməsi haqqında rəsmi notasını təqdim etdi. Həmin notada deyilirdi: "Paris sülh konfransı Ali şurasından və İzmir sularında müttəfiqlərin hərbi-dəniz qüvvələri komandanı admiral Kaltorpdan aldığım əmrə əsasən mən türk hökumətinə məlum edirəm ki, İzmir istehkamları müttəfiqlərin tabeliyinə verilməlidir. Göstərilən sərəncama əsasən, bu barədə İzmirdəki hakimiyyət orqanlarına məlumat verməniz Sizdən xahiş edirəm. İzmirdəki indiki vəziyyət müttəfiqləri Mudros müqaviləsinə əsaslanaraq bu əməliyyatı həyata keçirməyə məcbur etdi.[30]

Eyni notanı admiral Kaltorp İzmir qubernatoru və XVII ordu komandirinə də göndərdi. Türk hökuməti İzmirin müttəfiqlər tərəfindən işğalına etiraz etməyə belə cəsarət etmədi.[31]

Mayın 15-də müttəfiqlərin hərbi gəmilərinin köməyi ilə yunanlar İzmirə desant çıxartdılar.[32] On beş gündən sonra isə bütün İzmir vilayəti işğal edildi. İzmirin belə haqsız olaraq işğal edilməsi böyük narazılıqlar doğurdu. Yunan əsgərləri ətrafa atəş açaraq hər kəsi öldürməyə başladılar. Bu hadisələrin çoxunu məhz İzmirli yunanların törətməsi daha çox üzüntü yaratdı. Yunanlar İzmiri işğal edərək ilk gün 400, iki gündə 2000 və bir həftə ərzində 5000 türkü qətlə yetirdilər.[33]

İzmirin işğalı yerli və xarici qəzetlər vasitəsi ilə dünyaya yayıldı. Fransız qəzetləri "Osmanlı türk imperiyasının sona gəldiyini" və "Türkiyənin parçalanması"[34] və b. başlıqlar altında yazılar dərc etdilər. Bu məlumatlarda "bölgəyə vaxtında müdaxilə edildiyi, bölgədəki xristianların qurtarıldığı və İzmir ətrafında asayişin qorunduğu" qeyd edilirdi. Yunan və ermənilər isə bu hadisələri "edilməsi vacib aksiyalar" kimi qiymətləndirirdilər.[35]



Ancaq az sonra İzmirdə yunanların törətdikləri vəhşilikləri görüncə ingilis parlamentində buna qarşı çıxanlar tapıldı. S.Beker bunu "irgənc bir intriqa", V.Vilson isə "edilənləri dəlilik" adlandırdı.[36]

İzmirin işğalı bütün ölkədə böyük bir etiraza səbəb oldu. Türk mətbuatı qadağanlara baxmayaraq öz işini yerinə yetirərək həyəcan doğuran yazılar dərc edirdi. Mayın 19-da İstanbulda Fatih bələdiyyəsi qarşısındakı toplantıda "İzmir türkündür və türkün olacaqdır" şüarı daşıyan böyük bir mitinq keçirildi. Mitinqdəki çıxışlar xalqı coşdurdu. Xalidə Ədip (Adivar) xalqı coşduran çıxışında belə söylədi: "Müsəlmanlar, türklər, türk və müsəlmanlar bu gün ən qara gününü yaşayırlar. Gecə qaranlıq bir gecə... Fəqət insan həyatında sabahı olmayan gecə yoxdur, sabah parlaq bir sabah olacaqdır".[37] X.Ədipin bu çıxışı böyük bir həyəcan yaratdı. Mayın 22-də Kadıgöydə və mayın 23-də Sultan Əhməd meydanında mitinqlər keçirildi. Bəzi yerlərdə müsəlman olmayanlar da mitinqlərə gəlirdilər.

Qeyd edək ki, hələ Mudros barışığı imzalanandan sonra İzmirdə "İzmir Müdafiə hüquq Cəmiyyəti" təşkil edilmişdi. Cəmiyyətin əsas məqsədləri İzmirin yunanlara verilməsinin qarşısını almaq, İzmir və ətraf ərazilərin türklüyünü dünyaya aydınlaşdırmaq, Paris konfransında hər hansı bir qərar üçün təsir etmək, bundan başqa vətənin maddi və mənəvi cəhətdən güclənməsi yolunda çalışmaq idi.[38] 1919-cu il martın 2-19-da İzmirdə cəmiyyətin toplantısı oldu və burada şəhərə hücum təsadüfündə silahlı müqavimət göstərmək qərara alındı. İşğaldan sonrakı mübarizədə cəmiyyətin böyük rolu oldu.

İzmir və ətraf ərazilərdən, Egey dənizi sahilindən ölkənin içərilərinə doğru köç başlanmışdı. İmperiya şərqdə və şimalda bir çox əraziləri itirmişdi. Lakin Anadoluya

düşmənin daxil olması çox çətin idi və böyük həyəcan doğururdu. Çünki bu, ana vətən məsələsi idi, verilməsi və tərk edilməsi mümkün deyildi.

Xalqın təzyiqi ilə Damad Fərid paşa müttəfiqlərə etiraz notası göndərsə də, ona heç bir cavab verilmədi. Bundan sonra hökumət istefaya getmək məcburiyyətində qaldı.

İzmir haqqında sövdələşmə, həmçinin almanlarla sülh müqaviləsi layihəsi üzərində iş başa çatdığına görə Dördlər Şurasında bütünlüklə türk məsələsinin müzakirəsinə imkan yarandı. Almanların müqaviləni imzalaması məsələsində şübhə yarandığından hərbi ekspertlərə hər ehtimala qarşı tədbirlər hazırlamaq tapşırıldı. Mayın 9-da keçirilən iclasda L.Corc bildirdi: "On beş gündən sonra biz biləcəyik: yenə müharibə olacaq ya, yox". Bununla bərabər, gündəlikdəki əsas məsələ türk məsələsi idi. Mayın 12-də V.Vilson Parisə qayıdan İtaliya baş naziri Orlandoya yunanların İzmirə buraxılması haqqında müttəfiqlərin qərarını çatdırdı. O, bu xəbəri çox etirazla qarşıladı. Orlandonu sakitləşdirmək üçün L.Corc V.Vilsonun və J.Klemansonun razılığı ilə "Kiçik Asiyada italyalılara kompensasiya veriləcəyini bildirdi".[39]

1919-cu il mayın 14-də V.Vilson, L.Corc və J.Klemanso Türkiyənin bölüşdürülməsi haqqında ekspertlər komissiyasının hazırladığı layihənin müzakirəsinə başladılar. Həmin layihəyə əsasən türk əraziləri aşağıdakı zonalara bölünürdü: 1) yunan zonası; b) beynəlxalq nəzarət altında bütün Anadolu daxil olmaq şərti ilə türk dövləti; v) İtaliyanın kommersiya və immiqrasiya marağı olan Antaliya zonası; q) ABŞ-ın mandatı altında Ermənistan, İstanbul, Bosfor, Dardanel bir sıra yaxın ərazilərlə birgə Mərmərə dənizi zonası.

Ermənistan, İstanbul və boğazların ABŞ mandatına



verilməsi Dördlər şurasında etiraza səbəb olmadı. Anadolu məsələsində isə qarşıya böyük çətinliklər çıxdı. İtaliya, Fransa və Yunanıstan Kiçik Asiyadakı iddialarının yerinə yetirilməsini tələb edirdilər. İtaliya Fium adalarına iddia edirdi. Bu iddialarının yerinə yetirilmədiyinə görə İtaliya Anadolunun bir hissəsinə deyil, bütün Anadoluya mandat tələb edirdi. Fransa Türkiyədəki əvvəlki mövqeyini saxlamaq məqsədi ilə bu iddia ilə razılaşmadı. Vilson isə İzmiri Yunanıstan nüfuz dairəsinə verməklə Anadolunu iki hissəyə bölməyi təklif etdi. O, bütün Türkiyəni öz tabeliyinə keçirməyə çalışaraq Anadolunun cənubunda "siyasi özünü idarə birliyi" yaratmağın gərəkliyini bildirdi. Bu "birliyin" paytaxtı Konya şəhəri olmaq şərti ilə general-qubernatorun rəhbərliyi altında olmalı idi. Əgər bu plan həyata keçirilsə İstanbul və Ermənistana mandata sahib olmaqla ABŞ faktik olaraq Anadoluda hakimiyyəti ələ almış olurdu. Lakin Vilsonun planları rəqibləri tərəfindən başa düşüldü. Bu iclasda iştirak edən Q.Nikolson yazırdı: "Sadəcə olaraq dəhşətdir ki, bu cahil və məsuliyyətsiz adamlar Türkiyəni şirin bir tort kimi bölüşdürürlər".[40]

Osmanlı imperiyasının parçalanmasına dair uzun sürən müzakirədən sonra müttəfiqlər belə bir qərara gəldilər: 1) Türkiyə Avropa və Ermənistandan məhrum edilir; 2) Yunanıstan İzmir Heyvalı zonasına sahib olur və Aydın əyalətinin böyük hissəsinə mandat alır; 3) İtaliya Mərmərəsdən Mərsinədək Kiçik Asiyanın cənub hissəsinə Konya şəhəri ilə birgə mandat alır; 4) Qalan ərazilər Fransaya verilir.[41]

Ermənistan və İstanbula gəldikdə isə, bu ərazilər L.Corc tərəfindən V.Vilsona təklif edildi və prezident bunu qəbul etdi.

Ermənistan və İstanbul haqqında qəbul edilən

qətnamədə deyilirdi:

"ABŞ prezidenti Birləşmiş Ştatlar adından senatın razılığı olmaq şərti ilə aşağıdakıları qəbul edir:

1) ABŞ, İngiltərə, Fransa, İtaliya tərəfindən sərhədləri sonradan müəyyənləşdiriləcək Ermənistana mandat;

2) Sərhədlər dörd dövlətin razılığı ilə müəyyənlənşiriləcək. İstanbul, Bosfor və Dardanel boğazları, Mərmərə dənizi və çox da olmayan qonşu ərazilərə mandat".[42]

Lakin bu ərazilərə mandatın ABŞ-a verilməsi haqqında qərara tezliklə yenidən baxıldı. Bir zaman türklərin Avropadan qovulması tələbi ilə çıxış edən L.Corc mövqeyini dəyişərək İstanbulu türklərə verməyi təklif etdi. Bu, 1919-cu ilin yayı üçün vəziyyətin dəyişməsi ilə izah olunur. Türkiyədə milli-azadlıq hərəkatı genişlənirdi. İngilislər yunanların əli ilə bu hərəkatı məhv etmək və İstanbulda Sultan hakimiyyətini möhkəmləndirib onun vasitəsilə bütün Türkiyəni İngiltərəyə tabe etmək istəyirdilər".[43] Türkiyədəki müstəqillik uğrunda hərəkat bütün şərqdə əks-səda vermişdi. Əsasən də Hindistanda. Belə şəraitdə ingilislər öz siyasətlərinin mahiyyətini dəyişdilər.

Müsəlmanlar Sultanı peyğəmbərin davamçısı, yəni dünya müsəlmanlarının lideri kimi qəbul edirdilər.[44] Buna görə də Sultanın İstanbuldan qovulması xəbəri hind müsəlmanlarına çatanda ölkədə etiraz hərəkatı başlandı.[45]

1919-cu il 5 aprel tarixdə "Osmanlı dövləti və İslam dünyası" şüarı altında Hindistan müsəlmanları Türkiyənin müqəddəratı haqda verilən qərarlara etirazlarını bildirdilər: "İslam dünyasının ən böyük ərazilərindən biri olan Hindistan müsəlmanları haqqlarını elə bir qüvvəyə dayanaraq bildirirlər ki, indiyə qədər bu qüvvəyi hesaba



almayıblar, amma indi bu qüvvə özünü Avropaya tanıdır. Bu tanışlığın haqqımızda xeyirli olacağı şübhəsizdir və bunun kəskin təsirlərini lap yaxında görəcəyimizə əminik. Hind müsəlmanları dövlətimizin müstəqilliyini qoruyurdu. Osmanlı dövlətini parçalamaq deyil, Osmanlı dövlətini təşkil edən iki islam birliyinin – türk və ərəblərin müstəqillik və hürriyətə sahib olmaqla bərabər, bir-birinə bağlı olaraq və xilafətlik nüfuzunu qoruyub yaşamaq əsasına dayanaraq mülkü bütövlüyümüzü və müstəqilliyimizi qurtarmaq üçün çalışırlar. Hindistan müsəlmanlarının düşündükləri budur".[46]

Konfransda 70 milyon hind müsəlmanını təmsil edən Mihraç Bikanir bir nümayəndə heyətinin başçısı olaraq, islam dininin xəlifəsi olan Sultanı müdafiə etməyə gəlmişdi. Nümayəndə heyəti əsasən İstanbul məsələsini əvvələ çəkmiş və almanlara Berlin, avstriyalılara Vyana tərk edildiyi halda türklərdən İstanbulun alınması mümkün ola bilməyəcəyini açıqlamışdı. Hindlilərin bu tərzdə tələbi Dördlər Şurasında diqqət çəkən bir təsir oyandırdı. Həqiqətən də Dördlər Şurasında hind müsəlmanlarının təmsilçisi olan Bikanirin dinlənilməsindən sonra vəziyyət dəyişdi.[47]

Həmçinin qeyd edək ki, 1919-cu ilin sonunda da bütün müsəlman təəbələr baş nazirə məktublar göndərmişdilər. Bu məktublarda əvvəlcə İstanbulun, sonra isə bütün müsəlman dünyasının taleyindən narahatlıqlar bildirilirdi.[48] Hindistanda "Müsəlman cəmiyyəti" Sultan hüququnun müdafiəsi üçün – xəlifə cəmiyyəti belə təşkil etmişdi.[49]

Beləliklə, müttəfiqlər yaranmış vəziyyətlə hesablaşmaq məcburiyyətində qaldılar və İstanbul məsələsində mövqelərini dəyişməli oldular.

İngilislər türklərin İstanbuldan İngiltərənin müsəlman müstəmləkələrində milli-azadlıq hərəkatının genişlənməsinə

yeni bir təkan verə biləcəyindən qorxurdular. Bütün bunlardan nəticə çıxaran L.Corc İstanbulun taleyi məsələsində fikrini dəyişdi.

İstanbul məsələsinin yenidən baxılması üçün əlverişli vəziyyət hind "nümayəndəliyinin" Parisə gəlişindən sonra yarandı. Bu nümayəndəlik əslində ingilislər tərəfindən seçilmişdi. Nümayəndəliyə Hindistan üzrə nazir Monteqyu başçılıq edirdi. Nümayəndəlik konfransda türk dövlətinin saxlanması və Sultanın İstanbulda qalması tələbi ilə çıxış etdi.[50] A.Mareskotti öz gündəliyində yazır: "Hind nümayəndəliyinin çıxışı ingilislərin öyrətdiyi dərsə bənzəyirdi".[51]

L.Corc özünü elə göstərdi ki, guya bütün bunlar ona çox pis təsir etdi.

V.Vilson isə yüksək tonla L.Corca bildirdi ki, "hind nümayəndəliyinin çıxışı ona da böyük təsir etdi".[52]

L.Corcun fikrincə, Sultanın İstanbulda saxlanması İngiltərənin faktik hakimiyyəti altında Anadoluya İstanbulun birləşdirilməsinə yol açır. İngilislərin bu hərəkətlərinin məqsədini başa düşən V.Vilson isə bu birləşmənin əks yolunu təklif etdi: İstanbulu Anadoluya deyil, Anadolunu İstanbula birləşdirməklə "Roma papası" kimi saxlamaq. Vilson ABŞ-ın nüfuz dairəsinin genişləndirilməsi üçün növbəti addım atdı. Ermənistan və İstanbulla bərabər o, Anadoluya da iddia irəli sürdü. Bununla belə, L.Corc Vilsonun təklifini müdafiə etdi. Taktik baxımdan bu, ingilislər üçün əlverişli idi. Çünki Anadoludan Fransa və İtaliyanın uzaqlaşdırılmasını yüngülləşdirərdi. Ona görə də mayın 21-də "Üçlər şurası"nın iclasında L.Corc türk məsələsinin nizamlanmasında yeni "layihə" təklif etdi: "Anadoluya mandatı İstanbul mandatına malik olan dövlətə vermək lazımdır. Az-çox layiq dövlət isə ABŞ-dır". Anadoluya bir



neçə mandat verilməsinin məqsədəuyğun olmadığını sübut etməyə çalışaraq o, bildirdi: "Əgər Anadolu iki hissəyə bölünsə, şimalda fransızlar, cənubda italyalılar, Sultan isə Bursada qalsa, Fransa mütləq İtaliya zonasına müdaxilə edəcəkdir".

İngiltərənin bu qərara gəlməsi ABŞ-ın çoxdankı arzusu idi. V.Vilson L.Corcdan sonra çıxış edərək bu qərarın məqsədəmüvafiq olduğunu bildirdi. O, Sultanın mandat alan ölkə ilə tez-tez məsləhətləşməsini istəyirdi. L.Corc sonra bildirdi ki, əgər ABŞ hər-hansı səbəbdən Anadoluya mandatı almayacaqsa, onda Sultanı Anadoluya köçürmək və onun üçün lazımi şərait yaratmaq lazımdır.

V.Vilson respublikaçılar və demokratlar arasındakı mübarizəni və müxalifətin Millətlər Cəmiyyəti Nizamnaməsi və mandat sisteminə qarşı çıxdıqlarını nəzərə alaraq senatın Türkiyəyə mandatı qəbul edəcəyindəki çətinlikləri yaxşı görürdü. Bununla əlaqədar prezident Sultana təzyiq etmək şansını əldən vermək istəmirdi. Ona görə də bildirdi ki, "bütün hallarda Sultan İstanbulda qalacaq və Sultana görə müsəlman dünyasında təşvişə səbəb qalmayacaq".

C.Klemanso isə yuxarıda göstərdiyimiz səbəblərə görə hər iki layihənin əleyhinə çıxdı. O hiddətini daha çox L.Corca tökdü. Çünki 1916-cı il müqaviləsinə görə Fransanın Mosul və Fələstindən pay alacağını inkar edirdi. Buna görə də L.Corc və J.Klemanso arasında A.Mareskottinin sözlərincə desək "vəhşi it döyüşü gedirdi".[53] 1919-cu il mayın 22-də Sayks-Piko müqaviləsinin dəqiqləşdirilməsi haqqında razılaşma imzalandı. Həmin razılaşmaya görə "Fələstin və Mosul vilayəti İngiltərə nüfuz dairəsinə keçirdi. Öz növbəsində İngiltərə ordularını Suriya və Kilikiyadan çıxarmağı öhdəsinə götürdü. Həmin ərazilər Fransa işğalı altına verildi. İngiltərə həmçinin Zonquldaq

kömür hövzəsinin Fransaya verilməsini qəbul etdi”.[54]

Türkiyənin bölüşdürülməsi nə qədər uzanırdısa bir o qədər müttəfiqlərarası münasibətlər gərginləşirdi. Bu isə amerikalılar üçün əlverişli idi. Çünki L.Corc və C.Klemanso, həmçinin Orlando bir-birinə hücum edərək Vilsonu öz tərəflərinə çəkməyə çalışırdılar. Buna görə də İstanbul və boğazların Amerika mandatı altına verilməsinə şübhə qalmırdı. Çox diplomatik formada L.Corc və C.Klemanso öz mövqelərini ABŞ-a qarşı möhkəmləndirməyə cəhd etdilər.

Uzun sürən müzakirələrdən sonra Türkiyənin parçalanmasına dair ilkin razılaşma əldə edildi. Bu aşağıdakılardan ibarət idi:

1. ABŞ Bosfor və Dardanel boğazları və İstanbula tam mandat (afull mandate) alır.

2. I alternativ: ABŞ bütün Anadoluya yüngül mandat (liqti mandate) alır. Sultan və onun hökuməti İstanbulda qalır.

II alternativ: Əgər ABŞ bütün Anadoluya mandat qəbul etməsə, bu rayon Sultanın suverenliyi altında mandatsız qalır.

3. Aydın vilayətinin bir hissəsi Yunanıstana birləşdirilir. Yunanıstan hər hansı başqa bir əraziyə mandat almır.

4. ABŞ bütün Ermənistan və Kilikiyaya mandat alır.

5. Ermənistan mandatına müvəqqəti olaraq Ermənistanın rus hissəsi, Azərbaycan və bütün Qafqaz rayonu daxil olur (rus probleminin həlli gözlənilməklə).

6. Fransa Yaxın Şərqə göndərilən komissiyanın hesabatını gözləməklə müvəqqəti olaraq Suriyaya mandat alır.

7. Həmin hesabatı gözləməklə İngiltərə Mesopotomiyaya və Fələstinə müvəqqəti mandat alır.



8. Ərəbistan müstəqil qalır.

Müttəfiqlər müsəlmanlara onların müqəddəs yerlərinin toxunulmazlığını vəd edirlər.

Mayın 30-da C.Klemanso Dördlər Şurasına “sülh konfransına “açıqlıq” gətirmək üçün osmanlı nümayəndəsinin konfransa gəlməsinə icazə verilməsini təklif etdi.[55] L.Corc bu təklifi müdafiə etdi. Vilson isə bu məsələyə ehtiyatla yanaşdısa da etiraz da etmədi. Nəticədə “Şura Osmanlı nümayəndəsini konfransa dəvət etmək və müvafiq teleqramı Osmanlı hökumətinə göndərmək barədə qərar qəbul etdi”.[56]

Osmanlı nümayəndəliyinin konfransa dəvət edilməsində hər üç tərəf gizli olaraq türkləri öz tərəflərinə çəkəcəklərinə ümid edirdilər. Bu ümidə ingilislərin daha çox əsası var idi. Çünki Sultan və hökumət ingilis protektorluğuna daha çox meylli idilər. Amma fransızların da Sultan hökumətində öz agentləri var idi. Xarici işlər naziri Əli Kamal bəy hətta, İstanbuldakı Fransa ali komissarı Defransa formal olaraq onların Fransa himayəçiliyini qəbul etməyə hazır olduqlarını bildirmişdi.[57]

Həqiqətdə isə baş vəzir bu bəyənatı qəbul etməkdə tərəddüd edirdi. Lakin Osmanlı hökumətindəki “satqınlıqlar” fransızlarda da nəticədə Damad Fərid paşanın da fransızlara meyl edəcəyi barədə ümid yaradırdı. Fransanın burada güclü maliyyə mövqeyi bu ümidləri möhkəmləndirirdi. Vilsonun isə Osmanlı nümayəndəliyinin Parisə gəlməsinə münasibəti aşağıdakı amillərlə izah olunurdu: birinci, o, “bitərəf hakim” rolunu öz üzərinə götürmüşdü; ikinci, İstanbulda Amerika mandatı uğrunda güclü təbliğat gedirdi. M.Kamal sonralar yazırdı ki, “ölkədə aristokratlar qrupu mövcud idi, onlar qəti olaraq bildirirdilər ki, həqiqətən ölkəni yalnız Amerika mandat aldıqdan sonra xilas etmək olar”.[58]

İyunun 7-də baş vəzir Damad Fərid paşa başda olmaqla türk nümayəndə heyəti Parisə gəldi. Damad Fərid paşa konfransa böyük ümidlərlə gəlsə də, əliboş döndü.

İyunun 17-də isə Osmanlı nümayəndəliyi Onlar Şurası tərəfindən Orsey sahilindəki "Saat zalında" qəbul edildi. Fərid paşa Dördlər şurası qarşısında çıxış etdi. Onun çıxışı imperialistlərin ümidlərini doğrultmadı. Fərid paşa Türkiyə üzərində hər hansı bir dövlətin mandatının müəyyənləşdirilməsi haqqında çıxış etmədi. O, müttəfiqlər qarşısında Türkiyəyə bəraət qazandırmağa çalışdı. Sultan hökuməti nəinki müharibəyəqədərki sərhədlərin saxlanmasını, hətta Qərbi Frakiyanın türklərə qaytarılmasını tələb edirdi.

Fərid paşanın çıxışı konfrans rəhbərləri tərəfindən çox soyuq qarşılandı. Klemanso hiddətli şəkildə bəyan etdi ki, "türklər öz istəklərini yazılı surətdə bildirməli, yazılı surətdə də cavab almalıdırlar". Elə həmin gün tələbnamə memorandumu hazırlandı. İyunun 23-də isə ikinci memorandum müttəfiqlərə təqdim edildi. Burada Osmanlı imperiyasının ayrı-ayrı ərazilərinə aid təkliflər dəqiqləşdirilmişdi. Bu sənəddə İstanbul və boğazlar məsələsinə toxunulmurdu. Ermənistan haqqında deyilirdi: "Əgər İrəvanda təşkil edilmiş Ermənistan Respublikası müttəfiqlər tərəfindən tanınsa, onda Osmanlı nümayəndəsi onunla sərhəd xəttini müzakirə etməyə razıdır". Ərəb əraziləri Sultanın syuzereniteti altında saxlanılır və bunlar hər biri İngiltərə və Fransa ilə münasibətlərə dair müqavilələr imzalaya bilər.

Ümumiyyətlə, Osmanlı nümayəndəliyinin gəlişi Paris konfransında qüvvələr nisbətini dəyişmədi. Vilson türklərin ingilis və fransızlar içərisində özlərinə dayaq axtarmaq cəhdlərindən hiddətlənirdi. Lakin türklər Amerika



mandatından heç bir söz demədilər və Ermənistan haqqında onların bəyanatı daha çox qeyri-müəyyən xarakter daşıyır. L.Corc "hələ ki, türk nümayəndəliyi Parisdə olduğundan Türkiyə ilə qısa sülh şərtlərinin layihəsini müəyyənləşdirməyə cəhd etdi".[59] Vilson isə türklərin konfransı tərk etmələrini tələb etdi və buna da nail oldu.

Dördlər şurası Osmanlı nümayəndəliyinə cavab notasında bildirdi ki, müttəfiqlərin türk xalqına "böyük hörmət" bəsləmələrinə, onların müsbət keyfiyyətlərini qiymətləndirmələrinə baxmayaraq "türklər heç bir güzəştə ümid edə bilməzlər, türklərin başqa xalqlar üzərində ağalıq etmələrinə onlar razı ola bilməzlər. Osmanlı türkləri həm Avropada, həm Asiyada, həm də Afrikada əldə etdiklərini dağıtdılar; türk məsələsi beynəlxalq problemlərlə sıx bağlıdır, bu məsələnin tezliklə həlli mümkün deyil və Osmanlı nümayəndəliyinin Parisə gəlməsindən heç bir fayda olmayacaq".[60]

Müttəfiqlərin bu notası hər şeydən öncə, Vilsonun istəyinə daha uyğun idi. Türkiyəyə münasibətdə hər hansı bir öhdəlik götürməyi istəmirdi.

Dördlər Şurasının iyunun 27-də qəbul etdiyi qətnaməsində göstərilirdi ki, "Türkiyə ilə sülh müqaviləsinin hazırlanmasının müzakirəsinə fasilə verilməlidir. Çünki ABŞ-ın Türkiyənin bir hissəsinə mandatı qəbul edəcəyi məlum deyildir".[61]

İngilislər üçün əlverişli vəziyyət yarandı, çünki, qeyri-müəyyən müddətə İstanbul və boğazlarda hökmranlıq faktik olaraq onların əlində qalırdı.

İyunun 28-də Versalda Almaniya ilə sülh müqaviləsi imzalandı və dövlət başçıları öz təmsilçilərini saxlayaraq Parisi tərk etdilər. Ən çətin məsələ olan türk məsələsi həll edilməmiş qaldı, İngiltərə və Fransa isə ABŞ-a münasibətdə

daha müstəqil mövqe tuturdular.

V.Vilson gedəndən sonra Parisdə qalan Amerika nümayəndə heyətinin üzvləri Uayt, Polk və başqaları ikitərəfli təzyiqə məruz qaldılar: Vilson əleyhinə olan müxalifət və Avropa diplomatiyası. Bu iki rəqiblə bacarmaq üçün heç olmasa birinin müdafiəsinə nail olmaq lazım idi. Amma bu mümkün deyildi və Amerika diplomatiyası öz fəaliyyətini zəiflətdi.

1919-cu ilin ikinci yarısından başlayaraq İstanbul məsələsi konfransda artıq ABŞ xeyrinə həll edilmiş kimi deyil, ətraflı öyrənilməsi gərək olan bir problem kimi baxılırdı. İyulun 18-də Vilsonun göndərdiyi teleqramı Uayt nümayəndələr başçıları şurasında oxudu: "Osmanlı hökuməti ilə müqavilənin müzakirəsini dayandırmaq haqqında qərarı nəzərə alaraq ABŞ hökuməti türk ərazilərinə mandata sahib ola biləcəyini söyləmək imkanına malik deyil. Ona görə də bu fasilənin əhəmiyyətli olacağını nəzərə alaraq Türkiyəyə münasibətdə hansı mövqe tutulacağını bilmək istərdi".[62] Klemanso Vilsonun bu teleqramından bərk hirsləndi. O, bildirdi ki, "mahiyyət üzrə nə isə deyə bilməz. Çünki konfrans indi başqa işlə məşğuldur, amma bu məsələni sonsuzadək saxlamaq olmaz. Prezident bütün çətinlikləri bilir. O, Ermənistana mandat istəyir. Oraya Amerika komissarı təyin edilir. İstanbul məsələsi Avropa üçün çox əhəmiyyətli məsələdir. O, keçmiş müharibənin səbəbi olmuşdur və çox geniş öyrənilməlidir".[63] Balfur həmçinin bildirdi ki, "indiki zamanda prezidentə qəti cavab vermək mümkün deyildir".

V.Vilson az sonra İstanbul məsələsində müttəfiqlərindən qəti etiraz cavabı aldı. İyulun 31-də Bolqarıstan sərhədləri müzakirə olunarkən Uayt Vilsonun təklifini bəyan etdi: "Bolqarıstan müttəfiqlərin və onlara qoşulmuş



dövlətlərin İstanbul dövlətinin ərazisinə Bolqarıstan Fraksiyasını qatmaq hüquqlarını qəbul etsin". Klemanso həmin an etiraz edərək bildirdi: "Əgər gələcək İstanbul dövlətinin ərazisi belə genişlənərsə, onda ümumi razılıq əldə edilməyəcəkdir. İstanbul üçün dəqiq və məhdud proqram qəbul edilməlidir, əks halda mandatçı tapmaq mümkün olmayacaqdır".[64] Nəticədə Vilsonun təklifi rədd edildi.

Paris sülh konfransında ABŞ diplomatlarının fəaliyyətinin zəifləməsinə baxmayaraq, Türkiyədə Amerika təbliğatçıları çox böyük həvəslə işləyirdilər. ABŞ-ın Türkiyədə daimi nümayəndəliyi nəzərə alınmazsa 1919-cu ilin yay və payızında Türkiyəyə iki rəsmi komissiya gəldi: Kinq-Kreyn komissiyası və general Harbordun komissiyası.

Kinq-Kreyin komissiyası 1919-cu ilin iyun-iyul aylarında Suriya, Fələstin, Adana və Mersində oldu və iyulun sonunda İstanbula gəldi. Komissiyanın fəaliyyətində başlıca məqsəd Amerikanın yürütdüyü siyasəti əsaslandırmaq məqsədi ilə "faktlar" toplamaq idi. Komissiyanın hazırladığı hesabatın mətnindən məlum olur ki, o, bütünlüklə türk məsələsi ilə məşğul olmuşdu. Komissiya Ermənistana Kilikiya ilə birgə Anadoluya və "İstanbul dövlətinə" mandatın ABŞ-a verilməsini təklif etmişdi. Komissiya erməni-türk münaqişəsi zonasından yalnız Kilikiyada olmasına baxmayaraq, özünü kifayət qədər məlumatlı hesab edirdi. O, türklərin erməniləri qırmasını israr edirdi. Amma komissiya ermənilərin türkləri qırması haqda heç nə demirdi. O, türk-erməni məsələsinin yeganə həllini Şərqi Anadoluda ayrıca erməni dövlətinin təşkilində görürdü. Ayrıca erməni dövlətinin yaradılmasını əsaslandırmaq üçün onlar aşağıdakıları sübut etməyə çalışırdılar:

1. Türklərin nəinki başqalarını, hətta özlərini də idarə edə bilmədiklərinin aşkar edilməsini; 2. Törədilmiş qırğınların

dövlətin düşünülmüş siyasəti kimi qəbul edilməsini; 3. Türklər özlərini günahkar hesab etmədikləri halda törədilmiş qırğınlar və cinayətlər üçün peşimançılıq hisslərinin olmamasını; 4. İki icmanın bir yerdə yaşamasının qeyri-mümkünlüyünü, onların ayrıca dövlətlərinin olmasını, ermənilərin və türklərin maraqlarını nəzərə almaqla ayrıca erməni dövlətinin yaradılmasının sürətləndirilməsinin vacibliyini.

Türklərin əleyhinə və ermənilərin xeyrinə bir sıra bəyanatlardan sonra Kinq və Kreyn onların təklif etdikləri erməni dövlətinin müstəqil mövcud ola bilmədiyini elan etdilər. Erməni dövləti hansısa bir qərb dövlətinin qəyyumluğu altında mövcud olmalıdır. Ermənistana mandatı ABŞ-ın götürməsi təklif olunurdu.

Kinq-Kreynin komissiyasının nəticələri gözlənildiyi kimi oldu:

1. Bütün ərəb əraziləri Osmanlı imperiyasından alınmalıdır; 2. Ermənilərin ayrıca dövləti olmayınca türklər əvvəlki kimi onları "qırmaqda" davam edəcəklər; 3. Ermənistan həmişəlik türk idarəsindən azad olunmalıdır".[65]

Lakin bu komissiyanın işinin real nəticələri olmadı.

Qeyd etdiyimiz kimi, general Harbordun rəhbərliyi ilə başqa bir komissiya da göndərilmişdi. Komissiya Anadoluda və Şərqdəki əlaqəli bölgələrdə "araşdırmalar" apararaq bir raport hazırladı.

Harbordun komissiyasının hesabatında A.F.Millerin[66] və b. göstərdikləri kimi, ABŞ-ın bu ərazilərə mandatını əsaslandırmaq, ermənilərin xeyrinə fikirlər söyləməklə yanaşı həqiqətə uyğun fikirlər də çoxdur. Çünki, Türkiyədəki və ABŞ-dakı nəşrləri araşdırarkən maraqlı məlumatlar əldə etmək mümkündür. Belə ki, bu nəşrlərdə[67] Harbordun hesabatının bir çox tarixi həqiqətləri ortaya qoyduğu göstərilir. Hesabatda ermənilərin çoxluq təşkil et-



diyi yerlərin olmadığı, bu məsələdəki iddiaların gerçək olmadığı və bir dövlət qurdurulması halında azlıqda qalan icmanın çoxluq üzərində hakim olacağı göstərilirdi. Bundan başqa Türkiyəyə mandat məsələsində qeyd edilirdi: millətçilər (türklər) müstəqillik üçün sona qədər döyüşmək fikrindədirlər və onları məğlub etmək üçün 400 min ordu lazımdır. Bundan başqa raportda ABŞ-ın mandata sahib olacağı təqdirdə hansı iqtisadi çətinliklərlə qarşılaşacağı da öz əksini tapmışdı.[68] Fikrimizcə, bu məlumatlar həqiqətə daha çox uyğundur. Çünki, Harbordun raportunda yer alan bu həqiqətlər qarşısında ABŞ konqresi, Türkiyəyə mandat siyasətini rədd etmişdi.

Həmin zaman başqa bir təhqiqatı Bristol heyəti də aparmışdı. Yunanların Qərbi Anadoludakı işğalları qarşısında türk müdafiəsi müttəfiqləri çox məyus edib düşündürürdü. Bölgədə təhqiqat aparmaq məqsədilə ABŞ, İngiltərə, Fransa və İtaliya nümayəndələrindən ibarət bir heyət göndərmişdi. Heyətin rəhbəri ABŞ-ın İstanbulda təmsilçisi Bristol idi. Bu heyət Qərbi Anadolu və İzmir ətrafında bir neçə həftəlik araşdırmalar apararaq 1919-cu il sentyabrın 12-də bitərəf bir hesabat hazırladı. Hesabat aşağıdakı bəndlərdən ibarət idi:

1. Mudros barışığından sonra İzmir və ətrafında xristian azlıqların həyatının təhlükədə olduğuna dair sülh konfransına səhv məlumat verilmişdir. Bu məlumatları vermiş olan hökumətlər və şəxslər təqsirkardılar.

2. İzmirin işğalından sonra Qərbi Anadoluda baş verən hadisələrdə yunanlılar təqsirlidir.

3. Yunan əsgərləri dərhal geri çəkilməli və yerinə Müttəfiq qüvvətləri göndərməlidir.

4. İzmir və ətraf ərazilərin milli səbəblərdən Yunanıstana birləşdirilməsi mümkün deyildir. Çünki, burada

türklər daha çoxdur.[69]

Bristolun bu hesabatı tarixi həqiqəti göstərən əhəmiyyətli bir sənəddir. Ancaq İngiltərə baş naziri L.Corcun tələbi ilə həm Paris konfransı və həm də əlaqədar dövlətlər bu bitərəf raportu nəzərə almamışdılar.

Türkiyədə təhqiqat aparan missiyalardan kapitan E.Naylz və A.Saterlandın hesabatları da maraq doğurur. Emori Naylz və A.Saterland Amerika hökuməti və "Yaxın Şərqə yardım komitəsinin" bilavasitə tapşırığı ilə 1919-cu ilin yayında vəziyyəti araşdırmaq üçün İstanbuldan Şərqi Anadoluya göndərildi. E.Naylz və A.Saterland dörd illik müharibədən sonra müsəlmanların əleyhinə çıxış edən tərəflərin agentləri kimi fəaliyyət göstərmirdilər. Onlar sorğu-sual apararaq və müşahidə edərək həqiqəti öyrənməyə çalışırdılar. E.Naylz və A.Saterlandın məlumatı Şərqi Anadoluda erməni-türk münaqişəsi üzrə ən vacib məlumatlardan idi. Onlar Şərqi Anadoludan müsəlman əhalisindən müharibə zamanı başına gələn faciələr barədə soruşmuşdular. Bu səbəbdən demək olar ki, E.Naylz və A.Saterlandın məlumatı onların sorğu apardıqları müsəlman əhalisinin sözləri əsasında qurulmuşdu. E.Naylz və A.Saterlandın təhqiqat zamanı aşkar etdikləri faktlar onların gözlədikləri faktların əksi oldu. Onlar qeyd etdilər ki, biz Şərqə gedəndə qətlə yetirilmiş ermənilərə rast gələcəyimizi gözləyirdik, lakin biz bunun əksinə olaraq qətlə yetirilmiş müsəlmanlara rast gəldik.[70]

E.Naylz və A.Saterlandın bu hesabatı təhqiqat aparan missiyalar arasında bitərəf rəy verən missiyalardan biri oldu.

1919-cu ilin iyulunda Ərzurumda toplaşan konqresdə də ABŞ mandatı məsələsi müzakirə olundu. Bu müzakirələr nəticəsində qəbul edilmiş 7 bəndlik qərarın 6-cı bəndində açıq şəkildə mandat və himayə qəbulu rədd edilirdi.[71]



Qəbul olunmuş bu qərar proqram xarakteri daşıyırdı. Bunun da əsas mahiyyəti qeydsiz-şərtsiz müstəqillik idi.

Mandat məsələsi ilə əlaqədar danışıqlar Sivas konqresi üzvləri tərəfindən də aparıldı. Konqresin açılmasından bir gün qabaq Rauf bəy, Bəkir Sami bəy, Kara Vasif və b. M.Kamaldan gizli toplaşaraq mandat məsələsində razılaşmışdılar. Konqres işə başlarkən mandat məsələsindəki bu razılaşmanı irəli sürərkən M.Kamal Rauf bəyin sözlərinə çox hirsləndi və "dünən axşam verdiyiniz qərarları mənə təbliğmi edirsiniz"[72] deyib onu susdurdu. Əlbəttə, bu sözləri ən yaxın silahdaşlarından eşitmək M.Kamal üçün çox ağır idi. Amma onlar başqa çıxış yolu seçə bilmirdilər. Hətta ABŞ, İngiltərə və az da olsa Fransa mandatı mübahisəyə çevrildi. Ancaq ABŞ mandatı öndə idi. Çünki onlara görə ABŞ-ın Anadoluda işğal niyyəti yox idi və dünyada himayəsinə aldığı millətləri güclü müdafiə edirdi.[73] Ona görə də çıxış yolunu bunda görürdülər.

Konqress 8 gün işlədi və müzakirələrin əsasını mandat məsələsi təşkil etdi. Hətta bir çoxları mandatın nəticələrini düşünmədən "hə" deyirdilər. Bir azadlıq mübarizəsinə başlarkən birinin mandatını istəmək çox böyük səhv idi. Sentyabrın 8-də İsmail Hami tərəfindən hazırlanan 25 imzalıq bir sənədlə "Amerika mandatı" istənilirdi. Sənəd müzakirəyə belə çıxarılmışdı. Konqres kənarında mandata dəstək verənlər də çox idi. Konqres işini davam etdirərkən bir çox yerlərdən mandat tərəfdarları teleqramlar göndərir, hətta Əli Qalipin ingilislərdən yardım alıb konqresi dağıdacağı barədə qorxunc şaiyələr yayırdılar. Bütün bu təzyiqlərə baxmayaraq M.Kamalın təkidi ilə Sivass konqresi, Ərzurumda alınan qərarları qəbul edərək dolayısı ilə mandat məsələsini də rədd etmiş oldu. Bundan başqa konqres 8 bəndlik bir qərar qəbul etdi. Bunun da əsas məqsədləri vətənin bölünməzliyi

uğrunda hər vasitə ilə son məqsədədək mübarizə aparmaq idi.

Amerikanın Türkiyəyə mandat məsələsi Paris konfransında bir daha müzakirəyə çıxarılmadı. Türk məsələsi ümumən həll edilməmiş qaldı. Həmçinin Ermənistana Amerika mandatı məsələsi də açıq qaldı.

Yaranmış bu vəziyyət İngiltərəni tamamilə qane edirdi. Çünki İngiltərənin əsas rəqibi olan ABŞ-ın bütün iddiaları demək olar ki, yalnız deyilmiş sözlər olaraq qalırdı. Türkiyəyə faktik nəzarət isə əsasən ingilislərin əlində idi və sentyabrın 2-də İngiltərə ayrılıqda müttəfiqlərdən gizli olaraq Türkiyə ilə müqavilə imzaladı. Bu müqaviləni baş vəzir Damad Ferid paşa və Frezer, Nollem və Çerçill imzalamışdılar. Müqavilənin şərtləri belə idi: Türkiyə müstəqil və suverendir; İstanbul xilafətin iqamətgahıdır; Dardanel Britaniya nəzarətində qalır; Türkiyə Kürdüstanın müstəqilliyinə etiraz etmir; Türkiyə Böyük Britaniyanın Mesopotomiya və Suriyada möhkəmlənməsinə yardım edir; Britaniya muxalif milli hərəkatını boğmaq üçün hərbi hissələr təşkil edilməsinə yardım edir; Türkiyə Misirə və Kiprə olan bütün hüquqlarından imtina edir; İngiltərə sülh konfransında Türkiyəni müdafiə edəcəyini öhdəsinə götürür.

Bu müqavilə tamamilə məxfi saxlanılıldı.[74]

Bu müqaviləni imzalamaqda İngiltərənin məqsədi Türkiyədə mövqeyini möhkəmləndirmək və Sultan hökumətini özünə yaxınlaşdırmaq idi. Amma bu addımı atarkən ingilislər əsas qüvvəni nəzərə almamışdılar. Bu qüvvə birincisi, Türkiyə milli-azadlıq hərəkatı idi, ikincisi isə, müttəfiqlər arasındakı ziddiyyətlər idi. 1920-21-ci illərdə bu müqavilə aşkarlananda müttəfiqlərarası münasibətlərdə ciddi gərginlik yaratdı.

Beləliklə, Paris sülh konfransında Türkiyə məsələsi geniş müzakirələrə səbəb olsa da, heç bir nəticə əldə etmək



mümkün olmadı. Türkiyə məsələsi müzakirə olunan zaman mənafelərin toqquşduğuna görə müttəfiqlərarası münasibətlər də gərginləşdi.

Konfrans başa çatandan sonra da bu məsələ müzakirə obyekti oldu və ərazilərin bölgüsü məsələsində kompromis əldə etmək mümkün olmadı. Ən mübahisəli məsələlərdən biri olan İstanbul məsələsində də konfransda razılıq əldə etmək mümkün olmadı. Bu məsələni həll etmək məqsədi ilə 1919-cu ilin dekabrında İngiltərə və Fransa Londonda konfrans çağırdılar.

---

[1] Шпилькова В.И. империалистическая политика США в отношении Турции 1914-1920 гг. М., 1967, с. 55.

[2] Архив полковника Хауза. Т. IV. М., 1944, с. 156; Нитти Ф. Европа без мира. М., 1923, с. 43

[3] Архив полковника Хауза. Т. IV, с. 159.

[4] Джордж Л.Д. Военные мемуары. Т. V. с. 169; Нитти Ф. Европа без мира. с. 59.

[5] Адамов Е.А. Великодержавная политика Греции и великие державы. – «Новый Восток», 1922, №2, с. 49.

[6] Йеня орада, ñ.53.

[7] Йеня орада.

[8] Миллер А. Американский план захвата Константинополя и проливов в 1919 г. – Вопросы истории, 1951, №3, с. 118.

[9] Àéáàðñ Å. Úöìùóðèéåò òàðèùè., ñ.122. Äæîðäæ Ë. Âîåííûå ìåìóàðû. ò.V, ñ.56.

[10] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 68. â.76.

[11] Тардье А. Мир. М., 1943, с. 337; Áåëåí Ô. Áöéöê òöðê Çàôåðè, Àôóéîíäàí Èçìèðå. Èñòàíáóë, 1970, ñ.104.

[12] Óçóí÷àðøûëû Û.Ù. Îñìàíëû òàðèùè. ñ.1. Àíêàðà, 1961, ñ.61. Бюллетень НКИД РСФСР. 1920, №1, с.21

[13] Îëàéëàðëà òöðê äèø ïîëèòèêàñû. Èñòàíáóë, 1993, ñ.7; Ìóùèòòèí ×. Òöðê èíêèëàï òàðèùè. Àíêàðà, 1996, ñ.53.

[14] Кунина А.Е. Провал американских планов завоевания мирового господства в 1917-1920 гг. м., 1954, с. 294.

[15] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 65. â.29.

[16] Lansinq R. The Peace negotiations. Apersonal narrative. London, 1921, p.172-173.

[17] Тардье А. Ýþñòÿðèëÿí ÿñÿðè, ñ.368.

[18] Николсон Г. Как делался мир в 1919 г. с. 327.

[19] Conferoncl de la paix 1919-1920 Pt.IV. Commission chargee de’tuder les qestions territorials. Paris, 1923. p.98.

[20] Готиб В.В. Тайная дипломатия во время первой мировой войны. М., 1960, с. 97; Лудшувейт Е.Ф. Эюстярилян ясяри.

[21] Поцхверия В.М. Турецкий вопрос в сенате США/конце 1919 – середина 1920 г. – «Краткие сообщения Института востоковедения». Т. 19. М., 1956, с. 123-125.

[22] America as Mandatory for Armenia. New York, 1929.

[23] Архив полковника Хауза. Т. IV, с. 279.

[24] Бэкэр С. Вудро Вильсон. Мировая война. Версальский мир по документам и запискам председателя Американского комитета печати на Версальской конференции, М., 1925. с. 123.

[25] Миллер А. Американский план захвата Константинополя и проливов. – «Новый Восток», 1951, №3, с. 67.

[26] Адамов Р. Раздел Азиатской Турции. М., 1924. с. 126

[27] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.894, ñèé.10. èø 80. â.49.

[28] Меликов В.А. Марна, Висла, Смирна. М., 1987, с. 437

[29] Альдерованди Марескотти. Дипломатическая война. Воспоминания и отрывки из дневника (1914-1919 гг.) М., 1944, с. 234

[30] Bayur Yusut Hikmet. Ýþñòÿðèëÿí ÿñÿðè, ñ.191.

[31] Ìèäèëëèèè À. Òöðê èñòåêëàë ùàðáèðèí áàøûíäà ìèëëè ìöúàäèëå. Àíêàðà, 1929, ñ.4.

[32] “Òàðèù”. Èñòàíáóë, 1961. ú.4. ñ.268; Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 68. â.55.

[33] Àêøèí Ñ. Èñòàíáóë Ùöêóìåòëåðè, ñ.78. Ìèñèðîüëó Ê. Òöðêöí ñèéàù êèòàáè. Èñòàíáóë, 1966. ñ.110-120; Àéáàðñ Å. Úöìùóðèééåò òàðèùè, ñ.141. Íóðãîüàí Ò. Åãåäå Êóðòóëóø Ñàâàøû Áàøëàðêåí. Èñòàíáóë, 1971, ñ.235-250.

[34] Àêéöç Æ. Òöðê êöêòöëöø ñàâàøû âå ôðàíñûç êàìóîéó. Àíêàðà, 1975, ñ.44; Îñìàí Ó. Àìåðèêàí áàñûíûíäà òöðê êöðòöëöø ñàâàøû. Èñòàíáóë, 1974, ñ.47.

[35] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.894, ñèé.10. èø 80. â.39-44.

[36] “Èêäàì” ãÿçåòè; Áåùíàì Å. Øàïîëéî. Òöðê èíêèëàáû òàðèùè íîòëàðû. Èñòàíáóë, 1949, ñ.27; Àçèáóðíó Ê. Ìèëëè Ìöúàäèëå’äå Èñòàíáóë ìèòèíãëåðè. Àíêàðà, 1951, ñ.12-68.

[37] Ìöùèòòèí ×. Òöðê èíêèëàï òàðèùè, ñ.57; Éóðåñåâåí Ð. Òöðê äåâðèíè âå êóðòóëóø ñàâàøû. Àíêàðà, 1976, ñ.125-138.

[38] Àçèáóðíó Ê. Ìèëëè Ìöúàäèëå’äå Èñòàíáóë ìèòèíãëåðè, ñ.69.

[39] Альдерованди Марескотти. Ýþñòÿðèëÿí ÿñÿðè, ñ.253.

[40] Никольсон Г. Ýþñòÿðèëÿí ÿñÿðè, ñ.258.

[41] Йеня орада, ñ.259.

[42] Шпилькова В.И. Империалистическая политика США в отношении Турции (1914-1919) гг. с. 76.

[43] Гурко-Кряжин В. Ближний Восток и державы. М., 1925, с. 221.

[44] Павленко П. Стамбул и Турция. М., 1930, с. 89.

[45] Ìöäåððèñîãëó À. Êóðòóëóø ñàâàøûíûí ìàëè êàéíàêëàðû. Àíêàðà, 1990, ñ.207.

[46] Ñåáóëöð-ðåøàä, ú.XVIII, ñ.29.

[47] Ìohammad S. The Turkish Revalution and the Indian Freedom Movement. N.D. 1983, ss.46-50-51.

[48] Azis K.K. The Indian Khilafati Movement, 1915-1933. A documentary Record. Karachi. 1972. s.7-13.

[49] Êåñêèí Ì. Ùèíäèñòàí ìöñëöìàíëàðûíûí Ìèëëè ìöúàäèëå’äå Òöðêèéåéå éàðäûìëàðû (1919-1923). Êàéñåðè, 1991, ñ.60.

[50] Azis K.K. The Indian Khilafati Movement, 1915-1933. A documentary Record, s.39-40.

[51] Альдерованди Марескотти. Ýþñòÿðèëÿí ÿñÿðè, ñ.279.

[52] Индицский мусульманин т турецкий вопрос. Бюллетень НКИД РСФСР, 1921, №76, с. 47.

[53] Альдерованди Марескотти. Ýþñòÿðèëÿí ÿñÿðè, ñ.297.

[54] Шамсутдинов А.М. Национально-освободительная борьба в Турции. (1918-1923 гг.) М. 1966, с. 41.

[55] Шпилькова В.И. Турецкий вопрос на Парижской мирной конференции 1919 года. – МГПИ. Т.59. вып. 5. 1957, с. 237.

[56] Альдерованди Марескотти. Ýþñòÿðèëÿí ÿñÿðè, ñ.351.

[57] Мустафа Кемаль. Путь новой Турции. Т.1, с. 373.

[58] Йеня орада, с.310; Àòàòöðêöí Ùàòèðàëàðû (1914-1919). Èñòàíáóë,

1980, ñ.212.

59 Миллер А.Ф. Турция. Ì., 1983, ñ.159; Sonyel R.S. Òöðê êöðòöëöø ñàâàøû âå äèø ïîëèòèêà. ú.1. Àíêàðà, 1987, ñ.201.

60 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.2. èø 51. â.19.

61 Тарле Е. Вопрос о Константинополе и о разделе Турции в эпоху мировой войны. – «Борьба классов» журналы. – 1924. №. 1, с. 89-90.

62 Шпилькова В.И. Империалистическая политика США в отношении Турции (1914-1920 гг.) с. 159.

63 Адамов Е. Константинополь и проливы. Т.1., 1925, с. 79.

64 Тардье А.Ýþñòÿðèëÿí ÿñÿðè, ñ.297.

65 McCarti J. The report of kiles and Sutherland and American investigation of eastern Anatolla. After World War.1. Ankara, 1994, p.1816.

66 Миллер. А.Ф. Актуальные проблемы новой и новейшей истории. С. 167-168.

67 Àêãöí Ñ. Úåíåðàë Ùàðáîðä'óí ÷åçèñè âå ðàïîðó. Èñòàíáóë, 1981; Ìöùèòòèí ×. Òöðê èíêèëàï òàðèùè. Àíêàðà, 1996 âÿ á.

68 United States Department of State. Papers relating to the Foreign relations of the United States, p.304.

69 Êàðàë Å.Ç. ×öìùöðèéåò òàðèùè, ñ.72; Àéáàðñ Å. Úöìùóðèéåò òàðèùè, ñ.151; Akgun S. General Harbordun Gezisi ve Raporu, s.43.

70 Ilter E. Åðìåíè Ïðîïàãàíäàñûíûí êàéíàêëàðû. Àíêàðà, 1944, ñ.140-145.

71 Êàðàë Å.Ç. Òöðêèéå ×öìùöðèéåò òàðèùè, ñ.41; Sanyel Ñ. Òöðê êóðòóëóø ñàâàøû âå äèø ïîëèòèêà. ú. ñ. 106-112.

72 Êancu Ì.Ó. Åðçóðóìäàí þëöìöíà êàäàð Àòàòöðêëå áåðàáåð. Àíêàðà, 1966, ú.1. ñ.179-192.

73 Èãäåìèð Ó. Ñèâàñ êîíãðåñè òóòàíàêëàðû. Àíêàðà. 1969, ñ.1; Ñåëåê Ñ. Àíàäîëó èùòèëàëû. Èñòàíáóë, 1965, ú.1. ñ.297.

74 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 207. â.96.



# II FƏSİL

# MÜTTƏFİQ DÖVLƏTLƏRİN TÜRKİYƏNİ PARÇALAMAQ CƏHDLƏRİ

## §1. İstanbulun Antanta dövlətləri tərəfindən işğal edilməsi

1919-cu il Paris sülh konfransında və ondan sonra qalib dövlətlərin nümayəndələrinin keçirdikləri çoxsaylı müşavirələrdə İstanbul məsələsi gündəlikdən kənarda qalmadı. Bu məsələnin həllinə çalışan Antanta dövlətləri İstanbulun işğal edilməsinə dair qəbul edilmiş qərarları həyata keçirtməkdən ötrü bir-birinin ardınca həm hərbi, həm də siyasi tədbirlər görürdülər. Amma hər dəfə də müvəffəqiyyətsizliyə uğrayırdılar. Çünki onlar bu məsələnin həllinin yalnız onlardan asılı olduğunu hesab edirdilər. Amma bu belə deyildi.

İstanbulun işğalına dair Amerika planının baş tutmaması ingilislər tərəfindən istifadə edildi.[1] İngiltərə İstanbulda və boğazlarda Böyük Britaniyanın faktik hökmranlığı altında "beynəlxalq idarəetmə" layihəsinin həyata keçirilməsi üçün imkan əldə etmiş oldu. İngiltərənin hakim dairələrində məsələnin həllində İngiltərə üçün daha əlverişli olan başqa fikir də mövcud idi. Bu ondan ibarət idi ki, L.Corcun öz memuarlarında göstərdiyi kimi, "əgər amerikalılar vaxtında mandatdan imtina etsəydilər, onda İstanbulu yunanlılara vermək olardı, yaxud da bütün Türkiyə ərazisində Britaniya protektorluğunun təşkilinə nail olardıq".[2] Amma bu variantlar reallaşdırılmadı. İngiltərə bu

məsələyə münasibətdə öz müttəfiqlərinin, ilk növbədə Fransanın münasibəti ilə hesablaşmağa məcbur idi. 1919-cu ilin payızında “Kilikiya və Suriyadan ingilis ordularının geri çağırılmasına nail olan Fransa Şərqdə ingilislərə güzəştə getməyə Versal müqaviləsinin yerinə yetirilməsini ingilislərin müdafiə etməsi şərtilə razı idi.[3] Fransa diplomatları arasında çoxları belə düşünürdü: “Şərq Reynə dəyər”. 1919-cu il noyabrın 4-də Antəp ingilislər tərəfindən fransız işğalçı ordusuna verildi. Dekabrın 10-da isə Britaniya hərbi nazirliyi ingilis hərbi hissələrinin Kilikiya və Suriyadan çıxardılmasının başa çatdığını bəyan etdilər. Klemanso yuxarıda göstərdiyimiz fikrin tərəfdarı olsa da, İstanbulun Yunanıstana, yaxud İngiltərəyə verilməsinə razı deyildi. Bunu əvvəlcədən hiss edən ingilislər onlara daha az “başağrısı” gətirən bir yol seçdilər. Bu yola görə, İstanbulda faktik olaraq qüvvələr nisbəti İngiltərənin xeyrinə olan beynəlxalq nəzarət təşkil edilməli idi.

Amerika nümayəndəliyi Parisdə olduğu zaman ingilis diplomatları bəyan etməkdə davam edirdilər ki, “türk məsələsinin nizama salınmasında yeganə maneə ABŞ-ın Türkiyəyə mandatı qəbul edib-etməyəcəyidir.[4] Amma həqiqətdə isə ingilislər türk məsələsinin həllində yeganə maneənin amerikalılar olmadığını çox yaxşı bilirdilər. 1919-cu il noyabrın 18-də ABŞ senatı Versal müqaviləsinin müzakirəsi zamanı təsdiq olmaq üçün lazımi səs toplamadı. Dekabrın 9-da isə Frank Polk demək olar ki, bütün Amerika nümayəndəliyi ilə Parisi tərk etdi. Konfransın ali orqanında müşahidəçi sifəti ilə ABŞ-ın Parisdəki səfiri X.K.Uolles qaldı.

Amerikaya Yaxın və Orta Şərqdə güclü ingilis-fransızlardansa zəif Türkiyə daha əlverişli idi. Çünki zəif Türkiyəni nüfuz dairəsinə salmaq daha asan idi. Amma



güclü ingilis-fransız mövqeyi ABŞ-ın maraqlarının həyata keçirilməsində ən böyük maneə olacaqdı.

1919-cu il noyabr ayının əvvəlində Bosforun Asiya sahilinə Britaniya ekspedisiya korpusunu möhkəmləndirmək məqsədilə böyük miqdarda ordu hissələri çıxarıldı. Eyni zamanda İstanbula yeni Britaniya baş komissarı de Robek gəldi. Bir neçə gündən sonra Londonda çıxış edən L.Corc bütün hərbi tədbirlərin boğazların türklərdən tamamilə alınması məqsədi güddüyünü bildirdi. L.Corc müttəfiqlər adından bəyan etdi: “Biz Qara dənizə və Arxipelaqa qapıların bütün millətlər üçün açıq olmasına və buraya nəzarətin onları müttəfiqlər üzünə bağlaya bilməyəcək bir dövlətə verilməsinə razıyıq”.[5]

1919-cu ilin dekabrında Londonda ingilis-fransız konfransı keçirildi. İngiltərəni L.Corc, Kerzon və Kerr, Fransanı Klemanso, Pol Kambon, Bertelo və Flerio təmsil edirdi. Konfransın çağırılmasına rəsmi səbəb Versal müqaviləsinin təsdiqi üçün alman hökumətinə nota göndərilməsi məsələsində ingilis-fransız ziddiyyəti idi. Lakin bu məsələ tezliklə həll edildi. Hər iki dövlət başçısı Paris konfransında Yaxın Şərq problemində həllini tapmamış məsələlərə dair vahid ingilis-fransız xətti müəyyənləşdirməyə çalışırdı. İndi Amerika marağına heç bir diqqət verilmirdi. Buna görə də konfransın gedişində Klemanso və L.Corc “müzakirə olunan məsələyə yalnız Avropa nöqteyi-nəzərdən yanaşmağın lazım olduğunu bir neçə dəfə qeyd etdilər.[6]

Klemansonun təşəbbüsü ilə İstanbul və boğazlar məsələsi ön plana çəkildi. Dekabrın 11-də Klemansonun Londona gəldiyi gün konfrans onun dediyi kimi “ən çətin və ziddiyyətli məsələnin” müzakirəsinə başladı. Öz fikrini birinci olaraq Klemanso bildirdi. O, Bosfor, Mərmərə dənizi

və Dardanelin mütləq müttəfiq hərbi qüvvələrinə verilməsini və Türkiyənin əlindən alınmasını qeyd etdi. Sonra o, bildirdi: belə bir sual qarşıya çıxır. İstanbulu boğazlar zonasına daxil etmək lazımdırmı? Mənim fikrimcə, türklərin İstanbuldan çıxardılması səhv olar. Yaxşı olar ki, İstanbulu boğazlardan ayıraq".[7] O, bu təklifi İstanbulun idarə edilməsi prosesində İngiltərə və Fransa arasında baş verəcək ziddiyyətləri əvvəlcədən gördüyünə görə demirdi. Ona görə deyirdi ki, başqa dövlətlərin münasibətindən ehtiyat edirdi.

Cavab olaraq L.Corc uzun bir çıxış etdi. Bir az əvvəl Paris sülh konfransında L.Corc Sultanın İstanbulda saxlanılmasını müdafiə edərək sübut etməyə çalışırdı ki, bu, müsəlman dünyasında böyük narazılığa səbəb olacaq. Amma indi, Klemanso eyni təkliflə çıxış etdikdə L.Corc təkidlə onun əleyhinə çıxış etdi.

L.Corcun dəlilləri bunlara əsaslanırdı: boğazlar mütləq beynəlxalq nəzarətə verilməlidir. Boğazların düşmən dövlətlərin əlində olması nəticəsində müharibə əlavə iki il davam etdi. Bununla bərabər, Britaniya hökuməti hesab edirdi ki, "əgər İstanbul şəhəri beynəlxalq hərbi qüvvələrin nəzarəti altında olmasa, boğazlara nəzarət etmək tam həyata keçirilməyəcəkdir. İstanbul Bosfora girişdə yerləşir. Şəhərdə 500 min türk yaşayır. Əgər onları burada sahib kimi saxlasaq, onlar Bosforu bağlayacaqlar".

Bütün bu və digər səbəblərə görə L.Corc hesab edirdi ki, "İstanbulda beynəlxalq hərbi qüvvələr yerləşdirilməlidir. Bu qüvvələr ingilis və fransızlardan ibarət olacaq, italyan və yunanlılar da əlavə edilə bilər".[8] Bu qüvvələri prezident, yaxud komendant adı ilə müstəqil komissiya idarə etməlidir.

Amma, əgər Sultan öz nazirləri ilə və ümumilikdə bütün türk inzibati aparatı İstanbulda qalsa, onlar burada ingilislərlə fransızlar arasında münaqişə yaratmaqla məşğul



olacaq. Sultan İngiltərə və Fransanı "savaşdırmağa" cəhd edib, onlar arasındakı ziddiyyətlərdən istifadə edəcəkdir. Ondan sonra söz alan lord Kerzon həmçinin İstanbulun türklərdən alınmasının vacibliyini sübut etməyə çalışdı. L.Corcun dəlillərinə əlavə olaraq Kerzon qeyd etdi ki, "əgər Sultan İstanbulda qalsa, türklərin Ədirnədən çıxardılmasını əsaslandırmaq çətin olacaq. Çünki sülh konfransı iki boğaz arasındakı rayonun beynəlxalq nəzarət altına alınması barədə qərar qəbul etmişdir. Bununla bərabər, nəzərdən qaçırmaq olmaz ki, həmin vaxt M.Kamalın bir sıra çıxışlarından gələcəkdə türk siyasətinin "qəti millətçilik" xarakterində olacağı görünürdü. Əgər Sultan İstanbulda millətçilərin nəzarəti altında qalsa, burada iğtişaşlar baş verəcəkdir, bu da Tunisdə və Əlcəzairdə fransızlara, Misir və Hindistanda ingilislərə münasibətdə əks reaksiyaya səbəb ola bilər".[9]

L.Corc və Kerzonun uzun çıxışlarının qısa məğzi yalnız boğazların deyil, hətta Ədirnə də daxil olmaqla İstanbulun özünü belə müttəfiqlərin silahlı qüvvələri işğal etməsindən və "beynəlxalq idarəçiliyə" verməsindən ibarət idi. Buna görə, türklər İstanbul üzərində nominal suverenlikdən və ümumiyyətlə, Avropa Türkiyəsindən məhrum edilməli, Sultanı isə işğalçı qüvvələrin nəzarəti altında İstanbuldakı "papa" iqamətgahına gətirmək şərti ilə Bursaya göndərmək lazımdır. Forma etibarı ilə bu təklif Vilsonun təklifinin eyni olsa da, mahiyyətcə tamam başqa məqsəd güdürdü. Vilson Millətlər Cəmiyyətinin mandatı adı altında İstanbul və boğazları ABŞ-dan asılı vəziyyətə salmaq istəyirdi. L.Corc və Kerzon isə bu nəzarəti Millətlər Cəmiyyəti adı altında deyil, Antanta dövlətləri adı ilə həyata keçirmək istəyirdi. Burada isə hərbi-dəniz və piyada qüvvələr nisbəti ingilislərin xey-

rinə idi. Bu da şübhəsiz ki, İngiltərənin siyasi hakimiyyətinin üstünlüyü demək idi.

Klemanso diskussiyanı dərinləşdirmədi. O, qəti olaraq qeyd etdi ki, "belə çətin bir məsələni sonsuzadək müzakirə etmək faydasızdır. Bu məsələnin həlli yollarının bütün təfsilatı ilə dəqiq sxemlərini işləmək lazımdır". Klemansonun çıxışından və L.Corcun münasibətindən belə başa düşmək olar ki, əgər Avropa siyasətində razılıq əldə edilsə, Fransa İngiltərənin istənilən təklifini qəbul etməyə hazırdır. Sonra Klemanso qeyd etdi ki, "hər iki hökumət Avropada ümumi siyasətə razılaşsalar" İstanbul və Bursa məsələsini həll etmək asan olacaqdır.

Anadolu məsələsində Klemanso daha mühüm tələb irəli sürdü. O, hər şeydən əvvəl göstərdi ki, "əgər mandat sistemi ləğv ediləcəksə, onda türk hökuməti üzərində bir neçə beynəlxalq nəzarət qoymaq lazımdır. Çünki türklər özünüidarəyə qadir deyillər". Sonra o, L.Corc və Kerzonun sualına cavab verərək bildirdi ki, bu "beynəlxalq nəzarət" maliyyə nəzarəti olmalıdır və Sultan Bursaya köçürüləndə, ümumiyyətlə, bütün türklər mütləq maliyyə vasitəsilə nəzarət altına alınmalıdırlar. Sonrakı dəqiqləşdirmələrdən Klemanso yan keçdi. O, sözarası belə fikir müdafiə etdi ki, "Dardanel, Bosfor, İstanbul və Kiçik Asiya arasında bir sıra tarazlıq yaratmaq vacibdir".

L.Corc bu fikirlə əlaqədar aydınlıq əldə etməyə cəhd edərək soruşdu: "gələcək üçün Klemansonun fikri necədir?" – amma Klemanso qısa cavab verdi. "Necə varsa, elə da saxlamaq". L.Corc sakitləşdi və birbaşa soruşdu: "nüfuz dairələrinimi?" Klemanso isə buna mənfi cavab verdi.[10]

Klemansonun üstürörtülü şəkildə işarəsindən onun bütün Anadolunun Fransa nüfuz dairəsinə verilməsini istədiyi göründü. Fransanın üstünlüyü ilə "Anadolu üzərinə



tam maliyyə nəzarəti" qoyulması Fransa protektorluğunun təşkilinə bərabər idi. Fransa İstanbul və boğazlarda İngiltərəyə güzəştə getməklə Anadoluda əhəmiyyətli kompensasiya almış olurdu. Belə bir "maksimum – proqramı" açıq formada irəli sürməyə Klemanso risk etmədi. Amma Yaxun Şərq nefti məsələsi müzakirə olunan zaman bu fransızlar tərəfindən lazımi dəqiqliklə qoyuldu. Bu məsələ ilə əlaqədar Bertelo Kerzona memorandum təqdim etdi. 13 dekabr iclasında L.Corc bu məsələnin ekspertlər komissiyasında təcili olaraq müzakirə edilməsinə razılaşdı. Bu ingilislər tərəfindən çox ucuz bir güzəşt idi. Çünki, söhbət 1919-cu ilin yayında bağlanmış "Lonq-Beranje" razılaşmasının təsdiqindən gedirdi.

Nəticə etibarilə türk məsələsinə dair ingilis-fransız danışıqları çox da əhəmiyyətli deyildi. Çünki mahiyyət etibarilə tərəflər qarşılıqlı olaraq bir-birini yoxlayırdılar. Konfrans qurtaran kimi L.Corc və Klemanso rəsmi bəyənnamə ilə çıxış etdilər. Burada türk məsələsinə çox az yer verdilər. Hər ikisi hətta "İstanbul məsələsinin guya ümumiyyətlə müzakirə olunmadığını və qarşıdakı Paris görüşünə saxlandığını bildirdilər.[11]

Bu bəyanata baxmayaraq bir neçə gündən sonra İngiltərə və Fransanın Sultanı İstanbuldan çıxartmaq haqqında fikirləri mətbuatda dərc edildi. Bu isə böyük səs-küyə səbəb oldu. Dehlidə "xəlifənin müdafiəsinin Hindistan komitəsi" krala nota təqdim etdi.[12] Fransa mətbuatında bu Fransanın diplomatik məğlubiyyəti kimi qiymətləndirildi və ona qarşı yazılar dərc edildi. "Erop Nuvel" yazırdı: "Forrin Offis iç üzünü göstərdi. Mümkündür ki, bir neçə on ildən sonra boğazlar bu gün Suveyş kanalı üçün fəaliyyət göstərən statusa malik olacaqlar. İstanbul və Bağdad ingilisləri Avropanın neft kralı edəcək"...[13]

Fransızlar içərisində də Şərqi Trakiya və İstanbulun türklərdən alınması əleyhinə çıxışlar oldu. General Sarrail “boğazlar sahilində bir miqdar yunan olmasına görə bu ərazilərin yunanlılara verilməsindən utanıram”[14] dedi.

Fransada nüfuzlu dairələrin təzyiqi ilə Klemanso Parisə gələn kimi Sultanın İstanbuldan çıxardılması fikrindən imtina etdi.

İngiltərədə vəziyyət başqa idi. Onlar Amerikanın Türkiyə haqqında fikri bəlli olmadan qəti bir nəticəyə gəlmək istəmirdilər. 1919-cu il dekabrın 17-də etdiyi çıxışında L.Corc bildirdi ki, “türk məsələsini həll etmək üçün Amerikanın nə etmək istədiyini bilməliyik. Bizə deyirlər ki, nə üçün türk olmayan torpaqları türklərin əlindən alaraq onlarla sülh bağlamırsınız? Bəli, belədir. Amma İstanbulu və boğazları nə edək? Əgər boğaz qapıları hərb və ticarət gəmilərinin sərbəst keçə bilməsi üçün açıq olsaydı, müharibə iki il qısaldılmış olardı. Buna görə də boğazları əllərində tutanlara inamımız yoxdur...”[15] Türk məsələsinin daha çox uzanması ingilisləri narahat edirdi. Admiral de Robekin İstanbuldan göndərdiyi bir raportda göstərilirdi: “Sülhün gecikmiş olmasından qüvvət alan türk millətçiliyi getdikcə böyüyən bir qüvvə olmuşdur. Təzə qüvvə olmazsa, Türkiyəyə razı olmadığı bir razılaşmanı qəbul etdirmək bu gün səkkiz ay əvvələ nisbətən çox çətin olacaqdır. Türk milliyyətçiləri Türkiyənin türklərə qalmasını istəyirlər...” Bütün bunlara əsasən L.Kerzon “nəyin bahasına olursa olsun türklərin Avropadan və İstanbuldan çıxardılmasını” əks etdirən bir “qətnaməni” yanvarın 4-də ingilis kabinetinə təqdim etdi. Həmin sənəddə İstanbulun türklərə verilməməsi israr edilir və sonra göstərilirdi: “Fikrimdə əsaslı olaraq israr edirəm: türklərin sırf Avropa ilə əlaqələrinin kəsilməsi üçün mövcud fürsətdən istifadə etmək zərurətindən irəli gəlmir; bu fürsətdən istifadə etmədiyimiz təqdirdə özümüzə sabahın qarışıqlığını, intriqasını və şərq müharibələrinin mirasını da hazırlamış olacağıq: bunun da ağrısı nəsillərcə davam edəcəkdir... İstanbul heç bir zaman hind müsəlmanları üçün “Qüdsliyə” malik olmamışdır. Əgər türklər indi fəryad edirlərsə, bu, zənnimcə süni və keçicidir... Şəxsi düşüncəm budur ki, İstanbula qarşı edəcəyimiz hər hansı bir təşəbbüs, Asiyada irqi və dini düşmənçiliyi türklərin İzmirdən məhrum edilmələri vaxtındakından daha az əsdirəcəkdir. Avropanın siyasi həyatını 500 ilə yaxın gərgin saxlayan bir məsələni ilk və son dəfə həll etmək üçün bizə milyonlarca pul, on minlərlə insan tələfatı verdirən bir düşməni məğlub etməklə əldə etdiyimiz fürsəti çürütmək olmaz. Ancaq bu siyasəti davam etdirməyin Britaniya imperiyası üçün təhlükəli olacağını əvvəlcədən qeyd edən Hindistan işləri üzrə nazir Monteqyo, İngiltərə hərb naziri feldmarşal Vilsondan türkləri İstanbuldan çıxartmaq istəyənlərə qarşı “mübarizədə” özünə yardım etməsini istədi. “İngilis-Osmanlı cəmiyyətinə” məxsus olan bəzi ingilislər də L.Corca müraciət edərək, 1918-ci il 5 yanvar tarixli çıxışını xatırlatdılar, çoxluğu türk olan Aydın vilayətinin yunanlar tərəfindən işğal edilməsindən utandıqlarını və indi də Şərqi Trakiya və İstanbulun türklərdən alınmaq istənilməsindən narahat olduqlarını bildirirlər. Belə bir ziddiyyətli dövrdə ingilis hökuməti L.Kerzonun məlum planını müzakirə etdi. L.Kerzon öz planını güclü şəkildə müdafiə etsə də, L.Corc və Balfurdan başqa tərəfdar tapa bilmədi və yanvarın 6-da nazirlər kabineti tərəfindən rədd edildi. Yanvarın 7-də bu qərara etirazını bildirərək L.Kerzon qeyd etdi ki, “dünən kabinetdə qəbul edilən... qərara qarşı israrlı və ciddi müxalifətdəyəm. Hindistanda qarışıqlığın qarşısını almaq

məqsədi ilə Avropanın beş yüz ildən bəri gözlədiyi və bir daha ələ düşməyəcək fürsəti əldən verdik..."[16]

Qeyd etmək lazımdır ki, 1920-ci ilin əvvəlində Rusiya və Sibirdə yaşayan türk-tatar xalqları nümayəndələrinin yığıncağında Versal Ali Şurasına müraciət qəbul edilmişdi. Həmin müraciətdə göstərilir: "Biz Volqa və Uralın türk-tatar xalqlarının nümayəndələri ümidvarıq ki, Antanta Türkiyə məsələsini sözsüz türklərin xeyrinə həll edəcəkdir. Turanın 80 milyonluq əhalisi Türkiyənin parçalanmasına biganə qala bilməz. Antanta Avropada möhkəm sülh istəyirsə, türk dünyası ilə hesablaşmalıdır. Əgər köhnə əsrlərdə Avropanın ədalətsizliyi hələ türk xalqlarının yaddaşından silinməyibsə, ədalət və bərabərlik əsri olan XX əsrdəki yeni ağrılar yəqin ki, heç vaxt unudulmayacaqdır".[17] Əlbəttə, ingilis hökumətinin mövqeyinə bu müraciətin də müəyyən dərəcədə təsiri olmuşdu.

Bundan sonra Türkiyə ilə imzalanacaq sülh şərtlərini hazırlamaq Montöqyuya həvalə edildi. O, isə İngiltərə hərbi nazirliyinin mütəxəssislərini də cəlb edərək yeni bir layihə hazırladı və yanvarın 12-də hökumətə təqdim etdi. Bu layihəyə əsasən İstanbul türklərə qalırdı, Şərqi Trakiyada türk sərhəddi Enos-Midiya xəttinədək geri çəkilirdi, boğazlardan sərbəst keçid qəbul edilirdi, İzmirdən çəkiləcək yunanlara Ədirnə veriləcəyi təqdirdə İzmirə bir yunan, Ədirnəyədə bir türk valisi təyin edilməsi nəzərdə tutulurdu. Ərzurum və Baybut xaric, Ərzurumun şərqindəki torpaqlardan bir Ermənistan dövləti qurulacaq və Trabzonun şərqi (Lazıstan) Gürcüstana veriləcəkdi".[18] Həmin vaxt ingilis mətbuatında İstanbulun və Osmanlı Avropasının Osmanlı tabeliyində qalmasının istənildiyi, bundan sonra doğacaq faydalar göstərilir, "Türkü İstanbuldan qovmaq demək, şərqdə qarışıqlığın yaranmasına meydan vermək



demək"[19] olacağı irəli sürülürdü.

Londonda gedən bu hadisələr haqda Türkiyədə rəsmi məlumatlar olmasa da, bu xüsusda xəbərlər türk xalqına çatırdı və ölkədə böyük həyəcan doğururdu. 1920-ci il yanvarın 8-də Konyada Şərafəddin camisində beş min türk qadını toplaşaraq Paris sülh konfransına göndərilmək üçün qərar qəbul etdi. Yenə Konyada Ələddin camisində böyük bir etiraz mitinqi keçirildi. Trabzondada çoxminli mitinq keçirildi. Bu mitinqlərdə "İstanbulun türklərdən alınmasına etiraz edilirdi".[20] İstanbuldakı həyəcan isə daha şiddətli idi. Universitet tələbələri Sədrəzəmdən Fatihdə böyük bir mitinq keçirilməsi üçün icazə almış, digər tərəfdən də yanvarın 13-də Sultan Əhməd meydanında böyük bir mitinqə toplaşaraq "İstanbulun əvvəldən olduğu kimi Osmanlı imperatorluğunun paytaxtı olaraq qalması, İzmirin, Anadolunun... türklərə qaytarılması tələb olunurdu".[21]

İngiltərənin İstanbul haqqındakı qərarı yalnız əvvəlki qərardan müvəqqəti imtina etmək idi. İstanbul və boğazlar məsələsi əvvəlki qeyri-müəyyən vəziyyətdə qaldı. Bu iş müttəfiqlərarası münasibətlərə toxunduğundan, ingilislər bu qeyri-müəyyənlikdən heç nə itirmirdilər. Lakin son bir ildə baş verən hadisələrin türk məsələsinin yalnız müttəfiqlərdən asılı olmadığını göstərdi. Anadoluda baş qaldıran milli-hərəkat tək yunanlara qarşı deyil, bütün müttəfiqlərə qarşı milli-azadlıq müharibəsi xarakteri almışdı.[22]

1920-ci il yanvar ayının birinci yarısında, Paris sülh konfransının işinin son günlərində İngiltərə və Fransa hökumətləri fasiləsiz olaraq türk məsələsi ilə məşğul oldular. L.Corc türklərin İstanbulda saxlanılması ilə razılaşaraq bildirdi: "Nəhayət, Türkiyə ilə sülh müqaviləsi imzalamaq lazımdır". 1920-ci il yanvarın 21-də Paris sülh konfransı özünün sonuncu iclasında "təcili olaraq sülh mü-

qaviləsinin layihəsini hazırlamaq və Türkiyə ilə danışıqlara başlamaq" haqqında qərara gəldi.

1920-ci il fevralın 12-də L.Corc yenidən "nə qədər mümkündürsə, tezliklə toplaşmaq və türk məsələsini tamamilə həll etməyi" təklif etdi. Müttəfiqlər bu təklifə razılaşdılar. 1920-ci il fevralın 15-də Londonda Venizelosun iştirakı ilə müttəfiq hökuməti başçılarının (L.Corc, Mileran, Nitti) keçirilən konfransında gələcək sülh müqaviləsinin şərtləri müəyyənləşdirildi. İstanbulun kimə qalacağı məsələsi isə İngiltərə, Fransa və İtaliya arasında böyük bir çəkişməyə səbəb oldu. Çünki L.Corc türklərin Avropadan qovulmasını konfransda təkrar etdi. Fransız və italyalılar isə bunun əleyhinə idilər. İtaliya baş naziri Nitti qeyd edirdi ki, "əldə edəcəyimizdən əmin olmadığımız şeyləri istəmək faydasızdır. Türk xalqını əleyhimizə qaldıracaq qərarlar qəbul etməkdən qaçmalıyıq".[23] Bu iki dövlətin kəskin etirazı, dünya müsəlmanları arasında, əsasəndə Hindistanda İngiltərə əleyhinə meydana gələn cərəyan, türk milli müdafiəsinin getdikcə güclənməsi və İngiltərənin bu gücü məhv etmək üçün o zaman lazımi qüvvəyə sahib olmaması qarşısında L.Corc London konfransının "İstanbulun türklərə verilməsinə dair" qərarını qəbul etmək məcburiyyətində qaldı.

Londonda qəbul edilmiş qərar fevralın 16-da L.Kerzon tərəfindən İstanbuldakı ali komissar admiral de Robekə çatdırıldı və açıqlanmasına da icazə verildi.

Konfransda İstanbul və boğazlara aid bənd xüsusi diqqətlə tərtib edilmişdi. Həmin bənddə göstərilirdi: "Sultan Türkiyəsi və hökumət İstanbulda qalır. Amma bu qərar sülh müqaviləsinin və azlıqların təminatının yerinə necə yetirilməsindən asılıdır. Sultanın şəxsi mühafizəçilərindən başqa heç bir türk ordusu İstanbulda qalmaq hüququna malik



deyildi. Boğazlar zonasının hərbi işğalı hüququnu müttəfiqlər özlərində saxlayırdılar". "Boğazlarda sərbəstliyi" təmin etmək üçün inzibati və maliyyə nəzarət komissiyası təşkil ediləcəyi nəzərdə tutulurdu. Komissiya özünün bayrağına və büdcəsinə malik olmalı idi. Fransa, İngiltərə, İtaliya – bəzi hallarda ABŞ və Rusiya bu komissiyada bir nəfər nümayəndə ilə təmsil olunacaqdı. Sonradan bir sıra başqa qərarlarda işlənib hazırlanacaqdı.[24]

Beləliklə, yalnız boğazlar zonası tamamilə müttəfiqlərin, faktik olaraq İngiltərənin ixtiyarına verilmirdi, həmçinin türklərin İstanbulda saxlanması ən yaxşı halda Sultanın nüfuzuna şifahi hörmət kimi qiymətləndirilirdi. Bundan başqa İstanbulda Britaniya ali komissarı de Robek fevralın 19-da baş vəzirə imperiyanın paytaxtının Osmanlı dövlətinə qaldığını rəsmi olaraq bildirərək əvəzində "ermənilərin öldürülməsinin dayandırılmasına" və "Anadoluda müttəfiq qüvvələrinə qarşı aparılan hərbi əməliyyatlara son qoyulmasını, əks təqdirdə sülh şərtlərinin dəyişdiriləcəyini tələb etdi".[25] Digər tərəfdən, İstanbulun türklərə qalması xəbəri İngiltərənin özündə "türk düşmənlərini" hirsləndirdi. bu üzdən tarixçi və diplomat Bric, işçi partiyası lideri Y.N.Tomas, sosialist liderlərdən Aydman, London Üniversitetinin professorlarından Burrous və b. "Tayms" qəzetində bir bəyənnamə verərək İstanbulun türklərə verilməsinin "bir fəlakət və qalmaqal" olduğunu bildirdilər".[26] Amma buna cavab kimi 26 deputat türklərin leyinə olan bir bəyannamə yaydılar. Belə bir vəziyyətdə hər halda açıqlamanı vacib sayan L.Corc fevralın 26-dakı çıxışında İstanbulun türklərə qalması qərarının səbəblərini aşağıdakı kimi izah etdi: "1918-ci ilin yanvarında "Türkiyənin paytaxtından və əhalisinin çoxunu türk təşkil edən Anadoludakı və Trakiyadakı zəngin və əhəmiyyətli

ərazilərindən məhrum edilməyəcəyi" haqqındakı sözlərim bir prinsipə çevrildi... Bununla bərabər, sülh şərtləri elan edildiyi zaman türklərin ağır surətdə cəzalandırılmış olduqları görüləcəkdir. Çünki imperatorluğun yarı mülkündən çoxunun əllərindən alınması, məmləkətlərinin müttəfiq topları altında saxlanılması, ordusundan, nüfuzundan məhrum edilməsi kimi cəzalar onların düşmənlərini belə heyrətə gətirəcək dərəcədə müdhişdir..." L.Corcun bu açıqlamasından göründüyü kimi, Türkiyəni və dünya ictimaiyyətini qarşıda müdhiş sürprizlər gözləyirdi.

Hələ yanvarın 20-də müttəfiqlər Osmanlı hökumətinə bir nota vermişdilər. Bu nota ilə Calal və Cavad paşaların 48 saat ərzində istefa verməsi tələb olunurdu. Hökumətin verdiyi cavaba baxmayaraq, müttəfiqlər bu tələblərindən əl çəkmədilər. Belə olduqda yanvarın 21-də xarici işlər naziri bu paşaların istefaya getdikləri haqda ali komissarlara məlumat verdi və kabinet müttəfiqlər qarşısında daha da kiçildi.[27] Deputatlar palatası isə susurdu. Yalnız bir neçə gündən sonra, yəni yanvarın 28-də "Milli and" qəbul edildi.[28] Bu sənəddə Türkiyənin Mudros barışığınadək olan sərhədlərində Türkiyə üçün tam müstəqillik tələb edilirdi. "Milli andın" dördüncü bəndi xüsusi olaraq İstanbul məsələsinə aid idi. Həmin bənddə deyilirdi: "Müsəlman xilafətinin iqamətgahı, Sultan imperiyasının və Osmanlı hökumətinin yerləşəcəyi İstanbulun, həmçinin Mərmərə dənizinin təhlükəsizliyi hər hansı bir qəsddən mütləq mühafizə edilməlidir. Dardanel və Bosforun dünya ticarəti üçün açılması bu prinsipin yerinə yetirilməsi şəraitində mümkündür".[29] Nə "Milli and" nə də ki, ümumiyyətlə Osmanlı deputatları palatasının fəaliyyəti ingilislər üçün heç bir təhlükə yaratmadı. Əksinə, tezliklə İstanbulda parlament səs-küyü xalq nümayəndəliyi təsviri yaradaraq Anadoluda



irticaçılara və Sultana qarşı milli mübarizəni çətinləşdirirdilər. Buna baxmayaraq ingilislər bu parlamentdən də xilas olmağa çalışırdılar. Onlar düşünülmüş şəkildə Sultan hökuməti ilə deputatlar arasında münaqişə yaratmağa cəhd edirdilər. U.Çerçill yazırdı ki, "İstanbulda üsyan təhlükəsi yaranırdı ki, bunun nəticəsində qırğın baş verə bilərdi..." Əslində bütün bunlar İstanbulun işğalını əsaslandırmaq üçün ingilislərin uydurmaları idi.

1920-ci il fevralın ikinci yarısında ingilislər boğazlar zonasında hərbi qüvvələrinin sayını çoxaltdılar. "Britaniyanın böyük hərbi birləşmələri Bosfora gətirildi".[30]

Bununla bərabər, milli qüvvələri daxildən parçalamaq məqsədi ilə "hərbi Nigehban cəmiyyəti" və "Qızıl xəncərilər cəmiyyəti" boğazlardakı ingilis qüvvələrinə arxalanaraq Anadolu ilə boğazlar arasında bir irtica zonası hazırlamağa çalışır və bu məqsədlə razılığa gələrək "Əhmədiyyə cəmiyyəti" təşkil etmişdilər. Onlar bu minvalla Balıkəsirdə yunanlılara qarşı qurulmuş milli cəbhəni parçalamaq istəyirdilər. Təşkilat üçün lazım olan vəsaiti isə ingilislər verirdilər.[31] "Əhmədiyyə cəmiyyəti"nin hərbi hissəsini idarə edənlər – Təyyar paşa, Mustafa paşa və b. – Qızıl xəncərilər cəmiyyətinə mənsub əsgərləri Bandırmaya göndərmişdilər. Onlar özlərini "milli müdafiəçilərdən" kənar adamlar kimi təbliğ edərək kəndlərə yayılıb xalqı öz tərəflərinə çəkməli və lazımi səviyyədə gücləndikdən sonra hərəkətə başlamalı idilər. Hətta ..."yunanlardan da özlərinə yardım istəməyi düşünürdülər"...[32]

Bütün göstərilən və başqa vasitələrlə Sultan hökumətinə təzyiqləri artıraraq müttəfiqlər hökumətin daxili işlərinə daha çox qarışırdılar. Bu təzyiqlərə və martın 3-də yunanların hərəkətə keçərək "Gölçük yaylası və Bozdağı işğal etmələrinə" dözməyən Əli Riza paşa kabineti istefaya

getməyə məcbur oldu. Ancaq hər tərəfi bu istefadan çox, kimin iqtidara gələcəyi maraqlandırırdı. Çünki Ferid paşanın yenidən iqtidara qaytarılacağı haqda xəbərlər gəzirdi. Ölkənin hər yanından Ferid paşanın hakimiyyətə qayıtmasına qarşı teleqramlar gəlirdi. Bu xüsusda M.Kamalın Sultana göndərdiyi məktub diqqəti cəlb edir. M.Kamal bu məktubda müttəfiq dövlətlərin təzyiqinə dözməyərək hökumətin istefaya getməsi ilə meydana gələn sıxıntılar türk millətində dərin bir qayğı yaratdığını göstərmiş və düşmənlər tərəfindən təzyiqlə idarə olunan hökumətlərin fəaliyyətindən acı çəkməkdə olan bu millətin milli istəklərini yerinə yetirəcək bir hökumət qurulmasını istəmişdi. Nəhayət, martın 8-də Saleh paşa hökumətə başçı təyin edildi.

İngilis hökumətinin 6 yanvar tarixli, London konfransının 14 fevral tarixli "İstanbulun türklərə qalması" haqda qərarını L.Corc müttəfiqlik "birliyini" pozmamaq xatirinə qəbul etmişdi. L.Kerzon isə əvvəldən bu qərara qarşı idi. Amma bu qərara baxmayaraq hər ikisi Türkiyə və türklər haqda fikirlərindən vaz keçməmişdilər, hər hansı bir fürsət düşən kimi bu qərara yenidən baxılmasını planlayır və bəhanələr axtarırdılar. Bu məsələdə yenə də erməni faktoru "köməyə gəldi". Belə ki, cənub-şərqi Anadolunun fransız idarəsinə verilməsindən bu anadək türklər tərəfindən "20 min erməninin öldürülməsi" xəbəri onlar üçün yaxşı bir bəhanə oldu. Amma həqiqətdə bu rəqəm çox mübahisəli idi. Hətta fransızlar belə "bu rəqəmin şişirdilmiş olduğunu bildirdilər". Osmanlı hökuməti də "buna rəsmən etiraz etdi". Buna baxmayaraq L.Corc və L.Kerzon bu xəbəri bir tərəfdən fransızlara qarşı, digər tərəfdən də M.Kamal paşa ilə əlaqəsi olduğunu qəbul etdikləri İstanbul hökumətinə qarşı istifadə etdilər və onları bu hadisədə suçladılar.



L.Kerzon fevralın 28-dəki toplantıda Maraş döyüşü zamanı "20 min erməni öldürüldüyünü", bunda M.Kamalın günahlı olduğunu qeyd edib bu bölgədəki fransız qüvvələrinin artırılmasını və Mərsinə hərbi gəmilər göndərilməsini istədi.[33] Həmin gün L.Corc da Kerzonun fikirlərini təkrar etdi və ingilis işğalı zamanı sükunət içində olan bu bölgədə sakitliyin pozulmasında fransızlarla M.Kamalı günahkar hesab edib Türkiyəyə qarşı hərəkətə keçilməsini, lazım gəlsə Sədrəzəm, hərbi nazir və b. nazirlərin həbs edilməsini istədi.[34] Fransızlar isə L.Corcun fikri ilə razı deyildilər. Amma vəziyyətin düzələcəyi ümidi ilə bir tədbir görülməsi fikrini qəbul etdiklərinə görə müttəfiqlər bəzi məsələlər üzərində fikir mübadiləsi etdilər: 1) Cənub-Şərqi Anadoluda olan hadisələrin bir daha təkrarlanmaması üçün bu bölgədə və İstanbulda lazımi tədbirlərin görülməsi və suçluların cəzalandırılması. 2) Cənub-Şərqi Anadoludakı hadisələrdən İstanbul hökuməti cavabdehdir. "Türklərin İstanbulda qalmasına dair verilmiş qərarın dəyişməz olmadığını bildirmək gərəkdir". 3) İstanbulda hərbi nazirliyin və b. əhəmiyyətli obyektlərin zəbti, bir sıra məsuliyyətli şəxslərdən bir neçəsinin tutulması kimi tədbirlər görülə bilər.[35] Amma bu fikirləri həyata keçirmək çox çətin idi. Çünki U.Çerçilin də qeyd etdiyi kimi, "İstanbulda və kənarda müttəfiqlərin istəklərini türklərə qəbul etdirmək üçün lazımi qüvvəyə malik deyildilər".[36] Ancaq bunlara baxmayaraq London konfransının 5 mart tarixli iclasında L.Corc İstanbul haqda bir qərar qəbul edilməsini istədi, hətta, türklərin 80000 nəfərlik qüvvələrinə qarşı müttəfiqlərin Türkiyədə 160000 nəfərlik qüvvəsi olduğuna görə "çəkinmədən İstanbulu işğal edər və bununla da türklərə sülh müqaviləsini etirazsız qəbul etdirə bilərik"[37] dedi. L.Corcun bu fikirləri yerini aldığına görə konfrans

həmin gün İstanbuldakı komissarlara bir teleqram göndərərək Türkiyə ilə imzalanacaq sülh müqaviləsinin şərtlərinin aşağıdakı kimi ola biləcəyini bildirdi: 1) Trakiya Çatalciyədək yunanlara verilir; 2) Boğazlar dövlətlərarası bir nəzarətə alınacaq; 3) İzmir Yunanıstana birləşdiriləcək; 4) Ərzurum da daxil olmaqla erməni dövləti qurulacaq, bir Kürdüstan dövlətinin qurulması da ola bilər. Bundan başqa, bu ağır şərtləri türklərə zorla qəbul etdirmək üçün komissarlardan həyata keçiriləcək tədbirlərin nədən ibarət ola biləcəyi, nə vaxt və harada, hansı quru və dəniz qüvvələrindən istifadə edilə biləcəyi soruşulurdu. Bununla belə öz fikirlərini də bildirmişdilər: 1) İstanbul müttəfiq qüvvələri tərəfindən işğal edilməli və bu işğal sülh müqaviləsinin imzalanmasınadək davam etməli; 2) Adana bölgəsindəki hadisələrdə məsuliyyətli olan M.Kamal cəzalandırılmalı; 3) Cənub-Şərqi Anadoludakı hadisələrə bənzər hallar təkrar olunsa sülh şərtlərinin daha ağırlaşdırılacağı türk hökumətinə bildirilməli; 4) İstanbulda "hərbi nəzarət" qurulacaq və oradan verilən bütün əmrlər nəzarətə alınacaq.[38]

Londondan gələn bu teleqramla bağlı ingilis, fransız və italyan komissarları toplaşaraq hazırladıqları mətni hökumətlərinə göndərdilər. Onlar konfransın qərarlarını yerinə yetiricəklərini bildirməklə bərabər, aşağıdakı məqamlar üzərində xüsusi olaraq durmağı istədilər: 1) Türkiyə müqaviləni imzalarsa, yerinə yetirməyə etiraz etməsi mümkündür; 2) Sultanın taxtdan endirilməsi, yeni bir Sultanla əvəz edilməsi, Anadoluda yeni bir hökumət qurulub parlamentində Anadoluya köçürülməsi mümkündür; 3) Türklərin bolqarlarla birgə yunanlılara qarşı hücuma keçməsi mümkün ola bilər; 4) Türklərin bolşevik və ərəblərlə birlikdə fəaliyyətə keçməsi ehtimal oluna bilər".[39]



Göründüyü kimi, komissarlar konfransın qərarlarının yerinə yetirilməsində qarşıya çıxacaq böyük çətinlikləri hiss edirdilər. Admiral de Robek isə martın 9-da L.Kerzona bir məktub göndərdi. Həmin məktubda o, ingilislərin Türkiyədəki siyasətini tənqid etdi, İzmirin və Trakiyanın yunanlara verilməsini yersiz hesab etdi, konfransın qərarlarının geniş bir döyüş hazırladığını göstərdi və sonda da bütün bunlar "Venizelosun Yunanıstanda nüfuzunu möhkəmləndirmək" üçünmüdür? Bütün Asiyanı qana bulamaq ağıllılıqdırmı? deyərək soruşdu".[40] L.Kerzon bu məktubun əhəmiyyətli olduğunu qəbul etsə də türklərə qarşı yürütdüyü siyasətində dəyişiklik etmədi və "konfrans İstanbulun hərbi işğalı haqda qərar qəbul etdi".[41] Ancaq İstanbuldakı ali komissarlar İstanbulun işğalı qərarında ümumi razılığa gəlmədilər.Çünki fransız komissarı hökumətindən aldığı təlimata əsaslanaraq məsələnin tam araşdırılıb bir qərara gəlinməsindən öncə hərəkətə keçilməsinə tərəfdar olmadı. Buna görə də L.Kerzon bir tərəfdən Fransa hökuməti ilə əlaqə saxladı, digər tərəfdən də İstanbuldakı ingilis komissarına, fransız və italyalıların işğalda iştirak etmədikləri təsadüfdə bu aksiyanın təkcə ingilis qüvvələri tərəfindən yerinə yetirilməsini bildirdi. Amma buna ehtiyac qalmadı. Çünki komissarlar arasında razılıq əldə edildi: İstanbulun hərbi işğalı martın 16-da səhər saat 10.00-da həyata keçirilməyə başlanılmalı və bütün əhəmiyyətli obyektlər müttəfiq hərbçiləri tərəfindən zəbt edilməli idi.

İstanbulun işğal planı çox gizli saxlanılırdı. Amma buna rəğmən ingilislərin İstanbul Türkocağı binasını tutmaları, martın 11-də nəzarətçi zabit Uittolun bütün dəstəsi ilə Ankaranı tərk etməsi və martın 14-də poçt idarəsinin nəzarətə alınması İstanbulun işğal ediləcəyi barədə gəzən şayiələrin

gerçəkləşəcəyindən xəbər verirdi”.[42] M.Kamal paşa işğaldan bir gün qabaq İstanbulun işğal ediləcəyi haqda məlumat almışdı. Bu xəbərlərin mənbəyi fransızlar idi. İşğalın dəqiq tarixini isə italyanlar çatdırmışdılar.

1920-ci il martın 16-da səhər tezdən general Miln işğal planını həyata keçirtməyə başladı. İstanbuldakı rəsmi idarələr işğal edilməyə başlandı. İlk öncə hərbi nazirliklə poçt idarələri işğal edildi. Digər tərəfdən, Bəyoğlu, Beşikdaş, Şişli, Qasımpaşa, Kadıgöy, Üsküdar, Libadiyə və b. mövqelər ingilislər tərəfindən tutuldu, gediş-gəliş dayandırıldı. İstanbulla Üskudar, Kadıgöy və Boğaziçi arasında əlaqə kəsildi. Axırqapı inşaat fabriki, avtomobil taburu və b. fransızlar tərəfindən işğal edildi, Süleymaniyyə camisi və Ayasofyadakı türk əsgərləri əsir alındı. Ümumiyyətlə, İstanbuldakı bütün strateji əhəmiyyətli obyektlər zəbt edildi. Bu hadisələr baş verəndən sonra ingilis komissarı de Robek, fransız komissarı de Frans və italyan komissarı Maissa tərəfindən imzalanan bir nota saat 9.40-dəqiqədə ingilis komissarlığı baş tərcüməçisi Ryan tərəfindən sədrəzəmə və fransız komissarlığı müşaviri M.Ledoilx tərəfindən də saat 10.15 dəqiqədə saray baş katibi Əli Fuat bəyə verildi”.[43] Bu notada martın 16-da səhərdən etibarən İstanbulun və buradakı bir çox binaların müttəfiqlər tərəfindən işğal ediləcəyi, polis işləri və poçt-teleqraf işləri nəzarətə alınacağı bildirilir, Kilikiyada baş verən hadisələrdən məsul olan M.Kamal paşa və silahdaşlarının hərəkətlərinin hökumət tərəfindən müdafiə olunmadığı elan edilməsi, bu kimi hadisələr təkrar edilərsə, sülh üçün hazırlanmış şərtlərin daha da ağırlaşdırılacağı bildirilirdi. Bundan başqa, feldmarşal Vilsonun bəyanatlarında türk xalqını rahat həyata qovuşduracaq sülhün hazırlandığı bu zamanda ittihadçıların millətçilik pərdəsi



arxasında hərəkətə keçdiklərinin Sultanın əmrlərini dinləmədiklərinin, əsgərlik bəhanəsi ilə pul topladıqlarının və b. hadisələrin qarşısını almaq məqsədi ilə İstanbulun işğal edildiyi bildirildi. Bundan başqa, işğalın səbəbləri belə açıqlanırdı: 1. İşğal müvəqqətidir; 2. Müttəfiqlərin fikri Sultanın nüfuzunu yox etmək deyil, əksinə Osmanlı idarəçiliyində qalacaq ərazilərdə nüfuzunu gücləndirməkdir; 3. Anadoluda üsyan başladığı təqdirdə İstanbul türklərdən alınacaqdır; 4. Hər kəsin İstanbuldan veriləcək əmrlərə əməl etməsi gərəkdir.[44]

İşğal günü Osmanlı hökuməti işğala etiraz edib şəhərin işğalını əsaslandıracaq bir səbəb olmadığını, Anadoludakı hadisələrin Aydın vilayətinin haqsız olaraq yunanlılar tərəfindən işğal edilməsindən, yunanların və yerli yunanların müsəlmanlara zülm etmələrindən, böyük Ermənistan və Qaradəniz sahilində yunan dövləti qurmaq istəyindən, Maraş hadisələrinin də silahlı erməni birliklərinin müsəlmanlara hücumlarından irəli gəldiyini bildirdi.[45] Bu etirazı nəzərə almayan müttəfiqlər öz işlərini davam etdirdilər və ingilis əsgərləri Məclisə gəlib Məclis rəhbərlərindən Rauf bəylə Qara Vasif bəyin onlara təslim edilməsini istədilər. Qeyd edək ki, müttəfiq komissarları de Robek, Frans, Maissa

və Kanellopulois hələ martın 10-da Osmanlı millət vəkillərinin həbs edilməsi haqda razılaşmışdılar.[46] Bu tələb Məclisdə böyük həyəcan doğursa da, sonda yerinə yetirildi.

Ankarada işğalın həyata keçirilmə xəbərini martın 16-da səhər saat 10-da İstanbuldan vurulan teleqramla öyrəndilər. Həmin gün M.Kamal paşa müttəfiqlərin İstanbuldakı təmsilçilərinə, ABŞ-ın siyasi təmsilçisinə, bitərəf dövlətlərin xarici işlər nazirliklərinə, Fransa, İngiltərə və İtaliya parlamentlərinə etiraz teleqramı göndərdi və İstanbulun işğal edilməsini XX əsrin mədəniyyət və insanlığın bütün əsaslarına, hürriyyət, millət və vətən duyğusu prinsiplərinə vurulmuş bir zərbə olduğunu qeyd etdi.[47]

Həmin gün M.Kamal paşa türk xalqına da bir müraciət etdi. Bu müraciətdə Müttəfiqlərin Türkiyəni məhv etmək üçün etdikləri təşəbbüslər aşağıdakı kimi sıralanırdı: 1. Müttəfiqlər Damat Fərid paşa ilə əlaqəyə girərək türk xalqını müdafiəsiz bir halda əcnəbi idarəsinə əsir etməyi və vətənin bəzi əhəmiyyətli hissələrini müstəmləkə halına gətirməyi düşündülər. Amma bu düşüncə bütün millətin yardım etdiyi "milli müqavimət"in istiqlalı qoruma, xüsusilə də mövqeyi nəticəsində yox oldu. 2. Bunun üçün "milli müqavimət" Şərqdə bir üstünlük təqib etmək üçün təmsilçi heyətə baş vurdular. Fəqət təmsilçi heyət xalqın istiqlalını və mülkün bütövlüyünü təmin etməyincə və əsasən də işğal olunmuş olan türk torpaqlarının boşaldılmasına təşəbbüs olunmadıqca heç bir müzakirəyə getmədik. 3. Müttəfiqlər milli qüvvələrlə iş birliyi qurmaq istəyən kabinetlərin daxili işlərinə qarışaraq milli birliyi sarsıtmaq istədilər. Amma buna nail olmadılar. 4. Bu dəfə də türk vətəninin gələcəyi haqqında narahatedici qərarlar qəbul edildiyindən söz edərək seçkini təsir altına almaq yolunu tutdular. Ancaq bunlar da namusunu və məmləkətini qorumaq uğrunda hər fədakarlığı



gözə almış xalqın iradəsi qarşısında bir fayda əldə edə bilmədilər. Son anda bu dövlətlər bu gün İstanbulu işğal edərək Osmanlı dövlətinin 700 illik hakimiyyətinə son qoydular, yəni bu, addımları ilə türk xalqını istiqlalının müdafiəsinə dəvət etdilər...[48]

Dörd maddədən ibarət olan bu müraciətdə əsas diqqəti cəlb edən məsələ İstanbulun işğalı ilə Osmanlı dövlətinin sona gəlməsi olduğunun qəbulu və türk xalqının istiqlal mübarizəsinə çağırılmasıdır.

İstanbulun işğalı martın 17-də bir bəyannamə ilə islam dünyasında yayıldı. Bu bəyannnamədə İstanbula edilən irticanın Osmanlı səltənətindən çox islam dünyasına qarşı olduğu, Asiya və Afrikada azadlıq mübarizəsinə çıxmış müsəlmanların mənəvi gücünü qırmaq üçün müttəfiq dövlətlərinin əl atdıqları son bir tədbir olduğu, 1300-ildən bəri yaşayan xilafəti yıxmaq üçün vurulan bir təşəbbüs olduğu göstərilir, və son bir xaç hücumuna bənzədilən bu hərəkətin bütün müsəlmanlarda bir müqavimət duyğusu meydana gətirəcəyinə inanıldığı bildirilirdi. Ancaq bu müraciət islam aləmində gözlənildiyi ümidi vermədi. Bununla bərabər bəzi yerlərdə İstanbulun işğalına qarşı etiraz hərəkətləri edildi. Xüsusən də, hind müsəlmanları bu xəbəri eşidən kimi dərhal etiraz etmək üçün Mövlanə Məhəmməd Əli xanı bir heyətlə Londona göndərdilər. 1920-ci ilin aprelində Romada da olan heyət Papa XV Benoitlə də görüşdü. Bu görüşdə Məhəmməd Əli xan "Müqəddəs Pədər, sizi qardaş dinin ən böyük adamı kimi salamlayır və tək Allaha inanan iki dinin qardaşları olaraq sizdən qalib dövlətlər tərəfindən bütün islam dünyasına edilən zülm və qarət üçün müdaxilənizi xahiş edirəm... Asiyada və müsəlmanlar yaşayan bütün yerlərdə ingilis və fransızların etdiyi zülmə və qarətə qarşı etirazlar qalxmış və davam

edir..."[49] demişdi. Papa qarşılıq olaraq "müdafiə edərəm" dedi. Tunisdə də müsəlmanlar İstanbulun işğalına etiraz etdilər.

İstanbulun işğalı ümumən türk xalqının böyük narazılığına səbəb oldu və xalqı işğalçılara qarşı azadlıq mübarizəsinə qalxmağa sövq etdi. Amma bu mübarizə dalğasını ingilislər nəzərə almaq istəmirdilər. İngilislər İstanbula sahib olduqdan sonra kamalçılar üzərində tezliklə qələbə çalacaqlarına ümid edirdilər. Amma buna nail olmaq onlara qismət olmadı. Çünki İstanbulun işğalı XX yüzilliyin ən ədalətsizliklərindən biri idi. Bu addımı atmaqla müttəfiqlər türk xalqını mübarizəyə qaldırdılar.

---

1 Миллер А. Американский план захвата Константинополя и проливов в 1919 г. – Вопросы истории, 1951, №3, с.691.
2 Джордж Л.Д. Европейский хаос. М.-Л., 1924, ñ.95.
3 Toynbec A. Western Question in Grecce and Turkey. London, 1990, s.366.
4 Джордж Л.Д. Европейский хаос, ñ.99.
5 Pesh E. La Turquie et les Alliis. Paris, 1925. p.124-125.
6 Documents on British Foreign Policy 1919-1939. First series. wol.II. London, 1948. pp.727-728.
7 Éåíÿ îðàäà, p.729.
8 Джордж Л.Д. Европейский хаос, ñ.259.
9 Documents on British Foreign Policy 1919-1939. First series. wol.II. p.730.
10 Йеня орада. p.730-731.
11 "Europs Nouwelle", 3.1.1920, p.142.
12 Street C. 1.Ch/Life of Lord Reading. London, 1928, pp.200-201.
13 "Europs Nouwelle", 10.1.1920, p.197.
14 "Temps" ãÿçåòè, 1 éàíâàð 1920.
15 Àêøèí Ñ. Àòàòöðêöí äèø ïîëèòèêà èëêåëåðè âå äèïëîìàñèñè. Àíêàðà, 1991, ñ.95.
16 Àêøèí Ñ. Àòàòöðêöí äèø ïîëèòèêà èëêåëåðè âå äèïëîìàñèñè, ñ.105.
17 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.897, ñèé.1. èø 92. â.30.
18 Jaesche G. Òöðê êöðòóëóø ñàâàøû êðîíîëîúèñè, Ìîíäðîñ'òàí Ìóäàíéàéà êàäàð, 30 åêèì – 1918 – 11 åêèì 1922. Àíêàðà, 1970, ñ.54.
19 "Áèðìèíùåéì Òàéìñ" ãÿçåòè, 5 éàíâàð 1920, c.1.
20 Ùàðá òàðèùè âåñèêàëàðû äåðãèñè. Ñàéû 48. áåëãå 1116.
21 Àðèáóðíà Ê. Ìèëëè Ìöúàäåëåäå Èñòàíáóë Ìöòèíãëåðè, ñ.58-65.
22 Îëàéëàðëà òöðê äèø ïîëèòèêàñû, ñ.25.
23 Áàéòîê Ò. Èíýèëèñ êàéíàêëàðûíäà òöðê êóðòóëóø ñàâàøû. Àíêàðà, 1970, ñ.68.
24 Адамов Е. Константинополь и проливы, т.1, с.95.
25 Àòàòöðê Íóòóê-Úàçè Ì.Êàìàë òàðàôûíäàí Úöìùóðèéåò ùàëê ôèðêàñûíûí 15-20 òåñðèíèåâåë 1927 òàðèùëåðè àðàñûíäà òîïëàíàí áöéöê êîíãðåñèíäå ñþéëåíìèøäèð. Èñòàíáóë, 1934, ú.1, ñ.272.
26 "Temps" ãÿçåòè, 21 ôåâðàë 1920.
27 Áàéòîê Ò. Èíýèëèñ êàéíàêëàðûíäà òöðê êóðòóëóø ñàâàøû, ñ.48.
28 Ùàðá òàðèùè âåñèêàëàðû äåðãèñè, ñàéû 12, áåëãå 302.
29 Ключников Ю.В., Сабанин А.В. Международная политика в договорах, нотах и декларациях. Ч.III. Ì., 1929, ñ.2.
30 "Tarih", c.IV. s.5, 46.
31 Úåáåçîé À.Ô. Ìèëëè ìöúàäåëå ùàòèðàëàðû. Èñòàíáóë, 1963, ñ.298. Þçàëï Ê. Ìèëëè ìöúàäåëå. ú.1. Àíêàðà, 1988, ñ.102.
32 Ïåêåð Í. Èñòèêëàë ñàâàøû. Èñòàíáóë, 1955, ñ.145.
33 Øèìøèð Á. Èíýèëèñ áåëãåëåðèíäå Àòàòöðê, ú.1, ñ.193.
34 Áàéòîê Ò. Èíýèëèñ êàéíàêëàðûíäà òöðê êóðòóëóø ñàâàøû, ñ.83. Éàçû÷û Í. Òöðêèéå úöìùóðèéåòè èíêèëàï òàðèùè. Êîíéà, 1986, ñ.201.
35 Êóðàò É.Ò. Îñìàíëû Èìïåðàòîðëóüóíóí ïàéëàøìàñû. Àíêàðà, 1986, ñ.181.
36 Áàéòîê Ò. Ýþñòÿðèëÿí ÿñÿðè; Øèìøèð Á. Ýþñòÿðèëÿí ÿñÿðè, ñ.403; Черчилль У. Мировой кризис. ñ.147.
37 Ñåëàùåòòèí Ò. Ìîäîðîñ'òàí Ìóäàíèéà'éà êàäàð. ú.II. ñ.41; Øèìøèð Á. Èíýèëèñ Áåëãåëåðèíäå Àòàòöðê, ú.1. ñ.387.
38 Áàéòîê Ò. Ýþñòÿðèëÿí ÿñÿðè, ñ.88;
39 ×àùèò Ê. Ñåâð äîñéàñû, ñ.59.
40 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 68. â.9.
41 Йеня орада. â.11.
42 Àòàòöðêöí ñþéëåâ âå äåìåúëåðè. ú.1. ÒÈÒÅ. Àíêàðà, 1981, ñ.144. Ñîéñàë Ë. Òöðê-Ôðàíñûç ñèéàñàë èëèøêèëåðè (1919-1984), ú.1, ñ.154.
43 Òöðêãåëäè À.Ô. Ìîíäîðîñ âå Ìóäàíéà Ìöòàðèêåëåðèíèí òàðèùè, ñ.281; Øèìñèð Á. Ýþñòÿðèëÿí ÿñÿðè, ú.1.5, ñ.463-464; Áàéòîê Ò. Ýþñòÿðèëÿí

ÿñÿðè, ñ.93.

44 Ìöùèòòèí ×. Òöðê èíêèëàá òàðèùè, ñ.136; Àòàòöðêöí ñþéëåâ âå äåìåãëåðè, ú.1, ñ.301.

45 Ùàðá òàðèùè âåñèêàëàðû äåðãèñè. ñàéû 19. áåëãå 499.

46 Ìåëñèú Ù. Èíþíö äèéîð êè. Èñòàíáóë, 1946, ñ.181.

47 Àòàòöðêöí ñþéëåâ âå äåìåúëåðè, òàìèì âå òåëãðàôëàðû. ú.II. Àíêàðà, 1981, ñ.301; Ìöùèòòèí ×. Òöðê èíêèëàá òàðèùè, ñ.136.

48 Йеня орада, ñ.303.

49 Êàðàáåêèð Ê. Èñòàíáóë ùàðáèìèç. Èñòàíáóë, 1960, ñ.302.



## §2. Anadolunun bölüşdürülməsinin rəsmiləşdirilməsi: Sevr Müqaviləsi

Paris sülh konfransı Türkiyə ilə sülh müqaviləsinin hazırlanmasına ABŞ mandat layihəsini kənar etdikdən dərhal sonra başladı.[1]

1919-cu ilin dekabrında L.Corcla söhbət əsnasında Klemansonun dediyi kimi "Türkiyə ilə gələcək sülh müqaviləsinin əsas xəttini müəyyənləşdirmək 1920-ci ilin fevralında Londonda keçiriləcək Antanta dövlət başçılarının konfransına nəzərdə tutulmuşdu".[2]

Fransanın xarici işlər naziri M.Pişon L.Kerzona sülh konfransının Türkiyə haqqında bir qərara gəlməsindən əvvəl, ingilislər və fransızların gizli görüşərək Türkiyəyə bildiriləcək sülh şərtlərini təsbit etmələrini təklif etdi. Bu təklif ingilislər tərəfindən də məğbul sayıldığından bundan sonra iki dövlətin nümayəndələri bir neçə dəfə toplanaraq Avropa Türkiyəsinin gələcəyi və İstanbulun nəzarəti və ya İstanbulda hansı formada idarəçilik qurulması; Sultanın İstanbulda qalıb qalmayacağı; yunanların İzmirdə qalıb qalmayacaqları; Anadoluda italyalılara ərazilər verilib verilməyəcəyi; Türkiyənin mandataltı ərazi kimi verilib verilməyəcəyi; erməni suverenliyi və Kürdüstanın gələcəyi kimi məsələləri müzakirə etdilər.[3]

Bütün bu məsələlər London konfransında baxılmağa başlandıqda ilk andan müttəfiqlər arasında fikir ayrılığı meydana çıxdı. Fransızlar və italyalılar İzmirin mütləq boşaldılması və yunanların başqa ərazilərlə təmin edilməsini istədilər. Amma L.Corc əvvəllər olduğu kimi İzmirin yunanlara verilməsində təkid etdi və "unutmamaq lazımdır ki, türklər Avropaya meydan oxudular, məğlub oldular, nəticəsinə də dözməlidirlər"[4] – dedi. Türkiyənin Şərq

torpaqları hesabına qurulması nəzərdə tutulan Ermənistan işində dövlətlər fikir birliyinə malik idilər. Lakin Amerikanın istədiyi kimi, yəni Van və Trabzon bölgələrinin də daxil edilməsi ilə Ağ dənizdən Qara dənizədək "Böyük Ermənistan" qurulmasına tərəfdar deyildilər. L.Corc təmsil etdiyi dövlətin ən çox müsəlman təbəəsi olan bir imperiya olduğunu və ingilis hökuməti tərəfindən aparılan siyasətin səhv olduğunu bir çoxları tərəfindən deyilməsi, hətta ingilis hökumətinin 1920-ci il 6 yanvar tarixli qərarına rəğmən, türklərin Avropadan qovulması fikrini təkrar etdi. Amma Fransa nümayəndəsi Mileran türklərə imzalanacaq sülh müqaviləsinin gecikdiyini, bunun qaçılmaz bəzi sonluqlar verdiyini və müttəfiq dövlətlərin on beş ay əvvəl görmək qadirində olduqları işləri artıq görə bilməyəcəklərini dedikdən sonra Fransa müsəlmanların gələcəyi ilə yaxından maraqlanır, Türkiyədə və Fransanın müsəlman ölkələrində də nə kimi nəticələr verəcəyi bəlli olmayan bir qərara gəlmək istəmədiyini bildirdi.[5]

Müttəfiqlərarası mübahisələrdən sonra gələcək müqavilənin şərtləri müəyyənləşdirildi: Avropada Türkiyənin sərhədləri Enos-Midya, yaxud Çatolci xətti ilə müəyyənləşdirilir; Asiyada – daşnak Ermənistanın sərhədləri ilə; cənubda – Ceyhun çayı ilə şimala Antəpə, Birəçik, Urfa, Mərzin və Cəzirə-ibn-Omar xətti ilə; Frakiyanın türklərə verilməyən hissəsinin Yunanıstana verilməsi; İngiltərə, Fransa və İtaliya arasında bu dövlətlərdən hər birinə məsləhət və təlimatçılar verilməsi hüququna malik olmaq şərti ilə razılaşma bağlanması; Türkiyənin Mesopotomiya, Ərəbistan, Fələstin, Suriya və Egey dənizi adalarında bütün hüquqlardan məhrum edilməsi; İzmir zonasının "Sultanın syuzereniteti altında" yunanlara verilməsi; Türkiyədə Almaniyanı çıxmaq şərti ilə xarici



konsessiyaların saxlanması; Türkiyənin bütün maliyyə işlərinə nəzarət komissiyasının təşkili. Bir sıra başqa müddəaların həlli müttəfiqlərarası növbəti konfransa saxlanıldı.

Antanta dövlətləri rəsmi olaraq İstanbulu işğal etdikdə türklərə səmərəli təzyiq vasitəsini ələ keçirən İngiltərə, əvvəllər sülh müqaviləsinin hazırlanmasını uzadırdısa, indi əksinə müqavilənin tezliklə bağlanmasına çalışırdı. İngilis diplomatlarının fikrincə, "İstanbul və boğazlar məsələsi demək olar ki, əlavə iş tələb etmirdi".[6] Qeyri-müəyyənlik başqa məsələlərdə qalırdı: Qərbi Frakiya, İzmir zonasının müəyyənləşdirilməsi; Egey dənizi adaları, Anadoluda fransız və italyan çəkişmələri və b. Bundan əlavə, ABŞ-ın da müqavimətini dəf etmək lazım idi.

Müttəfiqlər London konfransının qərarlarını Vilsona bildirdikdə o, buna hirsli bir nota ilə cavab vermişdi. Həmin notada türklərin Avropada saxlanmasına etiraz edib bildirirdi ki, "müsəlman xalqlarının könlünə dəyməyin böyük dövlətlərin siyasətində dəyişikliyə səbəb olduğuna inanmaqdan imtina edir və Türkiyənin İstanbuldan və bütün Frakiyadan məhrum edilməsini tələb edir".

Qarşıdakı konfransa öz nümayəndəsini göndərməkdən imtina edərək o, konfransın gedişinə təsir etmək hüququ olduğunu təkid etdi. O, Türkiyə ilə ABŞ-ın müharibə vəziyyətində olmadığına baxmayaraq, müttəfiqlərlə bərabər Türkiyəyə qarşı vuruşduğunu bildirirdi.

Vilson Türkiyə ilə Antanta arasında sülh danışıqlarını uzatmağa çalışırdı. Bu məsələyə münasibətdə İngiltərə və Birləşmiş Ştatlar rollarını dəyişdilər: ingilislər İstanbulu işğal etdikdən sonra sülh müqaviləsinin bağlanmasını tezləşdirməyə çalışdıqları halda, amerikalılar əksinə mümkün qədər, onlar üçün əlverişsiz olan, lakin hələ

qanuniləşməmiş bu vəziyyəti uzatmağa çalışırdılar. Bu məqsədlə Vilson öz notasına belə bir fikir də yazmışdı ki, "İstanbul və boğazların idarə olunması məsələsi geniş müzakirələrdən sonra müəyyənləşdirilməlidir. Çünki bir zaman özünə gələcək Rusiya buradakı həyati marağı tələbləri ilə çıxış edə bilər".

1920-ci ilin aprelində alman məsələsi ilə əlaqədar İngiltərə və Fransa münasibətlərində gərginləşmə baş verdi.[7] İngiltərə Fransanın Frankfurt-Mayn, Darmştatda və ətraf ərazilərin işğalında "separat" fəaliyyəti ilə əlaqədar kəskin etiraz etdi. Öz növbəsində Fransa İngiltərə ünvanına günahlandırıcı fikirlə çıxış edərək göstərdi ki, alman məsələsində əlbəttə, müttəfiqlərin fikir birliyi lazımdır, amma o, müxtəlif cür təqdim olunur, indi dünya siyasətində mövcud olan, Rusiya və Balkanlarda, eləcə də Kiçik Asiya və bütün dünyada qlobal problemlərin birgə həlli vacibdir. Başqa sözlə, Fransa hökuməti məlum edirdi ki, "əgər İngiltərə onun üçün əlverişli olan İstanbulun işğalına nail olubsa, Fransa Reyndə cavab tədbiri görməyə haqlıdır.[8]

Belə bir şəraitdə London konfransında əldə olunmuş razılaşma əsasında 1920-ci il aprelin 20-də İtaliyanın San-Remo şəhərciyində üç müttəfiq baş nazirlərin konfransı açıldı. Konfrans başda Osmanlı imperiyası olmaqla Almaniya və Rusiyanın dağılması ilə qarşıya çıxan məsələləri müzakirə etmək üçün toplanmışdı və gündəlik belə müəyyənləşdi: 1. Türkiyə ilə sülh müqaviləsi layihəsi. 2. Almaniya ilə sülh müqaviləsinin yerinə yetirilməsi məsələsi. 3. Sovet Rusiyasına münasibət məsələsi. Həqiqətən konfransda daha çox Osmanlı imperiyasının parçalanması və kiçik bir "dövlət" halına gətirilməsi danışıqlara başlıca səbəb olduğu halda, müttəfiqlər osmanlıların fikirlərini nəzərə belə almaq istəmədilər.



Yalnız bir türk diplomatı Qalib Kamal Söyləməzoğlu toplantı başlamazdan qabaq İtaliya nümayəndəsi Nittiyə bir məktub verərək "mühüm və vacib qərarlar qəbul edilməzdən əvvəl bir türkün də dinlənilməsini istədi", amma bu istəyi yerinə yetirilmədi. Bununla bərabər Q.K.Söyləməzoğlu aprelin 23-də konfransda fikir söyləməyə nail oldu. Bu çıxışında o, İzmir, Trabzon, Adana, Bitlis, Ərzurum və Frakiyada etnik çoxluğun türklərin və müsəlmanların təşkil etdiyini bildirdi və Mudros barışığından sonra çoxlu fəlakətlərlə qarşılaşmış türk millətinin müttəfiq dövlətlərdən adilanə, insani və alicənab bir qərar verməl追lərini istədi.[9] Ancaq Osmanlı imperiyasını parçalamaq əzmi içində olan müttəfiqlər, nə bu fikri, nə konfransda söylənilən diqqətəlayiq fikirləri, nə də Türkiyə ilə bağlanacaq sülh müqaviləsində "bütün tərəflər üçün dürüst və adil" olunmasını tövsiyə edən ABŞ prezidenti Vilsonun 30 mart tarixli teleqramını diqqətə aldılar. Vilsonun teleqramına L.Kerzon tərəfindən hazırlanmış cavabda Türkiyənin bir yandan Almaniya və Avstriya tərəfində müharibəyə qatılması, bir yandan da həyatlarını və mallarını itirən" qeyri-müsəlman əhalinin itkiləri düşünüldüyündə, haqq içində hərəkət edilməmiş olacağını da diqqətdən qaçırmamaq gərəkdir" dedikdən sonra "Sultanın İstanbulda qalacağını, Türkiyənin güney ərazilərinin yalnız etnik amillərlə deyil, coğrafi və iqtisadi amillərin də diqqətə alınacağı, Boğazlar komissiyasında Rusiyanında təmsil edilməsinin məmnuniyyətlə qarşılanacağı, ancaq, bu əhəmiyyətli danışığın Rusiya ilə aparılacaq müzakirələr sonuna buraxılmayacağı, ABŞ-ın da istədiyi müstəqil Ermənistanın qurulacığı, ərəb torpaqlarının, yenə Amerika istədiyi kimi türk idarəsindən qurtarılacağı, Şərqi Frakiya ilə İzmirin yunanlara veriləcəyi, amma türklərin İzmir

limanından sərbəst faydalanmalarının nəzərə alınacağı”[10] bildirildi. Aprelin 22-də L.Corc ”müharibədən əvvəl Ərzurumda şübhəsiz, az miqdar erməni olduğunu” söyləməsinə baxmayaraq konfrans bu bölgənin ermənilərə verilməsi və sərhədlərin təyin edilməsi üçün prezident Vilsona müraciət etmək qərarına gəldi. Yuxarıda göstərilən cavab İtaliya baş naziri tərəfindən etirazla qarşılandı. Çünki bu şərtlərin türklərə qəbul etdirilməsi mümkün olmayacaq və müharibə yenidən qaçılmaz bir hal alacaq, bu halda böyük dövlətlərin mövqeyi nə olacaqdır, ayrıca yunanlara verilməsi nəzərdə tutulan ərazilərdə xalqın çoxluğunu türklərin və müsəlmanların təşkil etdiyi, iki tərəf arasında yenidən müharibə başlayacaq, bu zaman yunanlar müttəfiqlərdən yardım istəyəcəklərini və müttəfiqlərin bu yardımı verməyə gücləri çatacaqmı deyə soruşmuşdu”. Fransızlara gəlincə onlar da Osmanlı imperiyasının parçalanması işində heç də sakit görünmürdülər. Fransa nümayəndələri “Türkiyəyə yüklədiləcək” bu ağır anlaşma şərtlərini Fransa hökuməti imzalamamaq vəziyyətində qalarsa, işin sonu nə olacaq”[11] – deyə soruşdu. L.Corc – o, halda Türkiyə ilə Fransa arasında hərb halı davam edəcəkdir” deyə ona cavab verdi və beləcə də şərtlərin türklərə zorla qəbul etdiriləcəyini bildirdi. Aprelin 20-də konfrans marşal Foşu dinlədi. Foş bu şərtlərin türklərə zorla qəbul etdirilməsi üçün “böyük bir orduya ehtiyac olduğunu” söylədikdə Venizelos yunanların kiçik bir ordu ilə Türkiyəyə qarşı hərəkətə gələ biləcəyini və bu qüvvənin Kamalçıları yox etməyə və anlaşma şərtlərini türklərə zorla qəbul etdirməyə yetər olduğunu söylədi. Amma İstanbuldakı ingilis ali komissarı vəkili admiral Uebb sülh şərtlərini türklərə qəbul etdirmək üçün müttəfiqlər öz qüvvələrinə güvənməli, yunanların bu işə qarışmalarının təhlükəli



nəticələr verəcəyini söylədi.[12] Foşun etirazına görə Venizelos bu dəfə Türkiyənin bəzi əhəmiyyətli şəhərlərinin işğal edilməsini irəli sürdüsə də, gətirdiyi şərtləri yetərli saymadılar. Bununla bərabər Fransa və İtaliya Türkiyə lehində kimi görünən bu mövqelərində təkidli olmadıqları göründü. Çünki bir az sonra imzalanacaq olan L Accord Tripartite (üçlü müqavilə) ilə “Güney Anadoluda İtaliyanın və Kilikiya ilə Çəzirə ibn-Ömər ta Suriya hüdudlarına qədər qərbi Kürdüstan Fransa nüfuz dairəsi hesab ediləcəkdi.[13]

Üçlü müqavilənin maddələri aprelin 23-də hazırlandı. Bu müqavilə Fransa, İngiltərə və İtaliya arasında Sevr müqaviləsi imzalanan gün imzalandı.

Bundan başqa aprelin 24-də ingilis-fransız razılaşması imzalandı. Bu razılaşmada Yaxın Şərq və Avropa neftinin bölüşdürülməsi məsələsi öz əksini tapdı. Bu razılaşmaya görə İngiltərə Fransaya Mosul neftinin 25%-ni vəd edirdi. Fransa öz növbəsində fransız mandataltı əraziləri vasitəsilə Mesopotomiyadan Aralıq dənizinə vergisiz neft daşımaq üçün icazə verirdi. Türkiyəyə Ankara və Qara dəniz arasında kiçik bir ərazi saxlanırdı. Türkiyənin qalan ərazisi ondan alınıb mandataltı nüfuz dairəsi kimi müttəfiqlərə verilirdi.[14]

1920-ci il aprelin 21-də San-Remoda veriləcək qərarları bildirmək üçün Türkiyənin sülh konfransına çağrılması qərara alındı. Bunun üçün Osmanlı nümayəndə heyəti Parisə getdi. San-Remo qərarları mayın 11-də Fransa Xarici İşlər Nazirliyində bu heyətə təqdim edildi. Milerandın sədrlik etdiyi həmin toplantıda İngiltərəni Parisdəki səfir lord Derbi, İtaliyanı Parisdə səfir Bonin Lonqare, Yunanıstanı Athos Romanos, Belçikanı M.Roland Jak Quatins, Yaponiyanı M.Adakti, Hicazı Rüstəm Nəcib bəy, Çini Velinqton Koo, Portuqilayını M.Alfonso Kosto, Rumıniyanı M.Kontukuzen, Çexoslavakiyanı Beneş,

Ermənistanı Poqos Nübar paşa təmsil edirdi. Osmanlılar iclasa daxil olduqdan sonra Milerand barış şərtlərini onun təqdim etməyə vəkil edildiyini bildirdi.

Tevfik paşa titrək bir səslə və qısaca bu protokola vaxtında cavab veriləcəyini bildirdi. Bu çox əhəmiyyətli və tarixi toplantı cəmi beş dəqiqə davam etdi. Tevfik paşa məsuliyyəti öz üzərinə götürmək istəməyərək istefaya getdi. Türkiyə ilə imzalanacaq müqavilənin əsasını təşkil edən San-Remodakı qərara əsasən İraq və Fələstində İngiltərə, Suriyada Fransa mandatı müəyyən edilirdi; Cənub və Cənub-şərqi Anadoluda, Anadolunun içərilərinə doğru İtaliya və Fransa nüfuz dairələri yaradılırdı; İngiltərənin himayəsi altında bir Kürdüstan dövləti təşkil edilirdi. Bundan başqa Şərqi Anadolu altı vilayət (Vilayat – i sitte) daxil olmaqla Ermənistana, İzmir və Qərbi Trakiya və Şərqi Trakiyanın böyük bir hissəsi Yunanıstana verilirdi. Konfrans Trakiyaya aid qərarlarını Venizelosun verdiyi qondarma statistikaya əsasən vermişdi. Bu statistikaya görə Şərqi Trakiyada 268000 yunana qarşı 249000 türk və 670000 bolqar yaşayır. Çatalci ilə birgə Qərbi və Şərqi Trakiyadakı nüfuzun 305000-ni yunanlar, 265000-ni türklər, 73000-ni bolqarlar təşkil edir.[15] Halbuki 1914-cü il martın 14-ü tarixli Osmanlı rəsmi statistikasına görə Şərqi Trakiyada 360417 türk, 224680 yunan, 19888 erməni, 26109 – başqa xalqlar yaşayırdı.[16] Bu müqayisədən göründüyü kimi rəqəmlər tamamilə əksinə olsa da, türk əraziləri hesabına böyük Yunanıstan qurulurdu. Venizelos San-Remo qərarlarını Yunanıstanda belə açıqlamışdı: “Bütün Trakiya Yunanıstana verilmişdir. İstanbul müqavilənin digər şərtlərini yerinə yetirmək şərti ilə türklərə verilmişdir”...[17]

San-Remo qərarları Şərqi Trakiyada böyük həyəcan doğurdu və lazımi tədbirlər görmək məqsədi ilə Ədirnədə



bir konqres toplayaraq mayın 9-da bu qərara qarşı silahlı müqavimət göstərmək haqda qərar qəbul olundu. Ədirnədən bir nümayəndə heyəti ilə bu qərarı iyunun 16-da İtaliya baş nazirinə və mətbuat vasitəsi ilə bütün dünyaya çatdırdı.

San-Remo konfransının nəticələrini hər bir tərəf özünün böyük qələbəsi hesab edirdi. Məhz buna görə də L.Corc icmalar palatasında çox fərəhlə çıxış etdi. London konfransının qərarlarını təsdiq edən San-Remo konfransı ingilis imperialistlərinə türk məsələsində can atdıqları hər şeyi verdi. Bundan başqa öz əlaltısı olan Yunanıstana da əlavə qazanclar əldə etdi; Fransa hakim dairələri Qərbi Frakiyanın Yunanıstana verilməsinə razılaşdılar; İtaliya Dodekanoz adasının Yunanıstana verilməsini vəd etdi və İzmir zonasına aid etirazlarını dayandırdılar. İngiltərə ABŞ-ın müqavimətinidə “uzaqlaşdırdı”. Konfrans Vilsonun notasına Kerzonun cavabını təsdiqlədi. Burada “bərabər hüquqlar” “ədalət” və b. fikirlər altında müttəfiqlər Birləşmiş Ştatların Türkiyədə heç bir maliyyə və iqtisadi mənfəət güdmədiyini vurğulayırdılar. Bütün bunlar şübhəsiz L.Corcun qələbəsi idi. Britaniya hakim dairələrinin bu məsələdə qənaəti tamamilə qanunauyğun idi.

Amma fransız və italyalılar nəyə sevinirdilər? Türkiyə ilə sülh müqaviləsinin layihəsi hər ikisi üçün əlverişsiz idi. L.Corc Fransaya hətta alman məsələsində də heç bir güzəştə getmədi. Əksinə “müttəfiqlik birliyini” sözarası təsdiq edərək o, Mileranı müharibədən sonra ilk dəfə Almaniyanın da iştirakı ilə konfrans çağırmağa razı saldı. Bu da Fransa hakim dairələrinin ürəyincə deyildi.

Həmin vaxt Fransa mətbuatında beynəlxalq icmalla çıxış edən jurnalist Filipp Mille göstərirdi ki, “San-Remo konfransında Türkiyə qəlyanaltıya bənzəyirdi”. Müttəfiqlərin bu konfransdan gözlədikləri başlıca məsələ

Antanta daxilində birliyin qorunması idi. Belə ki, əgər onlar mübahisə etsəydilər xaos yaranacaqdı. Elə bir xaos ki, nəticəsi Varşavada, Pekində, İstanbulda və həmçinin Reyndə hiss olunacaqdı".

Amma mövcud fikir ayrılığını aradan qaldırmaq mümkün olmadı. Mənfəətin qeyri-bərabərliyi İngiltərə və İtaliya-Fransa arasında daha çox gözə çarpırdı. Millerandın 27 aprel, L.Corcun 29 aprel tarixli bəyanatında göstərdiyi kimi, "İngiltərə boğazların mühafizəsini, Fələstin və Mosul daxil Mesopotomiyanı alır, Fransa və İtaliya isə Kilikiya və Antaliya rayonu üzərində "himayəçilik" əldə edirdilər. Bu isə üç müttəfiq arasında Osmanlı ərazilərinin bölünməsində qeyri-bərabərliyi aşkar şəkildə göstərirdi. Fransa mətbuatında qeyd edirdilər ki, "sülh müqaviləsinin yenidən baxılması türklər üçün daha çox qəbul edilən və Fransa üçün də arzu edilən olardı".[18]

Amerikalılar da narazılıq edirdilər. Aprelin 24-də San-Remoda Balkan və Yaxın Şərq nefti ehtiyatlarının bölüşdürülməsi haqqında müqavilə bağlandı. Bu, Amerika neft inhisarları tərəfindən çox narazılıqla qarşılandı. Onların fikrincə, bu razılaşma Mesopotomiya ilə bütün millətlərin bərabər ticarət hüququnu pozurdu. Nəticə etibarilə neft məsələsi ABŞ-ın müttəfiqlərlə Türkiyə arasında sülh müqaviləsi layihəsinə qəti mənfi münasibətini müəyyənləşdirdi və ABŞ konqressinin Ermənistana mandatdan imtina etməsinə gətirib çıxartdı. Aprelin 25-də konfrans Vilsona müraciət etdi ki, "Ermənistana mandat məsələsinə yekun fikrini bildirsin". Mayın 24-də Vilson mandat məsələsini senata təqdim etdi. İyunun 1-də senat mandat təklifini rədd etdi. Vilson isə Ermənistan sərhədlərinin müəyyənləşdirilməsində hakim rolunu üzərinə götürməklə kifayətləndi. Bu məsələ ilə əlaqədar senator Loc bildirdi ki,



"Mesopotomiyanı İngiltərə, Suriyanı Fransa və böyük ərazi hissləri alan İtaliya, sadəcə olaraq istəyirdilər ki, ABŞ Ermənistana mandat almaqda, ingilis, fransız və italyan mənfəətlərini tək bolşeviklərdən deyil, həmçinin türk, kürd və gürcülərdən qorusun".[19]

Beləliklə, San-Remoda Türkiyə ilə imzalanacaq müqavilənin hazırlanmasından sonra İngiltərə və Fransa arasında həqiqi münasibətlər heç də zahirən göründüyü kimi dostluq münasibətlərində deyildi. Türkiyə ilə imzalanacaq sülh müqaviləsi İngiltərəni və Fransanı tam qane etmədiyinə baxmayaraq, Türkiyədə baş verən hərbi və ictimai hadisələr onları sülh müqaviləsi haqda məsələdə millətçilərin mövqeyini müəyyən etmək üçün cəhd etməyə məcbur edirdi.[20] Bu sahədə fransızlar "uğur" qazandılar və iyunun 3-də millətçilərlə barışıq imzaladılar. Bu barışığın şərtlərini tapa bilməsək da hadisələrin gedişindən belə nəticəyə gəlmək olur ki, fransızlar türklərdən Kiçik Asiyada atəşin dayandırılmasını tələb etmədilər və onların ingilis-yunanlara qarşı azad fəaliyyət hüququnu bəyəndilər. Bu da müttəfiqlərarası münasibətlərin gərginləşməsinə öz təsirini etdi.

Amma müttəfiqlər ilə fikir ayrılığı San-Remo konfransında Türkiyə ilə sülh müqaviləsi imzalamaq üçün qərar qəbul etməyə İngiltərəyə mane ola bilmədi. Mayın 12-də müqavilə ingilis mətbuatında dərc edildi. Mayın 13-də isə Çerçilin dediyi kimi "nəs gündə Venizelos onu Afinada bəyan etdi".[21]

Müqavilənin layihəsi Türkiyədə böyük həyəcana səbəb oldu. "Türkiyə Böyük Millət Məclisi mayın 19-da Damad Fərid paşanı milli xəyənətkar elan etdi. İyunun 7-də isə martın 16-dan sonra qəbul edilmiş bütün qərarların qeyri-qanuni olduğu haqqında qərar qəbul etdi.[22] Ancaq dövlətlər əvvəlki kimi Ankaranı diqqətə almadılar. Bununla belə,

Anadoludakı hərbi əməliyyatlar müttəfiqlərin mövqelərini zəiflətdiyindən Fransa mayın əvvəllərində Ankara ilə əlaqə yaratmağa cəhd etdi. Mayın 30-da isə Suriyadakı fransız komissarı general Quronun nümayəndəsi Rober de Ke Ankarada türk komandanlığı ilə Kilikiyada 20 günlük müddətə barışıq haqqında razılaşma imzaladı. Bu müddətdə Fransa nümayəndəsinin Parisə gedə bilməsi, daha geniş və daimi müqavilə bağlamağa səlahiyyət ala bilməsi təxmin edilirdi. Hadisələrin sonrakı gedişi Fransa hakim dairələrində kamalçı hökuməti silah gücünə devirmək ümidi yaratdı və artıq iki həftədən sonra razılaşma pozuldu.

Martın 19-da hind müsəlman nümayəndələri növbəti dəfə L.Corca öz etirazlarını bildirdilər. Amma müttəfiqlər buna heç bir reaksiya vermədilər və əksinə kamalçıları qiyamçılar kimi qiymətləndirdilər. Sultan kamalçılara qarşı ordu belə göndərdi və Anadolunun bir sıra rayonlarında öz agentləri vasitəsilə irticaçı üsyanlar təşkil etdi.

L.Corc Osmanlı varisliyini bölüşdürmək planını tezliklə sülh müqaviləsi ilə möhkəmləndirməyə çalışırdı. Amma bu müqaviləni türklərə yalnız güclə qəbul etdirməyin mümkünlüyünü heç düşünmək belə istəmirdi. Amma həm Sultan, həm də İngiltərə belə qüvvəyə malik deyildi. Sultana olan ümid 1920-ci ilin mayında kamalçıların “xilafət ordusunu” Qərbi Anadoluda darmadağın etdiyi zamandan itmişdi. İngiltərənin türklərə qarşı hind ordusunu istifadə etmək cəhdi də baş tutmadı. İyunun əvvəlində kamalçılar Mərmərə dənizinə çıxdılar və iyunun 15-də İzmitdə Britaniya qarnizonunu buradan köçməyə məcbur etdilər. Bu xəbər Londona çatanda bildirdilər ki, “Kut Əl-Omar faciəsi təkrar olundu”. Bu faciəni uyduraraq ingilislər kamalçılara qarşı qəti tədbir görülməsini əsaslandırmaq məqsədi güdürdülər. Amma həqiqətdə boğazlarda ingilis hegemonluğuna qarşı



təhlükə daha real idi. Sultan hökuməti isə öz vəziyyətinin sürüşkən olduğunu başa düşərək Antanta ilə müqavilənin imzalanmasını uzatmağa cəhd edirdi.

Belə bir şəraitdə Britaniya hökuməti işğalçı məqsədlərini həyata keçirmək üçün Yunanıstana yardıma əl atdı. İngilislərin fikrincə, bu, ən etibarlı vasitə idi. Venizelos bir neçə dəfə Anadoluda qayda yaratmaq üçün öz xidmətini təklif etdi. Türkiyə ilə bağlanacaq müqaviləyə görə Yunanıstan geniş miqyasda ərazi almalı idi. Əlbəttə, buna görə də o, müqavilənin həyata keçirilməsi üçün bütün işləri öz üzərinə götürməli idi. 1920-ci il iyunun 18-də Londona gəlmiş Venizelosla L.Corc arasında görüş oldu. Bu görüşün məzmunu həmin vaxt açıqlanmadı. Amma sonrakı hadisələrə əsasən hər iki tərəfin razı qaldığını hesab etmək olar. Venizelos Türkiyə haqqındakı fikirlərindən vaz keçmədi. O, yunan əsgərlərinin Anadoluda daha irəlilərə getməsinə və bu sürətlə M.Kamal paşa qüvvələrinin darmadağın edilməsinə izn verilməsini istəyirdi. Onun bu fikrinə qarşı İngiltərə hərbi naziri Çerçill çıxış etdi. Anadoludakı yunan qüvvələrinin bu işi bacarıb-bacarmayacağı üzərində ciddi durdu və yunan əməliyyatının müsbət nəticələr verəcəyinə şübhə etdiyini bildirdi. Fransızlar da yunan dostluğu naminə öz mənfəətlərini fəda edə bilməyəcəklərini, M.Kamal ordusunu məğlub etmək üçün böyük bir orduya ehtiyac olduğunu dedilər. Amma Venizelos öz fikrindən dönmədi. İngilis nümayəndəsinin “İngiltərədən heç bir insani yardım gözləməyin” deməsinə Venizelos “bizə verilmiş olan ərazilərdə barış şərtlərini zorla qəbul etdirməyi üzərimizə götürürük” – dedi.

Venizelos Anadoluya müdaxilə az qüvvə tələb edəcəyini və nəticəsini qısa müddətdə verəcəyini hesab edirdi. O, İzmir və Dardanel arasındakı ərazini 15 gün

ərzində tamamilə təmizləyəcəyinə ümid edirdi. Bununla bərabər, Türkiyəyə müdaxilədə yalnız sülh müqaviləsinin şərtlərinin qəbul etdirilməsi vasitəsi kimi deyil, həmçinin yunanların "çoxluq" təşkil etdiyi və gələcək "Böyük Yunanıstan" dövlətinin əsasını təşkil edəcək ərazilər ələ keçirmək vasitəsi kimi baxırdı. Bu ideyanı irəli sürməklə Venizelos yunan hakim dairələrində öz mövqeyini möhkəmləndirmək, İngiltərə tərəfindən isə müdafiə əldə etmək ümidi güdürdü.

Öz növbəsində L.Corc Venizelosla bu sövdələşməyə Britaniya imperializmi üçün mövcud vəziyyətdən çıxış yolu kimi baxırdı. İngiltərə özünün ənənəvi siyasətinə uyğun olaraq yunanların əli ilə türk milli-azadlıq hərəkatına zərbə vurmaq, İstanbul və boğazlarda mövcud mövqeyini möhkəmləndirmək istəyirdi. Yunanların əli ilə müdaxilə Britaniya imperializmi üçün həm də müttəfiqlərarası birliyin zahiri görünüşünü pozmamaq, Kiçik Asiyada fransızların və italyalıların mövqeyini zəiflətmək baxımından da əlverişli idi. Belə vəziyyətdə Yunanıstanın özü İngiltərədən asılı bir vəziyyətə düşəcəkdi. L.Corcun fikrincə, Venizelosun Türkiyəyə münasibətdə meqaloman planını genişləndirməklə İngiltərə Kipr əhalisinin Yunanıstana birləşmək tələbini reallaşdırmaqdan azad ola bilərdi.

Nəhayət, Antanta Ali Şurası əvvəlcə iyunun 19-21-də Qaysda (italyalılar iştirak etmirdilər) sonra isə iyunun 21-22-də Bulonidə "sülh müqaviləsinin zorla qəbul etdirilməsi üçün "yunanlılara icazə vermək məsələsini müzakirə edərək müvafiq qərar qəbul etdi. Bu qərarı italyalılar müdafiə etmədilər. Fransızlar isə Yunanıstana etibar etmədiyindən Venizelosdan müttəfiqlərin razılığı olmadan İstanbulun müdafiəsi vəzifəsində əlavə tədbirlərə əl atmayacığını vəd etməsini tələb etdilər.



Bu qərarı ingilislər belə şərh etdilər: "İstanbulda olan işğal hökuməti İstanbul qəzetlərinə verdikləri rəsmi təbliğə əsasən milli qüvvələr İzmitə təcavüz etmək üçün hazırlaşırlar və buna görə sülh konfransı yunanlara bu izni verdi".

İyunun 22-də yunanların hücuma keçəcəklərini əvvəlcədən bilən Damad Ferid paşa müttəfiqlərə bir nota təqdim etdi. Həmin notada məhz yunanların hücumunu milli-azadlıq hərəkatının daha da genişlənməsinə səbəb olacağı göstərilirdi.[23] Amma bunun həm müttəfiqlərə, həm də yunanlara heç bir təsiri olmadı. Çünki yunanlar siyasətçilərin stol arxasında Yunanıstan üçün tanıdıqları haqqı əldə etmək məqsədi ilə iyunun 22-də Anadolunun içərilərinə doğru irəliləməyə başladılar. Bu hərəkət müttəfiqlər və Yunanıstanın "Türkiyəni diz üstə çökdürmək üçün edilən dörd təzyiq təşəbbüsündən sonuncusu və ən "əhəmiyyətlisi" idi.[24] Bu təşəbbüslərin birincisi, İstanbulun işğalının başlaması; ikincisi, İzmirin işğalı; üçüncüsü, martın 16-da İstanbulun rəsmi işğalının elan edilməsi oldu.

Fransanın hərbi ekspertləri kamalçıları tək yunanların əli ilə darmadağın etməyin mümkünlüyünə şübhə ilə yanaşdılar. Marşal Foş bunun üçün 300 min müttəfiq ordusunun lazım gəldiyini bildirdi. Hətta ingilis hərbi nümayəndəsi feldmarşal Henri Vilson Foşun fikrinə qoşuldu. Amma Ali Şura bu fikirlərlə hesablaşmadı. L.Corc tələsdi. O, mahiyyət etibarilə müttəfiqləri baş vermiş fakt qarşısında qoydu: İyunun 20-də Aralıq dənizindəki Britaniya dəniz qüvvələrinin komandanı tabeçiliyində olan bütün qüvvələri yunanların müdafiəsi üçün boğazlara göndərmək barədə əmr aldı.[25]

Fransa və İtaliya bu qərarla razılaşmalı oldular. Bunun isə səbəbi var idi. Fransızlar hesab edirdilər ki, Qərbi

Anadoludakı hücum kamalçıların qüvvələrini Kilikiyadan uzaqlaşdırır, həmçinin Suriyaya sahib olmaq məsələsini asanlaşdıra bilər ki, ingilislər öz "əlaltısı" kral Feysalı müdafiə etməkdən əl çəkərdilər. Həqiqətən konfransdan sonra fransızlar Suriyada fəal əməliyyatlara başladılar. Ordunu Livan və Suriya sərhəddində cəmləşdirən Fransanın Şərqdə ali komissarı general Quro iyulun 14-də kral Feysala birinci, iyulun 21-də ikinci ultimatum verdi, sonra isə ordu hərəkətə keçdi. İyulun 25-də Dəməşqi zəbt edib, Feysalı devirdilər və Suriya üzərində Fransa hakimiyyətini qurdular.[26]

İtalyalılar isə ingilis-yunan müdaxiləsindən faydalanıb Cənubi Anadoluda mənfəət əldə edib Albaniyadakı müvəffəqiyyətsizliyin yerini doldurmaq istəyirdilər. Həmin vaxt italyalılar Albaniyadan çıxarıldılar. 1920-ci il iyunun 3-də albanlar Vloredə İtalya qarnizonuna hücum etdilər. Eyni zamanda İtaliya dəmiryolçuları və dənizçiləri Albaniyada döyüş üçün hərbi sursatlar aparmaqdan imtina etdilər. İyunun 11-də Triestdə Albaniyaya göndərilməsi nəzərdə tutulan hərbi hissədə üsyan baş verdi. İyulda italyalılar çıxarıldılar. Amma bu ümidlər zəif arzular idi. Hər iki ölkədə ingilislərə güzəşt siyasətinə görə iqtidar tənqid edilirdi. Aristid Brian iyunun 25-də deputatlar palatasında Klemansonun Mosulu İngiltərəyə güzəştə getməsini tənqid etdi və bunun üçün sorğu keçirilməsini istədi. Klemanso isə bunu belə izah etdi: "Bəli mən Mosulu verdim, amma mən bunu tələ yemi kimi istifadə etdim ki, Kilikiyanı alım. Bizim müttəfiqlərdən bir neçəsi istəyirdi ki, biz buranı almayaq. Kilikiya əhəmiyyətli olub və indi çox yaxşı ölkə ola bilər... İskəndərun - gözəl şəhər, hansı ki, Mosuldan sahilə neft gətirmək olar. Bu məqsədlə neft kəməri çəkmək niyyətində idik. Məgər məni günahlandırmaq olar, neynəyək ki, türklər



nəticədə bizi oradan qovdular.[27]

Müttəfiqlərarası müşavirələrə nəticə vuraraq belə bir fikrə gəlmək mümkündür ki, bu zaman Fransa yenidən özünün "türkpərəst" siyasətinə dönürdü, İngiltərə isə Yunanıstanla yaxınlaşaraq ondan Türkiyəyə və Kiçik Asiyada Fransaya qarşı istifadə etmək üçün təməl qoyurdu.

L.Corc diplomatik qələbəsini "bayram" edirdi. İyunun 24-də o, icmalar palatasında çıxış edərək Yaxın Şərqdə vəziyyəti şərh etdi və kamalçıların tezliklə məhv ediləcəyini bildirdi: "Əgər biz M.Kamal və başqalarına bizim siyasətimizi məhv etməyə çalışmağa imkan versək onda Avropa öz borcunu yerinə yetirməmiş qalar".[28] Eyni bəyənatı özünü fateh hesab edən Venizelos da verdi.

Yunan hərbi birləşmələri 10-12 gün ərzində kamalçıları Mərmərə dənizindən Akhisar-Bursa-Balıkəsir-Alaşəhr–Nəzilli xəttinədək geri çəkilməyə məcbur edərək iyunun 22-də Akhisarı, iyunun 23-də Kirkasar, Sana və Salehliyi, iyunun 25-də Alaşəhəri zəbt etdilər.[29] Öz növbəsində iyunun 25-də ingilislər Mudanyaya piyada qoşun çıxartdılar. İyulun 2-də isə Bandırmanı tutdular. Bunun ardınca yunanlar Frakiyada hücuma keçdilər. Britaniya gəmilərinin köməyi ilə onlar Təkirdağı (Rodostu) tutdular, iyulun 25-də isə Ədirnəyə (Adrionopola) çıxdılar. Yunan ordularının hücum istiqamətlərindən görünür ki, onların ilk öncə məqsədləri türkləri həm Avropa və həm də Asiyada boğazlardan çıxarmaq idi. Amma bununla iş bitmirdi. Anadoluda yunan orduları ölkənin içərilərinə soxulmaqda davam edirdilər. Müdaxiləçilərin əsas siyasi məqsədi – Kamal hakimiyyətini məhv etmək və Antantanın planlarının həyata keçirilməsinə mane ola biləcək milli-azadlıq hərəkatını boğmaq idi.

Cəbhədəki vəziyyəti nəzərə alaraq İngiltərə Sultan

hökumətindən sülh müqaviləsinə son cavabını bildirməyi tələb etmək qərarına gəldi. İyunun 26-da Damad Fərid paşa Fransa xarici işlər nazirliyinə bir memorandum təqdim etdi. Həmin sənəddə heç olmazsa, azda olsa sülh müqaviləsi şərtlərinin yüngülləşdirilməsi istənilirdi.[30] Həmin memorandum iyulun 7-də Antanta Ali Şurası tərəfindən Spada baxıldı. Şura belə qərara gəldi ki, "müqavilənin əsas maddələrinə heç bir dəyişiklik edilməyəcəkdir".[31] Ekspert komissiyasına yalnız ikinci dərəcəli maddələrə çüzi dəyişiklik edilməsi tapşırıldı. İyulun 8-də Osmanlı nümayəndəsi müttəfiqlərə növbəti bir nota ilə bildirdi ki, "Sultan hökuməti müqaviləni həyata keçirmək iqtidarına malik deyil".[32] Müttəfiqlərin bir çox siyasi və hərbi xadimləri bunu yaxşı başa düşürdülər. Ancaq L.Corcun təklifi ilə Ali Şura Sultan hökumətinə növbəti ultimatum vermək qərarına gəldi. İyulun 19-da Mileran Ali Şuranın sədri kimi Osmanlı nümayəndəsinə ultimatum təqdim etdi. Həmin ultimatumda on gün müddətinə müqaviləyə müsbət cavab verilməsi tələb olunurdu. Əks təqdirdə türklərin İstanbulda qalmaq qərarına yenidən baxılacağı bildirilirdi. İyulun 21-də icmalar palatasında Türkiyənin ünvanına aşkar surətdə hədələrlə çıxış edən L.Corc bildirdi ki, "Türkiyə tamamilə əzilmişdir və bizim peşiman olmağa heç bir əsasımız yoxdur".[33]

İyulun 22-də Sultanın rəhbərliyi ilə Ulduz Sarayda "Böyük divan"ın iclası oldu. İclas açılarkən hökumətin rəsmi açıqlaması elan edildi. Bu açıqlamada müttəfiqlərin irəli sürdükləri şərtlərin qəbulu və ya rədd edilməsi təsadüfündə nə ola biləcəyi göstərilirdi. Birinci təsadüfdə Osmanlı dövləti İstanbul daxil yaşamaqda davam edəcək, ancaq "erməni, rus, rumın, bolqar və yunan" dövlətləri arasında yaşamaq üçün çarpışmaq məcburiyyətində qalacaq.



İkinci təsadüfə müttəfiqlər nəzarəti ələ alacaq... İclasın sonunda Sultan razılaşmanın tərəfdarlarının ayağa qalxmasını istədi və müdhiş bir görkəm yarandı. Çünki bir nəfərdən başqa hamı ayağa qalxdı.[34] Müqavilənin imzalanması demək olar ki, bir səslə qəbul edildi. Müttəfiqlərdən yalnız bir xahiş olunurdu: müqavilənin yerinə yetirilməsində Sultan hökumətinə yardım edilsin. Bu müqaviləyə qarşı mübarizə aparan yeganə qüvvənin kamalçılar olduğu nəzərə alınsa, bu xahişin ölkədəki milli-azadlıq hərəkatının boğulması üçün olduğu aydın olar.

Müttəfiqlərin qərarlarının yerinə yetirilməsini tələb edən nota qarşısında TBMM 1920-ci il iyulun 18-də gizli bir toplantı keçirdi və "vətəni qorumaq üçün and içdi".

Müqaviləni imzalamaq üçün ayrılmış nümayəndə heyəti iyulun 31-də Parisə gəldi. Dodekanoz məsələsinə dair italiya-yunan fikir ayrılığına görə müqavilənin imzalanması bir az gecikdi. Nəticə etibarilə İngiltərənin təzyiqi ilə bu məsələdə razılaşma əldə edildi. 1920-ci il avqustun 10-da Sultan Türkiyəsi ilə Müttəfiqlər arasında Sevr sülh müqaviləsi imzalandı.[35]

Onun iştirakçıları dominionlar və Hindistanla birgə Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, daşnak Ermənistanı, Belçika, Yunanıstan, Hicaz, Polşa, Portuqaliya, Rumıniya, Serb-Xorvat-Sloven dövləti və Çexoslovakiya bir tərəfdən, Sultan Türkiyəsi digər tərəfdən oldular.

Sevr müqaviləsi Versal sisteminin ən ağır müqaviləsi idi. Bütün başqa müqavilələrdə olduğu kimi birinci hissə Millətlər Cəmiyyətinin statusuna aid idi. İkinci hissə Türkiyənin sərhədlərinə həsr edilmişdi. Bu maddələrlə Türkiyə Avropada İstanbul və ona yaxın ərazilərdən başqa bütün ərazilərdən məhrum edilirdi; Asiyada isə bütün ərəb əraziləri ilə bərabər Kilikiyanın yarısını və Fransaya verilən

Suriya sərhəddi boyu əraziləri və İngiltərəyə verilən Mosulu itirirdi.

"Siyasi vəziyyət" adlandırılan üçüncü hissəyə görə isə Türkiyə daha çox əyalət və rayonları üzərində suverenliyindən məhrum edilirdi.

Bu "siyasi vəziyyət" daxilində əhəmiyyətli yeri İstanbul və boğazlar məsələsi tuturdu. Müqaviləyə əsasən Osmanlı hökumətinin İstanbula hüququna xələl gəlməyəcək və Sultan buraya azad gələcək və buranı Osmanlı dövlətinin paytaxtı kimi saxlayacaqdı. Bundan sonra dəqiq hədələr başlandı: "Əgər Türkiyə bu müqavilənin yerinə yetirilməsindən loyal olaraq yan keçməyə çalışsa müttəfiq dövlətlər mövcud şərtləri dəyişdirmək hüququnu özlərində saxlayırlar. Türkiyə isə bundan sonra qəbul ediləcək bütün qərarları yerinə yetirməyə məcburdur".[36]

Beləliklə, İstanbulun Türkiyəyə qalması formal – hüquqi nöqteyi nəzərdən şərti xarakter daşıyırdı. Türkiyə Sevr müqaviləsinin istənilən qərarını yerinə yetirmədikdə İstanbulu ondan ala bilərdilər.

Müqavilənin 3-cü hissəsinin 2-ci bölməsinin, 37-61-ci maddələri boğazların statusuna aid idi.[37] Beynəlxalq reqlamentin qəbul edildiyi andan ilk dəfə idi ki, boğazlarda rejim məsələsinə bu qədər geniş yer verilmişdi. İngiltərə öz hegemonluğunu möhkəmləndirmək istəyirdi və əsas müddəalar Dardanel, Mərmərə dənizi və Bosfor bundan sonra sülh və müharibə şəraitində bütün ticarət və hərbi gəmilər üçün açıq saxlanılmasından ibarət idi. Belə olduqda gəmilərin boğazlardan keçməsinə, Qara dənizə daxil olmasına heç bir məhdudiyyət qoyulmurdu. Bu da İngiltərənin hərbi-dəniz qüvvələri cəhətdən şəksiz üstünlüyü şəraitində boğazlarda və Qara dənizdə hakim mövqeyini təsdiqləyirdi.



Bosfor, Mərmərə dənizi və Dardanel sahillərində bütün hakimiyyət yerli idarəçilikdən asılı olmayaraq beynəlxalq komissiyaya verilirdi. Komissiyanın tərkibinə Böyük Britaniya, Fransa, İtaliya, Birləşmiş Ştatlar (əgər iştirak etmək istəsə), həmçinin Millətlər Cəmiyyətinin üzvü olduqdan sonra Rusiya daxil olacaqdı. Üzvlərin iki səsi var idi. Bundan başqa, Yunanıstan, Bolqarıstan və Türkiyə, əgər son iki ölkə Millətlər Cəmiyyətinə üzv olsalar, bir səsə malik olmaqla komissiyada iştirak edəcəkdilər. Komissiyaya iki il müddətində iki səsə malik olan nümayəndələr rəhbərlik edəcəkdilər. Komissiyada qərarlar səs çoxluğu ilə qəbul olunurdu və sədr həlledici səsə malik idi.

"Hərbi müddəalar"[38] adlanan müqavilənin beşinci hissəsində boğazlar zonasının sərhədləri müəyyənləşdirilir, bu zonanın və ona aid Egey dənizi adalarının silahsızlaşdırılması müəyyənləşdirilir, silahsız zonalara nəzarət hüququ İngiltərə, Fransa və İtaliyaya verilirdi. Adları çəkilən dövlətlər göstərilən ərazilərdə boğazlarda azad keçid rejiminin təmin edilməsinə təhlükə yarada biləcək və yaradacaq hərəkətlərin qarşısını almaqdan ötrü vacib hesab etdikləri hərbi hissələri saxlayacaqdılar. Antanta işğalçı ordularının boğazlara gəlişi əbədi xarakter daşıyırdı. Amma İtaliya və Fransanın işğalda iştirakı o qədər də vacib deyildi. Bundan başqa İngiltərə Yunanıstanın vasitəsilə boğazlara girişdə – həm quruda (İzmir, Frakiya), həm də suda (Dardanel, İmbros və Tenedos) hökmranlıq edirdi. Sevr müqaviləsi imzalanan zaman İtaliya xarici işlər naziri Bonin-Lonqare və Venizelos arasında Dodekanoz adaları haqqında bir müqavilə imzalandı. Həmin müqaviləyə görə, İtaliya Yunanıstan xeyrinə Egey dənizi adalarından, yəni Stampaliya, Xolki, Skarpanto, Xasos, Yepiskopi, Nizeros, Komeinos, Leros, Patmos, Simi və Kors adalarından imtina edirdi,

Rodos və ona yaxın adalar İtaliyaya qalırdı. Rodosa geniş muxtariyyət verilməli idi. On beş ildən sonra İtaliya adanın əhalisinə plebistsit keçirmək imkanı verirdi. Həmçinin göstərilirdi ki, İtaliya və Yunanıstan arasında mövcud olan müqavilələr bütün Türkiyə ərazisinə aid edilir. Bundan başqa həmin gün müttəfiqlərlə Yunanıstan arasında Frakiyanın Yunanıstana verilməsi haqqında daha bir müqavilə imzalandı. Bütün bunlar İngiltərənin üstünlüyünü daha da artırırdı.

İngiltərənin əsas qazancı nədən ibarət idi?

İstanbul və boğazlar faktik olaraq İngiltərənin nəzarətinə verilirdi. Qalan məsələlərdə də Sevr müqaviləsi Britaniya imperiyasının marağını əks etdirirdi. Müqavilədə göstərildiyi kimi, Türkiyə İzmir və ona yaxın ərazilər üzərində olan suveren hüququnu Yunanıstanın idarəçiliyinə verir, türk suverenliyi altında isə osmanlı bayrağının şəhərin xarici limanlarından birində daimi dalğalanması qalırdı. Beş il müddətində yerli parlament Millətlər Cəmiyyətindən İzmirin tamamilə Yunanıstana verilməsini xahiş edə bilərdi. Türkiyə isə belə olduğu halda bu əraziyə olan bütün haqlarından imtina edəcəyini əvvəlcədən qəbul edirdi. Kiçik Asiyada yenə İngiltərənin marağı ilə Kürdüstan dövləti təşkil edilirdi. Həmçinin daşnak Ermənistanın sərhədləri arbitraj kimi ABŞ prezidenti tərəfindən müəyyənləşdiriləcəkdi. Osmanlı imperiyasının ərəb ərazilərinin bölgüsündə də İngiltərə hamıdan çox pay alırdı.[39]

Sevr müqaviləsi ilə Türkiyəyə verilən ərazilər Ankara və Qara dəniz arasında az bir sahədən ibarət idi. Bura təbii ehtiyatlardan, sənayedən, nəqliyyat vasitələrindən və ümumiyyətlə, mövcud olmaq üçün bütün vasitələrdən məhrum edilmişdi. Bu ərazilər də yarımmüstəmləkə olaraq



qalmalı idi.

Sevr müqaviləsi qüvvəyə minmədi. Hətta Sultan belə bu müqaviləni ratifikasiya etməyə cəsarət etmədi. Digər dövlətlər də bunu gecikdirdilər. Yalnız İtaliya ratifikasiya etdi. Bu da ona görə idi ki, Fium məsələsində İngiltərə tərəfindən müdafiə olunacağına ümid edirdi.

Sevr müqaviləsi imzalanan gün müttəfiqlər İtaliya, Yunanıstan və Ermənistanla Türkiyə ərazilərində nüfuz dairələrinin bölgüsünə və bu ərazilərin idarəçiliyinə dair müqavilələr imzaladılar.[40] Amma bu müqavilələr müttəfiqlərarası münasibətlərdə sabitlik əvəzinə daha da gərginləşmə yaratdı. Çünki, ərazi bölgüsündə İtaliya və Yunanıstan arasında ziddiyyət mövcud idi və İngiltərənin Yunanıstana müdafiə etməsi münasibətləri gərginləşdirirdi. Bu gərginləşmə isə ilk növbədə türklər üçün əlverişli idi. Müttəfiqlərarası münasibətlərin gərginləşməsi isə son anda parçalanmaya gətirib çıxaracaqdı və Türkiyə ilə ayrılıqda müqavilələr imzalanması ilə bitəcəkdi.

---

[1] Миллер А. Американский план захвата Константинополя и проливов в 1919 г. – Вопросы истории, 1958, №3, с.61.

[2] Европа в международных отношениях. 1917-1939 гг. М., 1979, с. 211.

[3] Ñåëàùåòòèí Ò. Ìîäíîðîñ'òàí Ìóäàíèéà'éà êàäàð. úèëò III, ñ.6.

[4] Ñåùà Ë., Ìåðàé âå Îñìàí Îëàé. Îñìàíëû èìïåðàòîðëóüóíóí ÷þêöø áåëãåëåðè (Ìîíäðîñ áûðàêûøìàñû. Ñåâð àíëàøìàñû, èëãèëè áåëãåëåð). Àíêàðà, 1977, ñ.231.

[5] Ñàáèñ À.È. Áèðèíúè äöíéà ùàðáè. úèëò. 3. Èñòàíáóë, 1990, ñ.273. Þçàëï Ê. Ìèëëè Ìöúàäåëå, ñ.100.

[6] Papers relating to the Foreign relations of the United States, 1920. Vol. III. Washington, 1936, p.749.

[7] Дипломатические отношения западноевропейских стран между двумя мировыми войнами. М., 1976, с. 26.

[8] Джорджан В.М. Великобритания, Франция и германская проблема в 1918-1939 гг. м., 1945, с. 59.

[9] Sþíìÿçîãëó Ô. Òöðê äûø ïîëèòèêàñûíûí àíàëèçè. ñ.35.

[10] Óëóáåëåí Å. Ýèçëè Èíýèëèç áåëãåëåðèíè àúûêëûéîðóç. Àíêàðà, 1967. ñ.79; Jaecckke G. Ýþñòÿðèëÿí ÿñÿðè, ñ.42; Турецкий вопрос в Сан-Рема – «Бюллетень НКИД РСФСР», 1920, №13, с. 4-6.

[11] Ñåëàùåòòèí Ò. Ýþñòÿðèëÿí ÿñÿðè, ú. III, ñ.179; Øèìøèð Á. Èíýèëèñ áåëãåëåðèíäå Àòàòöðê, ú.II, Àíêàðà, 1975, ñ.71.

[12] Áûéûêîãëó Ò. Òðàêèéàäà Ìèëëè Ìöúàäèëå. ú.1. Àíêàðà, 1955, ñ.245.

[13] Тройственное соглашение об Анатолии. – «Вестник НКИД РСФСР», 1920, №9-10, с. 77-82.

[14] Ключников Ю.В., Сабанин А.В. Международная политика новейшего времени в договорах, нотах и департаментах. Ч.III, с. 8.

[15] Áûéûêîüëó Ò. Òðàêèéàäà Ìèëëè Ìöúàäèëå, úèëò 1. ñ.147-157.

[16] Îðòàéë Ë. Èëê Îñìàíëû Ïàðëàìåíòîñó âå Îñìàíëû Ìèëëåòèíèí òåñëèìè, Êàíóí-ó Åñàñèíèí 10. ÑÁÔ éàéûíû. Àíêàðà, 1978, ñ.169.

[17] Îðòàéë Ë. Èëê Îñìàíëû Ïàðëàìåíòîñó âå Îñìàíëû Ìèëëåòèíèí òåñëèìè, Êàíóí-ó Åñàñèíèí 10. ÑÁÔ éàéûíû, ñ.170.

[18] “Tan” ãÿçåòè, 21 èéóí 1920.

[19] Поцховерия В.М. Турецкий вопрос в сенате США в конце 1919 – середине 1920 гг. т. 19, с. 159.

[20] Новый Восток кн. 2, М., 1922, с. 121.

[21] Черчиль У. Мировой кризис, с. 257.

[22] Мустафа Кемаль. Путь новой Турции. Т. III., М., 1934, с. 409.

[23] Турецкий вопрос на конференции в Булонии. «Бюллетень НКИД РСФСР», 1920, №25, с. 32.

[24] Йеня орада, ñ.35.

[25] Павленко М. Стамбул и Турция, с. 71.

[26] Лазарев М.С. Крушение турецкого господства на Арабском Востоке. М., 1960, с. 102.

[27] Рубинштейн Н.Л. Ближний Восток после мировой войны. Лозанская конференция. М., 1952, с. 199.

[28] Трухановский В.Г. Внешняя политика Англии на первом этапе общего кризиса капитализма (1918-1939). М., 1962, с. 349.

[29] Òöðê èñòèêëàë ùàðáè. úèëò 1. Èñòàíáóë, 1993, ñ.219.

[30] Турция спросит смягчения договоров. «Бюллетень НКИД РСФСР», 1920, №22, с. 28.

[31] Òöðêãåëäè À.Ô. Ìîíäîðîñ âå Ìóäàíéà Ìöòàðèêåëåðèíèí òàðèùè, ñ.128.



[32] Йеня орада, ñ.129.

[33] Трухановский В.Г. Ýþñòÿðèëÿí ÿñÿðè. ñ.401.

[34] Ñåëàùåòòèí Ò. Ìîäîðîñ’òàí Ìóäàíéà’éà êàäàð. ú.III, ñ.170; Jaesche G. Ýþñòÿðèëÿí ÿñÿðè. s.202; Òöðê èñòèêëàë ùàðáè. ú.7. Àíêàðà, 1971, ñ.201-202.

[35] Åðèì Í. Äåâëåòëåðàðàñû Ùöêóêó âå Ñèéàñàë òàðèù Ìåòèíëåðè. Àíêàðà, 1953, ñ.525-691.

[36] Ключников Ю.В., Сабанин А.В. Международная политика новейшего времени в договорах, нотах и департаментах. Ч.III, с. 31; Åðèì Í. Äåâëåòëåðàðàñû Ùöêóêó âå Ñèéàñàë òàðèù Ìåòèíëåðè. Àíêàðà, ñ.525-691.

[37] ßëàâÿ 2. ñ.2-4.

[38] ßëàâÿ 2. ñ.12-17; Коровин Е.А. Международные договоры и акты нового времени. М.-Л., 1924, с. 139-140.

[39] Нитти Ф. Европа без мира, с. 133-135.

[40] Ключников Ю.В., Сабанин А.В. Международная политика новейшего времени в договорах, нотах и департаментах. Ч.III, с. 62-66.

## III FƏSİL

## ANTANTANIN TÜRKİYƏNİ PARÇALAMAQ CƏHDLƏRİNİN İFLASI. MÜTTƏFİQ ORDULARININ TÜRKİYƏNİ TƏRK ETMƏSİ

### §1. Müttəfiqlərin ilk məğlubiyyətləri və Sevr Müqaviləsinə yenidən baxmaq haqqında London Konfransı

Sevr müqaviləsi bütün Türk xalqında narazılığa və milli-azadlıq hərəkatının yüksəlişinə səbəb oldu. Bu etiraz dalğası indiyədək mübarizəyə qoşulmamış əhali təbəqələrini də ayağa qaldırdı. Hətta hərbi vəhiyyətdə olan İstanbulda belə Sevr müqaviləsinə qarşı gecə yürüşü təşkil edildi. Bütün ölkəni əhatə edən çoxminli mitinq və məclislərdə bu müqavilə bir səslə rədd edildi.

Sevr müqaviləsi imzalanandan dərhal sonra, onun həyata keçirilməsinə çalışan İngiltərə böyük çətinliklərlə qarşılaşdı. İlk növbədə parlamentlər tərəfindən ratifikasiya edilməyincə bu müqavilənin heç bir qüvvəsi yox idi. Ona görə də müttəfiqlər bu müqaviləni bir yandan öz parlamentlərində, digər tərəfdən isə Türkiyə parlamentində təsdiq edilməsi məcburiyyətində idilər. Lakin bunlar hər iki tərəfdən asanlıqla olacaq hadisəyə bənzəmirdi.

Türkiyənin vəziyyəti böhranlı olaraq qalırdı. Anadolu bütün istiqamətlərdən mühasirə olunmuşdu; Antaliyanı italyalılar zəbt etmişdilər; Kilikiyada və Suriya ilə sərhəd zonasında fransızlarla döyüşlər gedirdi; Şərqdə daşnaklar terror aktları və təxribatlarla məşğul idilər; Qara dəniz



sahillərini ingilis-yunan gəmiləri mühasirə etmişdilər; Avropa Türkiyəsi tamamilə işğal olunmuşdu – Şərqi Frakiyanı yunanlar, İstabul və boğazları Antanta tutmuşdu.

Belə bir vəziyyətdə Anadoluda yüksək vətənpərvərlik hissi baş qaldırmışdı. İmperialist müharibələr nəticəsində Türkiyənin bölüşdürülməsi, Antantanın İstanbulu, Suriyanı, Fələstini, Frakiyanı zəbt etməsi, yunanların Qərbi Anadolunu işğal etməsi və türk xalqının milli mənəviyyatına toxunması bütün bunlar illərlə davam edən müharibə nəticəsində yorulmuş türk xalqına o, qədər təsir etdi ki, onlar öz müstəqilliyi və azadlığı uğrunda mübarizəyə qalxdılar.[1]

İngilislər isə hələ də xarici müdaxiləyə böyük ümid bəsləyirdilər. Yunanlardan başqa onlar ermənilərdən də istifadə edirdilər.[2] Sentyabr ayında ingilislər və ruslar tərəfindən qızışdırılan ermənilər türklərə qarşı müharibəyə başladılar.[3] Bardiz və Ketek hissələrindən hücuma keçən ermənilər Sevr müqaviləsinə əsasən Ermənistana verilmiş əraziləri zəbt etmək istəyirdilər. Lakin dörd günlük hücumlardan sonra ermənilər heç bir müvəffəqiyyət qazana bəlmədilər. Daşnak hücumlarını dəf edən türklər sentyabrın 28-də əks hücuma keçdilər və Sarıqamış və Mərdənəki tutdular.[4] Sentyabrın 30-da Erməni hökuməti, "Ermənistan təhlükədədir"[5] adlı bir bəyənnamə yaydı. Ermənistanın vəziyyətinin belə gərgin vaxtında onlar digər Qafqaz dövləti Gürcüstanıda bu işə cəlb etmək iddiasına düşdülər. İstanbuldakı erməni mətbuat dairələri sentyabrın son ongünlüyündə Ermənistanla Gürcüstan arasında işbirliyi haqda təbliğat aparmağa başladılar. Eyni zamanda ermənilər Avropa sosialist nümayəndələrini də Ermənistana dəvət etdilər.[6] Amma ermənilər bu istəklərinə çata bilmədilər.

Hələ avqustun 24-də Ankara hökuməti xarici işlər naziri Bəkir Sami bəylə Sovet hökuməti arasında dostluq

haqqında müqavilə layihəsi hazırlanırdı. Amma Sovet hökuməti xarici işlər komissarı Çiçerinin Qafqazda Türkiyəyə aid bəzi bölgələrin Ermənistana verilməsini istəməsinə görə hələlik razılaşmanı imzalamaq mümkün olmadı. Avqustun 10-da sovet hökuməti ilə Ermənistan arasında bir müqavilə imzalandı. Bu razılaşmaya görə Sovetlər əslində Türkiyəyə aid bəzi bölgələr üzərində Ermənistan hökumətinin hakimiyyətini tanıdı və Sovet hökumətini Anadoluya bağlayan quru yolunu Ermənistan nəzarətinə daxil etdi. Bu da iki ölkə arasında sərhəd əlaqələrinin kəsilməsi demək idi. Belə formada Ermənistan üzərində öz nüfuzunu artırmış olan Sovet hökuməti Çiçerinin avqustun 13-də Moskvada Bəkir Sami bəylə apardığı görüşlərdə Bitlis, Van və Muş kimi türk ərazilərinin Ermənistana birləşdirilməsini istədi və bu, Bəkir Sami bəy tərəfindən qəbul edilmədi.[7] Bu tələblər nəticəsində Moskva danışıqları təhlükəyə düşdü. Bolşevik hökuməti Anadoludakı milli hərəkatın gec-tez məğlub olacağına ümid bəsləyib Ermənistana yeni ərazilər vəd edərək onları türklərə qarşı qızışdırırdı. Şübhəsiz ki, M.Kamal da bolşeviklərin əsil məqsədini başa düşürdü və Sovet hökuməti ilə münasibətləri buna uyğun qururdu.

Ermənistan xarici işlər naziri Ohanesyan Çiçerinə çox diqqətədəyər bir məktub göndərdi. O, bu məktubunda Ermənistan ilə Rusiya arasında dostluq əlaqələrinin qurulması üçün Ermənistana rus təmsilçilərinin gələcəyi bir anda türk ordularının hərəkətə gəlməsinin erməni-rus dostluğuna qarşı qoyulduğundan türk hücumlarının dərhal dayandırılmasını, və türklərin əvvəlki vəziyyətə qayıtmasını təmin etmək üçün təşəbbüs göstərilməsini istədi.[8] TBMM isə buna cavab olaraq bildirdi ki, bir yandan müttəfiqlərin əlində alət olan, bir yandan da yunanlara kömək etmək və



şərq cəbhəsində türk qüvvələrinin başqa cəbhələrdə istifadə edilməsinə mane olmaq üçün təcavüz edən daşnaklar Böyük Ermənistan qurmaq iddiası ilə türk ərazilərini işğal etmək üçün fürsət gözləyirlər.[9] Bu zaman sovetləşmə ilə əlaqədar ruslarla daşnaklar arasında münasibətlər pozuldu və ruslar daşnakları birbaşa müdafiə etmədilər.

Daşnakların Antanta yardımına olan ümidləri də boşa çıxdı. Antantanın vədlərinə baxmayaraq heç bir səmərəli tədbir görülmədi. Ermənilər Avropa dövlətlərindən nə qədər çox yapışırdılarsa, bir o qədər çox faciələrə düçar olurdular.[10] Türk orduları oktyabrın sonunda yeni hücuma keçdilər və oktyabrın 30-da Karsı geri aldılar.[11] Bu böyük qələbə idi. Karsın alınması ilə Türkiyənin xarici sərhəddi möhkəmləndi, erməni ordusu isə Türkiyə üçün təhlükəsiz hala gətirildi.

1920-ci il noyabrın 1-də Ankara hökuməti Ermənistana göndərdiyi nota ilə barış istədi. Ancaq ermənilər Türkiyəyə deyil, Rusiya və ABŞ-a müraciət etdilər. Rusların vasitəçiliyindən bir nəticə çıxmadı. ABŞ isə boş bir vəd verdi. Bu zaman türk orduları yeni hücuma keçdilər və noyabrın 7-də Ədirnə dəmiryol qovşağını ələ keçirdilər. Bundan sonra ermənilər barış istəməyə məcbur oldular. Türklər ermənilərə aşağıdakı şərtlər əsasında barışıq imzalana biləcəyini bildirdilər:

1) Arpaçayın qərbində olan erməni qüvvələri Gümrüyü də boşaldaraq ən az 15 km geri çəkilsinlər;

2) Gümrü qəsəbəsi tərəfimizdən işğal edilməyəcək, yalnız Gümrü qalası ilə stansiyanın hərbi işğal altına alınacağının və Gümrüdə hüquq və idarəçiliyin nəzarətə alınacağı Gümrü əhalisinə elan ediləcəkdir;

3) İrəvan-Tiflis-Kars dəmiryolunun birləşdiyi yer olması ilə əhəmiyyətli olan Gümrünün 10 km ətrafına qədər

olan ərazinin türk ordusu tərəfindən işğalına mane olunmayacaqdır;

4) türk ordu birliklərinə müharibənin davamı şəraitində heç bir maneə olunmayacaqdır;

5) yuxarıdakı şərtlər 1920-ci il noyabrın 7-nə saat on yeddiyə qədər tamamilə qəbul edilməlidir;

6) bu şərtlər qəbul edilmədikdə və noyabrın 7-si saat səkkizə qədər cavab verilmədiyi halda hərbi əməlliyatların başlanması və bütün məsuliyyətin erməni tərəfin üzərinə düşdüyü bildirildi.

Ermənilər bu barışıq şərtlərini dərhal qəbul etdilər və Gümrü qalasından geri çəkildilər. Ancaq TBMM noyabrın 8-də erməni hökumətinə aşağıdakı şərtlərlə yeni bir nota verdi: 1) Gümrüdəki erməni qüvvələri bildirilən xəttə geri çəkiləcək və 5-ci maddədə yazılmış təchizat və döyüş sursatlarını təslim edəcəklər; 2) bunlar üç gün sonra Karakilisdəki türk hərbi heyətinə təslim olunacaqdır; 3) barış müzakirəsinə Gümrüdə başlanılacaqdır; 4) təslim işi başlamadığı halda barış şərtlərinə razılaşılmadığı qəbul ediləcək və hərbi əməliyyat üçün sərbəst qalınacaqdır; 5) 2000 ədəd tüfəng, 20 ağır və 40 yüngül pulemyot, üç top, 4000 patron, 6 min top gülləsi veriləcəkdir.

Amma ermənilər ikinci dəfə təklifləri qəbul etmədilər. Tərəflər arasında döyüş başlandı. Noyabrın 14-də türklər yeni hücuma keçdilər.[12] Daşnaklar isə hələ də Antantanın vədlərinə ümid edirdilər. Millətlər Cəmiyyətinin Ermənistana yardım çağırışına isə müttəfiqlər qoşulmadılar. Qeyd etmək lazımdır ki, hələ San-Remo konfransı keçirilən zaman bütün nümayəndələr Vilsonun Böyük Ermənistan yaratmaq çağırışına tərəfdar olsalar da nə İngiltərə, nə Fransa nə də İtaliya bu ağır vəzifəyə razılıq verdilər. Çünki bu birbaşa türklərlə və sonra isə ruslarla müharibə demək



idi. Əlləri hər yerdən üzüləndən sonra bu işi Amerikanın özünə təklif etdilər. Prezident bunu qəbul etdi. Amma senatdakı müxalifətin təsiri ilə tezliklə bundan imtina etməli oldular.[13]

Gümrüdə davam edən danışıqlar isə dekabrın 2-də Gümrü müqaviləsi imzalanması ilə başa çatdı. Ankara hökumətinin imzaladığı bu ilk müqaviləyə görə türklər vaxtilə itirmiş olduqları Kars, Sarıkamış, Kağızman, Kulp və İqdırı yenidən geri aldılar. Ermənilər üzərində əldə edilən bu qələbədən sonra M.Kamal bildirdi: "Bizim ermənilər üzərində qələbəmiz və qüdrətli ordumuzun bu əraziləri zəbt etməsi erməni təhlükəsini aradan qaldırdı. Mən belə hesab edirəm ki, bizim ermənilərlə sülh şərtlərimiz Rusiyada heç bir narahatlıq doğurmayacaqdır.[14] Amma dekabrın 5-də Ermənistanda Sovet hökuməti quruldu və "erməni hökuməti Türkiyəyə bir nota verərək daşnak hökumətinin devrildiyini bildirdi və onun imzaladığı müqavilələrində qüvvədən düşdüyünü bildirdi. Lakin Ankara hökuməti buna etiraz etdi və münasibətlərin artıq bir erməni-türk deyil Rusiya-Türkiyə münasibətləri xarakteri aldığını bildirdi...

İngiltərənin hüquqi cəhətdən Yaxın Şərq və Qara dəniz boğazlarında hökmranlığını möhkəmlədən Sevr sülh müqaviləsi Osmanlı ərazilərinin bölüşdürülməsi uğrunda müttəfiqlərarası qarşıdurmaya son qoymaqdansa, onlar arasında münasibətləri daha da gərginləşdirdi. Müqavilə ilk növbədə Fransız maliyyə dairələrində daha çox narazılığa səbəb oldu. Sevrdə fransız diplomatlarının İngiltərə xeyrinə etdikləri güzəştlər Türkiyədə fransız kapitalının maliyyə-iqtisadi gücünə ağır zərbə vurdu.

Sevr müqaviləsi həmçinin Amerika və İtaliyanın da niyyətlərini puç etdi. Mosul neftinə sahib olmaq iddiasında olan Amerika hər vasitə ilə İngiltərənin İraqda

möhkəmlənməsinə mane olmağa çalışırdı. İtaliya isə İzmirin yunanlara verilməsi ilə hesablaşmaq istəmirdi. Çünki bura gizli müqavilə ilə İtaliyaya vəd edilmişdi.

Sevr müqaviləsi imzalanandan az sonra Fransada mətbuat səhifələrində Sevr müqaviləsinin yenidən baxılması haqqında yazılar dərc edilməyə başladı.[15] Türkiyənin tamamilə parçalanması Fransanın mənafeyi baxımından çox da əlverişli deyildi. San-Remo konfransından dərhal sonra "Temps" qəzeti yazırdı: "Türklərin milli hissiyyətini "bağışlamaq" gərəkdir... Yeganə çıxış yolu Türkiyənin müstəqilliyini və həyat qabiliyyətini saxlamaqdır".[16]

İstanbulun işğalından və Mosul nefti uğrunda ingilis-fransız münasibətlərinin gərginləşdiyi bir zaman mətbuatda Tardeni tənqid edən bir məqalədə Fransa üçün İngiltərənin Şərq siyasətindən gələn təhlükə açıqlanırdı: 1) Türklərin Şərqə atılması onları daha təhlükəli edir. Türkiyə Bosfor sahillərində yuxulayan zaman hərbi nümayiş ən ucqar əraziləri qubernatorların göstəricilərinə qulaq asmağa məcbur etməyə kifayət idi. İndi isə "xəstə adam" müalicənin ən yüksək pilləsinə qalxmaq üçün tam enerji ilə mübarizə aparır. 2) Şərqin əvvəllər bir-birinə qarşı duran qüvvələri indi birləşərək müttəfiqlərə qarşı mübarizə aparırlar.[17] Göründüyü kimi, Fransada Şərq siyasətinə münasibətdə iki fikir mövcud idi: birinci, tezliklə Türkiyə ilə razılaşmaq və hətta müttəfiq olmaq, ikinci, millətçilərlə gərgin müharibə aparmaq və əvvəlki müstəmləkə siyasətini davam etdirmək. Amma birinci fikir qalib gəldi. Həmin vaxtda qeyd etdiyimiz kimi türk milli-azadlıq hərəkatını yatırmaq planları baş tutmadı. Fransada maliyyə dairələri nümayəndələri qüvvətli şəkildə Versal müqaviləsinin yenidən baxılmasına çalışdılar. Burada da məqsəd Fransanın həm Avropada və həm də Asiyada mövqeyini möhkəmləndirmək idi.[18]



1920-ci ilin oktyabrında Yunanıstan kralı Aleksandr öldü.[19] Bundan sonra müttəfiqlər və Venizelos üçün gözlənilmədən keçmiş kral Konstantin hakimiyyətə gəldi. O, almanofil idi, Vilhelmin bacısına evlənmişdi və Antanta tərəfindən hakimiyyətdən devrilmişdi. Konstantinin hakimiyyətə qayıtması İngiltərəyə daha pis təsir etdi. İngilis hökuməti bildirdi: yeni yunan hökuməti yürüdəcəyi siyasəti açıqlamamışdır və Anadoluda heç bir tədbir görməyəcəkdir.[20] Amma yeni hakimiyyət Venizelosun işğalçılıq siyasətini daha riyakarlıqla davam etdirməyə başladı.

Antanta dövlətlərinin daxili iqtisadi vəziyyəti də Sevr müqaviləsinə yenidən baxmağı tələb edirdi. Maliyyə böhranı zamanı nə Fransa, nə İngiltərə Türkiyədə işğalçı qoşunların sayını artıra bildilər. Suriya və Kilikiyada Fransa ali komissarı general Quronun bəyanatında deyilirdi ki, Kilikiyada Fransa hegemonluğunu möhkəmləndirmək üçün minimum yüz min qoşun göndərilməlidir. Amma belə bir hadisə yalnız ölkədə böyük narazılığa səbəb ola bilərdi.[21] Buna görə də Fransa hökuməti kamalçılarla razılaşmaya gəlməkdə daha fəal idi. Lakin formal olaraq Fransa öz ordularının Kilikiyadan çıxardılmasına hələ də etiraz edirdi.

Həmçinin L.Corcun Yunanıstanı müdafiə etməsi Fransanın İngiltərədən uzaqlaşması üçün əlavə səbəb idi. Yunan-türk müharibəsi Fransa siyasətçiləri tərəfindən yalnız İngiltərənin yeni Türkiyə ilə müharibəsi kimi deyil, İngiltərə və Fransanın Yaxın Şərq üzərində nüfuz uğrunda müharibəsi kimi qiymətləndirilirdi. Fransa Türkiyəni Rusiyaya, xüsusən də Yunanıstana qarşı müdafiə edirdi, İngiltərə isə Yunanıstanı müdafiə edirdi. Reyn məsələsi, Vaşinqtonda çoxsaylı təzminat konfranslarında Fransa və İngiltərə "döyüşlərinin" əks-sədası Yaxın Şərqdə hiss edilirdi. Yaxın

Şərqin və Asiyanın parçalanması haqqında İngiltərə və Fransa arasında ziddiyyətlər öz növbəsində Avropada ingilis-fransız münasibətlərinə təsir etdi. Fransa artıq 1920-ci ildən müstəqil siyasət kursu tutmuşdu. İtaliya isə həmişə Yunanıstanın güclənməsinin əleyhinə olmuşdu. Bütün bu xarici və daxili vəziyyət dövlətləri, ilk növbədə İngiltərəni Sevr müqaviləsinin dəyişdirilməsinə getməyə məcbur edirdi. 1921-1922-ci illər ərzində razılığa gəlmək üçün bir neçə cəhdlər edildi. Bunlardan biri də martda keçirilməsi nəzərdə tutulan London konfransı idi.

1921-ci ilin əvvəlində kamalçılar ölkədə fəaliyyət göstərən partizan dəstələrinin ləğv edilməsinə başladılar. Bu da müəyyən narazılığa səbəb oldu. Bu narazılıqdan istifadə edən yunanlar isə yaranmış şəraitdən istifadə edərək Əskişəhrə hücum qərarına gəldilər.

1921-ci il yanvarın 10-da kamalçılar İnönü kəndində yunanlarla qarşılaşdılar. Yunanlar sayca çox olmalarına baxmayaraq türklərin müqavimətini qıra bilmədilər. İlk dəfə olaraq yunan hücumu dayandırıldı.[22] Bu qələbənin böyük siyasi əhəmiyyəti var idi. Antanta dövlətləri bundan sonra kamalçıları real qüvvə kimi qəbul etmək məcburiyyəti qarşısında qaldılar.[23]

Bu hadisələrə münasibətdə İtaliya "Tribun" qəzeti yazırdı: "İndiki döyüşlər bütün kampaniya üçün həlledici olacaq. Əgər hadisələr belə davam etsə, onda nəticəni çox gözləmək lazım olmayacaq".[24]

Kamalçıların bu qələbələri ingilisləri qorxuya saldı. Bu qələbələrə münasibətdə Çerçill yazırdı: "Belə hadisələr bizi də gözləyir... Çox güman ki, çoxlu sayda ordusuz biz Mosulu və Bağdadı öz əlimizdə saxlaya bilməyəcəyik".[25]

1920-ci ilin dekabrında Türkiyə məsələsi İngiltərə və Fransa parlamentlərində, yanvar ayında isə Parisdə



müttəfiqlərarası müşavirədə müzakirə olundu.

Yanvar ayının əvvəlində Parisdə keçirilən müttəfiqlərarası müşavirədə Sevr müqaviləsinə yenidən baxmaq üçün Londonda konfrans çağırmaq barədə razılıq əldə olundu. İtaliya və Fransanın təkidi ilə həmin konfransa Ankara hökumətinin nümayəndəsini də dəvət etmək qərara alındı. Müttəfiqlər 1921-ci il yanvarın 26-da İstanbul hökumətini London konfransına dəvət etdilər. Həmin dəvətdə göndəriləcək nümayəndə heyətinin tərkibində Ankara hökumətinin nümayəndəsinin də olmasını istədilər. Ankara hökuməti nümayəndələrinin dəvəti faktı M.Kamal hökumətinin böyük qələbəsi idi. "Anadolu banditləri" adlandırılan kamalçılar birdən Londona dəvət edilirdi.[26] Amma dolayı yolla olunan bu dəvət M.Kamal tərəfindən rədd edildi. Müttəfiqlərin İstanbul hökumətinə göndərdiyi dəvətnamədən sonra Sədrəzam Tevfik paşa ilə Mustafa Kamal arasında uzun sürət teleqram mübadiləsi oldu. Tevfik paşanın 1921-ci il 27 yanvar tarixli M.Kamala göndərdiyi teleqramda belə göstərilir: "25 yanvar tarixində Parisdə olan məclis tərəfindən şərq məsələsinin həllini müzakirə etmək üzrə fevralın 21-də Londonda müttəfiqlərlə Osmanlı və Yunanıstan hökumətləri arasında bir konfrans olacaqdır. M.Kamal və yaxud başqa şəxslərin nümayəndə heyəti ilə birgə konfransa getməsi məqsədə müvafiqdir".[27]

M.Kamal eyni gün bu teleqrama cavab verdi: Türkiyənin müqəddəratının həll olunmasında yeganə qanuni qüvvət və hakimiyyət Ankarada yerləşən Türkiyə Böyük Millət Məclisidir. Türkiyəni təmsil edəcək nümayəndə Məclisin təsdiq etdiyi hökumət ola bilər. İstanbulda heç bir hökumət yoxdur...

TBMM hökuməti sülh və barışığı böyük ciddiyyət və səmimiyyətlə arzu etdiyini və yalnız milli hüququnun

tanınması halında təklif olunan müzakirələri qəbul edir.

Bundan sonrakı teleqram mübadilələrində Tevfiq paşa Ankara və İstanbul hökumətlərinin məqsədlərinin eyni olduğunu bildirdi. Buna cavab olaraq Məclisin qərarı ilə Tevfik paşaya göndərilən teleqramda məqsədlərin eyni olacağı təqdirdə, milli hərəkatın işğal altında olan İstanbul və onun hökumətinə tabe ola bilməyəcəyi göstərildi.

Ankarada London konfransına edilən dəvətlə əlaqədar uzun fikir mübadiləsi oldu. Bu fikirlər içərisində üzərində dayanılan nöqtələrdən biri bu dəvətin birinci İnönü döyüşündə məğlub olmuş Yunanıstana vaxt qazandırmaq üçün hazırlanmış bir oyun ola biləcəyi idi. Bununla bərabər, M.Kamalın fikri Məclis tərəfindən qəbul edildi: bir təmsilçi heyət göndəriləcək, amma bu heyət doğrudan-doğruya bir dəvət olunmadan Londona getməyəcəkdir. Həqiqətən Sevr müqaviləsini imzalayan İstanbul hökuməti xəttiylə bağlanan bir dəvət üzərinə Ankara hökuməti konfransa təmsilçi göndərsəydi, müttəfiqlər millətçilərin bu ölkələrdən xahiş edəcəyini zənn edərdilər.

TBMM-nin verdiyi qərara əsasən Xarici İşlər naziri Bəkir Sami bəyin başçılığı ilə bir təmsilçi heyəti təşkil edildi və bu heyət əvvəlcə Antaliyaya, oradan da bir İtaliya torpedosu ilə Brendiziyə gəldi. Brendizidən Romaya gələn heyət Türkiyədəki millə hərəkata qarşı müsbət meylli olan İtaliya xarici işlər naziri K.Sfortzanın vasitəçiliyi ilə L.Corc tərəfindən Londona konfransa dəvət olundu.

Konfrans işə başlamazdan əvvəl ermənilər konfransa Trabzonun yunan əhalisi adından bir müraciət göndərdilər. Bu məlumat yunan əhaliyə çatanda onlar M.Kamala və müttəfiq dövlət başçılarına bir teleqram göndərdilər. Həmin teleqramda göstərilirdi: "Guya yunan əhalisi Trabzonun Ermənistana verilməsini istəyir, bununla bağlı Bəkir Sami



bəy vasitəsilə konfransa məlumat veririk: "Biz Trabzonun mütləq Ermənistana birləşməsini rədd edirik. Tarixi, coğrafi iqtisadi və b. tərəfdən baxaraq qeyd edirik ki, Trabzon türk və yunanların məskənidir. Ona görə də bu məsələnin müzakirəsinə yalnız bu xalqların hüququ var. Biz heç bir vaxt heç kimə bizim adımızdan haradasa danışmağı həvalə etməmişik. Biz bütün dünya xalqlarına çatdırırıq ki, biz hərtərəfli şəkildə türklərlə qaynayıb-qarışmışıq və onlarla birgə yaşamaq istəyirik..."[28]

Konfrans 1921-ci il fevralın 21-dən martın 14-dək Londonda keçirildi. Konfransda İngiltərəni L.Corc və L.Kerzon Fransanı Brian və Bertello, İtaliyanı Sfortza və Martino, Yaponiyanı Vikont Xayasi, Yunanıstanı Koloqeropulos və Sariyans, Türkiyəni iki nümayəndə heyəti – biri Sultan hökumətinin, digəri isə Ankara hökumətinin – təmsil edirdi.

Bəkir Sami bəy London konfransına gedərkən Moskvadan yeni gəlmişdi. Bu anda Moskva danışıqları hələ davam edirdi və danışıqların uzun sürməsinə baxmayaraq, müsbət nəticə əldə olunmamışdı.

Moskvada Sovet Rusiyası ilə aparılan danışıqlardan Bəkir Sami bəy türk-sovet münasibətləri üçün müsbət nəticə əldə olunacağına tərəddüd edirdi. Bəkir Sami bəy Sovet liderlərinin səmimi olmadığının, Sovetlərin avtoritar bir idarəçilik qurduqlarını və yeni rejimin Rusiyada insani hüquqları qorumadığını hiss etmişdi. Bu səbəbdən Bəkir Sami bəy Londonda müttəfiq dövlətlərlə tezliklə razılaşma əldə etmək istəyirdi.[29]

London görüşlərində Bəkir Sami bəy Ankara və İstanbul təmsilçiləri arasında əldə edilən razılaşmalar nəticəsində hər iki heyət adından danışırdı. Müttəfiqləri çaşdıran bu iş birliyi Ankara hökumətinin nüfuzunun art-

dığını göstərirdi.

Konfransda sədrlik edən L.Corc bəyan etdi ki, "Anadoluda M.Kamalın rəhbərliyi ilə vüqarlı bir ordu Sevr müqaviləsinə qarşı vuruşur. Buna görə də orada daimi sülh əldə etmək, bu müqaviləyə yenidən baxılması vacibdir".

Konfransda İngiltərə, Fransa, İtaliya və Yaponiya müttəfiq dövlətlər olaraq türk və yunan nümayəndələri ilə ayrı-ayrı görüşlər keçirdilər. Konfransın açılışı günü Ankara nümayəndə heyəti Londona gəlib çatmadığından, ilk gün yunan nümayəndələri ilə görüşlər keçirildi.

Yunan nümayəndələri öz məlumatlarında hər vasitə ilə sübut etməyə çalışırdılar ki, guya yunan orduları tam döyüş qabiliyyətlidir, orduda "Mənəvi ruh" yüksəkliyi var və Anadolunun yunan əhalisini azad etməyə qadir olduğunu göstərməyə çalışırdılar. Yunanıstanın baş naziri Kaloqeropulosun bəyanatına görə yunan ordularının sayı Anadoluda 120 mindir, amma türklər cəmi 65 mindir, guya buna görə də yunanlar üç ay müddətinə M.Kamal ordusunu darmadağın edə və Anadoluda tam qayda yarada bilər. General Sariyans isə bildirdi ki, "yunan ordusunun strateji vəzifəsi tezliklə Ankaranı işğal etmək və yorulub əldən düşmüş türk ordusunu məhv etməkdir. Yunan hökuməti qəti olaraq Sevr müqaviləsinin yenidən baxılmasına qarşı çıxacaq və o, türkləri yunan gücünə hörmət etməyə məcbur etməyə hazırdır".

Yunanların bu mədhnamələri konfrans iştirakçılarında böyük mübahisə doğurdu. Müttəfiqlərin hərbi ekspertləri isə bunun əksinə olaraq türk ordularının yunan ordularından daha güclü olduğunu və demək olar ki, türklər üzərində yunanların qələbə çalmasının mümkün olmadığını göstərdilər. General Quro bildirdi ki, "Antəpi tutmaq üçün Fransa ordusu doqquz ay vaxt sərf etdi. Bununla belə, bütün



Anadolu – bir yox, minlərlə Antəpdip. Türk ordusunu məğlub etmək üçün biz bütün ölkəni işğal etməliyik. Bunu da yalnız milyondan çox ordu həyata keçirə bilər. Buradan görünür ki, yunan ordusu həyata keçirilməz bir vəzifə qarşısında durmuşdur.[30] Yunan ordusu haqqında demək olar ki, generallar Foş, Vilson və Taunshenddə eyni fikirdə idilər. Taunshend 1920-ci ilin dekabrında parlamentdə bu məsələ müzakirə olunan zaman kamalçılarla əlaqə yaratmağı təklif edərək hətta öz vasitəçiliyini irəli sürdü.[31]

Fransa baş naziri Brian Kaloqeropulosun fikrinə etiraz edərək bildirdi ki, M.Kamal əsgərləri 1915-ci ildə Dardanel də döyüşən Sultan əsgərlərinə bənzəmir. Kilikiyada fransız qoşunlarını yaxşı təlim görmüş və silahlanmış 65 minlik ordu qarşıladı. Türk əsgərləri mərddir, öz vətəninə sadiqdir və hər qarış torpaq üçün ölməyə hazırdılar. Fransızların bir ildə etdikləri təcrübə məni yunan baş nazirinin bandit adlandırdığı orduya hörmətlə yanaşmağa məcbur edir.[32]

Konfrans yunan və türk ordularının vəziyyətinin iki günlük müzakirəsindən sonra fevralın 23-də türk nümayəndə heyətini dinlədi. İclas başlayanda Tevfik paşa Ankara nümayəndəsinə söz verilməsini istədi. Türk təkliflərini konfransa Ankara nümayəndəsi irəli sürdü. Türk təklifləri bunlardan ibarət idi: "Frakiyada 1913-cü il sərhədlərini bərpa etmək, başqa sözlə Balkanları Türkiyənin ixtiyarına qaytarmaq; İzmirin işğalına son qoymaq; boğazlarda sərbəstlik yaranacağı təqdirdə Türkiyənin suverenliyi və təhlükəsizliyinə təminat vermək; Yunanıstan tərəfindən Qərbi Frakiya və İzmirdə nüfuz çoxluğunun yunanlılarda olduğu irəli sürüləcəyi təqdirdə, müttəfiqlər Frakiya və İzmirdə türk, yaxud yunan nüfuzunun çox olmasını sübut etmək üçün millətlərarası bir tədqiqat komissiyası yaratmaq".

Türklərin bu təklifləri yunanlar tərəfindən qəti etirazla qarşılandı. L.Corc da onları müdafiə etdi.

Uzun sürən diskussiyalardan sonra Frakiya və İzmir vilayətlərində bu rayon əhalisinin tərkibini müəyyən etmək üçün sorğu keçirmək qərara alındı. Amma yunan nümayəndələri sorğu prinsipinə etiraz etdilər. Konfrans iştirakçıları Sevr müqaviləsinin bir neçə maddələrinə dəyişikliklər etmək haqqında layihə hazırladılar. Bu layihədə göstərilirdi: "Türkiyənin Millətlər Cəmiyyətinə üzv olmasının yüngülləşdirilməsi; türklərin İstanbuldan qovulması məsələsinin müqavilə mətnindən çıxardılması; boğazlar zonasının genişlənməsi və boğazlar Komissiyasında iki səsdən birinin Türkiyəyə verilməsi; təslim əvəzinə hüquqi islahatlar komissiyasında Türkiyənin iştirakı; xüsusi ordu sayının 35 minədək və jandarmaların sayının isə 45 minədək artırılması; müttəfiq ordu hissələrinin İstanbul və Qara dəniz zonasında azaldılması; hərbi-dəniz qüvvələrinin artırılması; müqavilənin maliyyə, hərbi, hüquq hissələrində bir sıra dəyişikliklər; Kürdüstan məsələsinin öyrənilməsi və Ermənistan sərhədlərinin dəyişdirilməsi; İzmir zonası üçün inzibati quruluşun təşkili, orada yunan qoşunlarının qalması şərti ilə türk suverenliyinin saxlanılması;İzmirdə müttəfiq zabitlərin komandirliyi altında jandarmeriyanın təşkili və oraya xristian qubernatorunun təyin edilməsi".[33]

Müttəfiqlər hər iki tərəfi xəbərdar etdilər ki, "döyüş vəziyyətinin bərpa ediləcəyi təsadüflə məsuliyyət hər iki tərəfin üzərinə düşəcək".[34]

Həm Türkiyə, həm də Yunanıstan nümayəndələri bu layihənin onları razı salmadığını bildirib rədd etdilər. London güzəştləri o qədər əhəmiyyətsiz idi ki, danışıqları bundan sonra davam etdirməyin mənası yox idi. Beləliklə,



London konfransı öz missiyasını həyata keçirə bilmədi və hər iki tərəfə evə dönməkdən başqa bir şey qalmadı.[35]

Konfransda müttəfiqlər arasındakı fikir ayrılığı açıq surətdə ortaya çıxdı. Fransa, İtaliya və İngiltərənin istifadə etdiyi Yunanıstanı müdafiə etmədilər. Bunun səbəbləri əvvəldə göstərilmişdir. Digər tərəfdən, İngiltərənin Ankara hökuməti ilə Rusiya arasında Moskva danışıqlarının uğursuz nəticələnəcəyi ümidi boşa çıxmaqda idi. London konfransı haqda məlumat verən ingilis mətbuatı qeyd edirdi ki, London konfransında türklərlə yunanlıları barışdıra bilməyən müttəfiqlər hesab edirlər ki, Anadoludakı müharibə nəticəsində hər iki tərəf tam yorulmuşdur. Mövcud maliyyə-iqtisadi vəziyyətdə nəinki, Yunanıstan və Türkiyə, həmçinin başqa ölkələrə və Şərq məsələsinə yenidən baxmaq ortaya çıxdı.

London konfransı gedişi zamanı Antanta dövlətləri Türkiyə ilə gizli danışıqlar aparırdılar. Türk tələblərinin müzakirəsi zamanı Brian türk nümayəndəliyinin başçısı Bəkir Sami bəyə konfrans çərçivəsindən kənarda Kilikiya haqqında danışıqlara başlamağı təklif etmişdi.[36] Türklər cənub cəbhəsinin ləğv olunacağına və bütün qüvvələrin yunanlara qarşı yönəldiləcəyinə ümid edərək danışıqlara başladılar.

Brian və Bəkir Sami bəy arasında Kilikiya haqqında Lozannada hərbi, siyasi və iqtisadi razılaşma əldə olundu və 1921-ci il martın 9-da paraflandı.

Həmin razılaşma aşağıdakı maddələrdən ibarət idi. Razılığa gələn ali tərəflər növbəti məsələlərdə razılığa gəlirlər;

A. Düşmənçilik hərəkətlərinin dayandırılması və hərbi əsirlərin dəyişdirilməsi.

V. Türk və fransız komandanlığı arasında əldə

olunmuş razılaşma əsasında silahlı əhalinin və silahlı bandit dəstələrinin tərksilahı.

S. Tərkibində fransız zabitləri olmaqla və türk hökumətinə tabe olmaqla polis qüvvələrinin təşkili.

D. Fransa və türk komandanlığı arasında razılaşmalar üzrə bir ay müddətinə Sevr müqaviləsi üzrə sərhədlərdən şimala işğal olunmuş ərazilərdən orduların çıxarılması, Türk orduları ilk olaraq tərk edirlər. Fransa ordusu isə çıxardılandan 8 gün sonra oranı "tutur".

Bu ərazilər Sevr müqaviləsi ilə Suriyaya verildiyindən mövcud müqavilə ilə türk dövləti tərkibinə daxil edilir, etnik xarakterdə müvəqqəti tədbirlər görülür.

E. Tam siyasi amnistiya verilməli və Kilikaya inzibati personalı vəzifəsində qalmalı.

Ğ. Etnik azlıqların müdafiəsi öhdəliyi, bütün münasibətlərdə onlara tam hüquqların təminatı, jandarm və bələdiyyə idarəçiliyinin təşkilində onların maraqlarının nəzərə alınması.

Q. Fransa ordularının tərk edəcəyi Kilikiya, Mamurtəl-Əzis, Diyarbəkr və Sivas rayonlarında iqtisadi inkişaf üçün, Osmanlı imperiyası hökuməti tərəfindən həyata keçirilməmiş formada burada konsesiya almaq hüququ ilə Fransa kapitalının çox geniş şəraitdə birləşmə imkanı (osmanlı kapitalının 50%-nə çatmaq imkanı ilə).

N. Türkiyə və Suriya vilayətlərində müvafiq gömrük rejiminin təşkili.

İ. Fransız məktəb, tibbi və yardımçı müəssisələrinin saxlanılması.

J. Fransa hökuməti İskəndərun əyaləti üçün xüsusi idarə rejimi təşkil edir. Çünki əhali qarışıq xarakter daşıyır və türk tayfaları üçün öz mədəniyyətinin inkişafı və türk dilindən istifadə üçün bütün güzəştlər verir. Fransız və ərəb



dillərinə rəsmi status verilir.

K. Suriya sərhəddi və Kilikiya qapıları arasında Bağdad dəmir yol sahəsi Fransa qrupuna verilir.

L. Suriya və Türkiyə sərhədləri İskəndərun körfəzindən cənuba Payas və Meydan Ekbos xətti istiqaməti ilə birbaşa müəyyənləşir. /Burada sərhədlər Marsovu Suriyaya vermək məqsədi ilə cənub-şərqə əyilir, Killis şəhəri və Karnab isə Türkiyəyə verilir;

Sonra dəmir yolu ilə Şotenberq stansiyasına çatır, Bağdad dəmir yolu xətti üzrə gedir və Türkiyəyə qalan Kizibinadək gəlir və Azəkxadan şimala Fərat dirsəginə çatır və Fərat üzrə gedərək Cəzirə-İbn-Omaradək davam edir/.

Türk gömrük xətti yoldan şimala, fransa gömrük xətti isə cənuba müəyyənləşir.

Fransa-Türkiyə müqaviləsi İngiltərədə böyük narazılıq doğurdu. İngilis mətbuatı bunu satqınlıq adlandırdı. Kerzon isə hətta tamamilə əlaqələri kəsməklə hədələdi. Amma fransız qəzetləri sakitliklə cavab verdilər ki, "ingilis generallarının əmri ilə döyüş meydanlarında bizim gənclərin meyitləri qalanda Fransanın geri çəkilməsi gec olacaq.[37]

Bu güzəştləri etməklə Fransa Sevr müqaviləsini pozaraq Suriyanı Mesopotomiya ilə əlaqələndirən yeganə dəmir yolunun hər iki tərəfindəki torpaqları türklərə vermiş olurdu. Bu da birbaşa ingilislərin marağına toxunurdu. Bundan başqa Fransa və Türkiyə arasında imzalanan bu müqavilə ilk növbədə hamıdan çox erməniləri narahat etdi. Çünki fransızların getməsi ilə ermənilər türklərə qarşı törətdikləri vəhşiliklərə cavab vermək məcburiyyətində qalacaqdılar. Ermənilər həyəcan təbili çalmağa başladılar: "Erməniləri türklərə qarşı silahlandıranlar ermənilərə indi əlvida deyib gedirlər. Bundan sonra fransızlar erməniləri, türklərin ədalət mühakiməsinə buraxırlar. Kilikiyanın

təşvişə düşmüş erməni əhalisi Kiprə və Amerikaya qaçırlar..."[38]

Müqavilə imzalanandan az sonra onun yerinə yetirilməsinə başlanmalı idi.

Eyni zamanda Fransa-Türkiyə razılaşması ilə bərabər martın 13-də İtaliya ilə də razılıq əldə edildi. Bu da aşağıdakı şərtlərdən ibarət idi:

1. Adaliya, Burdur, Muqla, İsparta və Afion-Kara-Xissar və Kutahiya, Aydın və Koniya sancaqlarında iqtisadi inkişaf üçün konsesiya hüququ olmaqla Osmanlı hökumətinin həyata keçirə bilmədiyi bir formada italiya-türk iqtisadi əməkdaşlığı.

2. Konsessiya osmanlı qanunları əsasında təşkil edilmiş cəmiyyətlər tərəfindən istifadə edilir.

3. İtaliya və türk kapitalının geniş miqyasda birləşməsi mümkündür.

4. İtaliya hökuməti sülh müqaviləsinə və xüsusən də Frakiya və İzmirin Türkiyəyə qaytarılması üçün türk nümayəndələrinin tələblərini həqiqi mənada müttəfiqlər qarşısında müdafiə etmək öhdəsinə götürür.

5. İtaliya hökuməti formal bəyanat verir ki, ən gec sülhün ratifikasiyası zamanı və hər iki ölkə arasında razılaşmadan sonra Osmanlı ərazilərində yerləşən ordularını geri çağıracaq.

6. Yuxarıda göstərilən qətnamə konvensiya qüvvəsində fəaliyyətə başlayacaq, iki ölkə arasında bağlanacaq, Türkiyənin müstəqil yaşamasını təmin edəcək.

Müqavilə imzalanandan sonra İtaliya mətbuatında bu müqaviləyə münasibət bildirilməyə başlandı. İtaliyanın "Tribun" qəzeti yazırdı: "Müqaviləyə münasibətdə etiraz əsassızdır. İtaliya Ankara ilə danışıqlar aparmağa tam hüquqa malikdir. Anadoluda onun marağı İngiltərənin



marağına toxunmur. İtaliya və Fransa Şərqdə siyasi tarazlıq yaratmağa çalışır.[39]

İngiltərə ilə hazırlanan razılaşma əsirlərin mübadiləsi ilə bağlı idi. Həmçinin Sami bəlyə L.Corc arasında qeyri-rəsmi danışıq aparılırdı.

Sevr müqaviləsinin bəzi şərtlərinin yüngülləşdirilməsi əvəzinə Bəkir Sami bəy "TBMM-ni Şimali Qafqaz xalqları ilə birləşməyi və bolşevizmin bu ölkələrdə yayılmasına qarşı çıxmağa inandırmağı öhdəsinə götürdü.[40]

Görüşün mahiyyəti tezliklə mətbuata çıxdı. Bu söhbətdən bəhs edən bir türk nümayəndəsi yazırdı: "Aydın oldu ki, Bəkir Sami bəy L.Corcla söhbət edərkən bizim üçün verilmiş təlimatdan kənara çıxdı və Rusiya mövzusunda danışıqlara başladı".

Bəkir Sami bəy isə mətbuata verdiyi müsahibəsində göstərdi ki, "o, sovet Rusiyasına münasibətdə heç bir təhqiramiz söz deməyib və rus-türk dostluq münasibətlərinin pozulması üçün heç bir səbəb olmayıb. Bizim Rusiya ilə münasibətlərimiz tam dostluq münasibətləri olmalıdır. Çünki bunu Türkiyənin həyati marağı tələb edir".[41]

Bəkir Sami bəy bu müqavilələri Ankara hökuməti ilə razılaşmadan imzalamışdı. Müttəfiqlərə bir çox imkanlar verən bu müqaviləni imzalamaqla Bəkir Sami bəy Ankara milliyyətçi hərəkatının mahiyyətini yaxşı dərk etməmişdi. Müttəfiqlərin Türkiyəyə qarşı imzaladıqları gizli müqavilələrlə bu müqavilələr arasında bəzi oxşarlıqlar vardı. Buna görə də Bəkir Sami bəy Ankaraya döndükdən sonra bu anlaşmalar haqqında TBMM-də hesabatla çıxış etdi. Bu hesabat böyük həyəcana səbəb oldu və Məclisdə dəstək almadı.[42]

Bəkir Sami bəy TBMM-nin razılığı olmadan müqavilə imzaladığına və b. səbəblərə görə istefa verdi.[43]

M.Kamal 1 may 1921-ci il tarixli Bəkir Sami bəyə göndərdiyi teleqramda göstərirdi: "TBMM-nin bu günə qədər müxtəlif vasitələrlə bütün dünyaya bəyan olunmuş prinsipləri bu kiçik cümlədə ifadə olunmuşdur: mövcud olan milli hüdudlar çərçivəsində məmləkətimizin bütövlüyünü və milliyətin müstəqilliyini təmin etmək. Əgər bu prinsipi müttəfiqlər qəbul etsəydilər, onda bu müqavilələri məclis təsdiq edərdi". Ankarada razılaşmanın ratifikasiya edilməməsi Fransa hökuməti ilə Ankara hökuməti arasında bir soyuqluq yaratdı. Amma Şərq məsələsinə dair Parisdə keçirilən növbəti müttəfiqlərarası konfransda Brian bəyan etdi ki, "Avropa Türkiyəsinin sərhədləri mütləq Enos-Midiya xəttinədək geri çəkilməlidir".[44] Həmçinin müşavirə Yunanıstana nota layihəsini də hazırladı. Burada Şərqdə sülh yaratmaq vəzifəsini müttəfiqlərə buraxmaq Yunanıstana təklif edilirdi. Əgər Yunanıstan bu təklifi qəbul etsəydi, onda Türkiyədəki hər iki hökumətə sülh təklif ediləcəkdi. Burada da türkləri razı salmaq vasitəsi kimi İzmirin azad edilməsi nəzərdə tutulurdu. Bu andan Antantanın Şərq siyasətində dəyişiklik başlanırdı.

London konfransının nəticələri ilə bağlı baş vəzir Tevfik paşa "İkdam" qəzetinə verdiyi müsahibəsində Ankara hökumətindən fərqli olaraq qeyd edirdi: "Mən London konfransının nəticələri ilə çox razıyam. Bizim İstanbula hüququmuz tamamilə bərpa olundu. Bizim iqtisadi tələblərimiz də nəzərə alınır. Biz Frakiya və İzmirin qaytarılmasını tələb edirik və mövqeyimiz qətidir".

Tevfik paşanın belə müsbət münasibətinə baxmayaraq London konfransı qeyd etdiyimiz kimi heç bir müsbət nəticə vermədi və verə də bilməzdi, çünki imperialistlərin müstəmləkə siyasətlərində yumşalma olsa da onlar bundan əl çəkə bilmirdilər.



London konfransı Avropa diplomatiyası tərəfindən qurulmuş bir tələ idi. Bu tələnin nəticələri yalnız yeni yunan hücumları oldu.

---

1 «Правда», 10.II.1922
2 Óðàñ Å. Òàðèùåå åðìåíèëåð âå åðìåíè ìåñåëåñè. Èñòàíáóë, 1976, ñ.134.
3 "Èñòèãáàë" ãÿçåòè, 19.IX.1920.
4 Завриев Д.С. К новейшей истории северо-восточных вилайетов Турции. Тбилиси, 1947, с. 85; Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 115, â.130.
5 Îëàéëàðëà òöðê äûø ïîëèòèêàñû, ñ.31.
6 "Íîð Àøõàòàâàð" ãÿçåòè, 26 ñåíòéàáð 1920 (¹139).
7 "Ñþç" ãÿçåòè, 26.IX.1920 (¹218).
8 Tansel S. Ýþñòÿðèëÿí ÿñÿðè, úèëò III, ñ.240.
9 Êàìóðàí Ý. Òöðê-Ñîâéåò èëèøêèëåðè (1920-1953). Àíêàðà, 1991, ñ.139.
10 "Èêáàë" ãÿçåòè, 7 îêòéàáð 1920.
11 "Ñþç" ãÿçåòè, 5 íîéàáð 1920.
12 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 115, â.107.
13 "Ìèëëÿò" ãÿçåòè, 1 ôåâðàë 1992.
14 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 207, â.72.
15 "Ïðåññ äéó Ñóàð" ãÿçåòè, 1.X.1920.
16 "Temps" ãÿçåòè, 13 ìàé 1920.
17 "Temps" ãÿçåòè, 17-22 èéóí 1920.
18 Иванов Л. Англо-французское соперничество 1919-1927 гг. М.-Л., 1928, с. 163.
19 "Ïàòðèñ" ãÿçåòè, 25 îêòéàáð 1920.
20 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 207, â.3.
21 Ñîéñàë Ë. Òöðê-Ôðàíñûç ñèéàñàë èëèøêèëåðè. (1919-1984). úèëò II, ñ.107.
22 "Èñòèãáàë" ãÿçåòè, 14 àïðåë (¹277) 1921; "Èëëåðè" ãÿçåòè, 17 àïðåë (¹1156) 1921.
23 К пересмотру Советского договора. «Бюллетень НКИД РСФСР», 1920, №53, с. 19; "Àêøàì" ãÿçåòè, 1921; Греко-турецкая война «Бюллетень НКИД РСФСР», 1921, №74, с. 42-43.
24 "Òðèáóí" ãÿçåòè, 12 àïðåë 1921.
25 Черчиль У. Мировой кризис, с. 271
26 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 68, â.55.
27 Ñåëàùåòòèí Ò. Ìîäåðí Òóðêèéà'éà êàäàð. ú.IV. ñ.249.

28 “Èñòèãááàë” ãÿçåòè, 18 ôåâðàë 1921 (¹229).
29 Îëàéëàðëà òöðê äûø ïîëèòèêàñû, ñ.31.
30 Мустафа Кемаль. Путь новой Турции, т. III, с. 252
31 «Весник НКИД РСФСР», 1921, №1, с. 127
32 Лондонская конференция. М., 1924, с. 89.
33 Годовой отчет НКИД к IX съезду Советов РСФСР (1920-1921 гг.), с. 44-45.
34 “Äåéëè-Ìåéë” ãÿçåòè, 12 àïðåë 1921.
35 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 68, â.54.
36 К соглашению о Киликии. - «Вестник НКИД РСФСР», 1921, №3, с. 46..
37 “Eclair” ãÿçåòè, 25 èéóí 1921.
38 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 128, â.99.
39 Йеня орада, â.40, 41.
40 Мустафа Кемаль. Путь новой Турции, т. IV, с. 287.
41 “Áîñôîð” ãÿçåòè, 8 ìàé 1921.
42 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 128, â.43.
43 “Òàéìñ” ãÿçåòè, 21 àïðåë 1921.
44 Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 207, â.142.



## §2. Yunan-Türk müharibəsinin başa çatması: Mudaniya barışığı

London konfransının nəticəsiz başa çatmasından sonra müttəfiqlər türk məsələsini həll etmək üçün bir yol gördülər. O, da yenidən silaha əl atmaq idi. Bu məqsədlə də hələ konfrans gedişində məlum olduğu kimi yunan komandanlığı hərbi əməliyyatlara hazırlaşırdı. Yunanların hərbi əməliyyat planlarında türk ordularına ildırım sürəti ilə zərbə vurulması və Afon-Karahisar, Kütahya, Əskişəhrin zəbt edilməsi, Ankaraya yolun açılması nəzərdə tutulurdu. Bu məqsədlədə yunanlar əsas qüvvələrini Bursaya və Uşaka rayonuna cəmləmişdilər, sayına və gücünə görə türk ordularından daha çox idi. Türk mənbələrinin verdiyi məlumata görə, yunan orduları 40 min adam, türklər isə 30 min adam idi.[1]

London konfransı başa çatandan dərhal sonra, yəni 1921-ci il martın 23-də yunanlar Bursa və Uşaka arasındakı bütün cəbhə boyu hücuma başladılar.

Əsas zərbə nöqtəsi Ankaranı Bağdad dəmiryol xətti ilə birləşdirən Əskişəhrə istiqamətlənmişdi. Bu sahədə türk müdafiə xəttinin ön hissəsini məğlub edərək martın 26-da yunan orduları İnönüdə türk orduları ilə üzbəüz dayandılar. İnönüdə üç gün döyüşlər davam etdi. Türk orduları yunan hücumunu dəf edərək əks hücuma keçdilər. Böyük itkilər verən yunan orduları əvvəlki mövqelərinə qayıtdı. Türklər İnönüdə ikinci dəfə qələbə çaldılar.[2]

Konya istiqamətində hücum edən yunan orduları Afon-Karahisarı zəbt edib Konyaya irəliləməyə cəhd etdilər. Amma bu istiqamətdə də onlar müvəffəqiyyət qazana bilmədilər.[3]

İnönüdəki ikinci qələbə türk xalqında yeni əhvali-

rühiyyə oyadaraq türk xalqının əsl məqsədini bütün dünyaya göstərdi. Bu qələbə Antantaya böyük zərbə oldu və türk nümayəndəsinin Londonda Fransa və İtaliya ilə bağladığı müqavilələrin rədd edilməsinə öz təsirini göstərdi.

İnönüdəki qələbələr türk ordularının işğalçılar üzərində tam qələbəsi deyildi. Mart hərbi əməliyyatının ardınca yunanlar Ankara üzərinə geniş miqyaslı hücuma hazırlaşmağa başladılar. Yunanıstanda ümumi səfərbərlik elan edildi. Hətta beynəlxalq adətləri pozaraq işğal edilmiş ərazilərin yunan əhalisini də səfərbərliyə cəlb edirdilər.[4] MC-nin ali şurası 1921-ci ilin avqustun əvvəlində yunan-türk müharibəsində müttəfiqlərin bitərəf qalması üçün qətnamə qəbul etməsinə baxmayaraq İngiltərə öz mövqeyini dəyişmədi və yunanları hər vasitə ilə yeni hücumlara təhrik etdi.[5]

Bir aydan çox davam edən sakitlik pozulmaq ərəfəsində idi. Müharibə təhlükəsi artırdı. Bu zaman Yunanıstanın özündə iqtidarın siyasətinə qarşı xalqın narazılığı artmaqda idi. Yunanıstanda artıq Türkiyəyə qalib gəlməyin mümkün olmadığı və ən yaxşı çıxış yolu sülh bağlamalı olduğunu artıq dərk etmişdilər. Amma öz hakimiyyətlərini saxlamaq və ölkədəki narazılığın qarşısını almağın yeganə yolunu müharibənin başlanmasında görürdülər.[6]

1921-ci ilin may-iyun ayları ərzində hər iki tərəf qəti və geniş miqyaslı hücuma keçmək qərarına gələ bilmədilər. Hər iki tərəf bunun həlledici əməliyyat olacağını yaxşı başa düşürdü.

Aprel uğursuzluğundan və Qunarisin cəbhəyə səfərindən sonra yunan baş qərargahı yeni hücum əməliyyatı hazırladı. Ordunun sayı iki dəfə artırılaraq 400000-ə çatdırıldı.



"Tayms" qəzetinin Yaxın Şərq müxbiri İstanbuldan məlumat verirdi: "Burada şayiələr gəzir ki, kamalçıların hərbi rəhbərliyi Əskişəhrə hücum etmək qərarına gəlmişdi.[7] Amma kamalçılar məhəlli xarakterli hücumdan başqa geniş miqyaslı hücuma hazır deyildilər. Hadisələr tamamilə əksinə oldu və yunanlar hücuma keçdilər.

Yunanıstanın daxilində kralla Venizelos arasında gərgin siyasi mübarizə gedirdi. Buna görə də qələbəyə ümid çox az idi. Amma M.Kamal ordusu vahid bir cəbhədə yumruq kimi birləşmişdi. Yeganə fikir və məqsədləri qələbə çalmaq idi.[8]

Hərbi əməliyyatlara hazırlıqla bərabər məsələnin siyasi yolla həlli üçün də fəaliyyət göstərirdilər. Mayın 9-da türk qəzetləri yunanların ingilislərə sülh əldə etmək üçün vasitəçilik etmələri haqda aşağıdakı şərtlərlə müraciət etmələri barədə məlumat dərc etdilər: a) yunan ordusu Anadoludan çıxır; b) İzmir İngəltərə, Fransa və İtaliyanın nəzarəti altında muxtar vilayət elan edilir. Bu dövlətlər Anadoludakı yunan əhalinin təhlükəsizliyinə təminat verir; v) Yunanıstan Frakiya və Arxipelaq adalarına hüququnu saxlayır; q) İstanbul və boğazlar məsələsi müttəfiqlər tərəfindən həll edilir".[9]

Yunan mətbuatı bu məlumatı təkzib etməsə də, Ankara hökuməti sülhün yalnız yunanların təcili şəkildə Anadolunu tərk etmələri və İzmiri və Frakiyanı türklərin tarixi torpaqları kimi qəbul etmələri şərtləri ilə mümkün olması cavabını verdi.[10]

Qeyd etmək lazımdır ki, həmin vaxt Hindistan müsəlmanları nümayəndəliyi Türkiyəyə münasibətdə Avropanın mövqeyini öyrənmək üçün Londona gəlmişdi. Amma bu nümayəndəlik Londonda çox soyuq qarşılandı və geri dönməli oldu. May ayında Hindistan işləri üzrə nazir

Monteqyonun cavab məktubu dərc edildi. Həmin məktubda göstərilirdi: “Mən başa düşürəm ki, sizin xahişiniz indiki zamanda tamamilə həll edilə bilməz, amma belə düşünməyə ümid var ki: a) Avropa və Türkiyənin özünün təhlükəsizliyi naminə ordunun sayının azaldılması və boğazların beynəlmilləşdirilməsi şərti ilə Türkiyə müharibəyə qədər olduğu kimi müstəqil və azad olacaq; b) MC-ti Şurası tərəfindən Ədirnəyə xüsusi muxtariyyət veriləcək; v) Müsəlmanların Frakiyaya hüququ nəzərə alınacaq; q) Frakiyanın yeni Türkiyənin sərhədləri ilə toxunduğu ərazilər tərksilah ediləcək; d) Fələstində müsəlmanlara münasibətdə bərabərsizlikdən danışmağa əsas olmayacaq; s) Mesopotomiyada tezliklə yaşamağa qadir yeni dövlət qurulacaq; ə) Müqəddəs yerlərə nəzarət hüququ müsəlmanlarda olacaq”.[11]

Bütün baş verən daxili hadisələri və beynəlxalq vəziyyəti nəzərə alaraq ingilis hökuməti Ankaraya münasibətdə siyasətini dəyişmək məcburiyyətində qaldı. Əvvəlcədən nəzərdə tutulan şərq məsələsinə dair növbəti konfransı gözləmədən L.Kerzon Fransa və İtaliyalı həmkarları ilə fikir birliyi əldə etmək məqsədi ilə Parisə gəldi. Parisdəki bu danışıqların nəticəsi Yunanıstana hücumu təxirə salmaq və Anadoluda müharibəni dayandırmaq üçün Avropanın vasitəçiliyinin qəbul edilməsi təklif edilməsi oldu.[12]

Eyni təkliflə Ankaraya da müraciət edildi.

İyunun 26-da Afinadakı müttəfiq dövlətlərin təmsilçilərinə yunan hökumətinin cavabı verildi. Cavabda Antantaya təklifləri üçün təşəkkür edilərək göstərilirdi ki, “kral Konstantin hökuməti hərbi düşüncə üzrə vasitəçilik təklifini qəbul edə bilməz. Çünki hərbi əməliyyatların uğurla bitəcəyinə əmindir və ondan sonra müttəfiqlərin



təkliflərini qəbul edəcəkdir”.[13]

Konstantinin dediyi kimi, “Anadolu banditlərinin” müqavimətini sındırmaq üçün yunan orduları iyulun 9-da hücuma keçdilər.[14] On beş gün davam edən fasiləsiz döyüşlər yunanların qələbəsi ilə nəticələndi. İyulun 12-də Afon-Karahisar, iyulun 17-də Kütahya, iyulun 20-də Əskişəhr yunanlar tərəfindən zəbt edildi.

İyulun sonunda Konstantin İzmirə gələrək hərbi komandanlığı öz üzərinə götürdü. Avqustun 15-də isə Ankara üzərinə hücum əmri verdi. Kral şəhərin Şir Ürəkli Riçard yerləşən məhəlləsində yerləşdi. Kral bəyan etdi ki, “o, xaç yürüşləri zamanından sonra Anadoluda ilk xristian dövlət xadimidir və Kamalı tezliklə məğlub edəcəkdir”.[15] Yüksək tonla deyilən bu sözlərə çox az adam inanırdı. “Tayms” qəzeti yazırdı: “İstanbulda müttəfiq qarnizonlarını millətçilərdən yalnız bir yunan diviziyası ayırır. Millətçilər... isə bundan və həmçinin siyasi fikir ayrılığına görə yunan ordusundakı ruh düşkünlüyündən xəbərdardırlar. Əsasən də yunanlar Qərbi Avropa dövlətlərinin müdafiəsini itirdiklərini hiss edirlər. Moskvadan Ankaraya edilən yardımlar isə əksinə türkləri daha da gücləndirdi və son döyüşdə onlar qalib gəlsələr, onda İngiltərə və Fransa qarşısında tələbləri daha cəsarətli olacaqdır”.

Yarımrəsmi “Deyli-Kronikol” yazırdı: “Yunanlılar bizim bütün müdafiəmizdə olan hüquqlarını Konstantinin rəsmi olaraq tanınmasına çağırışları ilə itirdilər”.[16]

Digər müttəfiqlərə gəldikdə onlar tamamilə başqa fikirdə idilər. İtalyalılar Ankaraya öz nümayəndələrini göndərdilər. Konstantinin İzmirə gəldiyi zaman italyan kreyserləri oranı tərk etdilər. Fransada da ictimai fikir türklərin xeyrinə tamamilə dəyişmişdi.

Britaniya diplomatiyası Türkiyədə öz məqsədlərini

həyata keçirmək üçün Yunanıstana istinad etdi. Ona görə də yunanların böyük dövlətçilik iddiaları L.Corc tərəfindən müdafiə olunurdu. Eyni zamanda İngiltərə Hüseynlər ailəsinin panərəb siyasətini və xüsusən də Fransanın Dəməşqdən qovduğu şahzadə Feysalı müdafiə edirdi. Ərəblərin belə müdafiəsi əlbəttə, həm yaxşı idi, həm də ucuz başa gəlirdi.[17] Amma bunlarla bərabər qeyd etməmək olmaz ki, İngiltərənin Yaxın Şərqdə belə siyasəti onu həm Türkiyə, həm də Fransa ilə mübahisə etməyə gətirib çıxarırdı.

Ankara hökumətinin dözümlülüyü, Rusiya ilə yaxın münasibətləri, bütün müsəlman dünyasının onlara rəğbəti İngiltərəyə sübut edirdi ki, türklərlə belə davranmaq istənilən nəticəni verməyəcək və barışıq yolu seçmək gərəkdir. Bu yolda isə ən yaxşı vasitəçi Fransa ola bilərdi. Bu vəziyyətin nəticəsi o oldu ki, bir tərəfdən Kerzon Parisə getdi, digər tərəfdən ingilis mətbuatı Fransa ilə əlaqələri genişləndirmək kompaniyasına başladı və ictimai fikri türklərə barışıq istiqamətinə meylləndirdi.

Fransa isə Anadolu Türkiyəsində öz nüfuzunu bərpa etmək yolunu çoxdan axtarırdı. Suriyanın zəbti ilə kifayətlənərək hətta sərhət xətti belə müəyyənləşdirəndən sonra Fransa Bəkir Sami bəylə Kilikiya məsələsini nizama salmağa çalışırdı.

Nəhayət, İtaliya yunan-türk müharibəsinin lap başlanğıcından açıq şəkildə türklər tərəfdə dururdu. Məqsəd isə Anadolu bazarlarında yer almaq həmçinin Balkanlarda və Aralıq dənizində nüfuz qazanmaq və Yunanıstanın bu ərazilərdə güclənməsinə mane olmaq istəyi idi.

İyul məğlubiyyətlərinə və müxalifətin ölkənin taleyinin Sultana verilməsi tələbi ilə çıxış etməsinə baxmayaraq, TBMM avqustun 5-də M.Kamalı baş ko-



mandan təyin etdi və ölkənin müdafiəsini təşkil etmək üçün ona üç ay müddətinə fövqəladə səlahiyyətlər verdi.

Müttəfiqlərin siyasi və hərbi xadimləri yunanların qələbəsi artıq təmin edildiyini güman edirdilər. Hətta L.Corc icmalar palatasında bəyan etdi ki, "Yunanıstan əldə edəcəyi qələbədən sonra Sevr müqaviləsi ilə kifayətlənə bilməz, o, daha geniş miqyasda mənfəət almalıdır".[18]

Rumıniya hökuməti isə yüngül gəlir əldə etmək məqsədi ilə rəsmi qətnamə qəbul etdi. Qətnamədə deyilirdi: "Rumıniya Antanta tərəfdən müvafiq tapşırıq alsa, türklərə qarşı çıxış etməyə hazırdır".[19]

Avqustun 23-də yunanlar hücuma keçdilər. Yüz kilometr məsafədə Türkiyə tarixində görünməmiş döyüş başladı. Sakarya çayı üzərindəki bu "meydan döyüşü" iyirmi iki gün davam etdi və türklərin qələbəsi ilə başa çatdı. Ankara üzərinə yunanların yürüşü və TBMM-ni dağıtmaq planları boşa çıxdı. Bu hadisədən bəhs edən ingilis qəzetləri yazırdı: "Yunanlar üçün Anadoluda böyük macəraya atılmaq yerinə, Yunanıstana yaxın yerlərdə kiçik uğurlarla keçinmək daha uyğun olardı".[20]

Sentyabrın 19-da "TBMM baş komandan M.Kamalın Sakarya döyüşü haqqında hesabatını dinlədi və ona "qazi" titulunu verdi.

Sakarya meydan döyüşündən sonra cəbhədə uzun müddətli sakitlik yarandı. Bu fasilə zamanı hər iki tərəf cəbhə xəttindəki mövqelərini möhkəmlətməklə məşğul oldular. Bu hadisələr göstərdi ki, yaxın gələcəkdə yenidən güclü döyüşlər başlayacaq və Anadolu meydanlarında Antantanın hiyləgər siyasi oyunlarının qanlı nəticəsi özünü göstərəcəkdir.[21]

Sakarya qələbəsi TBMM hökumətinin beynəlxalq vəziyyətini əhəmiyyətli dərəcədə möhkəmləndirdi. Antanta

dövlətləri artıq Türkiyə milli-azadlıq hərəkatını real qüvvə kimi qəbul etmək məcburiyyətində qaldılar. Hələ bu hadisələrə qədər İngiltərənin Türkiyədə siyasətinə etibar etməyən Fransa və İtaliya bundan sonra Ankara hökuməti ilə razılaşmaq üçün yekun qərara gəldilər. Hələ iyunun 9-da Fransa hökuməti Ankara hökuməti ilə bir müqavilə imzalamaq üçün Fransa senatı xarici işlər komissiyasının sədri Henri Franklin-Buyonu Ankaraya göndərdi. F.Buyonun Ankara səfəri iki həftə davam etdi. O, M.Kamalla görüşdü. Həmin görüşdə M.Kamal bildirdi ki, keçmiş Osmanlı imperiyasından yeni bir türk dövləti yaranmışdır. Bu dövləti tanımaq lazımdır. Bu yeni Türkiyə hər bir müstəqil millət kimi öz hüququnu tanıdacaqdır. Sevr müqaviləsi türk milləti üçün o qədər ağırdır ki, onun bir dost ağzından çıxmamasını tələb edirik. Avropanın türk milli-azadlıq hərəkatından xəbəri olmamış olmaz. Amma Avropa bunu bilməyə bilər. Lakin illərlə tökülən qanın nədən töküldüyünü bilirlər..." F.Buyon Bəkir Sami bəyin bunlardan danışmadığını bildirdi.

Bu fikir mübadiləsindən sonra F.Buyon danışıqları davam etdirmək istəyi ilə indiki danışıqların kəsilməsini təklif etdi...

1921-ci ilin yayında fransız yazıçısı Klod Faryer İzmitdə M.Kamalla görüşdü. Qəzet və digər məlumatlara əsasən guya bu təsadüfü xarakter daşıyırdı. Amma bu təsadüfə bənzəmirdi və siyasi məna daşıyırdı. K.Faryerin şərəfinə iyunun 18-də İzmitdə ziyafət verildi. Orada M.Kamal böyük nitq söylədi.[22]

Bundan başqa əldə edilən məlumatlara görə Mersin limanında fransızlar türklərə çoxlu miqdarda silah vermişdilər.

Bütün bu hadisələr Fransa ilə Türkiyə arasında "separat" danışıqlar aparıldı, Anadoluya gələn fransız



"agentlərinin" sayı da artırdı və TBMM ilə Fransa arasında əlaqələrə getdikcə açıqlıq gəlsə də, bu danışıqlar hələlik gizli saxlanılırdı. Çünki fransızlar ehtiyat edirdilər. Həmin vaxt L.Corcun Puankare ilə keçirilən görüşüdə məhz bununla əlaqədar idi.

Həmin vaxt yaranmış vəziyyət də Fransanı Türkiyə məsələsində ehtiyatlı olmağa məcbur edirdi. Çünki Fransa hakim dairələrində belə düşünürdülər ki, "kiçik bir ehtiyatsızlıq Türkiyəni bizim düşmənlərimizin qucağına ata bilər. Ona görədə Fransa ilə Türkiyə münasibətlərinin yaxşılaşdığı bir zaman kiçik hadisələrə görə münasibətləri kəskinləşdirmək olmaz.[23]

Sakarya meydan döyüşündə türklərin əldə etdiyi tarixi qələbə bu danışıqların tezləşdirilməsinə və eyni zamanda dövlətlərarası münasibətlərə öz təsirini göstərdi. 1921-ci ilin oktyabrın 20-də Ankarada Fransa ilə Türkiyə arasında müharibə vəziyyətinin sona gəldiyini bildirən aşağıdakı müqavilə imzalandı:

Maddə 1. Razılığa gələn tərəflər bildirirlər ki, mövcud razılaşmanın imzalanması ilə onlar arasında müharibə vəziyyəti dayandırılır.

Maddə 3. Maksimum iki ay müddətinə səkkizinci maddədə göstərilən xəttdən türklər şimala, fransızlar isə cənuba çəkilirlər.

Maddə 6. TBMM hökuməti bəyan edir ki, azlıqların hüququ, Milli andda təntənəli surətdə elan edilmiş, onlar tərəfindən Antanta dövlətləri və onların rəqibləri arasında bu mövzuda konvensiyalar imzalanacağı formada təsdiq ediləcək.

Maddə 7. İskəndərun rayonu üçün xüsusi inzibati rejim müəyyənləşəcək. Bu rayonun türk millətinə aid əhalisi, öz mədəniyyətini inkişaf etdirmək üçün bütün imkanlarından

istifadə edəcək.

Maddə 8. /Sərhəd xətti: İskəndərun körfəzindən cənuba Payarsta, Meydan-Elbas, cənub-şərqə Çoban bəy stansiyasınadək xətt, Bağdad yolu, yolun özü Türkiyəyə qalır və Nisseybin -Cezire-ibn-Omar şossesi Dəğləyədək/.

Maddə 9. Osmanlı imperiyasının banisi, Sultan Osmanın babası Süleyman şahın qəbri, xidməti personalla Türkiyə mülkiyyətində qalır o burada gözətçi saxlaya bilər və orada türk bayrağı qaldıra bilər.

Maddə 10. Türkiyə ...Bozant və Nisseybin arasında Bağdad dəmir yolu sahəsində Fransa qrupuna konsessiya verir. Türkiyə dəmir yolu ilə Meydan-Ekbesdən Çoban-bəyədək Suriya rayonunda hərbi yüklər apara bilər. Suriya isə Çoban-bəydən Nisseybinədək Türkiyə ərazisi ilə hərbi yüklər apara bilər...[24]

Oktyabrın 20-də bu müqaviləyə əlavə olaraq Türkiyə xarici işlər naziri Yusuf Kamal bəy F.Buyona bir nota təqdim etdi. Həmin notada deyilir: "TBMM hökuməti Fransa kompaniyasına Xarşit vadisində dəmir-xrom və gümüş yataqlarını 99-il müddətinə icarəyə verir. Bundan başqa Türkiyə hökuməti Fransa qrupunun dağ mədən, dəmiryol və limanlarda konsessiya haqda müraciətinə müsbət münasibətlə baxmağa hazırdır. Digər tərəfdən, Türkiyə fransız professor-mütəxəssislərinin professional məktəblərdə əməkdaşlığından istifadə etmək istəyir.

Nəhayət, Türkiyə razılıq imzalanan andan, Fransa hökumətinin fransız kapitalının TBMM hökuməti ilə iqtisadi və maliyyə münasibətlərinə girməsinə etiraz etməyəcəyinə ümid edir.[25]

Ankara müqaviləsi Türkiyə üçün bir siyasi qələbə idi. Bu müqavilə ilə Türkiyə Şərq məsələsindən sonra Cənub məsələsini də həll etmiş və milli ərazilərin saxlanmasını



qismən gerçəkləndirmiş oldu. Başqa tərəfdən bu müqavilənin imzalanması Türkiyə məsələsinin həlli barəsində müttəfiqlər arasında fikir ayrılığına təhrik edən yeni bir səbəb oldu.

Franklin-Buyon müqaviləsinin İngiltərə üçün əlverişli olmadığı aydın idi. Bu müqavilə Londonda partlamış bomba əhvalı yaratdı. 1921-ci il noyabrın 5-də Kerzon Fransa hökumətinə verdiyi notada Fransa-Türkiyə müqaviləsini 4 sentyabr 1914-cü il tarixli separat sülh bağlamamaq haqqında müttəfiqlərarası müqavilənin, 26 aprel 1915-ci il tarixli qətnamənin, Sevr müqaviləsinin və eyni zamanda imzalanan Üçlü müqavilənin pozulması kimi qiymətləndirərək qəti etiraz etdi. Kerzon həmin notada göstərirdi: "Fransa Ankara hökumətini formal olaraq tanıdı, hansı ki, Antanta müharibə vəziyyətindədir. O, bunu müttəfiqlərlə razılaşmadan etmiş-dir. Bu müqaviləyə əsasən edilmiş sərhəd dəyişiklikləri Britaniya ordularının əldə etdiyi əraziləri Fransanın Türkiyəyə verməsi demək idi. Bu, eyni zamanda İngiltərə və İtaliyanın maraqlarına toxunurdu. Franklin-Buyon razılaşması Britaniya-nın Mesopotomiyada mövqeyinə böyük zərbə vurdu.[26]

Bundan başqa lord Kerzon əldə etdiyi məlumatlara əsaslanaraq göstərirdi ki, "Türkiyəyə fransız istiqrazları verilməsini və türkləri hərbi ləvazimatla təmin etməyi, Türkiyənin İzmir və Kilikiyaya iddiasına dəstək verilməsini anlaya bilmir... Ankara müqaviləsi separat müqavilədir. Ümid vardır ki, fransız hökuməti müttəfiqlərarası münasibətlərə toxunan maddələri buradan çıxaracaqdır".[27]

Kerzonun bu məktubuna fransız səfirliyinin üzvü de Montil 17 noyabr 1921-ci il tarixli cavab notasında göstərdi ki, "Üçlü müqavilə Fransanı Kilikiyada qalmağa məcbur etmir, hansı ki, Fransa iki yoldan birini seçməli idi: ya Kilikiyada ordu saxlamalı və müharibəni davam etdirməli;

ya da faktik hakimiyyətlə danışıqlara başlamalıdır. Bu vilayət də ordu ona tabedir. Bu razılaşma sülh müqaviləsi deyil, yalnız təmiz yerli işlərə dair razılaşmadı.[28]

Kerzon yeni nota ilə çıxış etdi. Fransa isə öz növbəsində İngiltərəni günahlandırdı ki, "İngiltərə Yaxın Şərqdə Fransa marağına zərbə vuran separat siyasət yürüdüb və Kerzon Ferid paşa ilə 1919-cu ilin sentyabrında gizli razılaşma imzalamışdır".[29]

Parisdəki ingilis səfirliyinin rəsmi təkzibinə baxmayaraq M.Baladye (Daladye) bunun həqiqət olduğunu təsdiq etdi. Çünki onun stolunun üstündə müqavilənin tam mətni var idi.[30] O, əlavə etdi ki, Britaniya hökuməti bu müqavilə imzalanandan sonra "xilafət ordusuna" yazılan hər bir türkə gündə bir funt sterlinq verirdi". Daladyenin bu informasiyanı türklərdən almasına və həqiqət olmasına şübhə yoxdur. Bu Britaniya hökumətinin Türkiyədə öz mövqeyini saxlaya bilməsində bic siyasəti idi. Amma kamalçıların üsyanı və mübarizliyi buna imkan vermədi.

Britaniya səfirliyi də öz növbəsində belə bir bəyanat verdi: "Son həftə fransız mətbuatında açıq şəkildə bildirilir ki, Ankara müqaviləsi Bəkir Sami bəylə Londonda imzalanan (1921. III) müqavilədən fərqlənir. Buna görə də ingilis səfirliyi müqavilədə müharibə vəziyyətinin dayandırılmasının öz əksini tapması faktlarını qeyd etməyi vacib hesab edir.[31]

Bundan başqa fransızlar ingilisləri günahlandırdılar ki, "əgər London müqaviləsi İngiltərə hökumətinin marağına ziddi idisə, onda niyə həmin vaxt etiraz etmirdilər". Buna cavab olaraq ingilislər qeyd etdilər ki, aprelin 19-da ingilis hökuməti rəsmi etiraz etmişdir, amma bu etirazların davam etdirilməməsinin səbəbi müqavilənin ratifikasiya edilməməsi olmuşdur.[32]



Fransa-türk razılaşması İtaliya hökumətində susmaqla müşayət edildi. O, İngiltərə mövqeyində durmadı. İtaliya hökuməti yaxın zamanlarda İtaliyada Türkiyə ilə belə bir razılaşmaya gedəcəyinə guman edirdi.

Noyabrın 7-də Londondakı fransız səfiri De-Sent-Oler Parisə gəldi. O, özü ilə Ankara müqaviləsinə ingilis mövqeyini əks etdirən sənəd gətirdi. Amma sənəd ingilis hökumətinin rəsmi müraciəti deyil, Kerzonun səfirə məktubu idi.[33]

Noyabrın 10-da isə ingilis mətbuatı "ingilis siyasi dairələrində İtaliya-Türkiyə danışıqlarının çox diqqətlə izlənildiyi barədə xəbər verirdi". İtaliya qəzetləri isə "Antaliya məsələsində tərəflər arasında mövcud olan fikir ayrılığında razılıq əldə edildiyi barədə xəbər verirdi". Həmçinin bir faktı da qeyd edək ki, hind tələbələr cəmiyyətinin sədri Şıx Qulam hind qəzetləri vasitəsi ilə cəmiyyətin ümumi iclasının qətnaməsini dərc etmişdi. Həmin qətnamədə imkanları daxilində türk qardaşlarına yardım etmək üçün bütün hind müsəlmanlarına müraciət edilirdi.

Bütün yuxarıda qeyd etdiyimiz hadisələr və yaranmış beynəlxalq vəziyyət İngiltərəni türklərə münasibətdə mövqeyini dəyişməyə məcbur edirdi. Noyabrın 23-də ingilis kabinetinin iclasında Yaxın Şərq məsələsi müzakirə olunan zaman "sülh əldə edilməsi xüsusi yer tutdu. Heç kim sülhə nail olmağın vacibliyinə şübhə etmədi və sülhün mütləq hər iki tərəfin razılığına əsasən olmasını qeyd etdilər".[34]

Fransanın İngiltərədən ayrılıqda türklərlə yaxınlaşması Fransanı Almaniya və Rusiya ilə separat razılaşma fikri ilə hədələməyə İngiltərəni məcbur etdi. L.Corcun bu bic və ağıllı siyasəti müəyyən dərəcədə öz təsirini göstərdi. Fransanın mövqeyində bir yumşalma hiss olundusa da

vəziyyət dəyişmədi. Digər tərəfdən, yunanlarda Fransa hökumətini türk ordusuna çoxlu sayda silah verməkdə günahlandırdı. Bu da guya türk ordularının vəziyyətini yaxşılaşdırmışdı.

İtaliya isə 1921-ci ilin aprelində Türkiyə ilə Kiçik Asiyadan ordularının çıxardılması haqqında danışıqlara başladı. İtaliya nə İzmiri, nə də hətta London konfransında Bəkir Sami bəyin razılaşdığı iqtisadi mənfəətləri almayacağına əmin olduqda, Anadoluda "boş xərclərdən" tamamilə qaçmaq fikrinə gəldi və 1921-ci ilin payızında Antaliyadan orduların çıxardılmasını başa çatdırıb Ankara ilə tam dostluq münasibətləri qurdu.[35]

Amma bu müsbət dəyişikliklərə baxmayaraq Türkiyənin vəziyyəti gərgin olaraq qalırdı. Çünki yunan orduları yeni hücumlara qadir olmadıqlarına baxmayaraq əhəmiyyətli strateji ərazilər olan Əskişəhri və Afon-Karahisarı nəzarətlərində saxlayırdılar. Sakarya döyüşündən dərhal sonra yunanlar bu təhlükəli avanturadan çıxmaq qərarına gəldilər. Çünki 1921-ci ilin sonu üçün ölkənin daxili vəziyyəti anarxiya xarakteri almaqda idi. Amma L.Corc buna imkan vermədi. 1921-ci ilin oktyabrında Qunaris Londona səfər edərək Kerzonla görüşdü. Hər ehtimala görə Qunaris Xarici İşlər Nazirliyində istədiyinə nail ola bilmədi. O, yalnız Kerzona Yunanıstanın ağır vəziyyətdə olduğunu və sülhün vacibliyini çatdırmağa nail oldu. Sülhdən qabaq Yunanıstanı müdafiə etməklə müharibəyə fəal müdaxilə etməyi xahiş etdi. İngiltərədə Qunarisə sülh məsələsində İngiltərənin birtərəfli fəaliyyət göstərə bilməyəcəyi və bitərəf qalacağı cavabını verdilər. Qunaris əvvəlki maksimum ümiddən imtina etməli oldu və yalnız vasitəçilik xahişi etməklə kifayətləndi. Şərq məsələsində İngiltərəni İzmirin yunanlara verilməsindən daha çox



boğazlarda hüquq əldə etmək və milli azlıqların hüquqlarını saxlamaq maraqlandırırdı. Beləliklə, yunan sülh şərtlərindən asılı olmayaraq L.Kerzonun boğazlar və milli azlıqların hüquqları məsələsində təkid edəcəyi görünürdü. Bu səbəbdən aydın olur ki, İngiltərə şərqdə sülh yaranmasında özünə azad fəaliyyət təmin etmək, özünü yunan iddialarından asılı vəziyyətə salmaq istəmir və əksinə Kerzon Qunarisin iddialarını yoxlayırdı.[36] Beləliklə, İngiltərənin mövqeyi Fransa ilə daha yaxınlaşırdı. Bu görüşdən sonra Kerzon öz vasitəçilik missiyasına başladı. Britaniya hökuməti yunan-türk müharibəsində öz bitərəfliyini elan edib türklərə yunanlarla yekun müqaviləsi imzalananadək yunanların tutduqları ərazilərin onlarda qalması şərtilə barışıq imzalamaq təklif etdi.[37] Cavab olaraq Ankara hökuməti bildirdi ki, "ilkin şərt kimi, barışıq imzalananadək işğalçılar Anadolunu təmizləsinlər". Bundan sonra razılaşma əldə edilmədi. L.Corc Konstantin və Qunarisi Kiçik Asiyanın maddi ehtiyatları ilə şirnikdirməkdə davam etdi. Konstantin isə öz növbəsində yunanların Anadoludan çıxmasına ölkədə onun nüfuzunun sonu kimi baxırdı. Onun fikrincə, Kiçik Asiyadan biabır olmadan çıxmağın yeganə yolu heç olmasa, İstanbulun əldə edilməsi ola bilərdi.

1922-ci ilin yanvarında Kannda müttəfiqlərarası növbəti konfrans keçirildi. Bu konfransda Kerzon ingilis hökuməti tərəfindən bəyənilmiş plan təqdim etdi. Həmin plana əsasən İzmir mütləq yunan ordularından təmizlənməli, Frakiyada Türkiyəyə ərazi güzəştləri edilməli idi. L.Corc isə hər vasitə ilə özünün Yaxın Şərq siyasətində Fransanın müdafiəsinə nail olmaq məqsədilə yenidən təminat paktı ideyasını ortaya atdı. Fransa Yaxın Şərqdə İngiltərə siyasətini müdafiə edir, İngiltərə isə öz növbəsində Avropada Fransanı müdafiə edirdi. Kanndan dönən kimi

Brian parlamentdə çıxış etdikdə ona çoxlu hücumlar oldu. Belə olduqda o, istefaya getməyi üstün tutdu. Brianın əvəzində Puankare hakimiyyətə gəldi və təminat paktı baş tutmadı. Puankare İngiltərə ilə münasibətlərin gərginləşməsi qarşısında dayanmayıb müstəqil xarici siyasət xətti götürdü.

Brianin istefası Şərq məsələsinə öz təsirini etdi. Bu məsələyə dair hələ 1921-ci ilin sonlarından çağrılması nəzərdə tutulan konfrans yenidən ləngidildi. Bu zaman Avropanın özündə siyasi xadimlər belə düşünürdülər ki, "Avropada sülh əldə etmək üçün yeganə yol Türkiyə ilə sülh müqaviləsi imzalamaqdır". Onlar misal olaraq Fransanı göstərirdilər. Verilən məlumata əsasən konfrans fevralın əvvəlinə nəzərdə tutulmuşdu. Fevralın 3-də Puankare Şərq məsələsinin bilicilərini yanına dəvət edib onlarla çox mühüm görüş keçirtdi. Görüşdə Veyqand, generallar Pelle, Quro, Veyqals və Parisə gəlmiş Osmanlı banklarının nümayəndələri iştirak edirdilər. Bu görüşdə şərqdə sülh yaratmaq yolları bütün incəklikləri ilə müzakirə olundu. Fransa hökuməti qarşıdakı konfransda aşağıdakı bəndləri müdafiə edəcəyini bildirdi: "1) Azlıqların hüquqlarının müdafiəsi; 2) İzmirdə yerli muxtariyyət məsələsinin ləğvi; 3) Ədirnənin türklər üçün müqəddəs yerlər olduğuna görə Türkiyəyə verilməsi; 4) Boğazlar ilkin formasını saxlayır, ticarət gəmiləri üçün açıq elan edilir".[38]

İngiltərə isə öz növbəsində müttəfiqlərinə "Şərq məsələsi"ni həll etmək üçün üç dövlətin deyil, bütün maraqlı tərəflərin iştirakı ilə konfrans çağrılmasını təklif etdi.

Fevralın 3-də İtaliya qəzetləri "xarici işlər naziri Della-Torettanın Sevr müqaviləsinə dəyişikliklər edilməsini əsasən qəbul etməsi barədə məlumat verdilər". Puankare ingilis hökumətinə son memorandumunda "şərqdə sülh



yaratmaq üçün növbəti tələbləri irəli sürdü: 1) İzmir daxil yunanlar tərəfindən zəbt edilmiş bütün ərazilərin azad edilməsi; 2) Ədirnənin Türkiyəyə verilməsi, bütün Frakiyanın azad edilməsi, Meriçin Türkiyənin təbii sərhəddi kimi qəbul edilməsi; 3) Qərbi Frakiyanın yunanlardan tamamilə təmizlənməsi. Bu ərazinin əhalisi müstəqillik əldə etməyi qazandıqlarına görə orada müstəqil dövlət qurulması.[39]

Konfransın son çağrılma müddəti fevralın 9-na təyin edilsə də, yenidən uzaldıldı. Əldə etdiyimiz məlumata əsasən konfransın təxirə salınmasının əsas səbəbini Bonemi hökumətinin istefasında gördülər. Amma əsas və başlıca səbəb Puankarenin bu son tələbləri oldu.

Konfrans ərəfəsində hər bir tərəf öz mənafeyi naminə diplomatik gedişlər və çıxışlar edirdi. Fevralın 8-də İtaliyanın London təmsilçiliyi İngilis hökumətinə memorandum təqdim etdi. Burada 1920-ci il müttəfiqlərarası imzalanan razılaşmanın tətbiqinin vacibliyi qeyd edilirdi.

L.Kerzon isə parlamentin son iclasında Şərq məsələsinə dair geniş bir çıxış etdi. O, ilk növbədə keçmiş Osmanlı imperiyasının ərazilərinə icmal verdi. Çıxışının sonunda o, qeyd etdi: "Anadoluda türk xalqının mövcudluğu qaçılmazdır və İstanbulun paytaxt kimi onlara verilməsi vacibdir. Türk xalqının öz milli mövcudluğunu göstərib yaşaya bilməsi vəziyyətini yaratmaq lazımdır". Boğazlar məsələsinə aid o, qeyd etdi: "Boğazlar məsələsi fövqəladə vacib məsələdir. Buna görə də şərqdə sülhün yaranması üçün boğazları açıq saxlamaq lazımdır".

Beynəlxalq vəziyyətin gərginləşməsi və İngiltərənin təcrid olunması L.Corca qarşı daxili müxalifətin fəallaşmasına səbəb oldu. 1922-ci il martın 4-də Hindistan işləri üzrə vitse-kral Ridinq yunan avantürasının dayandırılması və Türkiyə ilə sülh bağlanması tələbi ilə

memorandum tərtib etdi. Bu memorandumda aşağıdakı tələblər irəli sürüldü: 1) İstanbuldan müttəfiq ordularının çıxardılması; 2) Sultanın "müqəddəs yerlər" üzərində suverenliyinin saxlanması; 3) Ədirnə daxil olmaqla Frakiya və İzmirin Türkiyəyə qaytarılması. Ridinq bu memorandumu Hindistan işləri üzrə nazir Monteqyuya göndərdi. O, isə kabinetlə məsləhətləşmədən bunu mətbuatda dərc etdirdi.[40]

Ridinqin bu məktubu Hindistanda böyük həyəcan təbili vurdu. Britaniya hökuməti tərəfindən Yaxın Şərq məsələsinə aid hər hansı bir real cəhd edilməməsi düzgün olmayan şayiələr yayılmasına səbəb oldu. Bu şayiələrin tezliklə yayılması xilafət təbliğatında atəşin yanmasını sürətləndirdi.

Əhalisinin 70 mln nəfəri müsəlman olan hind hökuməti həmişə ingilis hökumətinə göstərirdi ki, "müsəlmanların fikri Türkiyə məsələsində mütləq nəzərə alınmalıdır".[41] Kerzonu Monteqyunun bu hərəkəti özündən çıxartdı. Bu hadisələr isə Paris konfransı ərəfəsində baş verirdi. Qarşıdakı konfransda isə Yaxın Şərq məsələsinin müzakirəsi nəzərdə tutulurdu. Çemberlenə məktubunda Kerzon yazırdı: "Baxın hansı vəziyyətdə qalmışam. Məhz konfrans ərəfəsində məni pis vəziyyətdə qoydular. Mənim əllərimi elə bir qətnamə ilə bağladılar ki, türklər özləri belə bir tələb irəli sürməyə cəsarət etmirlər".[42]

M.Kamal isə 1922-ci ildə son hərbi həmləsinə keçməzdən əvvəl qansız bir qələbə əldə etmək təşəbbüsündə oldu. Bu məqsədlə o, müttəfiqlərlə yeni əlaqə yaratmaq və mümkün olduğu halda milli müstəqillik əsaslarına uyğun olaraq bir barış saxlamaq üçün xarici işlər vəkili Yusuf Kamal bəyi fevral ayında Avropaya göndərmişdi. Yusuf Kamal bəy Romada, Londonda və Parisdə görüşlər keçirtdi. Nəhayət, uzun zamandan bəri gözlənilən Şərq məsələsinə



dair konfrans 1922-ci il martın 22-dən 26-dək Parisdə keçirildi. Həmin konfransda Puankare, Kerzon və Şantser iştirak edirdilər. Üçlərin Şərq məsələsinə dair bu konfransında özləri haqda üçüncü tərəf kimi danışaraq müttəfiq nazirləri belə bir qətnamə yaydılar ki, onlar döyüşən tərəflər kimi Türkiyə və Yunanıstan arasında heç bir tərəfə meyl etmədən ədalətli prinsiplər əsasında sülhü bərpa etmək istəyirlər.[43] Kerzon razılaşmaq üçün aşağıdakı şərtləri irədi sürdü: "1) müttəfiq zabitlərinin nəzarəti altında yunanların Anadoludan çıxması və İzmirin Türkiyəyə qaytarılması; 2) Türkiyədə və Yunanıstanda milli azlıqlar üçün yeni qaydalar hazırlanması; 3) Millətlər Cəmiyyətinin erməni məsələsinin həllinə cəlb olunması və şərqdə bir erməni dövləti qurulması; 4) Boğazların silahsızlaşdırılması və Avropa sahilində müttəfiq işğal zonasının saxlanması; 5) İstanbulun Türkiyəyə qaytarılması və Türkiyənin qərb sərhədlərinin Çatalci xəttindən Rodost xəttinə çəkilməsi; 6) Türkiyədə ümumi hərbi mükəlləfiyyətin ləğv edilməsi və türk ordusunun sayının 85 minə çatdırılması (Sevr müqaviləsində 50 min göstərilirdi); 7) Türkiyə üzərində maliyyə nəzarətinin qoyulması"...[44] Təslim olmaq məsələsində müttəfiqlər sülh müqaviləsi qüvvəyə mindiyi andan İstanbulda İngiltərə, Fransa, İtaliya, Yaponiya və Türkiyənin nümayəndələrinin daxil olduğu komissiya təsis edilməsini təklif edirdilər. Bu komissiya üzərinə işğal rejimini dəyişdirmək vəzifəsi qoyulurdu. Yeni şərtlərdə xaricilərlə türklərə bərabərlik verilməsi idi. İşğalın hüququ tərəfinə gəldikdə, müttəfiqlər komissiya təşkili məsələsində əvvəlki təkliflərini təkrar edirdilər. Bu komissiya işğal sistemini əvəz edən məhkəmə islahatları layihəsi hazırlamaq məqsədi güdürdü.[45]

Konfransda döyüşən tərəflərə barışıq haqqında

müraciət etdilər. Yunanlar Sakarya məğlubiyyətindən sonra türk orduları ilə yenidən döyüşdən çəkindiklərinə görə bu təklifi dərhal qəbul etdilər. Türklər isə prinsipcə sülh danışıqları aparmağa razılaşdılar. Eyni zamanda öz şərtlərini irəli sürdülər ki, 15 gün ərzində yunanlar Əskişəhr, Kütahya və Afon-Qarahisarı tərk etməli və bu ərazilər tezliklə Ankara hökumətinin birgə komissiyasına verilməli, İzmir daxil bütün Anadolu azad edilməli, barışıq imzalanandan dörd ay müddətinə, həmçinin əgər bu şərtlər müttəfiqləri və Yunanıstanı qane etsə, onda üç həftədən sonra Ankara sülh danışıqları üçün öz nümayəndəsini göndərməyə hazırdır. Həmçinin türklər qeyd etdilər ki, barışıq təcili olaraq həyata keçirilməlidir ki, London konfransı zamanı baş verənlər təkrarlanmasın. Amma Yunanıstan bu şərtləri qəbul etmədi.

Bundan başqa o, zamankı Türkiyə daxili işlər vəkili Fəthi bəy barış şərtləri haqqında bir görüş keçirmək üçün Paris və Londona göndərildi. Puankare Fəthi bəyi iki dəfə qəbul etdi. L.Corc və Kerzon isə bundan imtina etdilər. Bu arada Yunanıstan müttəfiqlərindən yardım almaq tələbi ilə yenidən çıxış etdi. Yunanlar 1922-ci il 29 iyulda müttəfiqlərə verdikləri bir nota ilə yunan ordularının İstanbula daxil olmasına icazə istədilər. Bunu onlar bir tərəfdən ölkədə öz nüfuzlarını saxlamaq, digər tərəfdən türkləri barışıq imzalamağa məcbur etmək üçün düşünmüşdülər. İstanbulun yunan işğalına verilməsi türklər üçün ağır bir mənəvi zərbə olardı. Amma gözlənildiyi kimi Yunanıstanın İstanbulu zəbt etmək iddiası Fransa və İtaliya tərəfindən qəti etirazla qarşılandı.

İstanbulda Fransa ali komissarı yunan irəliləməsinə silah gücünə də olsa, mane olmaq haqqında əmr verdi. Hətta L.Corc yunanların İstanbula buraxılmayacağını bəyan etdi. Bunun əvəzinə İzmirdəki İngiltərə komissarı bu bölgədə



muxtar İona dövləti qurulduğunu bəyan etdi. Bu isə İstanbulda olan Ankara hökuməti nümayəndəsi Hamit bəy tərəfindən etirazla qarşılandı.

Sakarya döyüşündən sonra müttəfiqlərlə barışıq yolu ilə razılaşmaq mümkün olmadığı aydın olduqdan sonra Türkiyə üçün milli müstəqilliyə nail olmağın yeganə yolu güc idi. Avqustun 26-sı səhəri türklər hücuma keçdilər. Axşama yunan cəbhəsi yarıldı. Avqustun 27-də Afon-Karahisar azad edildi. Avqustun 30-da Domlu-Pınarda sonuncu həlledici döyüş oldu. Bu döyüş türk tarixinə "baş komandanlar döyüşü" kimi daxil oldu. Yunanlar darmadağın edildi. İki gündən sonra Əskişəhr və Uşaka azad edildi. Sentyabrın 6-da türklər Milna xəttinə çıxdılar.

Sentyabrın 8-də türklər Manisanı, sentyabrın 9-da isə İzmiri tutdular. Beləliklə, M.Kamalın 1919-cu il 19 may tarixindən başlayan Anadolu yolçuluğu 1922-ci il sentyabrın 9-da müvəffəqiyyətlə başa çatdı. Bu zaman yunan hərbi hissələri bir təşkilati qüvvə kimi artıq yox idi. Lakin Afinada baş qərargah yalnız sentyabrın 20-də "yunan ordularının Kiçik Asiyada öz əməliyyatlarını başa çatdırdıqlarını bəyan etdi".[46] Türk ordularının Egey dənizinə çıxması ilə yunan-türk müharibəsi başa çatdı.

Gözlənildiyi kimi, bu hadisələr ingilis-fransız münasibətlərində yeni bir böhrana səbəb oldu. İngilislər açıq-aşkar şəkildə Fransanı türklərin bu qələblərinə səbəb olmaqda günahlandırdılar. Mətbuatda bu hadisələrlə bağlı müsahibə verən ABŞ-ın türkiyədəki keçmiş səfiri Morqentau göstərirdi ki, "türklər Yunanıstana ölümcül zərbə vurdular..."[47] "Deyli Teleqraf", "Tayms" və b. mətbuat orqanlarında məqalələr verilirdi ki, "boğazlarda başlayan manevrlərdə əsas məqsəd ingilislərin oradan qovulmasıdır".

Fransa mətbuatı ilk öncə sakitlik göstərsə də, tezliklə

fəallaşaraq İngiltərəni Fransanı özündən geri itələməkdə günahlandırdılar. Dərc olunmuş məqalələrdən birində yazılırdı: "1918-ci ilin payızından başlayaraq İngiltərənin Fransanı arxa plana atıb şərqdə imperiya mövqeyini möhkəmləndirmək üçün yürütdüyü siyasəti inkar etmək olmaz. Amma Britaniya hökuməti Şərqdə yeni qayda yaradacağını uyduraraq imperiya qüvvəsini həddən çox qiymətləndirdi.[48]

Türk ordularının qələbələri Antanta ölkələrində böyük sarsıntıya səbəb oldu. Müstəmləkə xalqları arasında öz nüfuzunun heçə endirilməsindən qorxan Antanta dövlətləri nəyin bahasına olursa-olsun İstanbuldan öz ordularının biabırcasına qovulmasına yol vermək istəmirdilər.

Sentyabrın 11-də müttəfiqlər Ankara hökumətinə nota göndərdilər. Həmin notada onlar "kamalçıların bitərəf zonaya daxil olmamasını və İstanbula hərəkətlərinin dayandırılmasını tələb edirdilər". İngilis ordularına yardım üçün Dardanel zonasına fransız və italyan əsgərləri gəldi. Bitərəf zonada müttəfiq bayrağı qaldırıldı. Sentyabrın 12-də Fransa ali komissarı general Pelle İzmirə gələrək M.Kamalla görüşməyə çalışdı. Amma general Pelleyə bildirildi ki, türk hökuməti heç bir bitərəf zona tanımır və türk ordularını Frakiyanı tam azad etməyincə dayandırmaq mümkün deyildir.

Sentyabrın 12-də L.Corc Fransa hökumətinə ultimativ formada bildirdi ki, "əgər fransanın rəsmi siyasəti boğazların azadlığına qarşı çıxış etsə, onda Antantanın sonu çatacaqdır. Fransa İngiltərə, yoxsa Türkiyə ilə dostluq arasında seçim aparmalıdır".

Sentyabrın 14-də Fransa hökuməti Londona məlumat verdi ki, "o, boğazların müdafiəsi məsələsində İngiltərə hökumətini müdafiə edir və İstanbulda Fransa ali komissarı



general Pelle və Fransa dəniz qüvvələri komandanı admiral Dyumenilyiyə bu haqda məlumat verəcəkdir. İtaliya hökuməti isə İngiltərəni güzəştə getməyə meyllləndirmək istədisə də, sonra öz mövqeyini dəyişdi. Çünki həmin vaxt İtaliya daxilində faşist hərəkatı yüksəliş dövrü keçirirdi və Romaya yürüş gözlənilirdi. Şərqi Frakiyanın Türkiyəyə verilməsinə etiraz edən Kiçik Antanta dövlətlərinin bəyanatı da İngiltərəni ümidləndirdi. Çünki bununla ümumi türk-bolqar sərhədləri bərpa edilirdi.[49]

Sentyabrın 15-də ingilis hökuməti bu böhranlı vəziyyəti müzakirə etdi və türklərin İstanbula və boğazlara daxil olmasına qədər onları silah gücünə sülh bağlamağa məcbur etməyin lazımlığı barədə qərar qəbul edildi. Türkiyədə başlana biləcək bu yeni müharibənin səbəbləri hökumətin sentyabrın 16-da "Yaxın Şərqdə vəziyyətə dair" verdiyi məlumatda öz əksini tapdı: "İstanbul və Dardanelə kamalçıların yaxınlaşması və Ankara hökumətinin irəli sürdüyü şərtlər Türkiyə üzərində indiyədək əldə etdiyimiz qələbələrə təhlükə yaradır. Avropanı Asiyadan ayıran və Aralıq dənizini Qara dənizlə birləşdirən boğazlar bütün dünyanın ilk növbədə isə İngiltərənin özünün marağı olan ərazidir. Britaniya hökuməti boğazlarda azad üzməyi çox əhəmiyyətli məsələ hesab edir... Qabiliyyətli türklərin Avropa qitəsində zühur olması Balkanlarda çox təhlükəli vəziyyət yaradacaq və bu əyalətlərdə çoxlu qan tökülməsinə səbəb olacaqdır...[50]

Amma son anda bu məlumat gözlənilən nəticəni vermədi və İngiltərə və müttəfiq ölkələrdə böyük həyacana səbəb oldu. İngilis mətbuatında yeni müharibəni dayandırmaq çağırışları dərc edildi. Hətta Kerzon bu məlumatları oxuyub onu "qızışdırıcı manifest"[51] adlandırdı.

Bu məlumat bütün dünyada əks reaksiyaya səbəb oldu.

Daha çox həyəcan Fransa hakim dairələrində baş verdi. Bütün nazirlər tərəfindən müdafiə olunan Puankare sentyabrın 18-də Londona "Şərq məsələsi ilə əlaqədar ingilis hökumətinin bu qədər ciddi təşəbbüsünə təəcüb etdiyi barədə məlumat verdi. Həqiqətən Fransa boğazlarda azad keçid müəyyənləşdirilməsi ilə tamamilə razıdır, amma bu məsələnin belə həllində Londonla fikir ayrılığı mövcuddur". Sentyabrın 18-də bütün Fransa və İtaliya hərbi hissələri Dardanel zonasını tərk etdilər. Fransa və İtaliya hərbi hissələrinin Dardaneli tərk etmələri burada İngiltərənin vəziyyətini pisləşdirdi. Sentyabrın 19-da ingilis işğalçı qüvvələrinin baş komandanı general Harinqton Dardanel zonası rəisi general Mardenə "türk qüvvələrinin hücumu olduqda ordunu geri çəkmək barədə sərəncam verdi".

Zahiri görüşündə bu hadisələr müttəfiqlər arasında, ilk növbədə isə İngiltərə və Fransa arasında münasibətlərin tamamilə pozulması demək idi. Amma mahiyyət etibarilə müttəfiqlərin fikirləri eyni idi. Sadəcə olaraq kamalçılar Türkiyəsinə təqdim edilmiş şərtlərin yerinə yetirilmə metodu məsələsində fikir ayrılığı mövcud idi. Fransada İngiltərənin bu cəhdini böhranın həllində təşəbbüsü ələ almaq və müttəfiq qüvvələrindən istifadə edib kamalçıları İngiltərə qarşısında təslim olmağa məcbur etmək kimi qiymətləndirdilər. Fransa hərbi köməyi olmadan ingilis uğurları havadan asılı idi.

Puankare öz manevrini etdi. Bu manevr düzgün seçilmişdi. Britaniya nüfuzu ciddi itkiyə məruz qaldı və Fransa təşəbbüsü İngiltərədən aldı. Amma bu böhranın həlli demək deyildi. İngilis hərbi təhlükəsinin yerinə fransız diplomatik metodları keçsə də müsbət nəticə vermədi.

Sentyabrın 18-də Kerzon Parisdə keçiriləcək xarici



işlər nazirlərinin müşavirəsinə yollandı. Müşavirə sentyabrın 20-də işə başladı. Kerzon İngiltərəni, Puankare Fransanı, Sfortsa İtaliyanı təmsil edirdi. İlk olaraq Kerzon Şərqi Frakiyanın taleyinin ingilisləri o qədər də maraqlandırmadığını bildirdi. Əsas odur ki, "sülh müqaviləsi imzalananacan kamalçılara boğazları və İstanbulu tutmağa imkan verilməsin, yoxsa sülh müqaviləsində boğazları beynəlxalq komissiyanın nəzarətinə vermək lazım gələcəkdir".[52] Puankare və Sfortsa bununla bir şərtlə razılaşdılar ki, türklərə münasibətdə qüvvə tətbiq edilməsin. Puankare bildirdi: "Əgər türklər təminat alsalar ki, Şərqi Frakiya haqqında onların tələbləri yerinə yetiriləcək, onda onlar müqavilə imzalananadək boğazlara iddia etməyəcəklər. Şərqi Frakiyanı Yunanıstana saxlamaq üçün risk etməyə dəyməz. Çünki onlar bu əraziləri saxlamağa qadir olmadıqlarını göstərdilər".

Sentyabrın 22-də Kerzonla Puankare arasında ciddi münaqişə oldu. Kerzon çox da müqavimət göstərmədi. Puankare fransız ordularının Çanakqalanı tərk edən zaman təhqir olmalarında general Harrinqtonu günahlandırdı. Kerzon isə qeyd etdi ki, "əgər Harrinqton tək qalmasaydı, onda müttəfiqlərin boğazlardan çəkilməsi problemi də yaranmazdı".

Sentyabrın 23-də nazirlər razılığa gəldilər. Fransanın Şərqi Frakiya və Türkiyəyə diplomatik təzyiqlər haqqında şərti və İngiltərənin kamalçıların bitərəf zonaya buraxılmaması və boğazlarda sonradan beynəlxalq nəzarət təşkil edilməsi Türkiyəyə veriləcək notaya daxil edildi. Həmin notada deyilirdi: "Üç müttəfiq hökumət TBMM-dən xahiş edir ki, məclisə bir nümayəndə göndərmək istəyini məlum etsin... Üç müttəfiq hökumət mövcud vəziyyətdən istifadə edərək, bəyan edir ki, onlar Türkiyənin

Maritsayadək Frakiyanı və Ədirnəni tutmalarına etiraz etmirlər. Sülh konfransı başa çatanadək türk ordularını bitərəf zonaya çıxarmamaq, əvəzində müttəfiqlər vəd verirlər ki, sülh müqaviləsi qüvvəyə mindikdən sonra İstanbulu türklərə qaytaracaqlar; Üç müttəfiq hökumətlər Türkiyənin Millətlər Cəmiyyətinə üzv olmasını müdafiə edəcəklər; Müttəfiq hökumətləri onların bu çağırışı eşidiləcək və sülhün bərpa edilməsi üçün onlar Türkiyə ilə əməkdaşlıq edəcəklərinə əmindilər". Eyni zamanda fransa hökuməti açıq şəkildə bəyan etdi ki, "Fransa türklərin boğazlarda hakimiyyətinin məhdudlaşması əvəzində Frakiyanı onlara verməyə razıdır. Əgər M.Kamal bu şərtə razı olmasa, onda Fransa İngiltərə tərəfə keçəcəkdir".

Türkiyə ilə sülh müqaviləsi imzalanacağı ortaya çıxdığı üçün sentyabrın 22-də MC-ti Ermənistan haqqında bir qətnamə qəbul etmişdi. Həmin qətnamədə Türkiyə ilə sülh müqaviləsi hazırlanan zaman erməni milli ocağının təşkil edilməsinin unudulmaması göstərilirdi.[53]

Müttəfiqlərin notası təcili olaraq Ankara və İzmirə göndərildi. Növbəti gün L.Corc icmalar palatasında müfəssəl bəyanatla çıxış etdi. O, aydın şəkildə bildirdi ki, "İngiltərə boğazlar haqqında öz tələblərini təkid edəcək, Şərqi Frakiya uğrunda isə döyüşməyəcəkdir".[54]

Göründüyü kimi, ingilis imperialistləri Türkiyə ilə açıq mübarizədən heç olmasa yaxın müddətə əl çəkməli oldular. Amma İngiltərənin Türkiyəyə işğalçı münasibətdən tamamilə imtina etdiyini düşünmək əlbəttə, səhv olardı. Paris konfransı başa çatandan dərhal sonra mətbuat nümayəndələri ilə müsahibəsində L.Corc qeyd etdi: "Biz yeni Britaniya Çəbəllütariq yaratmağa can atmırıq, amma boğazların həqiqi azadlığı üçün yalnız müqavilə maddələri kifayət deyildir".[55] Bu fikirdən çıxış edən Kerzon



Çanakkaladan çıxmaqdan imtina etdi.

Hərbi hədədən imtina edilməsi və Şərqi Frakiya məsələsində şərti də olsa güzəştə gedilməsi münaqişədə qüvvələr nisbətini Türkiyənin xeyrinə dəyişdi. Həmin gün Anadoludan çıxardılan yunan hərbi hissələrində baş verən qiyamın əks-sədası Yunanıstanda eşidildi. Kral Konstantin taxtdan salındı, baş nazir və beş başqa nazir hərbi tribunalın qərarı ilə edam edildi.

Ümumiyyətlə, artıq vaxt Türkiyənin xeyrinə işləyirdi. İngiltərənin özü belə artıq silah işlətməməyə məcbur olmuşdu.

Yaranmış vəziyyət türk hökumətinə nəinki yunanların Şərqi Frakiyadan, hətta müttəfiq qoşunlarının bütün türk ərazilərindən çıxardılmasını tələb etməyə imkan verirdi.

Amma bu andan sülh bağlamaq üçün ən yaxşı yol diplomatik danışıqlar idi. Bu məqsədlə də general Pelledən sonra sentyabrın 28-də Franklin Buyon İzmirə göndərildi. Franklin Buyon Fransa hökuməti tərəfindən qeyri-rəsmi göndərildiyini bildirdi. O, M.Kamala 23 sentyabr tarixli notada verilən şərtləri qəbul etməyi təklif etdi. Bundan başqa o, qarşıdakı sülh konfransında Fransanın 1921-ci il Ankara müqaviləsinə uyğun olaraq Türkiyəyə dəstək verəcəyini və onun Millətlər Cəmiyyətinə qəbul edilməsinə yardım edəcəyini bildirdi.

Sentyabrın 29-da tərəflər arasında razılaşma əldə edildi. Həmin gün M.Kamal Puankarenin adına göndərdiyi teleqramda göstərirdi: "Franklin Buyonun vədinə əsaslanaraq İstanbul və Çanakqala üzərinə hərbi əməliyyatların dayandırılması haqqında əmr vermişəm".

Barışıq imzalamaq üçün yer Mudaniya təklif olundu. Türkiyə tərəfindən səlahiyyətli nümayəndə İsmət paşa təyin edildi. Şərqi Frakiya məsələsində M.Kamal bu ərazinin

tezliklə Türkiyəyə qaytarılmasını tələb etdi.

Boğazlar və İstanbuldan işğalçı orduların çıxardılması isə hələlik sükutla keçdi.

M.Kamalın teleqramı Paris və Londonda bir az arxayınlıq yaratdı. Parisdə ona görə sakitlik yaratdı ki, M.Kamal ingilis generallarının hədə-qorxuları ilə deyil, məhz fransız emissarlarının taktikası nəticəsində güzəştə getdi. Londonda hakim dairələrin fikri isə başqa idi. İngiltərənin Yaxın Şərq siyasətinə son qoyulurdu. Bu tam və hətta biabırcasına iflas idi. Müdaxilə məğlubiyyətlə başa çatdı. Türkiyənin parçalanması, milli-azadlıq hərəkatının boğulması "Yaxın Şərq imperiyası" planının reallaşdırılması baş tutmadı. Bütün bunlar belə idi. Amma müharibənin son günlərindəki Çanak böhranı İngiltərə üçün əlverişli nöqteyə gəldi. Britaniya nüfuzuna zərbə vuruldu, amma Franklin-Buyonun missiyası İngiltərəyə çox da pis olmayan nəticələr verdi və perspektivlər açdı. İstanbul və boğazların müttəfiqlər tərəfindən işğalı saxlanılırdı. Məhz elə buna görə İngiltərə Avropanı müharibə həddinə gətirmiş Çanak böhranında İngiltərənin ikinci plana keçməsini də əlverişli hal kimi qiymətləndirirdi. Çünki bu əsasda bərpa edilmiş antitürk cəbhəsində İngiltərə Fransanın deyil, Fransa İngiltərənin müdafiəsinə can atacaqdı və Fransanı maraqlandıran məsələlərdə, yəni ki, işğal rejimi, Osmanlı borcları, xarici kapitalın imtiyazları məsələlərində Fransa Türkiyənin bir nömrəli düşməninə çevriləcəkdi.

Öz növbəsində M.Kamal Franklin Buyonla danışıqların nəticəsindən razı idi. Boğazlar məsələsində edilən güzəşti isə Türkiyə marağı üçün o qədər də təhlükəli hesab etmirdi. M.Kamalla Franklin-Buyon arasındakı İzmir razılaşması müharibənin sonunda yaranmış Çanak böhranına son qoydu.[56]



1922-ci il oktyabrın 3-də Mudaniyada barışıq imzalamaq üçün konfrans açıldı. Konfransda Türkiyədən Qərb cəbhəsinin komandiri İsmət paşa, ingilis generalı Harrinqton, fransız generalı Şarpi, italyan generalı Monbelli, həmçinin yunan generalı Mazaraki iştirak edirdilər.

Müqavilənin hazırlanmasında böyük mübahisə doğdu. İsmət paşa yunan ordularının Maritsa çayının sol sahilinə çəkilməsini tələb etdi. Amma general Mazaraki bununla razılaşmadı. Oktyabrın 5-də konfransın işi düyün nöqtəsinə düşdü. Müttəfiq generalları danışıqları dayandırmalı oldular. Növbəti gün türk hökuməti müttəfiq hökumətlərinə əgər Şərqi Frakiyadan yunan orduları çəkilməsə, Türkiyə sülh konfransında iştirak etməyəcəyini bildirdi. Belə olduqda Kerzon dərhal Parisə getdi. Parisdə aparılan danışıqlar sonunda müttəfiq dövlətləri xarici işlər nazirləri Türkiyənin tələbini qəbul etdilər. Bundan sonra görüşlər müəyyən vaxtlarda kəsildi və silahlı döyüşlər üçün zəmin yarandı. Oktyabrın 9-da konfrans işini bərpa etdi. Oktyabrın 10-da isə bütün məsələlərdə razılığa gəldilər. Oktyabrın 11-də aşağıdakı şərtlər əsasında Mudaniya barışıq müqaviləsi imzalandı:

1. Bu konvensiya qüvvəyə mindiyi gündən Türkiyə və Ellin dövlətləri arasında qərəzli əməliyyatlar dayandırılır.

2. Frakiyadan ellin ordularının çıxardılması üçün təklif olunan xətt, Maritsanın Egey dənizinə tökülən yerdən sol sahili, Maritsanın sol sahilincə Frakiya sərhədinin Bolqarıstanla kəsişdiyi yerədək müəyyənləşəcək.

3. Mümkün ola biləcək gərginləşmədən qaçmaq məqsədilə, Qaraağac da daxil olmaqla Maritsanın sağ sahili sülhün bağlanmasınadək müttəfiq birlikləri tərəfindən işğal ediləcək və müttəfiqlər tərəfindən müəyyənləşdiriləcək ərazilərdə yerləşdiriləcək.

4. Tərkibi üç müttəfiq dövlətlərdən hər biri bir nəfər və bir nəfər Ankara hökumətindən, bir nəfər Yunanıstan hökumətindən olmaq şərtilə dəmiryol xətti sahəsində azad hərəkət etməyi tamamilə təmin etmək, Andrianopol rayonuna gəlməyə imkan yaratmaq məqsədilə Maritsanın sağ sahili boyunca Svilenqraddan Kuleli-Burqasadək gedən dəmiryol xətti müşahidə mövqeyi olacaq.

5. Yunan orduları Şərqi Frakiyadan çıxardılacaq.

6. Jandarmeniyada daxil olmaqla ellin mülki hakimiyyəti Şərqi Frakiyadan mümkün qədər tezliklə çıxarılacaq. Mülki inzibati hakimiyyət müttəfiqlərin hakimiyyətinə veriləcək, sonra imkan daxilində həmin gün türk hakimiyyətinə veriləcək.

Bu təhvil-təslim maksimum 30 gün müddətinə həyata keçiriləcək.

7. Şərqi Frakiyada türk jandarmeriyası 8 minlə məhdudlaşır.

8. Yunan ordularının çıxarılması və mülki fraksiyaların təhvil verilməsi əməliyyatı müttəfiqlərarası nümayəndəliyin rəhbərliyi altında aparılacaq.

9. Göstərilən missiya və müttəfiq birlikləri Şərqi Frakiyanı tutacaq.

10. Adı çəkilən müttəfiq missiya və birliklərinin çıxardılması yunan ordularının çıxardılması başa çatandan 30 gün sonra həyata keçiriləcək. Göstərilən çıxardılma əməliyyatı daha tez müddətə ola bilər. Çünki müttəfiq orduları qəbul edir ki, qayda-qanun möhkəmlənməsi üçün lazımi tədbirlər görülür və əhalinin müdafiəsi üçün Ankara jandarmeriyası düzgün fəaliyyət göstərir.

11. Asiyada Ankara orduları növbəti xəttdə dayanırlar ki, sülh konfransının açılması və gedişi ərəfəsində keçmək qadağan edilir: Çanak rayonunda Dardanelin Asiya



sahilindən təxminən 15 km; İzmid yarımadasında Daricdən, Qara dənizdə Şileyədək, Daricdən Şiledək yolu müttəfiq və Ankara orduları birgə istifadə edə bilər. Baxmayaraq Müttəfiq hökuməti və Ankara hökuməti lazımi tədbirlər görürlər, istənilən hadisənin qarşısını almaq üçün öz ordularının sayını artırmamaq və aşağıdakı rayonlarda hərbi işlər həyata keçirməmək barədə öhdəlik götürürlər. Çanak rayonu, Dardanelldən 15 km məsafədə Buzburnu-Kamburnu xəttindən şərqə İzmid yarımadası; Bosfordan 40 km Dariç-Şil xəttindən şərqə.

Ankara hökuməti Buzburunu sahilləri arasından Qarabuğa da daxil olmaqla şimala 15 km ərazidə artilleriya yerləşdirməmək öhdəsinə götürür.

12. Müttəfiq orduları hal-hazırda dayandıqları ərazilərdə saxlanacaq. Ankara hökuməti sülh konfransınadək həmin ərazilərə hörmət edəcək: İstanbul yarımadası; Qara dənizdə Podimdən qərbə 7 km. məsafədə başlanan xəttdən Şərqdə yerləşən ərazilər. Qallipol yarımadası: Baklaburnu xəttindən cənuba bütün yarımada.

13. TBMM hökuməti sülh müqaviləsinin imzalanmasına və ratifikasiyasınadək Şərqi Frakiyada ordunun yerini dəyişməyəcəyini, yeni ordu toplamayacağını və hərbi qüvvələr saxlamayacağını öhdəsinə götürür. Mudaniyada imzalanan barışıq haqqında müqavilə faktik olaraq Türkiyə ilə Antanta arasında kompromis razılaşma idi. Bu razılaşma dörd il ərzində Türkiyədə gedən milli-azadlıq hərəkatının qələbəsinin müttəfiqlər tərəfindən qəbul edilməsi idi. Bu qələbənin əks-sədası özünü ilk növbədə İngiltərədə göstərdi. İngilis siyasətinin məğlubiyyəti həmçinin L.Corcun məğlubiyyəti idi. O, oktyabrın 19-da istefaya getdi.

1922-ci ilin oktyabrında TBMM hökuməti müttəfiqlərə göndərdiyi notada qarşıdakı sülh konfransının toplanma yeri

kimi İzmiri təklif etdi. Müttəfiqlər isə 27 oktyabr tarixli cavab notalarında konfransın Lozannada toplanmasını istədilər və konfransda Ankara hökuməti ilə bərabər İstanbul hökumətini də dəvət etdilər. İstanbul hökumətinin konfransa dəvət olunması Ankara hökumətində hiddətə səbəb oldu. TBMM hökuməti 1922-ci il noyabrın 1-də keçirdiyi toplantıda səltənətə son verilməsi haqqında M.Kamalın verdiyi izahatı dinlədikdən sonra Osmanlı səltənətini rəsmən ləğv etdi. Barış əlaqələri yarandıqdan sonra müttəfiqlərin İstanbul hökumətini konfransa dəvət etmələri Türkiyədə bir daxili qarşıdurma yaratmaq ümidi ilə izah edilirdi.

Səltənətin ləğvindən sonra Sultan hökuməti istefa verdi. Ankara hökuməti tərəfindən vətən xaini elan edilən Osmanlı səltənətinin son sultanı Vahidəddin 1922-ci il noyabrın 17-də bir ingilis hərbi gəmisi ilə İstanbulu tərk etdi. Artıq müttəfiqlərin əlində oyuncaq olan İstanbul hökuməti yox idi.

Beləliklə, 1918-ci ilin sonunda Osmanlı imperiyasını Mudros barışığını imzalamağa məcbur edən müttəfiqlər dörd illik mübarizədən sonra özləri ağır vəziyyətə düşdü. Silaha sarılıb, vətən naminə mübarizəyə qalxan türk xalqı öz mətanəti nəticəsində Antanta dövlətlərinin işğalçı siyasətlərini məhvə düçar etdi. Əgər Mudros barışığı imzalanan zaman şərtləri müttəfiqlər diqtə edirdilərsə, Mudaniya barışığı imzalananda şərtləri türklər diqtə edirdilər. Dörd illik mübarizədən sonra Antanta planlarının əksinə çağdaş bir Türkiyə Cümhuriyyəti qurmağa nail oldular.

[1] “Àñêåðè ìåúìóàíûí òàðèù êèñìè” åéëöë 1933, ñàéû 3, ñ.20.
[2] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 128. â.8.



[3] Йеня орада. â.2.
[4] “Òàðèù”, ú.IV, ñ.94; Вопрос о призванных к Греции. «Бюллетень НКИД РСФСР», 1921, №100, с. 35.
[5] Новый Восток, 1922, с. 140.
[6] “Åðãèð” ãÿçåòè, 18 ìàé 1921.
[7] “Times” ãÿçåòè, 9 èéóí 1921.
[8] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 68. â.29.
[9] Йеня орада.
[10] Йеня орада. â.30.
[11] Йеня орада.
[12] Йеня орада.
[13] Йеня орада. â.31.
[14] Миллер А.Ф. Очерки новейшей истории Турции, с. 115.
[15] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 68. â.32.
[16] Йеня орада. â.33.
[17] Йеня орада. â.32.
[18] Лемин И.М. Внешняя политика Великобритании, с. 329.
[19] Восточные проблемы и Румыния «Бюллетень НКИД РСФСР», 1921, №86 с. 31-32.
[20] “Times” ãÿçåòè, 14 ñåíòéàáð 1921.
[21] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 174 â.4.
[22] Йеня орада. èø 175 â.6.
[23] Йеня орада, â.7-8.
[24] Ключников Ю.В., Сабанин А.В. Международная политика новейшего времени в договорах, нотах и департаментах. Ч.III, с. 115
[25] Йеня орада.
[26] Иванов Л. Англо-французское соперничество 1919-1927 гг. М.-Л., 1928, с. 115.
[27] “Òàí” ãÿçåòè, 5 íîéàáð 1921.
[28] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 174, â.4.
[29] Йеня орада, â.5.
[30] Йеня орада, â.95.
[31] Йеня орада, â.96.
[32] “Times” ãÿçåòè, 12 íîéàáð 1921.
[33] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 230, â.108.

[34] Йеня орада, â.107.

[35] Турко-итальянское соглашение - «Бюллетень НКИД РСФСР», 1921, №23 с. 46-47.

[36] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 230, â.23.

[37] Йеня орада. èø 174, â.5.

[38] Йеня орада. èø 235, â.109.

[39] Йеня орада, â.130-131.

[40] “Times” ãÿçåòè, 9 ìàðò 1922.

[41] Ronaldshoy. Earl of, the Life of Lord Gurzon. London, 1928, cit., v.III, p.285.

[42] Трухановский В.Г. Внешняя политика Англии на первом этапе общего кризиса капитализма (1918-1939). с. 367.

[43] Новый Восток кн. 2, с. 144

[44] Лемин И.М. Göstərilən əsəri, с. 329; От Севрского договора к Парижскому соглашению - «Бюллетень НКИД РСФСР», 1922, №123 с. 30-31.

[45] Àçÿðáàéúàí Ðåñïóáëèêàñû Äþâëÿò Àðõèâè. ô.28, ñèé.1. èø 68, â.24.

[46] «Жизнь национальности» журнал, 1922, №10, с. 16; Áöéöê Òààððóç 70. Éûë Àðìàãàíû.Ýåíåëêóðìàé Áàøêàíëûüû éàéûíû. Àíêàðà, 1992, ñ.105-107.

[47] “Sunday Times” ãÿçåòè, 10 ñåíòéàáð 1922.

[48] “Journal des Debats”, 13 ñåíòéàáð 1922.

[49] Evans L. United States Policy and the Patition of Turkey. 1914-1924. Bailimore, 1965, p.378-379.

[50] Черчиль У. Мировой кризис, с. 292; Howard H.N. The Partitijn of Turkey. F Diplomatic History 1913-1923. Oklahoma, 1931, p.269.

[51] Kinross L. Ataturk, a Biography of Modern Turkey. N.Y., 1955, c.379.

[52] «Борьба классов» æóðíàëû, 1924, ¹2, ñ.72.

[53] Ключников Ю.В., Сабанин А.В. Эюстярилян ясяри. ъ. III, ñ.181.

[54] Миллер А.Ф. Чанакский кризис и вопрос о проливах. М., 1966, с. 19.

[55] “Times” ãÿçåòè, 23 ñåíòéàáð 1922.

[56] Spender J.A. Creat Britain. Empire and Commonwealth. London, 1936, p.632.



# IV FƏSİL

## LOZANNA SÜLH KONFRANSI

Mudaniya danışıqları aparılan zaman əldə edilmiş ümumi razılaşmaya əsasən sülh danışıqları üçün Lozannada bir konfrans çağrılması qərara alınmışdı.

Konfrans 1922-ci il noyabrın 13-nə təyin olunmuşdu. Lakin noyabrın 13-nə Müttəfiqlər arasında hələ qəti olaraq iş birliyi haqqında razılaşma əldə edilmədiyindən konfransın toplanması mümkün olmadı.

Noyabrın 14-də İngiltərə xarici işlər naziri Kerzon Fransa hökümətinə təklif etdi ki, “hərbi sanksiyalar qəbul edilənədək vahid cəbhədə çıxış etsinlər amma Fransanın Ankara razılaşmasından imtina etməsi şərti ilə...”[1] Bu zaman Puankare artıq Ruru işğal etmək qərarına gəldiyindən Kerzonun bu təklifinə etiraz etməkdən çəkindi... Parisdə və Tyerridə Kerzon, Puankare və Mussolini arasında aparılan danışıqlar nəticəsində noyabrın 18-də rəsmi olaraq bildirildi ki, Müttəfiqlər “Lozanna konfransında müzakirə olunacaq bütün məsələləri səmimi dostluq və tam bərabərlik hüququ əsasında həll etmək üçün ümumi fikrə gəliblər”. Həqiqətdə isə belə dostluq yox idi və Müttəfiqlərin bir-birinə zidd olan mənafelərini çətin “birləşdirmək” olardı. Onlar yalnız müvəqqəti olaraq razılığa gəlmişdilər. Fransa həm Yaxın Şərq məsələsində, həm də Avropa məsələsində öz mənafeyi naminə İngiltərə ilə razılığa gəlmişdi. Eyni zamanda İngiltərənində Fransa müdafiəsinə ehtiyacı var idi.

Lozanna konfransı Müttəfiqlərlə Türkiyə arasında sülh müqaviləsi hazırlamalı idi.

Bu konfrans yeni Türkiyə ilə Müttəfiqlər arasında maliyyə-iqtisadi, kapitulyasiya rejimi, Türkiyənin su və quru

sərhədlərinin müəyyənləşdirilməsi məsələlərini, həmçinin Müttəfiq dövlətlərin yeni Türkiyəni beynəlxalq hüququn subyekti kimi qəbul etmələrini həll etməli idi.

Konfransın əsas vəzifələrindən biri də Türkiyə üçün həyati əhəmiyyətə malik boğazlarda rejim haqqında konvensiya qəbul edilməsi idi. Bütün bu məsələlərin ədalətli həlli Yaxın Şərqdə uzunmüddətli sülhün yaranmasında əhəmiyyətə malik idi və Türkiyənin bölüşdürülməsi əsasında dövlətlərarası ziddiyyətlərin aradan qaldırılmasına təsirini göstərəcəkdi.

1922-ci il noyabrın 20-də Lozanna konfransının rəsmi açılışı oldu. Konfransın səlahiyyətli iştirakçıları, bir tərəfdən müttəfiqlər: İngiltərə – xarici işlər naziri Kerzon və İstanbulda ali komissar Rembold; Fransa – Romada səfir Barryer və diplomat Bomkar; İtaliya – İstanbulda ali komissar Harroni və diplomat Laqo; Yaponiya – İngiltərədə səfir Qanşi və diplomat Oçiax; Rumıniya – xarici işlər naziri Duka və diplomat Rakiç; Yunanıstan – keçmiş baş nazir Venizelos və diplomat Kaklamanos, digər tərəfdən Türkiyə – xarici işlər naziri İsmət paşa və TBMM – deputatları Riza Nuri bəy və Hasan bəy oldular.

ABŞ müşahidəçi kimi iştirak edirdi. “Türkiyənin təkidi və tələbi ilə boğazlar məsələsi müzakirə olunacaq deyə konfransa Sovet Rusiyası, Ukrayna və Gürcüstanda dəvət edilmişdi”.[2]

Kerzon təklif etdi ki, konfransın işini üç komissiyada aparmaq gərəkdir: **birinci** – ərazi, hərbi məsələlər və boğazlarda rejim məsələsi üzrə komissiya; **ikinci** – Türkiyədə kapitulyasiya rejimi üzrə komissiya; **üçüncü** – maliyyə və iqtisadi məsələlər üzrə komissiya.

Reqlamentin 3-cü maddəsinə əsasən komissiyalarda sədrlik müvafiq olaraq Kerzon, Harroni və Barryer arasında



bölüşdürüldü. İsmət Paşa bu qaydaya etiraz edərək təklif etdi ki, “Türkiyənin nümayəndələrinə də sədrlik etmək icazəsi verilsin”.[3]

Amma bu təklif qəbul edilmədi. Belə olduqda İsmət paşa heç olmasa yardımçı komissiyalara türk nümayəndələrinin sədrlik etmələrini təklif etdi və bu qəbul edildi.

Kerzon birinci komissiyanın sədri olduğundan təklif etdi ki, “əsas nümayəndələr bütün komissiyaların işində iştirak etməli olacaqlarından, komissiyaların eyni zamanda toplanması mümkün olmayacaqdır. Ona görə də “birinci komissiya işə başlamalı, konfrans isə bu müddət ərzində həmin komissiyanın qərarını gözləməli və bundan sonra digər komissiyalar işə başlamalıdır”.[4]

1922-ci il noyabrın 21-də konfrans Türkiyənin sərhədlərinin müəyyənləşdirilməsi məsələsinin müzakirəsinə başladı. Kerzonun təklifi ilə Türkiyənin Avropa sərhədləri və Frakiya məsələsi önə çəkildi. Uzun müddət Türkiyə, Yunanıstan və Bolqarıstan arasında Frakiya uğrunda davam edən mübarizə başlıca olaraq onun strateji əhəmiyyəti ilə əlaqədar idi və böyük dövlətlərlə Türkiyə və Balkan ölkələri arasında mübarizə mənbəyi olmuşdu.

Mudaniya barışığına əsasən Antanta Şərqi Frakiyanı Türkiyəyə qaytarmağı və müharibədən əvvəlki Avropa sərhədlərini müəyyən etməyə razılaşmışdılar. Məhz buna əsaslanaraq İsmət paşa noyabrın 22-də keçirilən iclasda tələb etdi ki, "Türkiyənin Avropa hissəsində Şərqi Frakiya üçün 1913-cü il sentyabrın 29-da İstanbulda Türkiyə ilə Bolqarıstan arasında bağlanan müqavilə ilə müəyyən edilən sərhədd bərpa edilsin, Ədirnə ilə birgə Qaraağac rayonu Türkiyəyə qaytarılsın. Qərbi Frakiyada isə rəy sorğusu keçirilsin və əhalinin fikri öyrənilsin". Türkiyənin bu tələbi digər nümayəndələr tərəfindən dəstəklənmədi və nəzərə alınmadı. Çünki, İngiltərə hər vasitə ilə çalışırdı ki, Türkiyənin Avropa ərazilərini mümkün qədər azaltsın və bütün Frakiyanı Yunanıstana versinlər. Bu isə mahiyyət etibarilə Yunanıstan ərazisinin bütövlüyü üçün idi, amma həqiqətdə İngiltərə Şərqi Frakiyada "möhkəmlənmək" istəyirdi. Bu məqsədlə o, yenidən Balkan ölkələrindən istifadə etməyə çalışırdı. Birinci olaraq Venizelos çıxış edərək bildirdi: "Yunanıstan yalnız 1915-ci il sərhədlərinə razı ola bilər.., ona görə də Qərbi Frakiya Lozannada qaldırıla bilməz". Yuqoslaviya və Rumıniya nümayəndələri Venizelosu müdafiə etdilər.

Frakiya Bolqarıstanın tranzit yolu vasitəsi ilə Egey dənizinə çıxması məsələsi ilə bağlı olduğundan noyabrın 22-də axşam iclasında Bolqarıstan nümayəndəsi Stanboliyski Neyi sülh müqaviləsi ilə Bolqarıstana vəd edilən iddia ilə çıxış etdi və bildirdi ki, "Qərbi Frakiyanın müxtariyyətinə etiraz edilsə Bolqarıstan Maritsa çayını Dədəağac dəmir yolu koridorunadək beynəlmilləşdirməyə də razı ola bilər".[5] Dədəağacın Bolqarıstana verilməsi məsələsində tərəflər arasında ciddi narazılıq baş verdi. Yunanlar Dədəağacın bolqarlara verilməsinə əsla razı olmurdular, türklər isə



Balkan dövlətlərinin birliyini pozmaq üçün bolqarların Egey dənizinə çıxmasına, Dədəağacın bitərəfləşdirilməsinə razı idilər. Bu müzakirələrin nəticəsi olaraq aşağıdakı məsələlərin həlli qarşıya çıxdı: 1) Şərqi Frakiyanın hüdudlarının müəyyənləşdirilməsi; 2) Qərbi Frakiyanın müqəddəratının həlli; 3) Bolqarıstan-Türkiyə sərhədlərinin silahzıslaşdırılması; 4) Bolqarıstanın Egey dənizinə çıxması məsələsi.

Bu məsələləri geniş və dəqiq müzakirə etmək üçün Kerzonun təklifi ilə noyabrın 23-də fransız generalı Veyqanın sədrliyi ilə bir yardımçı komissiya təşkil edildi və işə başladı.

Noyabrın 25-də birinci komissiyanın iclasında Müttəfiqlər və Balkan ölkələri adından Kerzon 23 sentyabr tarixli notada irəli sürülmüş məlum şərtləri yenidən türklərə təklif etdi. Əlavə olaraq Kerzon Ədirnədə dəmir yol stansiyası olan Qaraağacın türklərə qaytarılmasına etiraz etdi. O, bildirdi ki, "Müttəfiqlər Türkiyəyə təklif edilən sərhədlərə razıdırlar". İclasın sonunda türk nümayəndə heyəti cavab hazırlamaq üçün bir neçə gün vaxt istədi. Türkiyənin Avropa sərhədlərini təyin etmək, Frakiyanın sərhədlərini müəyyən etmək məsələləri türklərin Egey dənizindəki adalara olan iddiaları ilə bilavasitə bağlı idi. Bunlar: Lemnos, Xeos, Mitilen, Samos, Nekariya, Henedos, İmbros, Samofrakiya adalarından ibarət idi.

1922-ci il noyabrın 25-də keçirilən iclasda həmin adalar məsələsinə baxıldı. İclasın əvvəlində İsmət paşa Türkiyənin mövqeyini bildirdi: "əvvəla, İmbros, Tenedos (Bozcadağ) və Samofrakiya adaları boğazlara daxil olan yerdə olduğundan və bu adalar 1914-cü il fevralın 14-də Türkiyə ərazisi kimi dövlətlər tərəfindən qəbul edildiyindən bu adalar üzərində Türkiyənin suverenliyi təyin edilsin,

ikincisi, Lemnos, Xeos, Mitilen, Samos və Nekariya adalarına muxtariyyət verilsin və silahsızlaşdırılması təmin edilsin”.[6] Türkiyənin bu qanuni tələbi İngiltərə və Yunanıstan tərəfindən etirazla qarşılandı.

Venizelos həmin adalar haqqında Sevr müqaviləsinin müddəalarının (maddə 84-87) təmin olunmasını tələb etdi.

Kerzon Venizelosu müdafiə etdi və suverenlik məsələsinin siyasi problem olduğunu, 1913-cü il müqaviləsinə görə Egey adaları müqəddəratının böyük dövlətlərin öhdəsinə buraxıldığını göstərdi və müzakirəni dayandırmağı təklif etdi. Beləliklə, bu məsələ Kerzonun təzyiqi ilə həll edilmədi və sonraya qaldı.

Konfransın ilk günlərindən aydın olurdu ki, İngiltərə hakim mövqeyi öz üzərinə götürə bildi.

Kerzon noyabrın 25-də bütün günü İsmət paşa ilə separat danışıq apardı. Kerzon İsmət paşaya eyni zamanda sərhədlər və Mosuldakı neft konsessiyaları haqqında danışıqlar aparılmasını təklif etdi. Lakin İsmət paşa konsessiyalardan qabaq Kiçik Asiya sərhədlərinin təxminən də olsa müəyyənləşdirilməsini təkid etdi. İsmət Paşanı razı salmaq üçün Fransız Barryerdə onunla görüşmüş və Kerzonun təklifini təkrar etmişdi.[7]

Lakin burada əsas mətləb İsmət paşanın inad etməsində deyil, Amerikanın neft məsələsində iddia qaldırılmasında idi. ABŞ-ın Lozannada iştirakının əsas məqsədi Mosul neftinə iddia idi və burada ikitərəfli siyasət aparırdı. Bir tərəfdən ABŞ nəzərə alırdı ki, türk diplomatiyası onun köməyinə ümid edir və konsessiya haqqında onunla ayrıca saziş bağlamaq istəyir. Digər tərəfdən, isə ABŞ Mosul neftinin istismarında iştirak etmək hüququna malik olmaq üçün İngiltərənin ondan maliyyə asılılığına əsasən təzyiq göstərirdi.



Eyni zamanda Amerika nümayəndəsi Çayld türklərlə gizli danışıqlara başladı. Noyabrın 22-də Çayld türk nümayəndə heyətinin katibi Cəlaləddin bəylə apardığı gizli danışıq haqqında dövlət katibinə məlumat verirdi ki, “Türklər qəti olaraq bildirdilər ki, Türk hökuməti Mosul neftinin istismarından başqa dövlətlər kimi ABŞ-da iştirakını istəyir və bu haqda ayrıca ABŞ-la saziş bağlamağa hazırdılar. “Bundan sonra noyabrın 25-də Çayld ABŞ-ın Yaxın Şərq siyasətini rəsmi olaraq bəyan etdi: “İngiltərə, Fransa və İtaliya arasında bağlanan müqavilələrin məqsədi nüfuz dairələrini bölüşdürmək olmuşdur. Bu isə ABŞ-ın müdafiə etdiyi iqtisadi bərabərlik tələblərinə uyğun deyil. Bütün dövlətlər “açıq qapı” prinsipini qəbul etməlidirlər”.[8]

Çayldın bu bəyənatı Kerzon və İsmət paşa tərəfindən qəbul edildi. Kerzon hətta mətbuatda çıxış edib bildirdi ki, “Böyük Britaniya” Yaxın Şərqdə “açıq qapılar” siyasətinə razıdır və Çayldın bu haqda olan bəyanatı vaxtında verilmişdir”.[9]

Kerzonun bu bəyanatına baxmayaraq, ABŞ-ın tələbi İngiltərənin mənafeyinə uyğun deyildi. Çünki, İngiltərə artıq başa düşmüşdü ki, Amerikanın niyyəti, “əvvəla, Mosul neftinin istismarında iştirak etməyə nail olmaq, ikincisi, İngiltərə-Amerika danışıqları qənaətbəxş bitmədikdə, ingilisləri türklərlə razılığa gəlməyə imkan verməmək”.[10] Bu zaman artıq sovet nümayəndə heyəti də Lozannaya gəlmişdi və Kerzon boğazlarda rejim məsələsinin müzakirəsini uzada bilmədi. Mosul nefti haqqındakı danışıqlar konfrans kənarında, qeyri-rəsmi aparıldı və konfrans Qara dəniz Boğazları məsələsinin müzakirəsinə başladı.

**a) Qara dəniz boğazlarında rejim məsələsi.**

Ərazi komissiyasının boğazlara aid olan birinci iclası dekabrın 4-də açıldı.

Kerzonun təkidinə baxmayaraq, İsmət Paşa bu məsələdə Türkiyənin proqramını bildirməkdən imtina etdi və yalnız "Milli Andın" boğazlara aid olan bəndini oxumaqla kifayətləndi. İsmət paşa bu bəndi oxuyarkən, İstanbul və Mərmərə dənizinin təhlükəsizliyinin təmin edilməsi üzrə konkret tədbirlər haqqında Türkiyənin fikrini bilərəkdən şərh etmədi. Bundan sonra Sovet nümayəndə heyətinin başçısı Çiçerin çıxış edib sovet hökumətinin fikrini bəyan etdi. Bəyannamədə göstərilirdi ki, "sovet nümayəndə heyəti aşağıdakıları həyata keçirməyə çalışacaq:

1. Rusiyanın və onun müttəfiqlərinin başqa dövlətlərlə bərabər hüququnun qəbul edilməsi;

2. Rusiyanın və onunla müttəfiq olan Respublikaların ərazi təhlükəsizliyinin qorunması, onların başqa dövlətlərlə iqtisadi münasibətlərinin sərbəstliyinin qəbulu".[11]

Sovet nümayəndəsinin mövqeyi Sovet dövlətinin Qara dənizdəki mənafeyini qorumağı nəzərdə tuturdu.

Rumıniya nümayəndəsi Duka isə aşağıdakı tələbi irəli sürdü:

1. Boğazlardan bütün ticarət və hərbi gəmilərin qeydşərtsiz və məhdudiyyətsiz keçmələrinə icazə verilməsi.

2. Egey adalarından başlamış Qara dənizədək olan məsafədə boğazlar zonasının silahsızlaşdırılması;

3. Boğazlara nəzarət edəcək xüsusi beynəlxalq komissiyanın təşkil edilməsi.

Rumıniya nümayəndəsinin fikrini demək olar ki, Bolqarıstan nümayəndəsi də təkrar etdi.

Yunanıstanın boğazlar məsələsində ikinci dərəcəli mənafeyi var idi. Amma buna baxmayaraq Venizelos da boğazlardan ticarət gəmilərinin sərbəst keçməsinin təmin olunmasını istədi.

İsmət paşaya gəldikdə, o, susaraq boğazlar haqqında



türk proqramını izah etməkdən yan keçdi və yalnız Kerzonun sualına cavab verərkən qeyd etdi ki, "edilən bəyanatlar içərisində hələlik rus bəyannaməsi türk fikrinə daha yaxındır". İsmət paşanın bu fikri ilə qənaətlənməyən Kerzon təkrarən soruşdu: "Mən hansı nöqteyi-nəzərin türk mənafeyinə müvafiq olduğunu soruşmuram, mən soruşam ki, Rusiya ilə Türkiyənin boğazlar məsələsindəki görüşlərini eyni hesab etmək olarmı". Bu zaman İsmət paşa cavab verdi ki, "Boğazlar ölkəmizin ayrılmaz hissəsidir, ona görə də biz Müttəfiqlərin irəli sürəcəkləri hər bir təklifi nəzərdən keçirməliyik".[12]

İsmət paşanın bu bəyanatı Kerzon üçün çox əhəmiyyətli idi çünki, o burada türk nümayəndə heyətinin sovet proqramını "müdafiə" etməkdən geri çəkilməsini görürdü.

Bu iclasda Kerzon Çiçerinin təkidinə baxmayaraq Antantanın bu məsələdə proqramını bildirməkdən imtina etdi...

Dekabrın 5-də müttəfiqlərin ekspertləri boğazlarda rejim və bitərəf məntəqələr haqqında hazır layihəni yekdilliklə qəbul etdilər.

Dekabrın 6-da komissiya ikinci iclasa toplandı və Kerzon boğazlar haqqında müttəfiqlərin proqramını geniş izah etdi. O, dünya müharibəsindən sonra İngiltərənin Yaxın Şərqdə yürütdüyü siyasəti əsaslandırmağa cəhd etdi. İngiltərənin boğazlar məsələsində yürütdüyü siyasət müharibədən əvvəlki siyasətlə zidd idi. "Boğazlar üstündə İngiltərə ilə Rusiya arasında yüz ildən artıq mübarizə getmişdi və yalnız 1915-ci ildə İngiltərə bu məsələnin Rusiya üçün əlverişli həll olunmasına razı olmuşdu. Belə ki, "1915-ci il sazişinə görə Rusiyaya İstanbul, Bosforun, Mərmərə dənizinin və Dardanellin qərb sahili, Enos-Midiya xəttindən Cənubi Frakiya, Kiçik Asiyanın Bosfor – Sakariya çayı və

İzmid körfəzi aralarındakı sahillər, Mərmərə dənizi adaları, İmbros və Tenedos adaları vəd edilmişdi”.[13]

Çarizmin devrilməsindən sonra İngiltərənin siyasətində də dəyişiklik oldu və bu Kerzonun Antanta və ABŞ adından etdiyi çıxışının əsasını təşkil etdi. O, Balkan ölkələrinin dediklərini təsdiq edərək bildirdi ki, “Sovet hökuməti Qara dənizdə hegemonluğa nail olmaq və nəzarəti yalnız Türkiyənin öhdəsinə atmaq, başqa dövlətləri bu yerlərdən sıxışdırıb çıxarmaq, ümumiyyətlə Qara dənizi rus hövzəsinə çevirmək istəyir”.[14]

Sonra Kerzon boğazlar haqqında İngiltərənin planını açıqladı. Onun fikrincə “boğazlar məsələsinin ən məqsədəuyğun həlli ticarət gəmilərinə Türkiyənin özü bitərəf olduğu şəraitdə bayraq və yükündən asılı olmayaraq, heç bir rəsmiyyət güdmədən, vergi və sair rüsumlar alınmadan sülh və müharibə zamanı tamamilə sərbəst üzmək imkanı verməkdən ibarət olar. Türkiyə müharibə edən ölkə olduğu təqdirdə bu sərbəstlik yalnız boğazlardan keçirilən qaçaq mal və sairə üzərində onun nəzarət etməsi hüququ ilə məhdudlaşdırılır”. Hərbi gəmilərə gəlincə, “hərbi gəmilər sülh zamanı bayraqlarından asılı olmayaraq boğazlardan sərbəst keçmək hüququna malik olurlar, bu gəmilərin yalnız miqdarı və Türkiyə limanlarında dayanma müddəti məhdudlaşdırıla bilər. Müharibə zamanı Türkiyənin bitərəf olduğu şəraitdə hərbi gəmilər üçün həmin qayda öz gücündə qalır, lakin müharibə edən ölkələrin hərbi gəmiləri yalnız boğazlar məntəqəsində düşmən əməliyyatı apara bilməz, boğazlardan keçmək üçün 24 saatdan artıq qala bilməzlər. Türkiyənin özü müharibə edən ölkə olduqda, birətəf ölkələrin hərbi gəmiləri üçün boğazlardan sərbəst keçmək hüququ hər halda saxlanılır”.[15]

Nəhayət, Kerzon boğazlar məntəqəsini və onlara yaxın



olar adaları hərbisizləşdirmək təklifi üzərində təkidlə dayandı. O, bu haqda edilən təkliflər üzərində dayanaraq bildirdi ki, “hərbisizləşdirilmiş məntəqədə heç bir istehkam, daimi top qurğuları və dəniz bazaları olmamalıdır. Hərbisizləşdirilmiş məntəqələrə nəzarəti həyata keçirmək üçün İngiltərə, Fransa, Yaponiya, İtaliya, Rusiya, ABŞ, Türkiyə, Yunanıstan, Rumıniya, Yuqoslaviya və Bolqarıstan hökumət nümayəndələrindən ibarət və Türkiyənin sədrliyi ilə xüsusi bir beynəlxalq komissiya yaradılsın”.

Kerzonun bu fikrini digər Antanta dövlətlərinin nümayəndələri də “dənizlərdə yüksək azadlıq ideyalarının başlanğıcı kimi “qiymətləndirib, onunla həmrəy olduqlarını bildirdilər.

İsmət paşa isə bu dəfə də Türkiyənin münasibətini söyləməkdən imtina etdi və göstərdi ki, müttəfiqlərin layihəsini türk nümayəndəliyi hələ öyrənməlidir.

Çiçerin isə qeyd etdi ki, “Neyyidə Antanta Bolqarıstanı tərksilah etdi və onu öz təhlükəsizliyini qorumaq hüququndan məhrum etdi. Burada isə Kerzon Qara dənizin ingilis gəmilərinə açıq olması ilə Bolqarıstanın təhlükəsizliyi qayğısına qalır... Antantanın bütün siyasətinin sülhə deyil, Sovet Respublikalarına qarşı yönəldilməsi aydın deyilmi”...[16]

Müttəfiqlərin boğazlar haqqında lahiyəsi birinci komissiyasının dekabrın 6-da keçirilən iclasında elan olundu. Bu layihə əsasən Kerzonun qeyd etdiyimiz məlum şərtlərini təkrar edirdi və mahiyyət etibarilə aşağıdakından ibarət idi:

1. Boğazların sərbəstliyi haqqında. 2. Boğazlar məntəqəsinin hərbisizləşdirilməsi və beynəlxalq nəzarət komissiyasının yaradılması haqqında.[17]

Konfransda artıq müttəfiqlərin və Sovet hökumətinin mövqeyi tamamilə aydın idi. Yalnız Türkiyənin mövqeyi

qaranlıq qalırdı. Nəhayət, dekabrın 8-də keçirilən iclasda İsmət paşa bu məsələ haqqında Türkiyənin mövqeyini açıqladı: "Türk nümayəndə heyəti boğazların, İstanbulun və Mərmərə dənizinin qurudan və sudan ola biləcək hücumlardan qorunmasının daimi təminatı, Qara dənizə göndərilən hərbi dəniz qüvvələrinin məhdudlaşdırılması, Qara dənizdə heç bir dövlətin hərbi gəmilər saxlamaması, ticarət gəmilərinin sərbəst üzməsinin təminini istədi"...

Türk nümayəndə heyətinin mövqeyi aydın olduqdan sonra Müttəfiqlərin layihəsinin təfərrüatı ilə müzakirəsi İsmət paşanın razılığı ilə Müttəfiq dövlətlərin və Türkiyənin ekspertlərinə verildi.

1922-ci il dekabrın 18-də birinci komissiyanın iclasında ekspertlərin hazırladıqları "Boğazlarda rejim haqqında konvensiya" layihəsinə baxıldı. Bu konvensiya layihəsi əsasən hazır idi və Türkiyə prinsip etibarilə bunu qəbul edirdi. Lakin konvensiyanın qəti olaraq qəbul edilməsini hər vasitə ilə ləngidirdilər. Burada isə əsas səbəb konfrans qarşısında duran başqa mühüm məsələlərin hələ həll edilməməsi idi və boğazlar məsələsi başqa məsələlərin nizama salınmasında xüsusi təsirə malik idi.

**b) Kapitulyasiya rejimi.**

Kapitulyasiya rejiminin Türkiyədə ləğv edilməsi M.Kamal Türkiyəsi qarşısında duran ən vacib məsələlərdən biri idi. Baxmayaraq ki, bu rejim müharibə illərində felən ləğv edilmişdi, amma türklər bunu rəsmiləşdirmək istəyirdilər. Bu məsələ konfrans qarşısında çox kəskin olaraq dururdu. Başqa məsələlər Türkiyənin istiqlaliyyəti baxımından mühüm əhəmiyyətə malik olmasına baxmayaraq ikinci plana keçmişdi.

Lozanna konfransında bu məsələ Türkiyədə xaricilərin rejim məsələsinə baxan komissiyanın vəzifəsinə daxil idi.



Bu komissiyaya İtaliya nümayəndə heyətinin başçısı M.Harroni başçılıq edirdi. Bu məsələ haqqında ikinci komissiya ilk dəfə olaraq 1922-ci il dekabrın 2-də iclas keçirdi.

İclası açaraq Harroni bildirdi ki, "Etiraf etmək lazımdır ki, kapitulyasiya rejimi öz təbiəti etibarilə müstəqil dövlətin suveren hüquqlarının azalmasına doğru aparan bir hadisə kimi nəzərdən keçirilməlidir. Lakin, əgər biz bu məsələdə TBMM-nin istəyi ilə həmrəy oluruqsa digər tərəfdən etiraf etməliyik ki, xaricilərin Türkiyədə böyük müəssisələri və mühüm iqtisadi mənafeləri vardır. Buna görə də əsrlərlə onların əldə etdiyi hüquqları istər-istəməz gələcəkdə saxlamaq gərəkdir. Kapitulyasiya rejiminin qanun təminatı və inzibati-hüquq idarələri ilə əvəz etmək lazımdır".[18]

Türkiyə nümayəndə heyətinin başçısı məsələnin bu cür qoyuluşunun hansı nəticəni verəcəyini başa düşdü və Harroniyə belə cavab verdi: "Əlbəttə, kapitulyasiya türk millətinin istiqlaliyyəti ilə bir araya sığmaz. Komissiya sədrinin bu prinsipial təsdiqi olduqca mühümdür. Türkiyə bütün mədəni dövlətlərlə yanaşı olaraq yer tutmaq üçün hüquqi sahədə, habelə ictimai həyatın bütün sahələrində yetkinləşmiş bir dövlətdir. Buna görədir ki, biz kapitulyasiyanın yalnız qabıqlarını atıb onun bütün məzmununu saxlayan şərtlərin Türkiyə xalqına zorla qəbul etdirilməsinə qəti etiraz edəcəyik..."

Türkiyədə daha çox maliyyə vəsaiti olan Fransanı bu məsələ hamıdan çox maraqlandırdığından Barryer kapitulyasiya rejimi haqqında Fransa hökumətinin mövqeyini belə izah etdi: "Bir halda ki, kapitulyasiya rejiminin ləğvindən danışırlar, demək o, bu gün mövcuddur və konfransın vəzifəsi ondan ibarətdirki, rejim maddəsini ləğv edərək, müasir tələblərə müvafiq gələn yeni rejim

müəyyən etsin. Həm də bu rejim xariciləri təmin etməli və onlara müəyyən təminatlar verməlidir".

İngilis diplomatiyası bu zaman gözləmə mövqeyi tuturdu. Bunda da məqsəd boğazlar və Mosul məsələsinin əlverişli həll edilməsi üçün türklərdən "razılıq" almaq idi. Bundan sonra Kerzonun özünün də sıx bağlı olduğu sənayeçilər üçün xüsusi rejim saxlamaqdan ötrü təminat almağı nəzərdə tuturdular.

Yaponiya nümayəndəsi Qayaşi müttəfiqlərini müdafiə edərək bildirdi ki, "onun ölkəsi də bir zaman kapitulyasiyanın acı nəticələrini hiss etmişdir. Yaponiya hüquqi cəhətdən normal ölkə olmaq üçün 20 il vaxt sərf etməli oldu. Kapitulyasiyadan azad rejimə sıçrayış etmək olmaz. Keçid dövrü üçün hüquqi normaların müəyyən edilməsi lazımdır".[19]

Müttəfiqlər özlərini elə göstərirdilər ki, guya onlar TBMM-nin arzularına güzəştə gedirlər. Amma həqiqətdə həmin dövlətlər Türkiyəyə başqa şərtləri zorla qəbul etdirib onların vasitəsilə ölkədə məskun olan xarici vətəndaşların hüquqlarını qorumağa çalışırdılar. Türklər başa düşürdülər ki, yeni şərtləri qəbul etməklə Türkiyənin başqa bir formada həmişəlik olaraq əsarətə düşməsini təsdiq edirlər.

Komissiyanın elə birinci iclasında müttəfiqlərin bütün çıxışlarına cavab olaraq Türkiyə nümayəndə heyəti kapitulyasiya rejimini ləğv etmək tələbini öz memorandumunda əsaslanırdı.

Memorandumda bu məsələyə dair Türkiyənin proqramı belə şərh edilirdi:

1. Türkiyə yeni kapitulyasiya rejiminin müəyyən olunmasına razı olmayacaq. Avropanın heç bir ölkəsində, hətta Yunanıstanda və başqa Balkan ölkələrində də belə rejim yoxdur.



2. Türkiyə öz ölkəsində kapitulyasiya rejimindən fərqlənən yeni bir rejim müəyyən edə bilməz.

3. TBMM başqa dövlətlərlə beynəlxalq hüquq prinsipləri əsasında məskunluq və məhkəmə səlahiyyəti məsələlərinə dair bərabər hüquqlu ticarət müqavilələri və konvensiyalar bağlamağa hazırdır.

Türkiyənin bu tələbi müttəfiqlər tərəfindən birgə müqavimətə rast gəldi və İngiltərə və Fransa hakim dairələrində guman edirdilər ki, türklər öz tələblərindən imtina etməyəcəklərinə görə ola bilsin konfrans nəticəsiz başa çatsın.

İngiltərə və Fransa hökumətinin narahatlığının səbəbi tamamilə aydın idi, çünki onlar Türkiyəyə xeyli kapital qoyduqlarına görə türklərin tələbini qəbul edə bilmirdilər.

Müttəfiqlər ümumi iclasda məsələnin rəsmi həll edilməsinə nail olmadıqda bu məsələni bütün təfərrüatı ilə yardımçı komissiyada müzakirə etməyi təklif etdilər:

1. Xaricilərin hüquqi məsələsinə baxan yardımçı komissiya;

2. Xaricilərin iqtisadi vəziyyəti məsələsinə baxan yardımçı komissiya;

3. Azlıqda qalan millətlər və tarixi abidələr üzrə yardımçı komissiya.

Birinci yardımçı komissiyasının işi daha vacib idi və bu komissiyanın iclaslarına ingilis Rembold sədrlik edirdi.

Bu komissiya kapitulyasiya rejimi haqqında müttəfiqlərin verdikləri layihəni müzakirə etməli idi. Həmin layihə dekabrın 5-də mətbuatda dərc edildi və Türkiyə nümayəndə heyətinə təqdim olundu. Komissiyanın iclasında kəskin ixtilaflar başladı. Bunlar türklərlə fransız nümayəndələri arasındakı barışmaz nöqteyi-nəzərdən doğurdu, çünki layihəni fransız ekspertləri hazırlamışdı.

Yardımçı komissiyada iştirak edən dövlətlərdən hər biri o zaman Türkiyə ərazisində yaşayan xaricilər üçün Türkiyədən təminat tələb edirdi.

Türkiyədə xaricilərin hüquqi statusu çox canlı mübahisələrə səbəb olan bir məsələ idi və bu məsələyə altı iclas sərf edildi. Türkiyədə xaricilərin mənzil toxunulmazlığı məsələsində türklər xariciləri də Türkiyədə mövcud olan qayda-qanuna tabe etdirmək üzərində təkid edirdilər. Müttəfiqlərin ekspertləri isə təklif edirdilər ki, "Türkiyə polisinin müvafiq dövlətlərin nümayəndə heyətlərindən agent və ya tərcüman olmadan xaricilər barəsində heç bir tədbir görməyə ixtiyarı olmamalıdır". Kapitulyasiya məhkəmələrinin ləğv edilməsi barəsində müttəfiqlərin ekspertləri belə bir kompromis təklif etdilər ki, "müttəfiqlərin hakimləri və ya bitərəf hakimlər hər dəfə xarici təbəələrin mənafelərinə toxunduqda Türkiyə məhkəmələrinin tərkibinə daxil edilsinlər". Türklər Ankaradan təlimat almaq lazım gəldiyinə istinad edərək hər iki təklifi rədd etdilər. Bu ixtilaflar dekabrın 20-də keçirilən iclasın boşa çıxması ilə başa çatdı. Müttəfiqlər xaricilər üçün xüsusi hüquqi rejim yaradılmasında təkid edərək bildirdilər ki, "belə bir rejim olmadan Türkiyə ilə ticarət etmək mümkün olmayacaq". Türkiyə nümayəndəsi isə göstərdi ki, "Türkiyənin hüquq qaydaları xaricilər üçün də əlverişlidir və həmin qaydaları hər hansı bir Avropa sistemi ilə müqayisə etmək olar". Türklər hüquqi məsələlərə əl atılmasına qarşı qəti surətdə etiraz edərək, bunu Türkiyənin daxili işlərinə qarışmaq kimi qiymətləndirdilər. Türkiyədə xarici hüquqi şəxslərə vergi qoyulması məsələsinə gəldikdə isə dekabrın 22-dəki iclasda bu məsələdə razılıq əldə edildi. Müttəfiqlər xarici hüquqi şəxslərin verdikləri vergi barəsində imtiyazlı rejim qoyulması tələbindən əl çəkdilər. Türklər xaricilərə



Türkiyənin öz hüquqi şəxslərindən artıq vergi qoymamağa razı oldular.

Beləliklə, kapitulyasiya rejiminə aid olan bütün əsas məsələlərdə türklər öz nöqteyi-nəzərləri üzərində israr edərək müttəfiqlərin tələblərini rədd etdilər. Altı dəfə səmərəsiz iclas keçirdikdən sonra hüquq işlərinə baxan yardımçı komissiya heç bir razılaşdırılmış qərar qəbul edə bilmədi. 1922-ci il dekabrın 22-də kapitulyasiya məsələsinə dair komissiyanın ikinci ümumi iclası işə başladı.

İtaliya nümayəndəsi Harroni türklərin diqqətini belə bir vəziyyətə cəlb etdi ki, "müttəfiqlər hələ birinci iclasda Türkiyədə qüvvədə olan kapitulyasiya rejiminin fəaliyyətinin dayandırılması məsələsinə Türkiyənin arzularını təmin etməyə razı olduqlarını bildirmişdilər. Müttəfiqlər razı olurdular ki, indi mövcud olan kapitulyasiya rejimindən fərqli olaraq xarici təbəələrdən də eynilə Türkiyə vətəndaşlarından alınan ümumi vergilər alınsın. Xaricilər və xarici cəmiyyətlər Türkiyə hüquq qaydalarına tabe edilsin. Türkiyədə yaşayan xaricilər arasında olan bütün münaqişələri Türkiyə məhkəmələri araşdırmağa səlahiyyətli sayılsın.

Bu məhkəmələrin səlahiyyətlərindən yalnız şəxsi işlər, nigah və s. çıxarılırdı. Müttəfiqlərin fikrincə tribunallar beynəlxalq Haaqa tribunalının tövsiyə etdiyi Avropa vəkillərindən təşkil edilməlidir. Hakimlər isə Türkiyə hökuməti tərəfindən təyin edilməlidir. Məhkəmələr hələ də müsəlman dini qanunları məcəlləsi olan şəriətin təsiri altındadır. Nə qədər ki, məhkəmələr tamamilə dünyəvi və müstəqil olmamışlar, Türkiyə tribunallarının tərkibində Avropa hakimləri olmalıdır. Buna görə də keçici tədbirlərin görülməsi lazımdır.[20]

Beləliklə, müttəfiqlər iki nəticəyə gəldilər:

1. Köhnə kapitulyasiya rejimi Türkiyə üçün o qədər dözülməz və ağırdır ki, onu yeni və müasir bir rejim ilə əvəz etmək zərurəti artıq yetişmişdir.

2. Yeni rejim Türkiyənin istiqlaliyyətini formal surətdə saxlamaqla xaricilərin həm şəxsiyyətinin, həm də əmlakının toxunulmazlığına müəyyən təminat verməlidir.

Müttəfiqlərin özlərinin kapitulyasiya rejimini dözülməz hesab etmələri Türkiyənin əldə etdiyi böyük müvəffəqiyyət idi. İsmət paşa göstərirdi ki, "Türkiyədən kapitulyasiya əvəzinə xüsusi təminatlar istəyirlər. Lakin bu təminat artıq Türkiyə qanunçuluğunda verilmişdir. Keçid dövrü müəyyən edilməsi tələblərinə gəldikdə isə belə bir tələbin Türkiyə üçün qətiyyən əlverişli olmadığını birdəfəlik qəbul etmək lazımdır. Çünki bu tələbin şərtləri kapitulyasiya rejimindən daha pisdir...

Bu iclasda İngiltərə, Fransa, Yaponiya və Amerika nümayəndələri çox kəskin çıxış etdilər. Hamısı müxtəlif bəhanələrlə sübut etməyə çalışırdılar ki, yeni kapitulyasiya rejimi zəruridir.

Kerzonun çıxışı daha xarakterik idi. O, Türkiyəyə təzyiq göstərərək heç olmasa on il müddətinə müvəqqəti keçid rejimi təsis edilməsinə Türkiyədən razılıq almağa çalışırdı. O, sonda bildirdi ki, "əgər bu iclasda İsmət paşanın dediyi sözlər onun son sözləridirsə, bundan sonra danışıqlar tamamilə səmərəsizdir".[21]

Yanvarın 6-da komissiyanın ümumi iclasında mübahisələr davam etdi. İsmət paşa çox geniş bir bəyyannamə ilə çıxış edərək bir daha sübut etməyə çalışdı ki, "müttəfiqlərin təklif etdikləri keçid rejimi kapitulyasiya rejimindən daha ağırdır".

Kapitulyasiya məsələsində Türkiyə nümayəndə heyətinin mövqeyi qəti idi. Buna görə də hər hansı bir



nümayəndə heyətinin Türkiyənin qanuni mənafeyinə zidd olan və onun suverenliyini pozan rəsmi ya qeyri-rəsmi bəyanatını qətiyyən qəbul etmək istəmirdilər.

Beləliklə, konfransın işi bu cəhətdən heç irəliləmirdi. Bununla əlaqədar olaraq M.Kamal paşa belə bir bəyanat vermişdi: "Lozanna konfransı ən ciddi və qızğın bir dövrə qədəm qoymuşdur. Müttəfiqlər hələ bizim qanuni hüquqlarımızı bəyənmirlər.

Aydındır ki, sülh və əmin-amanlıq əldə etməkdə Türkiyəyə mane olmaqla müttəfiqlər, xüsusən Fransa öz mənafelərinin ziddinə getmiş olurlar".

Nəhayət, 1923-cü il yanvarın 27-də komissiyanın sonuncu ümumi iclası oldu. Komissiyanın sədri Harroni "Sülh əldə etmək məqsədilə" bütün müttəfiq nümayəndə heyətlərinə yeni bir kompromiss təklif irəli sürdü. O, göstərdi ki, "Türkiyədə yalnız Türkiyə hökuməti tərəfindən təyin edilən 5 nəfərdən ibarət xüsusi komissiya yaradılsın. Onlardan ikisi Türkiyə ədliyyə nümayəndəsi, qalan üç nəfəri isə beynəlxalq Haaqa tribunalından dəvət edilsin. Bu komissiya Türkiyə hökumətinə namizədlər siyahısı təqdim etməli, Türkiyə hökuməti isə bu siyahıdan ədliyyə nazirliyi yanında müşavirlər və məhkəmələr üçün hakimlər seçib ayırmalıdır. Xaricilərin qarışmış olduqları bütün işlər üzrə keçirilən məhkəmə proseslərində bu müşavirlərdən biri məhkəmənin üzvü kimi iştirak edəcək. Son və həlledici vasitə olan şikayət məhkəmələri xarici təbəələrin işinə baxarkən, əksər halda müşavirlərdən ibarət olmalıdır. Əmlak məsələsinə aid olan proseslərdə isə məhkəmənin tərkibi yalnız türklərdən ibarət olaraq qalır. "Bu müttəfiqlərin son sözü idi.

Beləliklə müttəfiqlər konfrans pozulanadək kapitulyasiya rejimi haqqında saziş layihəsini türklərə qəbul

etdirə bilməlidir. Bu məsələ də açıq qaldı.

**v) İqtisadi və maliyyə məsələləri**. 1922-ci il noyabrın 27-də konfransın üçüncü komissiyası iqtisadi və maliyyə məsələlərinin müzakirəsinə başladı. Komissiyaya Fransa nümayəndəsi Barryer rəhbərlik edirdi. Dövlətlərin Türkiyə ilə uzun müddətdən bəri davam edən bütün iqtisadi və maliyyə münasibətləri ilə əlaqədar məsələləri ətraflı müzakirə etmək üçün beş yardımçı komissiya yaradıldı:

1. Osmanlı dövlət borcu, bu borcun keçmiş Osmanlı imperatorluğundan ayrılan dövlətlər arasında bölünməsi, işğal xərclərinin ödənilməsi və təzminat məsələləri üzrə komissiya. Rəhbər Fransanın ikinci nümayəndəsi Bompar təyin edildi.

2. Rabitə və nəqliyyat məsələləri üzrə komissiya. Rəhbər ingilis nümayəndəsi **Fauntenen** təyin edildi.

3. Gömrük və ticarət rejimi məsələləri üzrə komissiya. Sədri italyan nümayəndəsi Niqara təyin edildi.

4. İqtisadi məsələlər: a) müharibə və işğal dövrünün problemləri; b) sülh bağlandıqdan sonrakı problemlər üzrə komissiya. Sədri Yaponiya nümayəndəsi idi.

5. Səhiyyə məsələləri üzrə komissiya. Sədri Barryer özü oldu.[22]

Fransa nümayəndə heyəti çalışırdı ki, boğazlar məsələsindən əvvəl Türkiyənin dövlət borcları məsələsi müzakirəyə qoyulsun. Bu məqsədlə üçüncü komissiyanın noyabrın 28-də keçirilən iclasında birinci yardımçı komissiya borclar məsələsinin müzakirəsinə başladı.

Maliyyə məsələləri üç hissədən ibarət idi;

1. Osmanlı dövlət borcu;

2. Hərbi işğal ilə əlaqədar olan xərclərin ödənilməsi;

3. Türkiyədən təzminat alınması məsələləri.

Məlum idi ki, bunlardan ən vacibi Osmanlı dövlət



borcu idi.

Osmanlı dövlət borcu əsasən üç hissədən ibarət idi:

1. Birinci dünya müharibəsinədək olan borclar;

2. Müharibə dövründəki borclar;

3. Sülh müqaviləsi üzrə olacaq borclar.

Müharibədən əvvəlki dövrün borcları 143.241.757 türk lirəsi idi.

Müharibə dövrünün borcları 289.222.999 türk lirəsi idi.

Nəhayət, sülh müqaviləsi üzrə olan borclar aşağıdakı kimi idi: Mudros barışığına görə 25.000.000 türk lirəsinə bərabər idi".

Türkiyənin müharibədən sonrakı borcları hələ müəyyən edilməmişdi. Bu Lozannada müəyyən edilməli idi.

Borclar məsələsi çox mühüm bir məsələ idi və bunun ədalətli həllinin türk xalqının müqəddəratı üçün çox böyük əhəmiyyəti var idi. Buna görə də noyabrın 28-də İsmət paşa Türkiyə hökumətinin fikrini geniş açıqladı. O, bildirdi ki, "Türkiyə heç bir zaman Osmanlı imperatorluğunun varisi sayıla bilməz, ona görə də Osmanlı dövlət borcları sabiq sultan Türkiyəsindən ayrılan dövlətlər arasında, hətta mandat altında olan dövlətlər arasında bölünməlidir. Osmanlı dövlət borcunun verilməsinin son həddi Mudros barışığı olmalıdır. Çünki bu barışığadək Osmanlı imperatorluğu mövcud idi və onun varisi olan indiki dövlətlər bu imperatorluğun tərkibində idilər. Buna görə də hər bir ayrılan varis dövlətin əldə etdiyi müvafiq ərazisinə görə borcunu təyin etmək gərəkdir".[23]

Müttəfiqlərin hərbi işğalı ilə əlaqədar xərclərin ödənilməsi məsələsində türk nümayəndəsi Mudros barışığının bu məsələnin həlli üçün hədd olmasına qəti etiraz etdi. Türklər Mudaniya barışığını hədd qəbul edirdilər, çünki İsmət paşa haqlı olaraq göstərdi ki, dörd il davam edən işğal

yalnız Mudros barışığının birbaşa pozulması demək idi, həm də bu işğal Antanta dövlətlərinin bilavasitə məsuliyyəti altında getmişdi. Ona görə də İsmət paşa müttəfiqlərin Türkiyədən işğal xərcləri almaq iddialarının rədd olunmasını tələb etdi.

İsmət paşa hüquqi şəxslərə və xaricilərə vurulan zərərin ödənilməsini müasir Türkiyənin ərazisinə müvafiq olaraq mümkün hesab etdi. O, müttəfiqlərin işğal xərclərini Türkiyənin ödəməsi məsələsini haqlı olaraq yunanların vurduğu zərərlə əlaqələndirdi.

Yunan nümayəndəsi Venizelos tamamilə əks tələblər irəli sürdü. O, Sevr müqaviləsinə əsaslanaraq, Yunanıstanın istər Balkan, istərsə də birinci dünya müharibəsi nəticəsində əldə etdiyi əraziyə müvafiq olaraq, Osmanlı dövlət borcunun bölünməsində iştirak etməməsini tələb etdi...

İşğal xərcləri haqqında türk bəyannaməsinə əks olaraq Barryer təkidlə tələb etdi ki, "bütün sülh müqavilələrinin ümumi prinsipi olaraq xərcləri ödəmək haqqında qəbul edilən öhdəçilik saxlanılsın. Lakin müttəfiqlər qanunsuz olan işğal dövrünü nəzərə alaraq Türkiyədən alınacaq həmin məbləği bir qədər ixtisar etməyə hazırdırlar".

Kerzon maliyyə-iqtisadi məsələlərin sonrakı müzakirəsinə xeyli mane oldu. O, ilk plana boğazlar, azlıqda qalan millətlər və Mosul məsələsini çəkdi. Maliyyə-iqtisadi məsələsində yalnız ayrı-ayrı bölmələr üzrə bəzi razılıq əldə edilmişdi. Məsələn, rabitə və nəqliyyat məsələsində tezliklə sazişə gələ bildilər.

Beləliklə, maliyyə məsələsinin bəzi cəhətləri üzrə razılıq əldə edilməsinə baxmayaraq, bu problem bütövlükdə konfransın lap axırınadək həll olunmamış qaldı.

q) Azlıqda qalan millətlər məsələsi. Azlıqda qalan millətlər məsələsi, xüsusən "erməni məsələsi Antanta



dövlətlərinin əlində Türkiyəyə təsir göstərmək üçün bir vasitə idi. Bu təsir vasitəsilə onlar Türkiyə nümayəndə heyətindən boğazlar, Mosul, kapitulyasiya rejimi və Osmanlı dövlət borcu haqqında məsələlərdə güzəştlər qoparmaq istəyirdilər.

Azlıqda qalan millətlər məsələsi ilk dəfə 1922-ci il dekabrın 12-də müzakirə olundu. Kerzon özünün geniş bir nitqində mahiyyət etibarilə azlıqda qalan millətlər haqqında Sevrdəki sülh müqavilələrində qeyd olunan təminatların yerinə yetirilməsini tələb etdi.

Fransa nümayəndəsi Barryer isə göstərdi ki, "Fransaya əsrlər boyu bütün şərq xalqlarının vəziyyətini yaxşılaşdırmaq məqsədilə sərf etdiyi səylərini Osmanlı hökumətinə olan dostluq münasibətləri ilə uyğunlaşdırmaq həmişə mümkün olmuşdur".[24]

İsmət paşanın cavabı əsas etibarilə bundan ibarət oldu ki, "erməni əhalisinin qırılması təqsiri çar hökumətində və ermənilərin özlərində olub. O, xarici dövlətlərin Türkiyənin daxili işinə qarışmamasını tələb etdi və qeyd etdi ki, bu Türkiyənin öz işidir. Türklər yunan və türk əhalisini məcburi surətdə mübadilə etməkdə israr etdilər. Onlar həmçinin xristian əhalinin hərbi xidmətdən azad edilməsinin də əleyhinə idilər.

Tərəflər bir-birinə güzəştə getmədiklərindən mübahisələr heç bir nəticə vermədi. Lakin bir məsələ aydın oldu ki, müttəfiqlər, xüsusən İngiltərə türkləri eyhamla başa saldılar ki, əgər türklər milli məsələnin özləri üçün əlverişli şəkildə həll edilməsini istəyirlərsə, başqa məsələlər də güzəştə getsinlər.

Buna görə də müttəfiqlər Türkiyə qarşısında məsələni belə qoydular: ya boğazlar, ya da azlıqda qalan millətlər. Lakin Türkiyə boğazlar məsələsində hələ tərəddüd edirdi.

Beləliklə, azlıqda qalan millətlər məsələsi Türkiyə və müttəfiqlər üçün bir növ alver məsələsi oldu. Bu məsələ dekabrın 13 və 14-də müzakirə olundu. Bu məsələ ilə əlaqədar dekabrın 13-də Çayld İsmət paşa ilə təkbətək görüşərək onu azlıqda qalan millətlər məsələsində dünya ictimaiyyətinə güzəştə getməyin lazım olduğuna inandırmağa çalışdı. O, dedi ki, "dünya ictimai fikri, şübhəsiz Türkiyədə xristianların hüququnu müdafiə etməyi doğrudan da tələb edir".[25]

Dekabrın 14-dəki iclasda Kerzon müttəfiqlər adından bu məsələdə Türkiyə nümayəndə heyətinin tutduğu mövqe barəsində ona yenə də ciddi xəbərdarlıq etdi. O, hədələyib dedi ki, "əgər Türkiyə bundan imtina etsə, bütün xristian nümayəndələri çıxıb gedəcəklər. Bizim haqqımızda ancaq qəbul etdiyimiz qərarlar üzrə mühakimə yürüdəcəklər. Əgər konfrans bu məsələ üzündən dayandırılsa, əgər bu məsələdən ötrü biz Lozannanı tərk etsək Türkiyə nümayəndə heyətinin müdafiəsinə kim gələcək? Mən tamamilə açıq danışdım və mənim müttəfiqlərim mənimlə tamamilə şərikdirlər".

Çayldın İsmət paşa ilə təkbətək söhbəti, Kerzonun hədə və şantajı nəticəsində Türkiyə müttəfiqlərin proqramının aşağıdakı maddələrilə prinsipcə razı oldu:

a) sülh bağlandıqdan sonra Türkiyə MC-nə daxil edilsin;

b) qeyri-müsəlman azlıq üçün müxtəlif Avropa dövlətləri tərəfindən qəbul edilmiş müqavilələrdə nəzərdə tutulan hüquqlar qəbul olunsun;

v) ümumi amnistiya verilsin;

q) hökumət və xeyriyyə təsisatlarının azadlıqlarına icazə verilsin.

İngilis hakim dairələri İsmət paşanın belə bir



bəyanatını böyük məmuniyyətlə qarşıladılar.

Türkiyə nümayəndə heyəti erməni milli "ocağının" təşkilini qəbul etmədilər. Və bununla da Türkiyəni gələcəkdə baş verə biləcək böyük təhlükələrdən xilas etmiş oldular. İsmət paşa azlıqda qalan millətlər haqqında müttəfiqlərin müəyyən etdiyi "anlayış" üzərində MC-nin nəzarətini əsla qəbul etmədi. Bu isə müttəfiqlərin başlıca tələbi idi. Kerzon bu problemi xüsusi köməkçi komissiyanın ətraflı tədqiqinə verməyi təklif etdi. İngilislər Türkiyənin daxili işlərinə qarışmaq üçün bir bəhanə axtarırdılar. Buna görə də MC Ali komissarının İstanbula təyin edilməsi yolu ilə orada bilavasitə nəzarət qoyulmasını tələb etdilər. Lakin türklərin barışmazlığını gördükdə dekabrın 22-də konfransa bir düzəliş verdilər. Bu düzəliş bilavasitə nəzarət ifadəsini bir qədər yüngülləşdirərək Ali Komissarın fəaliyyətini məhdudlaşdırırdı və ona yalnız bəzi, ayrı-ayrı hallarda işə qarışmaq hüququ verirdi. Bundan əlavə bu nəzarət Türkiyə hökuməti ilə MC arasında sazişə əsasən aparılmalı idi. Dekabrın 27-dəki iclasda türklər yenə də əvvəlki kimi qətiyyət göstərərək bu yumşaldılmış nəzarət formasından da imtina etdilər.

Fransa bu məsələnin müzakirəsi gedişindən narazı qalmışdı, çünki Kerzon bu məsələni ingilis mənafeyinin təmin edilməsi üçün bir vasitəyə çevirə bilmişdi.

Kerzonun sədrliyi ilə birinci komissiya yanvarın 9-da azlıqda qalan millətlərlə Avropa dövlətləri arasında bağlanmış müahidələrdə bu vaxta qədər nəzərdə tutulan təminatlar verilməsi haqqında Türkiyənin təklifini qəbul etdi.

Azlıqda qalan millətləri MC adından mühafizə etmək üçün hər cür xüsusi orqan yaradılmasından imtina edilməsi rəsmi surətdə və qəti olaraq qeyd edildi.

Beləliklə, azlıqda qalan millətlər haqqındakı bütün məsələ sonralar, amnistiya haqqındakı məsələdən başqa, bir daha müzakirə olunmadı.

**e) Mosul məsələsi.** Konfrans qarşısında Türkiyənin İraqla sərhədlərini müəyyənləşdirmək məsələsi kimi mürəkkəb bir məsələ dururdu. Burada "əsas çətinlik Mosul neft vilayətinin statusunu müəyyənləşdirmək idi".[26] Bu dövrdə Mosul neft vilayəti İraqın tərkibində idi və buna görə də bu ərazi bilavasitə İngiltərənin tabeliyində idi. Lozanna konfransında həm İngiltərə, həm də ABŞ üçün ən əhəmiyyətli məsələ məhz boğazlarda rejim və Mosul məsələləri idi. Ona görə də Kerzon konfransın bütün işini yalnız bu iki məsələ ətrafında toplamışdı.

Mosul məsələsi müzakirə olunan zaman boğazlarda rejim məsələsində müəyyən kompromiss əldə edilmişdi və Mosul məsələsini həll etməyə imkan yaranmışdı. İngiltərə qarşısında Türkiyənin güzəştə getməməsi və onun ABŞ-la əməkdaşlıq etmək qorxusu dururdu. Buna görə də Kerzon Mosul məsələsinə baxmağa başladıqda, o birinci növbədə öz səyini ABŞ-ın Türkiyə və Fransa ilə yaxınlaşması cəhdlərinə mane olmağa yönəltmişdi və buna nail oldu. Kerzon əvvəl istədi ki, Mosul məsələsini ümumiyyətlə konfransın gündəliyindən çıxarsın və bunu İngiltərə və Türkiyə arasında ikitərəfli danışıqlara keçirsin sonra isə Millətlər Cəmiyyətinə versin. Hətta o, türklərə eyham etdi ki, "guya Türkiyənin Mosul rayonunda suverenliyini tanımağa hazırdır. Bunun əvəzində o, neft konsessiyası məsələsinə dair Türkiyə ilə saziş bağlamağı tələb etdi".[27]

1922-ci il dekabrın 14-də İngiltərə nümayəndə heyəti tərəfindən İsmət paşaya geniş bir memorandum verildi. Həmin memorandumun məzmunu ondan ibarət idi ki, "texniki, iqtisadi və strateji səbəblər üzündən İngiltərə



bütün Mosul vilayətini Türkiyəyə verə bilməyəcəkdir".[28] Bu memoranduma Kerzonun şəxsi məktubu da əlavə olunmuşdu. Həmin məktubda göstərilirdi ki, "Mesopotomiya Millətlər Cəmiyyətinin idarəsi altında olduğundan, onun ərazisindən güzəştlər edilməsi məsələsi yalnız, bilavasitə Türkiyə ilə Millətlər Cəmiyyəti arasında gedən danışıqlar yolu ilə həll olunmalıdır".[29]

Həmin memoranduma cavab olaraq türk nümayəndə heyəti 1922-ci il dekabrın 26-da Kerzona geniş əks memorandum göndərdi, bu isə məsələnin həlli üçün Kerzonu başqa yol axtarmağa məcbur etdi. İraq nümayəndə heyəti bu zaman Lozannada idi və Türkiyə nümayəndə heyətinə müraciət edərək qəti bildirmişdi ki, Mosulu Türkiyəyə yalnız silahlı qüvvə qarşısında məcbur olaraq verə bilər. Əlbəttə bu Kerzon tərəfindən təşkil edilmişdi. Bununla türklərin Mosula olan hüquqi iddiaları rədd edildi. Bu manevr ilə Kerzon türklərin diqqətini neft məsələsindən yayındırmağa və işi yalnız ərazi

nöqteyi-nəzərdən qələmə verməyə cəhd edirdi. Bunu konfransın protokollarından aydın görmək olur.

Kerzon özünün birinci memorandumu ilə kifayətlənməyib "dekabrın 28-də İsmət paşaya ikinci bir memorandum göndərdi".[30] O, bu memorandumda Mosulun türklərə qaytarılması tələbini rədd etdi və eyni zamanda İraqın şimal sərhədləri ilə demorkasiya xətləri çəkilməsinin ekspertlərin müzakirəsinə verilməsinə razı olduğunu bildirdi. Türklər Kerzonun bu memorandumuna əvvəlkindən daha kəskin cavab verdilər. İlk baxışdan elə gəlirdi ki, Mosul məsələsi üstündə konfransın ən böhranlı dövrü çatmışdır. İsmət paşanın memoranduma əlavə şəxsi məktubunda razılıq əlaməti olan kiçik bir işarə var idi. Bu da məsələnin ekspertlərin müzakirəsinə verilməsi idi.

1923-cü il yanvarın əvvəlində TBMM iclasında hökumətin sədri Rauf bəy Lozannadakı vəziyyət haqqında məruzə edərək İngiltərə ilə sazişə gəlmək ehtimalı haqqında "işarə" vurdu. O, qeyd etdi ki, "Mosul əhalisinin Türkiyəyə qovuşmaq arzusu necə olursa-olsun, hətta neft mənbəələrinin ingilislərə satılması bahasına olsa da, təmin ediləcəkdir. Biz həmişə bu gəlir mənbələrini qanuni və əlverişli şərtlərlə bizi bərabər hüquqlu sayan millətlərə satmağa hazır olmuşuq".

Lozannadakı türk nümayəndə heyətidə ingilislərlə sazişə gəlməyə meyl göstərirdilər. Kerzon belə bir imkandan istifadə etmək istədi və yanvarın 4-də İsmət paşa ilə təkbətək görüşdə yenə Mosul məsələsinə toxunuldu. Amma bu söhbət hələlik müsbət nəticə vermədi. Çünki İsmət paşa gözəl bilirdi ki, Mosul məsələsi vasitəsilə Türkiyə üçün əsaslı olan məsələləri həll etmək olar.

Kerzonun bu cəhdləri bir nəticə vermədikdən sonra o, məsələni konfransın müzakirəsinə vermək qərarına gəldi.



Kerzon ərazi komissiyasının müşavirəsində qeyd etdi ki, "Sülh müqaviləsinin tərkib hissəsini təşkil edə biləcək məsələlər içərisində Türkiyənin cənub-şərq sərhədlərinin, yəni, bir tərəfdən Suriya ilə İraq, digər tərəfdən bu iki dövlətlə Türkiyə arasında sərhədlərin müəyyən edilməsi məsələsi vardır. Bu məsələ noyabrın 27-də həll olunmalı idi. Lakin o, zaman İsmət paşa bunun açıq müzakirəsindən imtina etdi. Bizim xüsusi danışıqlarımız da bir nəticə vermədi. Ona görə də biz nəhayət, konfrans qarşısında və bütün dünya qarşısında bu məsələni qoymağa məcbur olduq".

Tərəflər yenidən vilayətin əhalisinin milli tərkibinə siyasi, tarixi, coğrafi, iqtisadi və nəhayət strateji cəhətlərinə əsaslanan dəlillərdən istifadə etdilər.

İsmət paşa Mosulda səsvermə keçirilməsini təklif etdi. Lakin Kerzon bu təklifə qəti etiraz etdi. Kerzon öz mövqeyini müdafiə etmək üçün bir sıra siyasi və iqtisadi dəlillər gətirdi. Onun əsas siyasi dəlili "kürdlərin türklərlə birgə yaşamaq istəmədikləri idi". İqtisadi dəlil isə "Britaniya imperiyası müqavilələr əsasında ərəblərlə əlaqədardır və MC-nin nizamnaməsinin 22-ci paraqrafına əsasən 1920-ci ildə San-Remo konfransında bu yerlərə mandat alması" idi.

İsmət paşa bütün bu dəlilləri də rədd edib bildirdi: "Kürdlər artıq öz müqəddəratlarını türklərə bağlamışlar. Kürdlərlə türklərin milli, dini, adət və əxlaqı vəhdəti yaranan zamandan artıq əsrlər keçmişdir. TBMM-də onların deputatları vardır. 1918-ci ildə Mosul vilayəti ingilislər tərəfindən işğal ediləndən sonra vilayətin əhalisi dəfələrlə TBMM hökumətinə müraciət edib, Türkiyə ilə birləşmək arzusunda olduqlarını bildirmişlər".

Kürdlərə muxtariyyat verilməsi məsələsini türklər

rədd etdilər. Daha sonra hər iki tərəf yenidən tarixi, hərbi strateji dəlillərə əl atdılar. Hər iki tərəf bir-birinə əks cavablar verdilər.[31]

Nəhayət, uzun mübahisədən sonra Kerzon məsələnin MC – arbitrajına verilməsini yenidən təklif etdi. O, hətta bu məqsədlə yanvarın 26-da MC-nin baş katibinə müraciət etdi.

Kerzonun bu təklifini və MC-nə müraciətini Fransa, İtaliya və Yaponiya nümayəndə heyətləri müdafiə etdilər. Lakin türklər buna əsla razı olmadılar və bununla da iclasda danışıqlar kəsildi.

1923-cü il yanvarın 29-da türk nümayəndə heyətinə gələcək sülh müqaviləsinin layihəsinin tam mətnini təqdim etdilər. Layihəyə elə bəndlər, məsələlər daxil edilmişdi ki, onlar heç konfransda müzakirə olunmamışdı. Məsələn, "Türkiyənin Dodekanoz adasından, Misirdən, Sudandan əl çəkməsi, İngiltərənin Kipr adasını ilhaq etməsinin Türkiyənin tərəfindən qəbul edilməsi, Tripolitaniyada Türkiyə sultanına verilmiş imtiyazların ləğv edilməsi məsələlərinə toxunulmamışdı. Layihəyə görə Qaraağac Yunanıstanın tabeliyində qalırdı. Mosul məsələsinə də MC-nin arbitrajı baxmalı idi. Həmçinin Versal, Neyii və b. müqavilələrin Türkiyə tərəfindən qəbul edilməsi istənilirdi. Frakiyada olan bitərəf və hərbisizləşdirilmiş məntəqələrin toxunulmazlığı üçün heç bir siyasi təminat layihədə nəzərdə tutulmamışdı. Türkiyənin Avropa hissəsində türk hərbi qüvvələri məhdudlaşdırılmış və 20 min nəfərə çatdırılmışdı, bundan da İstanbulda 12 min nəfər və bu qüvvələrə əlavə olaraq jandarmeriya, gömrük polisi və sair xüsusi kadrlar nəzərdə tutulurdu. Bu xüsusi kadrlar Frakiyanın Türkiyə hissəsində yalnız 50 min nəfər ola bilərdi.

Maliyyə və iqtisadi məsələlərdə Türkiyənin müzakirələrdə rədd etdiyi bütün təkliflər layihədə də öz əksini



tapmışdı. Osmanlı dövlət borcu məsələsində prinsip etibarilə Türkiyə nümayəndə heyətinin fikri qəbul edilirdi.

Layihədə Türkiyə ilə Yunanıstanın bir-birinə ödəyəcəkləri təzminatdan əl çəkmələri tələb edilirdi. Halbuki müzakirə zamanı Türkiyə bu təklifi qəti rədd etmişdi. Müttəfiqlər Türkiyədən müharibə zamanı xaricilərə vurulan zərərin ödənilməsini 15 min türk qızıl lirəsi həcmində istəyirdilər.

Anzaq qəbrləri haqqında məsələ də layihədə ortaya çıxmışdı. 1922-ci il dekabrın 8-də boğazlar məsələsinin müzakirəsində Kerzon Türkiyə ərazisində müttəfiqlərin əsgərlərinin qəbrləri məsələsini qaldırmışdı. Kerzon bu qəbristanlığın müttəfiqlərin suverenliyinə verilməsini tələb etmişdi. Bu tələb Anzaq məntəqəsinə aid idi, bura isə boğazlar zonasında yerləşirdi. Lakin o zaman bu danışıqlar bir nəticə verməmişdi. Buna baxmayaraq müttəfiqlər həmin danışıqlar əsasında sülh müqaviləsi layihəsinə Anzaq qəbrləri haqqında maddə salmışdılar.

Nəhayət, layihədə 1918-ci ilin oktyabrınadək Türkiyə ilə xarici təbəələr arasında bağlanılan bütün müqavilələr ümumi şəkildə bərpa edilirdi, köhnə konsessiyaların bərpası tələbi ultimatum şəklində sülh müqaviləsini və əlavə olunmuş boğazlar haqqında Konvensiyanı imzalamağı təklif etdi."[32]

Bu ultimatuma cavab vermək üçün Türkiyə nümayəndə heyətinə beş gün vaxt verildi. İsmət paşa bu layihəni və boğazlar haqqında konvensiyanı ətraflı nəzərdən keçirmək üçün 8 gün vaxt istədi. Lakin Kerzon, təcili olaraq Londona gedəcəyini bəhanə edərək öz təklifində israr etdi...

Fevralın 3-də axşam fransız nümayəndə heyəti kapitulyasiya rejimi və maliyyə-iqtisadi məsələlər üzrə bəzi güzəştlər etdiyini bildirdi.

Bu güzəştlərdən sonra layihədə bir az dəyişiklik edildi. Fevralın 4-də axşam Kerzonun Londona getməsindən bir az əvvəl, İsmət paşa müttəfiqlərə öz cavab memorandumunu təqdim etdi. Bu memorandumda türklər müttəfiqlərin Frakiya haqqında Türkiyəyə təklif etdikləri sərhəddə razı olduğunu, Qaraağacdan və 1913-cü il sərhədlərindən, habelə Keliboluda türk qornizonunun saxlanılması tələblərindən əl çəkdiyini bildirdi. Sonra çox böyük güzəştə gedərək boğazlar haqqında Konvensiyanı qəbul etdiklərini bildirdilər. Anzaq qəbirstanı və ətraf ərazini İngiltərəyə güzəştə getdilər, həmçinin İmbros və Tenedos adaları üzərində muxtariyyat qurulması haqqında maddəni qəbul etdilər.

Sonra Türkiyə İtaliyanın xeyrinə Dodekanoz adalarından imtina etdi. Demək olar ki, başqa məsələlərdə də, türklər bir çox güzəştlərə getdilər.

Fevralın 4-də axşam, İsmət paşanın memorandumunu nəzərə alaraq, yenə bəzi güzəştlərə getdilərsə də, əsas məsələlərdə, yəni kapitulyasiya rejiminin ləğvində, maliyyə və iqtisadi məsəllərdə tutarlı razılıq əldə olunmadı. Fevralın 4-də axşam saat 8-də müttəfiqlər öz aralarında apardıqları müşavirədən sonra belə şəraitdə razılığa gəlməyin mümkün olmaması qərarına gəldilər. Kerzon yaxşı bilirdi ki, türklər öz milli mənafelərindən yan keçməyəcəklər və müqaviləni imzalamayacaqlar. Ona görə də o, qəsdən vəziyyəti daha da gərginləşdirirdi və türkləri onun tələblərinə razı etdirə bilmədiyindən konfransın dağılmasına çalışırdı.

Türklər isə kapitulyasiya rejiminin və maliyyə-iqtisadi məsələlərin Türkiyənin mənafeyinə uyğun olmadığına əsasən müqaviləni imlazamadılar. Beləliklə, də Lozanna konfransının birinci mərhələsi nəticəsiz başa çatdı.

Lozanna konfransının birinci dövrünün nəticələrinin



Türkiyədə müzakirəsi 1923-cü il fevralın 22-də başlandı. TBMM-də hökumətin və türk nümayəndə heyətinin başçısının məruzələrindən sonra qızğın mübahisələr başlandı.

Deputatların ən çox narazılığına səbəb olan məsələlərdən biri Mosul məsələsi idi. Çünki onlar başa düşürdülər ki, Mosul məsələsinin açıq qalması həmin neft rayonunun ingilislərin nəzarətinə keçməsi, bu isə bir neçə Şərq vilayətinin itirilməsi demək idi. Məclisdə deputatlar İsmət paşanı tənqid atəşinə tutdular ki, konfransda qorxaqlıq edib və s. Mübahisələr çox gərgin bir xarakter aldığından M.Kamal mübahasiyə qoşuldu və bildirdi ki, "...biz nümayəndə heyətimizi ətraflı surətdə dinləməliyik, onun izahatına əsasən müvafiq qərarlar çıxartmalıyıq. Bundan əlavə Nazirlər Şurası məlumat verməlidir ki, həqiqətdənmi bizim nümayəndə heyətimiz kabinetin verdiyi göstərişlərin ziddinə iş görmüş və yaxud kabinetin göstərişlərinə müvafiq olaraq hərəkət etmişdir".[33]

M.Kamalın çıxışından sonra mübahisələri dayandırdılar. TBMM martın 7-də müttəfiqlərə sülh şərtlərini qəti ifadə edən bir nota göndərmək qərara aldı. 8 mart tarixli rəsmi məlumatda deyilirdi: "Lozanna konfransının sonunda təklif edilən sülh layihəsini TBMM qənaətbəxş saymır. Çünki istiqlaliyyətimiz üçün sülhün şərtləri tamamilə təhlükəlidir".

Martın 9-da isə Türkiyə hökumətinin rəsmi notası müttəfiqlərin ali komissarlarına çatdırıldı. Həmin notada göstərilirdi: "Türkiyə hökuməti sülh və müharibə zamanı, təhlükəli də olsa bütün dost ölkələrin hərbi gəmilərinə boğazların açıq olmasına və hərbisizləşdirilmiş məntəqə yaradılmasına razıdır. Kiçik Asiya sahillərində strateji əhəmiyyətli adaların əksəriyyətindən müttəfiq dövlətlərin

xeyrinə olaraq əl çəkir, Ədirnənin iqtisadi həyatına zərbə vurulmasına baxmayaraq Qaraağaca olan hüququndan imtina edir, Kelibolu yarımadasındakı qəbristanı müttəfiq dövlətlərə güzəştə gedir. Müsəlman olmayan azlıqlar haqqında da güzəştə gedir... Beləliklə, TBMM hökuməti sülhə nail olmaq üçün hər bir şeyi etməyə hazır olduğunu bildirir".

Bu nota Londonda razılıqla qarşılandı. Müttəfiqlər Türkiyənin verdiyi təklifləri müzakirə etmək üçün 1923-cü il martın 21-də Londonda toplaşdılar və Türkiyə hökumətinin göstərdiyi məsələlərə öz münasibətlərini bildirməyə başladılar. Müzakirə zamanı İngiltərə ilə Fransanın mənafeləri toqquşdu. Çünki fasilə zamanı edilən güzəştlər İngiltərənin xeyrinə idi. Digər tərəfdən məlum oldu ki, Fransa Rur hövzəsinin işğalı ilə məşğul idi. Türklər də bundan istifadə edərək, İngiltərəyə və Amerikaya daha çox yaxınlaşdılar. Bu isə Fransanı qane etmirdi. Martın 27-də Müttəfiqlər konfransın işini bərpa etməyə razılıq verdilər.

Beləliklə, Lozanna konfransı arasındakı fasilə ilk növbədə İngiltərəyə bəzi mübahisəli məsələlər nizama salmağa və Fransaya qarşı əks qüvvələr yaratmağa imkan verdi. Türkiyəyə gəldikdə o, güclü bir "qüvvə" ilə Fransaya qarşı çıxış etməyə hazır idi, çünki maliyyə-iqtisadi məsələlər və kapitulyasiya rejimi hələ həll olunmamışdı. Bu məsələlər Fransanın güzəştə getməsindən asılı idi.

Lozanna konfransının ikinci hissəsi 1923-cü il aprelin 23-də öz işinə başladı. Bu o zaman idi ki, artıq fransızlar Rur uğrunda və Yaxın Şərqdə əvvəlki nüfuzlarını saxlamaq uğrunda mübarizəyə başlamışdılar. Bu məsələlər də İngiltərə ilə Fransa mənafeyi toqquşurdu. Ona görə də Türkiyə üçün öz tələblərinə nail olmaq üçün əlverişli şərait yaranmışdı.



Ərazi məsələlərində Türkiyə əsasən İngiltərənin mənafeyinə uyğun gələn güzəştlərə getmişdi. Bu sahədə həll olunmamış məsələlər yalnız İstanbul, Gelibolu, Çanaqqala və Frakiya, Türkiyə-Suriya sərhədlərinin müəyyənləşdirilməsi, Kastellorizo adasının müqəddəratı məsələsi idi.

Digər tərəfdən maliyyə və iqtisadi məsələlər əsasən həll olunmamış qalmışdı, bu məsələlərdə konfransın ikinci mərhələsində uzun-uzadı müzakirələrə səbəb olmuşdu. Türkiyə nümayəndə heyəti konfransa gələrkən ərazi məsələlərində özünün əsas vəzifəsini boğazlar məntəqəsinin və Frakiyanın azad olmasında görürdü. Mudros barışığı imzalanandan boğazlarda hərbi-siyasi hakimiyyət İngiltərənin ixtiyarında idi.

İsmət paşanın martın 8-də müttəfiqlərə cavab məktubunda, habelə Türkiyə hökumətinin əks layihəsində təkidlə tələb edirdilər ki, TBMM sülh müqaviləsini təsdiq etdikdən sonra bütün Türkiyə ərazisini ingilis qoşunları tamamilə tərk etsinlər.

Konfrans işə başlayan kimi ingilis nümayəndə heyətinin başçısı Rembold qeyd etdi ki, "İstanbul Çanaqqala və Kelibolunun müttəfiq dövlətlər tərəfindən azad edilməsi məsələsi artıq həll olunmuşdur. Lakin bu yalnız sülh müqaviləsinin imzalanması məsələsindən ötrü gecikdirilir".[34]

Bu zaman Türkiyə qoşunlarının Suriya sərhədlərində toplanması haqqında və buna cavab olaraq fransızların da Kiçik Asiya qarnizonunu gücləndirməsi xəbəri yayılmağa başladı. Fransa özünün 8-ci diviziyasını Yaxın Şərqdə olan fransız qoşunlarına qoşmaqla Suriya əhalisini, xüsusən də erməniləri türklərə qarşı qaldırmağı cəhd edirdi. Bununla da ingilislərin Lozanna konfransının birinci mərhələsində

boğazlar və Mosul məsələləri müzakirə olunan zaman gördüyü bəzi tədbirləri fransızlar da indi tətbiq etməyə başladılar. Bu hərəkətlə Fransa hökuməti Türkiyə qarşısında öz gücünü nümayiş etdirməyə çalışdı və maliyyə-iqtisadi məsələlərin həllində Türkiyəyə təzyiq göstərmək istədi.[35]

Bundan başqa, Fransa hökuməti özünün Türkiyədəki işlər müvəkkili vasitəsilə Ankara hökumətinə bir ultimatum verdi. Bu ultimatumda göstərilirdi: "Fransa sülh konfransı zamanında fransız hökumətini qorxutmaq məqsədilə Suriya sərhədlərinə türk qoşunlarının toplaşmasına yol verə bilməz. Fransa qəti olaraq bildirir ki, əgər Ankara hökuməti qane edici cavab verməzsə, Lozanna konfransını tərk etməli olacaqdır".[36]

Türkiyə-Suriya sərhədlərində fransız qoşunlarının toplanması türkləri də çox narahat edirdi. Konfrans qarşısında yenidən Türkiyə-Suriya sərhədlərinin bərqərar edilməsi məsələsi qoyuldu. Bu məsələ birinci sessiyada müzakirəsiz qalmışdı. Lakin sülh müqaviləsi layihəsinin üçüncü bəndində müttəfiqlər Suriya ilə sərhəddi belə müəyyənləşdirmişdi: "Aralıq dənizindən İran sərhəddinədək Türkiyənin sərhəddi aşağıdakı qaydada müəyyən edilir: Suriya ilə sərhəd Fransa ilə Türkiyə arasında 1921-ci il 20 oktyabr tarixdə bağlanan sazişin 3-cü maddəsinə əsasən müəyyənləşdirilir".

İsmət paşa 8 mart tarixli məktubunda Türkiyənin Suriya ilə sərhədlərinin həmin 8-ci maddə əsasında müəyyənləşdirilməsinə razılıq vermişdi.

Lakin konfransın ikinci hissəsində bu məsələ həll olunarkən general Pelle gözlənilməz bir surətdə, 1921-ci il 20 oktyabr sazişinin bu bəndini qəbul etməkdən imtina etdi. O, əsaslandırdı ki, "bu saziş Türkiyə ilə Fransa arasında bağlandığından müttəfiqlərin hamısı üçün məcburi deyildir.



Ona görə də bu məsələni həll etmək üçün həmin sazişə bəzi dəyişikliklər etmək lazımdır".

General Pelle bu məsələni boş yerə yubandırmırdı. O, Fransanın marağı olan maliyyə və iqtisadi məsələlərin əlverişli surətdə həllini gözləyirdi.

Konfrans bu məsələni həll etməmiş Yunanıstandan təzminat alınması məsələsinə keçdi. Bu məsələyə dair türklərlə yunanlar arasında gedən danışıqlar nəticəsiz qalmışdı. Ona görə də konfrans bu münaqişəni həll etmək üçün maliyyə komitəsinin sərəncamına vermişdi. Bu zaman tərəflər komitənin iclasında xəbərdarlıq etmişdilər ki, "komitənin çıxardığı qərar əlverişli olmadığı təqdirdə tərəflər bunu qəbul etməyəcəklər. Beləliklə, yunanlarla-türklər arasında münasibətlər gərginləşirdi, Yunanlar da Maritsa çayı sahilinə yüz minlik qoşun topladılar".[37]

Venizelos təkidlə tələb etdi ki, müttəfiqlərin təqdim etdikləri sülh müqaviləsi layihəsindəki müddəanı türklər qəbul etsin, Türkiyə isə Yunanıstandan təzminat tələb edirdi.

1923-cü ilin mayın 19-da müttəfiqlər belə bir kompromiss qərar çıxartdılar: "Türkiyə təzminat almaqdan, Yunanıstan da öz növbəsində Qaraağacdan əl çəksin". Lakin bununla da razılaşmadılar.

Mayın 26-da təzminat məsələsi yenidən müzakirə olunan zaman, nəhayət, İsmət paşa ilə Venizelos arasında razılıq əldə olundu: "yunanlar türklərə vurduqları hərbi zərəri ödəməyə hazır olduqlarını bildirdilər. Lakin türklər bu təzminatın əvəzində Qaraağac şəhərini geri aldılar".[38]

Beləliklə, türklər Maritsa çayının sağ sahilində özlərinə əlverişli mövqe əldə etdikdən sonra yunan təzminatından əl çəkmək hesabına özlərinin Avropa sərhədləri məsələsini həll etməli oldular. Venizelos

müşavirədən çıxan zaman bildirdi ki, “bəli bu əsl sülhdür”. Həqiqətəndə bu Türkiyə ilə Yunanıstan arasında sülh idi. Amma bu hələ ümumi sülh deyildi. Bu məsələnin həllindən sonra türklər Kastellorizo adası haqqında italyanlarla da sazişə gəlməyə başladılar. Bu məsələyə dair konfransın birinci mərhələsində heç bir qərar qəbul edilməmişdi və konfransın ikinci mərhələsində geniş müzakirə olmuşdu. Türklər bu kiçik adadan heç bir vasitə ilə əl çəkmək istəmirdilər. Çünki bu ada Türkiyənin məhəlli sularında idi. Lakin italyanlarda türklərin bu tələbini qəbul etmirdilər. Müttəfiqlər bu adada əhalinin əksəriyyətinin xristian olması barəsində dəlil gətirirdilər. Uzun və səmərəsiz müzakirə və mübahisələrdən sonra, “mayın 31-də türklər bu adaya iddialarından əl çəkdilər və bu ada üzərində İtaliya suverenliyini qəbul etdilər”.[39]

Baxmayaraq türklər Kastellorizo adasını itirdilər, amma iyunun 4-də ən böyük qələbəyə nail oldular. Kapitulyasiya rejimi məsələsində Türkiyənin bütün tələbləri qəbul edildi. Beləliklə, Lozanna sülh müqaviləsinin 28-ci maddəsinə əsasən “Türkiyədə xaricilərə məxsus olan bütün siyasi, iqtisadi və hüquqi imtiyazlar, bütün kapitulyasiya rejimi tamamilə ləğv edildi”.[40]

Bundan sonra iyunun 20-dək yenidən səmərəsiz münaqişələr və mübahisələr davam etdi. İyunun 23-də isə müttəfiqlər türklərlə birlikdə və ekspertlərin iştirakı ilə bütün münaqişəli məsələlərə baxdılar. Türklər Mosul haqqında saziş əldə etmək üçün tələb etdikləri bir illik müddət əvəzinə indi 9 aylıq müddətə razı oldular. Bununla da fransızlar konfransda bütün fürsəti əldən verdilər. Nəhayət iyunun 26-da fransızlar 1921-ci il 20 oktyabr tarixli sazişə etirazlarının geri götürməyə və beləliklə də Türkiyə-Suriya sərhədləri məsələsinin həllinə razı oldular.



Bununla da konfransda bütün ərazi məsələləri tamamilə həll edildi. Həll olunmanmış məsələ kimi yalnız Osmanlı dövlət borcları məsələsi qaldı. Bu borcların qızıl yaxud kağız pulla ödənilməsi də çox mübahisələrə səbəb oldu. Təbii ki, fransızlar borcun illik ödənişinin qızıl frankla verilməsini tələb edirdilər. Türklər isə bu tələbi qəti rədd edirdi. Türkiyə hökuməti 1923-cü il 11 iyun tarixli bəyanatında qeyd edirdi ki, “Türkiyə öz borclarını yalnız kağız pulla ödəyə bilər”.

İsmət paşa bu bəyanatı Lozannada geniş surətdə müttəfiqlərə çatdırdı. Bu borcun qızıl ya kağız pulla ödənilməsinin nə fərqi var idi?

Fransa borcların kağız pulla ödənilməsində hər il yüz milyon frank itirirdi, Türkiyə üçün isə qızıl və ya kağız pullar arasında fərq daha böyük idi. Türkiyə hökuməti borcu qızıl pulla ödədikdə isə 15 milyon qızıl türk lirəsi itirirdi. Təbii ki, bu böyük rəqəm Türkiyə üçün ağır idi.

Borcları ödəmək üsulu haqqında gedən danışıqlar may ayından iyul ayınadək davam etdi.

Nəhayət iyulun 3-də konfransın ümumi iclası oldu. Burada maliyyə və iqtisadi məsələlərə baxan komitələr öz son məruzələrini yazılı surətdə təqdim etdilər. İyulun 7-8-də müttəfiqlərin türklərlə birgə müşavirəsi keçirildi. İyulun 8-də artıq Lozannadan xəbər yayılmağa başladı ki, “türklərlə sülh müqaviləsini, mahiyyət etibarilə bir həftədən sonra bağlanmış hesab etmək olar”. Borclar məsələsi müqaviləyə daxil olmayacaqdır. Doğrudur maliyyə məsələləri üzrə qəti saziş əldə olunmamışdı, lakin müttəfiqlər uzun müddətli danışıqlardan sonra, Lozanna konfransını başa çatdırmaq qərarına gəldilər.

Nəhayət, 1923-cü il iyulun 24-də Lozanna sülh müqaviləsi ona əlavə olunmuş çoxlu sənədlər, protokollar,

sazişlər, konvensiyalarla birlikdə təntənəli surətdə imzalandı.

Müqavilənin priambula hissəsində göstərilir: "tərəflər, 1914-cü ildən Şərqi lərzəyə salmış müharibəyə son qoymaq arzusunda olaraq dövlətlərarası dostluq münasibətlərini və əlaqələri bərpa edərək və nəzərə alaraq ki, bu münasibətlər mütləq dövlətlərin suverenliyi və müstəqilliyinə hörmət əsasında olmalıdır, bu məqsədlə müqavilə bağlamaq qərarına gəliblər".

Müqavilənin 2-ci maddəsi ilə Türkiyənin Qara dənizdən Egey dənizinədək sərhədləri belə müəyyənləşir: "Bolqarıstanla – Rezvo çayı mənbəsindən Maritsayadək, Türkiyə, Bolqarıstan və Yunanıstan sərhədlərinin birləşdiyi məntəqə; Yunanıstanla – yuxarıda göstərilən məntəqədən Ardı və Maritsanın qovuşduğu yerədək, Maritsanın axını, Ardının axarı ta Maritsa üzərində, aşağı Bosna Göy məntəqəsinə, bu kəndin Türkiyəyə qalması ilə Maritsanın axarınca ta Egey dənizinədək.

Aralıq dənizindən Persiya sərhəddinədək isə Türkiyənin sərhəddi aşağıdakı formada müəyyən edilir: Suriya ilə – 1921-ci il 20 oktyabr tarixli fransa-türk müqaviləsinin 8-ci maddəsinə əsasən.

İrakla isə müəyyənləşəcək sərhəd xəti Türkiyə və Böyük Britaniya arasında doqquz ay müddətinə müəyyən ediləcək. Əgər bu müddətdə tərəflər arasında razılaşma əldə edilməsə məsələ MC Şurasına verilməsi nəzərdə tutulurdu. (Maddə 3.)

Ən böyük mübahisəli sərhəd isə üç təmsilçidən ibarət komissiyanın öhdəsinə buraxıldı ki, bunlar türk, yunan və hər ikisinin razılığı ilə üçüncü dövlətin təmsilçisindən ibarət olmalı idi. (Maddə 5).

Türkiyə Aralıq dənizinin şimalında İmbros, Tenedos



və Kraliça adalarını çıxmaq şərtilə, Lemnos, Samofrakiya, Mitilen, Xios, Samosa, Nikarii, həmçinin Türkiyənin Asiya sahilindən 3 mil məsafədə yerləşən adaların Yunanıstana verilməsini qəbul edirdi. (Maddə 12). Yunanıstan isə öz növbəsində öhdəlik götürürdü ki, bu adalarda heç bir hərbi baza tikməsin (Maddə 13). Egey dənizində İtaliya-Türkiyə sərhədlərinə aid Sevr müqaviləsinin 122-ci maddəsi təkrar edilirdi.

Türkiyə Suriya və Misirdən imtina etməsi haqda 1914-cü il müqaviləsinin qüvvəyə minməsini qəbul edir. (Maddə 16). Həmçinin Türkiyə Kiprin anneksiyasını qəbul edirdi. (Maddə 20).

Türkiyə 1912-ci il Lozanna müqaviləsi ilə Livana olan bütün hüquq və imtiyazlarından imtina edir. (Maddə 22).

Tərəflər Dardanell boğazında, Mərmərə dənizi və Bosforda dənizdə və havada həm dinc dövrdə, həm də müharibə zamanı azad gəmiçilik qəbul edir və elan edirdilər (Maddə 23).

Türkiyə ərazisində yaşayan qeyri-müsəlman xalqlar türklərlə eyni hüquqa malik olmaları haqda təminat alırdılar. (Maddə 38-39).

Osmanlı dövlət borcları məsələsi konfransda türk nümayəndəsinin təkidlə tələb etdiyi kimi həll edildi. Belə ki, Osmanlı dövlət borcları son dövrün müharibələri nəticəsində Osmanlı imperatorluğundan ayrılmış dövlətlərin aldıqları ərazilərə müvafiq olaraq bu "yeni dövlətlər" arasında bölüşdürülürdü və müvafiq olaraq müəyyən edilmiş müddətdə bu borcların ödənilmə müddəti və vaxtı müəyyən ediləcəkdi. (Maddə 46-56).

Müqavilənin sonrakı bəndlərində müvafiq olaraq iqtisadi və maliyyə məsələləri, əsgər və zabitlərin qəbrlərinin qorunması, nəqliyyat vasitələrindən istifadə

qaydalarına və s. həsr edilir.

Müqavilə qısa müddətdə ratifikatsiya olunmalı və Parisdə saxlanmaq üçün təhvil verilməlidir. Ratifikatsiya sənədləri verilən gündən müqavilə qüvvəyə minmiş hesab edilir. (Maddə 143).

Bundan başqa həmin gün Lozannada Boğazlarda rejim haqqında ayrıca bir konvensiya imzalandı ki, bu sənədin tam mətni işə əlavə olunub.

Həmin gün Türkiyə və müttəfiq dövlətlər arasında Osmanlı imperiyasında bir sıra konsesiyalara dair protokol imzalandı. Həmin protokolun birinci maddəsində göstərilir: Türkiyə və razılığa gələn digər tərəflər arasında 1914-cü il oktyabrın 29-dək imzalanan konsesiya müqavilələri qüvvədə qalır və həmin konsesiyalar mütləq yeni iqtisadi şəraitə uyğunlaşdırılmalıdır.

Konfransda Türkiyənin bir sıra kompromis qərarları razılaşmasına baxmayaraq, Lozanna müqaviləsi Türkiyənin Müttəfiqlərin Türkiyəni parçalamaq planlarına qarşı çevrilmiş mübarizəsinin qələbəsi idi. Türkiyə konfransda bərabər hüquqlu tərəf kimi çıxış edirdi. Böyük dövlətlər türk xalqının suverenliyi və hüququnu pozacaq hər şeydən imtina etməli oldular. Lozanna traktatı Sevr traktatının tamamilə əksi idi. Antanta dövlətləri hansı ki, əvvəllər Türkiyəyə sülh şərtləri diqtə edirdilər, indi əksinə Türkiyənin şərtlərini qəbul etməyə məcbur oldular. "Türklər yenidən İstanbulu və Şərqi Frakiyanın çox hissəsini aldılar".

Lozanna müqaviləsi birinci dünya müharibəsindən sonra qalib dövlətlər tərəfindən məğlub dövlətlərə zorla qəbul etdirilən barış anlaşmaları mahiyyətində deyildi. Bu anlaşma Osmanlı imperatorluğuna Sevr müqaviləsinin zorla qəbul etdirmək istəməsinə qarşı milli azadlıq hərəkatına başlayan və bu mübarizədən bacarıqla çıxan yeni türk dövləti ilə birinci dünya müharibəsinin qalibləri arasında başqa şərtlərlə bağlanan müqavilə idi. Dünya müharibəsində məğlub olan dövlətlər arasında yalnız Türkiyə belə müqavilə bağlamağa müvəffəq oldu.



Beləliklə, Müttəfiqlərin türk ərazilərini parçalamaq planlarına qarşı çevrilmiş mübarizənin sonu olan Lozanna sülh konfransı türk dövlətinin suverenliyinin beynəlxalq tanınması ilə nəticələndi. Lozanna sülh müqaviləsi TBMM-də avqustun 23-də 213 səslə qəbul edildi. Digər dövlətlərdə isə 1924-cü ilədək təsdiq edildi.

Lozanna müqaviləsinin TBMM-də qəbulunun səhərisi gün Müttəfiq dövlətlərinin İstanbuldakı ali komissarlarına bildirildi. Oktyabrın 2-də sonuncu müttəfiq donanmaları Dolmabaxça qarşısından ayrıldılar. Oktyabrın 6-da isə Şükr Naili paşanın komandanlığında türk birləşmələri İstanbula daxil oldular. Sülh müqaviləsi imzalanandan az sonra, yəni 1923-cü il oktyabrın 29-da Türkiyə respublika elan edildi.

---

[1] «История дипломатии». Т. III. М., 1965, с. 309.
[2] Îëàéëàðëà òöðê äûø ïîëèòèêàñû (1919-1920). ñ.48.
[3] Èíþíö È. Ùàòèðàëàð. I êèòàï. Àíêàðà, 1987. ñ.59.
[4] Рубинштейн Н.Л. Ближниц и Средний Восток после первой мировой войны. Лозаннская конференция. С. 123.
[5] Áàüûðîâ É. Òöðêèéÿ Ëîçàííà êîíôðàíñûíäà. Áàêû, 1957. ñ.92.
[6] Êàðàúàí À.Í. Ëîçàí êîíôåðàíñû âå Èñìåò ïàøà. Èñòàíáóë, 1979. ñ.31.
[7] Èñìåò ïàøàíûí ñþéëåâ âå äåìå÷ëåðè. ú.1. (1919-1946). ÒÄÒÅ éàéûíû. Èñòàíáóë, 1949. ñ.115.
[8] «История дипломатии». Т. III. с. 311.
[9] Áàüûðîâ É.ß. Òöðêèéÿ Ëîçàííà êîíôðàíñûíäà. ñ.95.
[10] "Ïðàâäà" ãÿçåòè. 1 äåêàáð 1922.
[11] «Внешняя политика СССР». Сборник документов. Т.2. М., 1944, с. 686.
[12] Дранов В.А. Черноморские проливы (международно-правовой режим). М., 1948, с. 187.

[13] Тейлор А.Дж. Борьба за господство в Европе. 1848-1918. М., 1958.

[14] Годовой отчет НКИД за 1923 г. М., 1924. с. 15.

[15] Миллер А.Ф. Турция и проблема проливов. М., 1947, с. 251.

[16] Годовой отчет НКИД за 1923 г. М., 1924. с. 17-18.

[17] Бараболя Р.Д. Международно-правовой режим важнейших проливов и каналов. М., 1965. с.12-13.

[18] Китайгородский Р. Вопрос о капитуляциях на Лозаннской конференции. – «Новый Восток», 1924, кн.5, с. 115.

[19] Альтман В.В. От Лозанны к Монтре. М., 1960, с. 39.

[20] "«Новый Восток», 1924, №5, с. 117-118.

[21] "Ïðàâäà" ãÿçåòè. 30 äåêàáð 1922.

[22] Éåíèàé È.Ù. Îñìàíëû Áîðъàëàðû òàðèùè. Êîíéà, 1986. ñ.201. Ìåðàé Ë.Ñ. Ëîçàí òóòàíàêëàðû. òàêûì II. ú.1. êèòàï 2.ñ.39-42, 61-68.

[23] Из серии «Итоги империалистической войны Серия мирных договоров». М., с. 214.

[24] Ракосовски Х.Л. Лозаннская конференция. М., 1924 С. 121.

[25] «Известия» ãÿçåòè. 15 äåêàáð. 1922.

[26] Денни Л. Борьба за нефтяную монополию. М., 19345. с. 113.

[27] Ìåðàé Ë.Ñ. Ëîçà[illegible]



[illegible][216][illegible][216][illegible][217][illegible]

# NƏTİCƏ

Birinci cahan müharibəsindən sonra beynəlxalq aləmdə baş verən dəyişikliklər dünyanın siyasi baxımdan yenidən qurulması kimi səciyyələnir. Bu baxımdan Avropa-Turkiyə münasibətlərinin 1918-1922-cü illəri əhatə edən dövründə baş verən hadisələr öz mürəkkəbliyi ilə diqqəti daha çox cəlb edir.

Avropa ilə Asiya qitəsi arasında körpü rolunu oynayan Türkiyə ərazisi geosiyasi və strateji baxımdan çox əhəmiyyətli əraziyə malik idi. Ona görə də Avropa dövlətləri və Rusiyanın Osmanlı Türkiyəsinə münasibətdə mövqelərində müəyyən yekdillik var idi. Avropa dövlətləri Osmanlı Türkiyəsini zəiflətmək və imperiyanın ərazilərinə sahib olmaq istəyirdilər. Həmçinin Rusiya boğazlara nəzarət etmək və İstanbula sahib olmaq üçün yollar axtarırdı. Belə bir şəraitdə çox şey Osmanlı Türkiyəsində hakimiyyətdə olan qüvvələrin düzgün siyasət yürütməsindən asılı idi. Amma "İttihad və Tərəqqi" partiyasının hakimiyyəti dövründə Osmanlı Türkiyəsinin daxili və xarici siyasətinin əsas istiqamətlərinə nəzər saldıqdan sonra bu siyasətin heç də düzgün olmadığını aydın görmək mümkündür.

Dünya müharibəsi ərəfəsində yaranmış beynəlxalq vəziyyəti düzgün təhlil etmədən "İttihad və Tərəqqi" hökuməti Dördler İttifaqı tərəfdən müharibəyə qoşulmaqla ölkənin gələcəyini sual altında qoymuş oldu. Türkiyənin hansı qrup tərəfindən müharibəyə qoşulmasından asılı olmayaraq Türkiyə hər hansı tərəfin qələbəsi təqdirində heç bir nailiyyət əldə edə bilməyəcəkdi. Çünki müharibəyə qoşulan dövlətlərin hər birinin Türkiyədə öz maraqları var idi.



Ölkənin daxili vəziyyəti də kəskin böhran keçirirdi. Ölkəni işsizlik və aclıq tamamilə bürümüşdü. Hərbi əməliyyatlar da məğlubiyyətlərlə başa çatdı. Belə bir vəziyyətdən yeganə çıxış yolu necə olursa-olsun barışıq imzalamaq idi. Mövcud iqtidarın yürütdüyü siyasətin iflasa uğraması yeni hökumət təşkilini zəruri edirdi. Nəticədə oktyabrın 13-də "İttihad və Tərəqqi" kabineti hakimiyyətdən getdi və Əhməd İzzət paşa kabineti quruldu. Yeni kabinetin tezliklə barışıq imzalamaq istəmələrinə baxmayaraq, İngiltərə atəşkəs vəziyyəti üçün düşündükləri əraziləri hələ tam işğal etmədiklərindən barışıq sazişini imzalamaq istəmirdi. Nəhayət, 1918-ci il oktyabrın sonu üçün ingilis orduları hərbi işğalları həyata keçirtdilər. Oktyabrın 30-da Türkiyə ilə Mudros barışığı imzalandı. Mudros barışığı Osmanlı hökumətinin bütün istiqamətlərdə yürütdüyü xarici siyasətin iflasa uğramasını göstərdi.

Antanta dövlətləri tərəfindən Osmanlı imperiyasının ərazisi nüfuz dairələrinə bölündü. Sultan və onun hökuməti isə ingilis – fransız imperializminin etibarlı xidmətçisinə çevrildi. İngilis kralı V Georqa göndərdiyi şəxsi məktubunda Sultan VI Mehmed istənilən razılaşma müqabilində onun taxt-tacının saxlanmasını xahiş etdi.

Hökumətin fəaliyyətsizliyi qarşısında ölkə əhalisi ayağa qalxaraq ayrı-ayrı cəmiyyətlər şəklində vətənin müdafiəsini təşkil etməyə başladılar.

Beləliklə, birinci cahan müharibəsinə avstriya-alman bloku tərəfindən qoşulan Osmanlı Türkiyəsi üçün müharibə mövcud iqtidarın yürütdüyü səbatsız siyasətin nəticəsində çox böyük faciə və ağır sonucla nəticələndi. Bu sonuc türk hökumətinin yürütdüyü siyasətin iflası Antanta dövlətlərinin işğalçı planlarının təntənəsi idi. Çünki ölkənin bütün bölgələri müttəfiq qoşunlarının nəzarəti altında idi. Mudros

barışığı isə müharibə illərində mövcud olan ingilis-fransız ziddiyyətlərini daha da kəskinləşdirdi.

Müttəfiq dövlətləri Mudros barışığı ilə kifayətlənməyib öz müstəmləkə siyasətlərini davam etdirdilər. Onlar öz aralarındakı mövcud ziddiyətləri aradan qaldırmaq və nüfuz dairələrini hüququ cəhətdən sənədləşdirmək üçün 1919-cu ildə Parisdə sülh konfransına toplaşdılar. Konfransda türk məsələsinin müzakirəsi ərazi bölgüsü uğrunda müttəfiqlərarası mövcud ziddiyyətləri daha da gərginləşdirdi.

L.Corc öz memuarlarında göstərirdi ki, "türk məsələsi ən çətin və mübahisəli məsələ idi..."[1]

"Türk məsələsinin" çətinliyi həmçinin müttəfiq dövlətlər arasında yekdil fikrin olmaması ilə bağlı idi. Amma konfransın diqqəti cəlb edən məsələsi bütün iştirakçıların Türkiyə əleyhinə çıxış etməsi idi. ABŞ prezidenti V.Vilson müharibədən sonra bildirmişdi: "Müharibə başa çatan kimi Türkiyə xəritədən silinməlidir". Klemanso "türklərin sivilizasiyaya malik olmayan bir xalq olduğunu" söyləmişdi. Lord Kerzon isə "türklərin bir vəba xəstəliyi olduğunu" demişdi. Müttəfiqlərin planlarına görə Türkiyə Avropadan çıxarılmalı, Ermənistan dövləti qurulmalı və ərəblər Osmanlıdan qopardılmalı idi.

Osmanlı torpaqlarının Müttəfiqlərin "ərazilərinə" qatılmasında çətinliklər var idi. Ancaq belə bir hərəkətin doğuracağı ziddiyyətlər qarşısında ortaya atılan mandat rejiminin harada və necə qurulması məsələsində müttəfiqlər razılaşa bilmirdilər.

Eyni zamanda Osmanlı hökumətinin satqın siyasəti müttəfiqlərə planlarını həyata keçirmək üçün şərait yaradırdı və Türkiyənin gələcək dövlət quruluşunu tamamilə şübhə altına alırdı. Buna görə də ölkənin hər guşəsini milli-azadlıq



hərəkatı bürümüşdü. Yeni təşkil edilən milli cəmiyyətlər mandat məsələsini tamamilə rədd edirdilər.

Türkiyə ərazilərinin bölüşdürülməsində yeni fikir sırasında yunan baş naziri Venizelosun Onlar Şurasına təqdim etdiyi böyük istəklər var idi. Bu istəklər qarşısında Amerika nümayəndələri mənfi mövqe tutdular. Bunu isə Türkiyənin hüquqları əsasında edildiyi kimi qəbul etmək düzgün olmazdı. Çünki Amerika Türkiyədə üç mandat planının (İstanbul-Türkiyə-Ermənistan) qəbul edilməsini istəyirdi. Yunan iddiaları bu plana uyğunlaşmırdı və Amerikanın Ermənistan üçün düşündüyü mandatın sərhədlərini dəyişdirirdi. Üstəlik bu zaman yunanlar Trabzonda kral üçün saray və dövlət dairələri üçün lazımi binalar belə hazırlamışdılar. Daha sonra İtaliya yeni tələblər irəli sürdü. Dördlər Şurasında hərbi hissələrin çıxardılması mübahisəyə səbəb oldu.

Beləliklə, Paris sülh konfransında türk məsələsi ümumən həll edilməmiş qaldı. Həmçinin Ermənistana Amerika mandatı məsələsi də açıq saxlanıldı. Konfransda mənafelər toqquşduğuna görə müttəfiqlərarası münasibətlər daha da gərginləşdi. Ən mübahisəli məsələlərdən biri olan İstanbul məsələsi də həll edilməmiş qaldı. Bu məsələni həll etmək məqsədi ilə 1919-cu ilin dekabrında İngiltərə və Fransa Londonda konfrans çağırdılar.

London konfransında Müttəfiq dövlətlər arasında mübahisəli məsələlərlə bağlı ümumi razılıq əldə olunmadı. Burada da "İstanbul məsələsi", "Boğazlar məsələsi", "Yaxın Şərq məsələsi" və s. açılmaz düyünə düşdü. L.Corc və Kerzon yalnız boğazların deyil, hətta Ədirnə də daxil olmaqla İstanbulun özünü müttəfiqlərin silahlı qüvvələri tərəfindən işğal etməsini və beynəlxalq idarəçiliyə verilməsini təklif edirdilər. Türklər İstanbul üzərində nominal

suverenlikdən və ümumiyyətlə, Avropa Türkiyəsindən məhrum edilməli, Sultanı isə işğalçı qüvvələrin nəzarəti altında İstanbuldakı "papa" iqametgahına gəlmək şərti ilə Bursaya göndərmək lazım idi.

Türkiyədə yaranmış acınacaqlı vəziyyət, o cümlədən türk xalqının acı taleyi bütün müsəlman dünyasını ayağa qaldırdı. Rusiya, Hindistan, Azərbaycan və digər müsəlman regionlarında türk xalqının azadlıq və istiqlal mübarizəsinə kömək göstərmək üçün əllərindən gələni etdilər.

1920-ci ilin əvvəlində Rusiya və Sibirdə yaşayan türk-tatar xalqları nümayəndələrinin yığıncağında Versal Ali Şurasına müraciət qəbul edildi. Həmin müraciətdə deyilirdi: "...Antanta Avropada möhkəm sülh istəyirsə, türk dünyası ilə hesablaşmalıdır. Əgər köhnə əsrlərdə Avropanın ədalətsizliyi hələ türk xalqlarının yaddaşından silinməyibsə ədalət və bərabərlik əsri olan XX əsrdəki yeni ağrılar yəqin ki, heç vaxt unudulmayacaqdır..." Təbii ki, bütün bunlar müttəfiqlərin mövqeyinə təsir etməyə bilməzdi.

Milli-azadlıq hərəkatını susdurmaq üçün müttəfiqlər tez bir zamanda "türk məsələsini" həll etməyi düşünürdülər. Bunun da səbəbi var idi. Onlar başa düşürdülər ki, türk məsələsi həll edilməyincə müttəfiqlərarası ziddiyyətlər gərginləşəcək, vaxt uzandıqca isə milli-azadlıq hərəkatı daha geniş vüsət alacaq, bunun qarşısını isə almaq mümkün olmayacaqdır.

1920-ci il martın 16-da İstanbulun işğal planı həyata keçirildi. Bu xəbəri eşidən kimi M.Kamal paşa Ankaradan müttəfiqlərin İstanbuldakı təmsilçilərinə, bitərəf dövlətlərin xarici işlər nazirliklərinə, dünya dövlətləri parlamentlərinə etiraz teleqramı göndərərək İstanbulun işğal edilməsini XX əsrin mədəniyyət və insanlığın bütün əsaslarına, hürriyyət, millət və vətən duyğusu prinsiplərinə vurulmuş bir zərbə



olduğunu qeyd etdi.

Həmin gün M.Kamal paşa türk xalqına öz tarixi müraciətini etdi. Dörd maddədən ibarət olan bu müraciətdə diqqəti cəlb edən məsələ İstanbulun işğalı ilə Osmanlı dövlətinin sona gəlməsi olduğunun qəbulu edilməsi və türk xalqının istiqlal mübarizəsinə çağrılması idi.

Müraciətdə deyilirdi: "...bu dövlətlər bu gün İstanbulu işğal etməklə Osmanlı dövlətinin 700 illik mövcudluğuna son qoydular, yəni bu addımları ilə türk xalqını istiqlalının mübarizəsinə dəvət etdilər".

İstanbulun işğalı ümumilikdə türk xalqını işğalçılara qarşı azadlıq mübarizəsinə sövq etməklə müttəfiqlərin məğlubiyyətini yaxınlaşdırdı. İstanbulun işğalından sonra İngiltərə Osmanlı hökuməti ilə sülh müqaviləsi imzalanmasını sürətləndirməyə başladı.

1920-ci ilin aprelində San-Remoda üç müttəfiq dövlətin baş nazirlərinin konfransı açıldı. Bu konfransda başlıca məqsəd Osmanlı imperiyasının parçalanmasına dair planları hüquqi cəhətdən əsaslandıran müqavilə hazırlamaq və Türkiyəni kiçik bir oyuncaq dövlət halına gətirmək idi. San-Remodakı qərara əsasən Cənub və Cənub-Şərqi Anadoluda, Anadolunun içərilərinə doğru İtaliya və Fransa nüfuz dairələri yaradılırdı və İngiltərənin himayəsi altında bir Kürdüstan dövləti təşkil edilirdi. Şərqi Anadoluda altı vilayət daxil olmaqla Ermənistana, İzmir və Qərbi Trakiya və Şərqi Trakiyanın böyük bir hissəsi Yunanıstana verilirdi.

San-Remo qərarlarına etiraz əlaməti olaraq mayın 9-da Ədirnədə toplanan bir konqres qərarların icrasına qarşı silahlı müqavimət göstərmək qərarına gəldi.

San-Remo qərarları eyni zamanda qalib dövlətlərin maraqlarını qarşı-qarşıya qoyduğu üçün müttəfiqlərarası ziddiyyətləri bir az da dərinləşdirdi. Məsələn, amerikalılar

buna ciddi etiraz etdilər. Sülh müqaviləsi həm İngiltərəni, həm də Fransanı tam qane etməsə də, Türkiyədə baş verən hərbi və ictimai hadisələr onları sülh müqaviləsini tezləşdirməyə və eyni zamanda millətçilərin buna münasibətini müəyyənləşdirməyə cəhd göstərməyə məcbur edirdi.

Müqavilə layihəsi isə Türkiyədə böyük həyəcana səbəb oldu. TBMM iyunun 7-də İstanbulun işğalından sonra imzalanmış bütün qərarların qanunsuz olması haqda qərar qəbul etdi. Müqaviləyə görə yunanlar geniş əraziyə sahib olmalı idi. Ona görə də Venizelos Anadoluda qayda yaratmaq üçün öz xidmətlərini təklif etdi. İngiltərə isə öz ənənəvi siyasətinə uyğun olaraq yunanların əli ilə türk milli-azadlıq hərəkatını boğmaq və bu yolla Osmanlıya himayədarlıq etmək təşəbbüsünü ələ almaq istəyirdi.

İyunun 22-də hücuma keçən yunan hərbi birləşmələri müttəfiqlərin köməyi ilə 10-12 gün ərzində Mərmərə dənizindən Alaşəhərə qədər olan əraziləri zəbt etdilər. Onların əsas məqsədləri Antanta planlarına qarşı mübarizə aparan kamalçıları məhv etmək idi.

İyunun 24-də müqavilə mətni gizlicə olaraq Osmanlı hökumətinə verildi. Bunun da səbəbi müqaviləni imzalamaqda hökumət üçün çətinliklər yaratmamaq idi.

İyulun 22-də Sultanın rəhbərliyi ilə Ulduz sarayda "Böyük divan"ın iclası oldu. Həmin iclasda Osmanlı dövlətinin şərəf və ləyaqətini tapdalayan sülh müqaviləsinin imzalanmasına razılıq verildi. Bununla da Sultan öz hakimiyyətinin mənafeyini qorumaq xatirinə ölkə ictimaiyyətinin fikrinə zidd olaraq xalqın mənafeyini qurban verdi. Mudros barışığından sonra Müttəfiqlərin Türkiyəyə təklif etdikləri dörd sülh təklifindən birincisi olan Sevr müqaviləsi demək olar ki, heç bir qarşılıqlı müzakirələr



olmadan yunan baş naziri Venizelosunda iştirakı ilə Müttəfiqlər və Sultan hökuməti tərəfindən 1920-ci il 10 avqust tarixdə imzalandı. Amma bu müqavilə TBMM tərəfindən heç bir müzakirə edilmədən rədd edildi. Bu müqavilə Versal sisteminin ən ağır müqaviləsi idi.

Məntiqi olaraq qarşıya belə bir sual çıxır. Sevr müqaviləsi həyata keçirilərdisə, na olacaqdı?

Türkiyə Anadolunun kiçik bir parçasına sıxışdırılacaqdı. Müdafiəsi, güclü ordusu, dəniz qüvvələri və hərbi-hava qüvvələri olmayacaqdı. Öz gəlirlərinə sahib olmayacaqdı, iqtisadiyyatını və sənayesini xaricilər idarə edəcəkdi. Vətəndaşlarının işlərini xaricilər mühakimə edəcəkdi. Dövlətin fəlsəfəsi İstanbulda oturan xəlifənin istəyinə müvafiq qurulacaqdı.

Sevr müqaviləsinə görə Ermənistana veriləcək ərazilərin ermənilər tərəfindən zəbt olunması və burada bir erməni dövləti qurulması nəzərdə tutulurdu. Amma bu cəhd puça çıxdı. Eyni zamanda avqustun 10-da Ermənistan daşnak hökuməti ilə sovet Rusiyası arasında müqavilə imzalandı. Bu müqaviləyə əsasən Rusiya Türkiyənin altı vilayətini erməni əraziləri kimi qəbul edirdi. Bolşevik hökuməti həmin vaxt danışıqlar apardıqları Ankara hökuməti xarici işlər naziri Bəkir Sami bəydən bunu qəbul etmələrini istəmişdi. Burada Rusiyanın düşüncələri belə idi: Sevr müqaviləsi ilə onsuz da türk dövlətinin varlığına son qoyulacaqdı və bundan sonra onun maksimum qazancı Qafqazda əlaltısı olan ermənilərə yeni ərazilər qazandırmaq ola bilərdi. Çünki çar Rusiyasının Türkiyəyə münasibətdə işğalçı planlarını həyata keçirmək mümkünsüz idi. Bunun da səbəbi oktyabr çevrilişindən sonra siyasi sistemin dəyişməsi və Avropanın bolşevik Rusiyasına düşmən münasibəti idi. Amma Avropanın Rusiyaya düşmən münasibəti Türkiyə üçün əlve-

rişli idi. Çünki Türkiyə və Rusiya eyni vəziyyətdə idilər. Bu vəziyyətdə isə onların yeganə çıxış yolu bir-birinə yardım etmək və müttəfiqə çevrilmək idi.

Digər tərəfdən, döyüş meydanlarında kamalçıların əhəmiyyətli uğurları da dövlətlərarası münasibətlərə seçim gətirirdi. 1921-ci il yanvarın 10-da kamalçılar İnönü kəndində yunanları ağır məğlub etdilər. Bu qələbənin böyük siyasi əhəmiyyəti var idi. Qələbədən sonra Antanta dövlətləri kamalçıları real qüvvə kimi qəbul etdilər. Bundan sonra müttəfiqlər Sevr müqaviləsini türk xalqına zorla qəbul etdirə bilməyəcəklərini anladılar və Londonda keçirilən konfransda ikinci sülh təklifi ilə çıxış etdilər. Bu təkliflər Sevr müqaviləsindəki bəzi maddələrin dəyişdirilməsi ilə edilmişdi. Amma onlar çox cüzi dəyişikliklər idi və nəticə etibarilə ikinci İnönü döyüşünə gətirib çıxartdı.

İnönüdə türk ordularının yunanlar üzərində ikinci böyük qələbəsi müttəfiqlərin mövqeyini bir daha sarsıtdı. Türklər isə qələbələrini davam etdirdilər. Ona görə də müttəfiq dövlətlər tədricən Türkiyəyə münasibətdə öz siyasətlərini yumşaltmağa məcbur oldular. İngilis hökuməti artıq sülhə nail olmaq üçün yeni yollar aramağa çalışdı. Amma 1921-ci il iyun-iyul aylarında yunan ordusu tərəfindən bir sıra yeni uğurlar əldə edildikdər sonra Müttəfiqlərin əvvəlki işğalçı planlarının yerinə yetiriləcəyinə ümidləri artdı. Amma yunanların əli ilə "Böyük qələbə" əldə etmək niyyətində səhvə yol verdilər. Çünki avqustun 23-də başlamış Sakarya "meydan döyüşündə" türklərin tarixi qələbəsi Türkiyə üçün sülh məsələsində əsaslı dönüşün başlanğıcı oldu. Təsadüfi deyil ki, sentyabrın 19-da TBMM baş komandan M.Kamalın Sakarya meydan döyüşü haqda hesabatını dinləyib ona "qazi" titulu verdi.

Məhv edilmiş Osmanlı imperiyasının yerində yeni bir



dünyəvi türk dövləti qurmaq ideyası tədricən reallaşmaqda idi. Amma ağır Sevr müqaviləsi hələ də qüvvədə qalmaqda idi.

Sakarya "meydan döyüşü" müttəfiqlərarası ziddiyyətlər zəncirinə yeni bir həlqə əlavə etdi. Çünki hələ London konfransı zamanı Fransa və İtaliya Türkiyə ilə razılaşmalar imzalamışdılar. Sakarya döyüşündən sonra Fransa artıq türklərlə sülhə nail olmağın yaxşı mövqe olması barədə qəti qərara gəldi. TBMM və Fransa hökuməti arasında ikitərəfli danışıqlar başlandı. Nəticə etibarilə 1921-ci il oktyabrın 20-də iki hökumət arasında müharibə vəziyyətinin sona gəldiyini bildirən Ankara müqaviləsi imzalandı. Bu müqavilə Türkiyə üçün bir siyasi qələbə oldu. İlk növbədə müqavilə müttəfiqlərarası münasibətlərin gərginləşməsində mühüm rol oynadı.

Artıq 1922-ci ilin yayında türk ordu hissələri bütün cəbhə böyu əks hücuma keçib müttəfiqləri öz ana torpaqlarından qovmaq planını müvəffəqiyyətlə yerinə yetirdi və sentyabrın 9-da yunanlar üzərində tam qələbə çaldı. 1922-ci ilin sonu üçün Antanta-Türkiyə münasibətlərində "rollar dəyişdi". Belə ki, birinci dünya müharibəsindən sonra Müttəfiq qoşunları Türkiyə ərazilərini işğal edərək irəliləyirdisə, artıq beş illik mübarizədən sonra türk orduları ərazilərini azad edib müttəfiqlərə ağır zərbələr vuraraq qarşılarına qoyduqları məqsədə tam nail oldular.

Türkiyənin müharibəni qələbə ilə başa çatdırması və Antantanın işğalçı planlarını alt-üst etməsi müttəfiqlərarası münasibətlərdəki gərginləşməni kulminasiya nöqtəsinə çatdırdı. Hətta İngiltərə Fransanı Türkiyəyə yardım etməkdə ittiham etdi.

Nəhayət, 1922-ci il oktyabrın 11-də Mudaniyada barışıq müqaviləsi imzalandı.

Araşdırmalarımızı yekunlaşdıraraq bir sıra ümumi nəticələrə gəlmək mümkündür. Bu nəticələr aşağıdakılardan ibarətdir:

Əvvəla, birinci dünya müharibəsi ərəfəsində beynəlxalq vəziyyəti düzgün qiymətləndirə bilməyən Sultan hökuməti uzun diplomatik çəkişmələrdən sonra avstriya-alman bloku tərəfindən müharibəyə qoşuldu. Müharibənin sonu üçün məhz bu blokun məğlub olması nəticəsində Antanta dövlətləri Türkiyəni Mudros barışığı kimi ağır bir saziş imzalamağa məcbur etdilər. Bu sazişi imzalamaqla Sultanın "ölkəni xilas etmək" ümidləri boşa çıxdı. Ölkənin bütün əraziləri müttəfiq qoşunları tərəfindən işğal edildi.

İkincisi, Mudros barışığı kimi ağır sazişlə kifayətlənməyən müttəfiqlər Osmanlı imperiyasının ərazilərini mandataltı ərazilərə bölüşdürmək öz nəzarətləri altında idarə etmək planları ilə Paris sülh konfransında ayrı-ayrı təkliflərlə çıxış etdilər. Lakin son nəticədə heç bir razılığa gələ bilmədilər. Çünki konfransda səslənən təklif və tələblər demək olar ki, bir-birinə zidd idi. Müttəfiqlərin Osmanlı ərazilərində nüfuz dairələri toqquşurdu. Bu da rızılığa gəlməmək üçün əsas səbəb oldu. Eyni zamanda Avropanın özündə baş verən ictimai-siyasi hadisələr də müzakirələrə təsir göstərdi.

Üçüncüsü, müttəfiqlərin qızışdıraraq meydana saldıqları Yunanıstanın Türkiyə ərazilərində törətdikləri faciələr xalqa xeyli dərəcədə ağır təsir etdi. Bu vəziyyətdən yeganə düzgün çıxış yolu silaha sarılmaq və vətəni müdafiə etmək idi. Türk xalqı da bu yolu tutdu. Çünki əgər Sultan hökumətinin müttəfiqlər qarşısında yürütdüyü mülayimlik və təslimçilik mövqeyindən çıxış etsəydilər, onda tarixi türk ərazilərindən heç bir əsər-əlamət qalmayacağı göz önündə idi.



Dördüncüsü, müttəfiq dövlətlər sırasında İngiltərənin aparıcı rola malik olması və Türkiyəyə münasibətdə müttəfiqlərinin fikirlərinə qarşı çıxaraq Yunanıstanı müdafiə etməsi son nəticədə Türkiyənin xeyrinə oldu. Belə ki, Yunanıstanın ağlasığmaz iddialarla çıxış etməsi və mümkün olmayan öhdəliklər götürərək türkləri yunan silahı qarşısında təslim etmək ideyaları Fransa və İtaliyanın tərəddüdünə səbəb oldu. Bu da Türkiyənin xeyrinə idi.

Beşincisi, müttəfiqlər İstanbulu işğal etməklə özlərinin Türkiyəyə münasibətdə atdıqları səhv addımların ən böyüyünü atmış oldular. Çünki İstanbul işğal ediləndən dərhal sonra milli mücahidlər Ankarada TBMM-ni təşkil edərək son qələbəyədək mübarizə aparacaqlarını bəyan etdilər.

İstanbul işğal ediləndən sonra müttəfiqlər Türkiyə ilə sülh müqaviləsi layihəsi hazırlayıb Sevrdə imzaladılar. Amma bunu həyata keçirmək mümkün deyildi. Çünki bu müqaviləyə qarşı böyük bir xalq qəhrəmanlıqla mübarizə aparırdı və həqiqətən də müqavilənin yerinə yetirilməsinə imkan vermədilər. Digər tərəfdən, bu müqaviləni həyata keçirtmək Antanta dövlətlərinin özləri üçün də mümkün deyildi. Sevr müqaviləsi elə bir ədalətsiz müqavilə idi ki, onun həyata keçirilməsi tarixin ən böyük ədalətsizliklərindən biri ola bilərdi.

Altıncısı, Türk xalqı beş illik ağır mübarizədən sonra öz silahı ilə Antanta dövlətlərinin hərbi-siyasi planlarına sarsıdığı bir zərbə vurdu. Bu zərbədən sonra Avropanın çıxış yolu Türkiyə ilə onu qane edən müqavilə imzalamaq idi.

Bu qələbənin nəticəsidir ki, bu gün dünyəvi bir Türkiyə Respublikası yaşayır, inkişaf edir, çiçəklənir, dünya dövlətlər sırasına daxil olmuşdur.

Yeddincisi, müasir dövrün dövlətlərarası müna-

sibətlərinə nəzər salaraq əsrin əvvəli ilə sonu arasında böyük oxşarlıqlar olduğu nəticəsinə gəlmək mümkündür. Çünki araşdırma apararkən əldə etdiyimiz məlumatlar içərisində 1970-ci ildə Parisdə keçirilən bir toplantı haqda məlumat əldə edə bildik. 1970-ci ildə Parisdə Sevr müqaviləsinin 50-illiyi münasibəti ilə toplantı keçirilmişdi. 50 il vaxt keçməsinə baxmayaraq burada Avropanın Türkiyəyə münasibətdə Sevr əhvalının bərpa olunması kimi çıxışlar olmuşdu. Digər tərəfdən, Qərbi Avropanın əsrin əvvəlində olduğu kimi indiki zamanda da Yunanıstanla Türkiyə arasında seçim mövqeyinə nəzər saldıqda əsrin əvvəlində olduğu kimi bu gün də Avropanın Yunanıstanın mövqeyində çıxış etdiyi görünür. Çünki hər iki dövlət Avropa Birliyinə üzv olmaq üçün eyni vaxtda müraciət etsələr də, Yunanıstan artıq Birliyin tam səlahiyyətli üzvü olmuşdur. Lakin Türkiyəyə son toplantıda müxtəlif bəhanələrlə "xeyr" cavabı verildi. Türkiyə hökuməti indi öz siyasətində dilemma qarşısındadır: ya əvvəlki siyasət davam etdirilməli, ya da xarici siyasət konsepsiyasına yenidən baxılmalı.

Avropa dövlətlərinə gəldikdə isə onlar əsrin əvvəlinə nəzər salaraq siyasət yürütmələri daha yaxşı olardı. Çünki Türkiyənin Avropadan təcrid edilməsi siyasətinin nə ilə nəticələndiyini tarix sübut etmişdir.

---

[1] Джордж Л. Военные мемуары, т.V, с. 169.



## ƏLAVƏ 1

*Maddə 1.* Qara dənizə keçmək üçün Çanaqqala və Qara dəniz boğazlarının fəth edilməsi, Çanaqqala və Qara dəniz istehkamlarının Müttəfiqlər tərəfindən işğalı.

*Maddə 2.* Osmanlı sularındakı bütün sualtı silahlar və torpedo, giliz, mərmi ləvazimatı göstəriləcək və bunları məhv etmək üçün tələb olunan yardım ediləcəkdir.

*Maddə 3.* Qara dənizdə mövcud olan sualtı silah mövqeləri haqqında məlumat veriləcək.

*Maddə 4.* Müttəfiq hökumətlərə mənsub olan hərbi əsirlərlə erməni əsirləri İstanbulda cəm ediləcək və qeyd-şərtsiz müvafiq ölkəyə təslim olunacaqdır.

*Maddə 5.* Sərhədlərin qorunması və daxili asayişin qorunması üçün lazım olacaq hərbi qüvvələrdən başqa qalanları dərhal tərxis olunacaq (Bu hərbi qüvvələrin miqdarı və vəziyyətləri müttəfiq dövlətlər tərəfindən müzakirə edildikdən sonra qərarlaşdırılacaq).

*Maddə 6.* Osmanlı sularında zabit və hərbçilərin təchizatı üçün kiçik gəmilər müstəsna olmaqla Osmanlı sularında və Müttəfiq dövlətlər tərəfindən işğal olunmuş sularda olan lazımi qədər hərbi gəmi təslim olunacaq (göstərilən Osmanlı limanları və limanlardakı mövqelər qalacaqdır).

*Maddə 7.* Müttəfiqlər təhlükəli vəziyyət yarandıqda hər hansı strateji nöqtəni işğal etmək haqqına sahib olacaqlar.

*Maddə 8.* Hazırda Osmanlı işğalı altında olan bütün limanlar müttəfiq gəmiləri tərəfindən istifadə ediləcək və hərbdə müttəfiqlərə qarşı iştirak edənlər üçün məhdudlaşdırılacaq.

*Maddə 9.* Müttəfiqlər Osmanlı tərsanə və li-

manlarındakı ümumi gəmi təmiri üçün vəsaitlərdən istifadə edəcəklər.

*Maddə 10.* Toros tunellərinin Müttəfiqlər tərəfindən işğalı.

*Maddə 11.* İranın Şimali Qərbindəki Osmanlı qüvvələrinin dərhal müharibədən əvvəlki mövqelərinə qaytarılması barədə əvvəlcə qəbul olunan qərar icra ediləcəkdir. Osmanlı dövləti tərəfindən işğal olunmuş Qafqaz ərazisi mövcud şəraitə uyğun olaraq qalan qismi lazım gələrsə Müttəfiqlər tərəfindən nəzarətə alınacaq.

*Maddə 12.* Hökumət (rabitə) əlaqələri müstəsna olmaqla telefon, teleqraf və kabellər müttəfiq dövlətin məmurlarının nəzarəti altına keçəcəkdir.

*Maddə 13.* Dəniz, hərbi və ticarət materiallarının tamamilə nəzarətə alınması.

*Maddə 14.* Dövlətin ehtiyacları təmin olunduqdan sonra ehtiyat kömür, yanacaq maddələri və dəniz ləvazimatı Türkiyədən alınaraq heç bir dövlətə ixrac olunmayacaqdır.

*Maddə 15.* Bütün ərazilərə müttəfiq dövlətlərin zabitləri məmur təyin olunacaq. Bunlara eyni zamanda Osmanlı hökumətinin nəzarəti altında olan Qafqaz dövlətləri də daxildir. Qafqaz ərazisi tam və sərbəst olaraq müttəfiq dövlətlərin məmurlarının idarəsinə veriləcəkdir. Əhalinin ehtiyacının ödənilməsi nəzərə alınacaqdır. Bu maddəyə Batumun işğalı da daxildir. Osmanlı hökuməti Bakının işğalına da etiraz etməyəcəkdir.

*Maddə 16.* Hicazda, Yəməndə, Asırda, Suriyada və İranda olan mühafizə dəstəsi ən yaxın müttəfiq dövlətin komandanlığına təslim ediləcək. Kilikiyadakı qüvvələrin mühafizəsi üçün lazımi miqdardan bir hissəsi beşinci maddəyə uyğun olaraq geri çəkiləcəkdir.

*Maddə 17.* Trablisin qərbində və Binqazidə olan



Osmanlı zabitləri ən yaxın italyan müdafiə mövqeyinə təslim ediləcək. Təslim əmrinə itaət etmədikləri təqdirdə Osmanlı hökuməti məsələni qaydaya salmaq işini öz üzərinə götürür.

*Maddə 18.* Mısrata da daxil olmaqla Trablis və Binqazidə işğal olunan limanlar ən yaxın müttəfiq dövlətin müdafiə mövqeyinə təslim ediləcək.

*Maddə 19.* Almaniya və Avstriyanın bütün məmur və təəbələri bir ay müddətində (uzaq əyalətlərdən bir aydan sonra) Osmanlı ərazilərini tərk etməlidir.

*Maddə 20.* Beşinci maddəyə görə tərxis olunacaq Osmanlı qüvvələrinin təhcizat, əsləhə, cəbbəxana və vəsaitin köçürülməsi haqqında razılaşmaya riayət olunacaq.

*Maddə 21.* Müttəfiqlərin mənafeyini təmin etmək üçün İaşə Nəzarəti nəzdinə müttəfiq və onlara bu sahədə lazım olacaq kifayət qədər məlumat veriləcəkdir.

*Maddə 22.* Osmanlı hərbi əsirləri müttəfiq dövlətlərin nəzarəti altında mühafizə ediləcəkdir. Mülki, hərbi əsirlərlə, hərb xaricində olanlar seçiləcəkdir (fərqləndiriləcək).

*Maddə 23.* Osmanlı hökuməti Mərkəzi hökumətlə bütün münasibətləri təmin edəcək.

*Maddə 24.* Sitti vilayətində ixtişaşın mövcud olmadığı ərazilərin hər hansı bir qismini müttəfiq dövlətlər işğaldan mühafizə ediləcəkdir.

*Maddə 25.* Müttəfiqlərlə Osmanlı hökuməti arasında müqavilə 1918-ci il oktyabrın 30-da İngilis hökumətinin Mudros limanında lövbər salan Aqanemnon gəmisində imzalandı.

## ƏLAVƏ 2

## I HİSSƏ
## Millətlər Cəmiyyətinin Statusu (Maddə 1-26)

## II HİSSƏ
## Türkiyənin sərhədləri (Maddə 27-35)

*Maddə 27.1.* Avropada /Qara dəniz, Bosfora girişdən qərbə ta qərbi Polim məntəqəsinə: Yunanıstanla göstərilən məntəqədən cənub-qərbə, sonra qərbi Çatalçidən cənub-şərqə, Kalikratidən birbaşa qərbə Mərmərə dənizinə çıxışla birgə; Mərmərə dənizi/.

2. Asiyada: /Qərbi və cənuba – Mərmərə dənizi, Dardanell boğazı, Aralıq dənizinin şərq hissəsi, Mərmərə dənizinin adalar və sahildən 3 mil aralı adalar – bütün bunlar Bosfora girişdən Mərmərə dənizinə, ta Aralıq dənizinin şərq hissəsi məntəqəsində Karataşadək, İsgəndərun körfəzinin cənub-qərb qurtaracağına; Suriya ilə – Karataşda yuxarıda göstərilən məntəqə ilə Dayxun-İrmak çayı üzrə və buradan birbaşa 37-ci paraleldən bir az şimal-şərqə doğru Cəzirə-ibn-Omarin cənub-şərq məntəqəsinədək Suriyaya qalır; Mesopotomiya ilə – Cəzirə-ibn-Omardən ümumi istiqamətdə şimaldan şərqə gedən xətt və Mosul vilayətinin şimal sərhədləri üzrə keçən, lakin Amadiyanı Türkiyəyə saxlamaqla; şərqə və şimal-şərqə – Persiya ilə müharibəyədək sərhədlər və Rusiya ilə keçmiş sərhədlər, bu müqavilənin 89-cu maddəsinin qorunması şərti ilə; Qara dəniz/.

*Maddə 28.* /Versal müqaviləsinin 29-cu maddəsi/.

*Maddə 29.* /Sen-Jermin müqaviləsinin 29-cu maddəsi/.

*Maddə 30.* /Versal müqaviləsinin 30-cu maddəsi/.



*Maddə 31-35.* /Sen-Jermin müqaviləsinin 31-35-ci maddələri/.

## III HİSSƏ
## Siyasi müddəalar. /36-136-cı maddələr/

## I BÖLMƏ
## İstanbul /Maddə 36/

*Maddə 36.* Bu müqavilənin qərarlarına əməl etməklə razılığa gələn yüksək tərəflər ona razıdırlar ki, Osmanlı hökumətinin İstanbula hüquq və hüquqi əsaslarına zərər dəyməyəcək və bu hökumət, həmçinin ali həzrət sultan, burada azad yaşayır və Osmanlı dövlətinin paytaxtını saxlayırlar.

Amma, əgər Türkiyə bu müqavilənin və əlavə müqavilələr və konvensiyaların əsasında bu etnik azlıqların hüquqlarına hörmət edilməsinə aid olsa, /qorunmasında/ loyal olaraq yan keçsələr, müttəfiq dövlətlər mövcud şərtləri dəyişdirmək hüququnu özlərində saxlayırlar, Türkiyə isə bu münasibətdə qəbul ediləcək bütün qərarları qəbul edəcəyini öhdəsinə götürür.

## II BÖLMƏ
## Boğazlar /maddə 37-61 və 1-6-cı əlavələr/

*Maddə 37.* Bosfor, Dardanell və Mərmərə dənizi daxil olan Boğazlarda gəmiçilik gələcəkdə sülh və müharibə zamanı bütün ticarət və hərbi gəmilər üçün bayrağından asılı olmayaraq açıq qalır.

Bu sular blokadaya məruz qala bilməz, burada MC-nin qərarını yerinə yetirməkdən başqa heç bir akt həyata keçirilə bilməz.

*Maddə 38.* /"Boğazlar Komissiyasının" təşkili/

*Maddə 39.* Komissiyasının hakimiyyəti Aralıq dənizi tərəfindən Dardanellə girişdə və Qara dəniz tərəfindən Bosfora girişdə və bu girişlərdən dənizə üç mil məsafədə bütün sularda şamil edilir.

Bu hakimiyyət sahillərdə də şamil edilə bilər, çünki bu bölmənin qətnaməsinin yerinə yetirilməsi üçün vacibdir.

*Maddə 40.* /Komissiyanın tərkibi: ABŞ /nə vaxt istəsə/, Böyük Britaniya, İtaliya, Fransa, Yaponiya və Rusiyadan (MC-nin üzvü olduqdan sonra/ iki səsə malik olmaqla bir nümayəndə və Yunanıstan, Rumıniya, Bolqarıstan və Türkiyədən/ son iki ölkə MC-nin üzvü olduqdan sonra/ 1 səsə malik olmaqla bir nümayəndə/.

*Maddə 41.* /Komissiyanın üzvləri diplomatik imtiyazlardan istifadə edirlər/.

*Maddə 42.* Komissiya yerli hakimiyyətdən asılı olmayaraq bu müqavilə ilə ona verilən bütün hüquqları yerinə yetirəcək. O, ayrıca bayrağa, ayrıca büdcəyə və özünün xüsusi təşkilatına malik olacaq.

*Maddə 43.* /Boğazlarda gəmiçilik texnikasının vəziyyəti üzrə komissiyanın nəzarət funksiyaları/.



*Maddə 44.* Əgər komissiya qəbul etsə ki, Boğazlarda azad keçid pozulmuşdur, o, müttəfiq dövlətlərin İstanbulda nümayəndələrinə məlumat verir.

/178-ci maddədə göstərildiyi kimi işğalçı qüvvələr gətirir/.

/Onda bu nümayəndələr dəniz və hərbi qüvvələrin komandanlığı ilə Boğazlarda azad keçidi təmin etmək üçün lazımi tədbirlər haqqında razılıq əldə edir/.

*Maddə 45.* /Komissiyanın, Boğazlardan gəmilərin keçməsinə görə, yığılması təminatı ilə borclar almaq hüquqları/.

*Maddə 47.* /Komissiyanın şəxsi konsessiyaların hüquqlarını dəyişmək və ya almaq hüququ/.

*Maddə 48.* Komissiya... imkan daxilində Boğazlar zonasından xaricdə yaşayanlardan xarici polis zabitlərinin /komandanlığı/ rəhbərliyi /komissiya tərəfindən təyin edilən/ ilə... xüsusi polis korpusu təşkil etmək hüququna malik olacaq.

*Maddə 49.* Boğazlar zonasının, Mərmərə dənizi adaları daxil olmaqla osmanlı hissəsi və 136-cı maddədə göstərilən osmanlı ədliyyə islahatlarını gözləməklə, dövlətlərin vətəndaşları tərəfindən, kapitulyasiyadan istifadə edərək, komissiyanın qərar və qətnamələri pozularsa adları çəkilən dövlətlərin konsul məhkəmələrinə veriləcək. Bu münasibətdə müttəfiq dövlətlər özlərinin konsul məhkəmələrini yaratmağa razıdırlar. Osmanlı vətəndaşı və ya kapitulyasiyadan istifadə etməyən ölkənin vətəndaşı /qaydanı/ pozsa osmanlı məhkəmə hakimiyyətinə veriləcək. /Yunan hissələrində isə yunan hakimiyyətinə veriləcək/.

*Maddə 50.* Bütün ticarət gəmilərinin zabitləri və ekipajın tərkibi..., hansı ki, cinayətə, hüquq pozuntularına görə quruda həbs edilib..., komissiyanın yurisdiksiyası

daxilində törədilibsə səlahiyyətli məhkəmə hakimiyyətinə veriləcək...

*Maddə 52.* Komissiyanın yurisdiksiyası daxilində üzgüçiliyə aid olan bütün məsələlərdə, bütün gəmilər /37-ci maddədə göstərilən/, tamamilə eyni tutulacaq.

*Maddə 53.* Komissiya yurisdiksiyası daxilində və yüklərdən tutulan bütün vəsait komissiyaya veriləcək...

*Maddə 54.* Bütün vəsait heç bir hüquqi tapdalama olmadan bütün gəmilərdən eyni tutulacaq.

*Maddə 55.* Osmanlı dövləti və Ellin dövləti, hər biri nə qədər ona aiddirsə, öhdəlik götürürlər ki, komissiyanın torpaq sahəsi və tikili əldə etməsi işini asanlaşdıracaq.

*Maddə 57.* /1. Döyüşən gəmilərə Boğazlar zonasında növbəti limana keçmək üçün lazım olandan artıq ləvazimat götürmək qadağan edilir. Hərbi qüvvəni artırmaq üçün təmir aparmaq qadağan edilir.

II. Belə gəmilərin Boğazlar zonasından keçməsi imkan daxilində tezliklə həyata keçirilir.

III. Boğazlar zonası limanlarında döyüşən hərbi gəmilərin burada qalması 24 saatdan çox ola bilməz, /faciəli hadisə baş verməsə/. Boğazlar sularından rəqib gəmilərinin getməsi arasında vaxt 24 saatdan az ola bilməz.

*Maddə 58.* Döyüşən tərəflərin hərbi gəmiləri kimi priz gəmilərdə bütün münasibətlərdə eyni şərtlərə tabedir.

*Maddə 59.* /Döyüşən tərəflərə keçid üçün gözlənilməz halları çıxmaq şərti ilə, Boğazlarda ordu və hərbi ləvazimat yükləmək və boşaltmaq qadağandır.

*Maddə 60.* 57, 58 və 59-cu maddələrdəki qərarlar bir və bir neçə döyüşən tərəfin hüquqlarının məhdudlaşması kimi yozula bilməz.

*Maddə 61.* Bütün mübahisələr, hansı ki, bu bölmənin qətnamələrinin tətbiqində meydana çıxacaq və neçəki bu



İstanbula və Heydər-paşaya aiddir... 335-344-cü maddələrin qərarları komissiyaya veriləcək.

/Komissiyanın qərarı ilə razılaşmadıqda, maraqlı dövlətlərin tələbi ilə mübahisə MC-nə verilir/.

## ƏLAVƏ §/1-6/

§1. Boğazlar komissiyasında sədrlik iki il müddətinə və növbə ilə o, üzvlər arasında həyata keçiriləcək, hansı ki, iki səsə malikdir.

Komissiya öz qərarlarını səs çoxluğu ilə qəbul edəcək...

§4. Komissiya öz tabeliyində funksiyasını yerinə yetirmək üçün hərbi gəmilərə malik olacaq.

§5. Komissiya lazımi qaydalar qəbul etmək hüququna malik olacaq.

## III BÖLMƏ

*Maddə 62.* Böyük Britaniya, Fransa və İtaliya tərəfindən təyin edilən 3 üzvdən ibarət komissiya 6 ay ərzində Ermənistanın cənub sərhədlərindən cənuba və Efratdan şərqdə yerləşən kürd elemeni çoxluq təşkil edən əyalətlər üçün muxtariyyət haqqında əsasnamə hazırlayacaq. Komissiyada fikir birliyi olmasa müvafiq hökumətlər özləri həll edirlər. Eyni zamanda yuxarıda göstərilən əyalətlərin assur-xoldey və başqa etnik və dini azlıqların müdafiəsi üçün tədbirlər görülsün. Bu məqsədlə xüsusi komissiya, hansı ki, Britaniya, Fransa və İtalya nümayəndələrindən başqa mütləq fars və kürd nümayəndələri də daxil edilməlidir /türk-fars sərhədlərinə baxacaq, əgər lazım olsa sərhəddi dəyişdirəcək/.

*Maddə 63.* /Türkiyə öhdəlik götürür ki, 3 ay müddətində bu komissiyaların qərarını yerinə yetirir/.

*Maddə 64.* /Əgər bir ildən sonra 62-ci maddədə göstərilən ərazinin kürd əhalisi MC-nin Şurasına müraciət edib göstərsə ki, oranın əhalisinin əksəriyyəti Türkiyədən müstəqil yaşamaq iqtidarında olduğunu qəbul edir, onda Türkiyə bu əyalətlərə hüququndan imtina etməyi öhdəsinə götürür. Əgər yeni kürd dövlətinin tərkibinə Mosul vilayətinin kürdləri də daxil olmaq istərsə, onda müttəfiqlər buna etiraz etməyəcəklər/.



## IV BÖLMƏ
## İZMİR /65-83-cü illər/

*Maddə 65.* İzmir şəhəri və 66-cı maddədə göstərilən əlavə ərazilər onların yekun statusunun müəyyənləşdirilməsinədək... bu bölmənin qərarlarına tabe edilir.

*Maddə 66.* İzmir ərazisinin sərhədləri: Adramit körfəzi içərisində məntəqədən Egey dənizi üzrə şərqə və sonra ümumi istiqamətdə şimaldan cənuba Aydının şimal-şərq məntəqəsinədək; /buradan Egey dənizinə qərbə şimali Skalanovaya çıxışadək/.

*Maddə 67.* /İzmir ərazisinin müəyyənləşməsini yerinə yetirmək üçün 5 nəfərdən ibarət komissiya təşkil edilir: Böyük Britaniya, Fransa, İtaliya, Yunanıstan və Türkiyə/.

*Maddə 68.* /Bu müqavilə ilə İzmir və ətraf ərazilər Türkiyədən alınmış ərazi ilə eyniləşdirilir/.

*Maddə 69.* İzmir şəhəri və 66-cı maddədə göstərilən ərazilər Osmanlı suverenliyi altında qalır. Lakin, Türkiyə İzmir şəhəri və göstərilən ərazilər üzərində suveren hüququnu yerinə yetirməyi Ellin hökumətinə verir. Bu suverenliyi təsdiq etmək üçün Osmanlı bayrağı şəhərin xarici istehkamlarından birində daimi dalğalanacaq. Bu istehkam müttəfiqlər tərəfindən müəyyənləşəcək/.

*Maddə 70* /İzmirin idarəçiliyi Yunanıstan hökumətinə verilir, bunun üçün xüsusi çinovniklər təyin edir/.

*Maddə 71.* /Yunanıstan ərazidə hərbi qüvvələr saxlayır/.

Maddə 72-73. /Yunanıstan yerli parlament təşkil edir/.

*Maddə 74.* /İzmirdə məcburi hərbi xidmət olmayacaq/.

*Maddə 75.* /86-cı maddədə göstərilən azlıqların hüququnun qorunması və s. İzmirə də aid edilir/.

*Maddə 76.* /Yunanıstan, əgər istəsə, İzmiri öz kömrük

sisteminə daxil edə bilər/.

*Maddə 77.* /İzmirdə türk pulu saxlanılır. Yunanıstan onun qiymətindən düşməsi üçün tədbir görmək hüququna malik deyil/.

*Maddə 78.* /Beynəlxalq əhəmiyyətli limanlar haqqında əsasnamənin XI hissəsi İzmirə aid edilir/.

*Maddə 79.* /Vətəndaşlıq nöqteyi-nəzərindən İzmirin əhalisi yunan əhalisi ilə eyniləşir. Yunanıstan onların xaricdə hüquqlarını müdafiə edir/.

*Maddə 81.* /Fokey duz mədəninin hüquqi əsasnaməsinə heç bir əlavə edilməyəcək.../.

*Maddə 83.* /beş ildən sonra yerli parlament MC-Şurasından İzmirin tamamilə Yunanıstana birləşdirilməsini tələb edə bilər. MC-Şurası isə plebistsit təyin edə bilər. Əgər birləşmə qərara alınsa, Türkiyə İzmirə hüququndan imtina etməyi öhdəsinə götürür/.

## V BÖLMƏ
## YUNANISTAN /84-87-ci maddələr/

*Maddə 84.* 27-ci maddədə göstərilən ərazilərdən əlavə Türkiyə Yunanıstanın xeyrinə İmbros və Tenedos adalarından imtina edir. Təsdiq edilir ki, Aralıq dənizində Lemnos, Samofrakiya, Mitilen, Xios, Samos, Nikari, həmçinin Türkiyənin Asiya sahilindən 3 mildən az olan adalar Yunanıstana verilir. Boğazlar zonasında bu Boğazlarda azadlığı qorumağa münasibətdə Yunanıstanda Türkiyə qədər öhdəlik götürür.

*Maddə 85.* 6 üzvdən ibarət komissiya – 4 müttəfiqlər tərəfindən və Yunanıstan və Türkiyədən bir nəfər – 27-ci maddədə göstərilən yunan-türk sərhədlərini müəyyənləşdirir.



*Maddə 86.* Yunanıstan, Yunanıstanda və Ədirnədə azlıqların qorunması üçün xüsusi müqaviləyə razılaşır. O, həmçinin tranzit və digər millətlərin ticarət üçün ədalətli rejiminin müdafiəsi haqqında müqaviləyə razılaşır.

## VI BÖLMƏ
## ERMƏNİSTAN /88-93-cü maddələr/

*Maddə 83.* Türkiyə bəyan edir ki, O, Ermənistanı azad və müstəqil dövlət kimi qəbul edir, hansı ki, müttəfiqlər artıq bunu ediblər.

*Maddə 89.* Tərəflər razılışırlar ki, göstərilən vilayətlərdə türk-erməni sərhədlərini müəyyənləşdirmək məsələsini ABŞ prezidentinin münsiflər qərarına verirlər: Ərzurum, Trabzon, Van və Bitlis, bu sərhədlərdə Osmanlı ərazilərinin silahsızlaşdırılması və Ermənistanın dənizə çıxışı.

*Maddə 91.* Sərhədlərin həyata keçirilməsi üçün komissiya təşkili nəzərdə tutulur hansı ki, tərkibi gələcəkdə müəyyənləşəcək.

*Maddə 92.* Ermənistanın Azərbaycan və Gürcüstanla sərhədləri maraqlı tərəflərin qarşılıqlı razılığı ilə müəyyənləşəcək. Onlar arasında razılıq əldə edilməsə bu məsələni həll etmək müttəfiqlərin səlahiyyətinə verilir.

*Maddə 93.* Ermənistana münasibətdə 86-cı maddə təkrarlanır.

## VII BÖLMƏ
## Suriya, Mesopotomiya, Fələstin
## /94-97-ci maddələr/

*Maddə 94.* Suriya və Mesopotomiya 4-cü bölmənin 22-ci maddəsinə əsasən müvəqqəti olaraq müstəqil dövlət kimi tanınır, bir şərtlə ki, mandatçıların məsləhət və yardımları onlarda o, vaxtadək istiqamətlənəcək ki, onlar özlərini idarə etməyə qadir olacaqlar. Onların sərhədlərinin müəyyən edilməsi üçün Fransa, Böyük Britaniya, İtaliya və Türkiyə nümayəndələrindən və Suriya ilə sərhədləri müəyyən etmək üçün Suriya nümayəndəsi və Mesopotomiya ilə sərhəddi müəyyən etmək üçün onların nümayəndəsi daxil olmaqla komissiya təşkil edilsin. Göstərilən dövlətlərin başqa sərhədləri və mandatçının seçilməsi müttəfiqlər tərəfindən müəyyən ediləcək.

*Maddə 95.* Razılığa gələn yüksək tərəflər razıdırlar ki, 22-ci maddənin qərarının tətbiqində, Fələstinin o, sərhədlərdə idarə edilməsinə hansı ki, müttəfiq dövlətlər tərəfindən müəyyən ediləcək. Mandatçı, ilk olaraq 1917-ci il noyabrın 2-də Britaniya hökumətinin müəyyən etdiyi və başqa müttəfiqlərin qəbul etdiyi, Fələstində yəhudi milli ocağının təşkili haqqında qətnamənin həyata keçirilməsində cavabdehdir, bir şərtlə ki, qeyri-yəhudi millətlərin hüququ tapdalanmasın. Mandatçı dövlətlər müxtəlif icmalara aid bütün məsələləri və iddiaları öyrənmək üçün mümkün qədər tezliklə komissiya təşkil etsinlər. Komissiya təşkil ediləndə dini maraqlar nəzərə alınacaq. Komissiyanın sədri MC-Şurası tərəfindən təyin ediləcək.

*Maddə 96.* Müttəfiqlər özləri göstərilən ərazilər üçün mandat şərtləri hazırlayıb MC-Şurası təsdiqinə verir…

## VIII BÖLMƏ
## HECAZ. /98-100-cü maddələr/



*Maddə 98.* Türkiyə Hecazı azad və müstəqil dövlət kimi qəbul edir, /neçə artıq müttəfiqlər tanıyıblar/.

*Maddə 99.* Bütün dünya müsəlmanlarının müqəddəs yeri kimi qəbul etdikləri Məkkə və Mədinə şəhərlərinə azad və sadə gəlmək üçün Hecaz kralı öhdəlik götürür ki, bütün tədbirlər görəcək.

*Maddə 100.* Hecaz kralı öhdəlik götürür ki, MC-nin üzvü olan dövlətlər və Osmanlı imperiyasının keçmiş ərazisində yaranmış dövlətlər və müttəfiq dövlətlərin vətəndaşları, ticarət gəmiləri üçün öz ölkəsində tam bərabər ticarət hüququnu təmin etsin.

## IX BÖLMƏ
## Misir, Sudan və Kipr. /101-117-ci maddələr/
### 1. Misir. /101-112-ci maddələr/

*Maddə 101.* Türkiyə 5 noyabr 1914-cü il müqaviləsi ilə Misirə öz hüququndan imtina edir və 18 dekabr 1914-cü il tarixdə elan olunmuş Misirə Britaniya protektorluğunu qəbul edir.

*Maddə 102.* 18 dekabr 1914-cü il tarixədək Misirdə yaşayan Osmanlı vətəndaşları mexaniki olaraq Misir vətəndaşlığı alır.

*Maddə 104.* Bu müqavilənin bütün məsələləri üzrə Misir, onun vətəndaşları və onların mülkləri 1 avqust 1914-cü il tarixdən Türkiyədən ayrılmış ərazi rejiminə deyil, müttəfiq dövlətlər rejiminə bərabər hesab edilir.

*Maddə 105.* Bir il müddətində misirlilər Türkiyə xeyrinə vətəndaşlığa keçmək hüququnu özündə saxlayır.

*Maddə 106.* Misir hökuməti Misirdə türk vətəndaşları üçün rejim müəyyən edilməsində tamamilə azaddır.

*Maddə 107.* Xaricdəki Misir vətənlaşları Britaniya diplomatik və konsul müdafiəsi hüququna malikdirlər.

*Maddə 108.* Misir malları Türkiyədə idxal zamanı Britaniya mallarına verilən rejima malik olacaq.

*Maddə 109.* İmperator həzrətləri tərəfindən Süveyş kanalında azad gəmiçilik üzrə imzalanan 29 oktyabr 1888-ci il tarixli konvensiyaya əsasən Türkiyə Böyük Britaniya xeyrinə hüquqlarından imtina edir.

*Maddə 110.* Misirdə Osmanlı hökumətinə məxsus bütün mülkiyyət qeyd-şərtsiz Misir hökumətinə verilir.

*Maddə 112.* Əvvəllər Misir tərəfindən ödənilən xərclərə hüququndan Türkiyə imtina edir.

Böyük Britaniya öhdəlik götürür ki, Türkiyəni Misir tərəfindən ödəniləcək bütün xərclərdən azad edir.



Bu borclara aiddir:

– 1855-ci ildə zəmanət verilmiş borclar;

– 1894-cü il borcları, /1854-cü və 1871-ci illərdə konversiya edilmiş kimi təsvir edilən/.

– 1891-ci il borcları /yenə 1877-ci ildə konversiya edilmiş/.

Bu 1894, 1891 və 1855-ci illər borcları ödənildikdən sonra, Misir hökumətinin bütün öhdəlikləri, qurtarır.

### 2. Sudan. /113-114-cü maddələr/

*Maddə 113.* Tərəflər Britaniya və Misir hökumətləri arasında Sudanın idarəçiliyinə aid 19 yanvar 1889-cü il tarixli konvensiyanı, Suakin haqda 10 iyul 1899-cu il tarixli dəyişikliklər və əlavələr haqda konvensiyanı qəbul edirlər.

*Maddə 114.* Sudan vətəndaşları xarici ölkədə Britaniya diplomatik və konsul müdafiəsi hüququna malikdirlər.

### 3. Kipr. /115-117-ci maddələr/

*Maddə 115.* Razılığa gələn ali tərəflər Kiprin ann-eksiya edilməsi haqda Britaniyanın 5 dekabr 1914-cü il tarixli bəyanatını qəbul edirlər.

*Maddə 116.* Türkiyə Kiprə olan özünün bütün hüquqlarından, əvvəllər Sultan hökumətinə bu adadan ödənilən vəsaitdən imtina edir.

*Maddə 117.* Kipr adasında doğulmuş və yaşayan osmanlı vətəndaşlarını, osmanlı vətəndaşlığından azad olmaqla Britaniya vətəndaşlığını şərti olaraq qəbul edir.

## X BÖLMƏ
## Mərakeş, Tunis. /118-120-ci maddələr/

*Maddə 118.* Türkiyə Fransanın Mərakeşə protektorluğunu və onun bütün nəticələrini qəbul edir. Bu tanınma 30 mart 1912-ci il tarixdən etibarlıdır.

*Maddə 119.* Mərakeş məhsulları Türkiyəyə ixrac edilərkən fransız məhsullarına aid rejimə tabe olacaq.

*Maddə 120.* 12 may 1881-ci il tarixi ilə 118-119-cu maddələr Tunisə münasibətdə təkrar edilir.



## XI BÖLMƏ

## Livan və Egey dənizi adaları
## /121-122-ci maddələr/

*Maddə 121.* Türkiyə 1912-ci il 12 oktyabr tarixli Lozanna müqaviləsi ilə Livanda sultana verilən bütün hüquq və imtiyazlarından birdəfəlik imtina edir.

*Maddə 122.* Türkiyə İtaliyanın xeyrinə Egey adalarına bütün hüquq və hüquqi əsaslardan imtina edir: Stampali, Rodos, Kalki, Skarpanto, Kazos, Piskopis, Miziros, Kalimnoq, Leros, Patmos, Lipsos, Simi və Kos.

/indiki zamanda İtaliya tərəfindən işğal edilmiş, həmçinin Kastelloritso adalarından/.

## XII BÖLMƏ
## Vətəndaşlıq /123-131-ci maddələr/

*Maddə 123.* Bu müqavilənin qətnamələri ilə Türkiyədən ayrılan ərazilərdə yerləşən Osmanlı vətəndaşları yerli qanunvericilik şərtləri və hüququ əsasında həmin ərazi verilən dövlətin vətəndaşı hesab edilir.

*Maddə 124.* /123-cü maddə ilə türk vətəndaşlığını itirmiş və yeni vətəndaşlıq əldə etmiş 18 yaşdan yuxarı şəxslərin Türkiyə xeyrinə vətəndaşlıq qəbul etmə hüququ/.

*Maddə 125.* /Türkiyənin itirdiyi ərazilərdə yaşayan və orada milli azlığa məxsus olan 18 yaşdan yuxarı Türkiyə vətəndaşı bir il müddətinə Ermənistan, Azərbaycan, Gürcüstan, Yunanıstan, Hecaz, Mesopotomiya, Suriya, Bolqarıstan və Türkiyə vətəndaşlığını qəbul edə bilər, əgər vətəndaşlığı qəbul edilən irqə mənsubdursa/.

*Maddə 127.* Türkiyə ümumiyyətlə könüllü imiq-

rasiyanı yüngülləşdirməyi öhdəsinə götürür...

*Maddə 128.* /Versal müqaviləsinin 278-ci maddəsi/.

Vətəndaşlığı dəyişən şəxslərə heç bir tənbeh edilməməsi haqda Türkiyənin öhdəliyi.

*Maddə 129.* Bu müqavilə qüvvəyə mindiyi andan Fələstin dövləti sərhədləri /95-ci maddə ilə müəyyənləşəcək/ daxilində məskunlaşmış qeyri-osmanlı vətəndaşlığında olan yəhudilər, hüquqi cəhətdən Fələstin vətəndaşı olur, bütün digər vətəndaşlığı çıxmaq şərti ilə.

*Maddə 130.* /Sen-Jermin müqaviləsinin 82-ci maddəsi/.

*Maddə 131.* Bu bölmənin qətnaməsi İzmir şəhərinə və 66-cı maddədə göstərilən ərazilərin yekun statusu müəyyənləşəndən sonra/.

## XIII BÖLMƏ
## Ümumi qətnamələr /132-139-cu maddələr/

*Maddə 132.* /Versal müqaviləsinin 118-ci maddəsinə uyğun/.

*Maddə 133.* /Sen-Jermin müqaviləsinin 90-cı maddəsi/.

*Maddə 134.* /Sen-Jermin müqaviləsinin 89-cu maddəsi/.

*Maddə 135.* /Rusiya və rus dövləti haqqında. Versal müqaviləsinin 116 və 117-ci maddələri təkrar edilir; 259 və 277-ci maddələrə əsaslanmaq/.

*Maddə 136.* Digər dövlətlərin ekspertlərinin iştirakı ilə müttəfiq dövlətlərin nümayəndələrindən ibarət komissiya, Türkiyədə məhkəmə sahəsində kapitulyasiyanı əvəz etmək üçün 3 ay müddətinə islahatlar layihəsi hazırlansın. Müttəfiqlərin bu layihəni bəyəndikləri andan, Türkiyə öz növbəsində onu qəbul etməyi də öhdəsinə götürür. Yeni rejimin qüvvəyə minməsi vaxtı haqda müttəfiqlər öz aralarında /lazım gəlsə digər dövlətlərlə/ razılaşırlar.



*Maddə 137.* 1 avqust 1914-cü il tarixdən sonra hər hansı Türkiyə vətəndaşını onların hərbi və ya siyasi davranışı, yaxud müttəfiqlərə yardıma görə təqib davranışı, yaxud müttəfiqlərə yardıma görə təqib qadağan edilir.

*Maddə 139.* Türkiyə müsəlmanlar üzərində bütün yurisdiksiya və syuzerenitetindən imtina edir...

## IV HİSSƏ
## Azlıqların müdafiəsi /140-151-ci maddələr/

*Maddə 140.* /Polşa ilə müttəfiqlərin 28 iyun 1919-cu il tarixli müqaviləsinin 1-ci maddəsini təkrar etmək; 141, 145, 147-ci maddələrə əsaslanmaq /bu müqavilənin/.

*Maddə 141.* /Polşa ilə göstərilən müqavilənin azlıqların dini və azadlığının, həyatlarının müdafiəsi haqqında 1 və 2 bölmələri təkrar edilir, amma 2-ci bölmənin sonuncu “hansı ki, göndərilir” sözlərini buraxmaqla/.

Göstərilən bölmədəki qətnamələrin yerinə yetirilməsinə maneəçilik göstərənləri eyni dərəcədə cəzalandırmaq.

*Maddə 142.* 1 noyabr 1914-cü il tarixdən sonra Türkiyədə mövcud olmuş terrorçu rejimi nəzərə alaraq, /bu vaxtdan sonra islamizmə müraciət edilməsinə baxmayaraq nəzərə alınmadı/. 1 noyabr 1914-cü llədək qeyri-müsəlmanlar necə olub elə qalmış hesab edilir...

/Türkiyədə müharibə vaxtı törədilmiş vəhşiliyi “yaxşılaşdırmaq” məqsədi ilə Türkiyə hökuməti bütün sahələrdə zərər çəkənlərə yardım göstərəcək/.

*Maddə 143.* Etnik azlıqları məxsus, şəxslərin könüllü və qarşılıqlı mühacir etməsi haqqında müttəfiq dövlətlərin

qərarlarını qəbul etmək üçün Türkiyənin öhdəliyi.

*Maddə 144.* /Türkiyənin 1915-ci il "buraxılmış mülkiyyət haqqında qanunu qeyd edib, ədalətsizliyi qəbul etməsi", qovulanların öz ocaqlarına qayıtmasını yüngülləşdirmək, onların əvvəlki şəraitini bərpa etmək və müvafiq əyalətlərə MC-Şurasının komissiyasını buraxmaq öhdəliyi/.

*Maddə 145.* /Polşa ilə müqavilənin 7-ci maddəsi/. Bu müqavilənin qüvvəyə minməsindən iki il müddətinə Osmanlı hökuməti müttəfiqlərə, etnik azlıqlara proporsional prinsiplər əsasında seçki sistemi müqaviləsinin layihəsini təqdim edir.

"Qeyri-türk dilində danışanlara öz ana dillərindən istifadə hüququ. /Polşa ilə müqavilənin 3-4-cü bölmələrinin 7-ci maddəsinin analoqu/.

*Maddə 146.* Xarici təhsil müəssisələrinin verdiyi diplomların həqiqiliyinin Türkiyə tərəfindən qəbulu və belə diploma malik şəxslərin işləməsinə icazə verilməsi.

*Maddə 147.* /Məktəblər, xeyriyyə cəmiyyətləri və s. haqqında Polşa ilə müqavilənin 8-ci maddəsi/.

*Maddə 148.* /Polşa ilə müqavilənin 2 bölməsi, 9-cu maddə/.

*Maddə 149.* Osmanlı hökuməti Türkiyədə bütün kilsə və etnik azlıqların məktəblərinə hörmətlə yanaşmağı öhdəsinə götürür.

*Maddə 150.* Şəhərlərdə və əyalətlərdə, çoxlu sayda olan xristian və yəhudiləri onların adətlərinə zidd olan aktların keçirilməsinə məcbur etmək qadağandır.

*Maddə 151.* MC-Şurası ilə birgə müttəfiqlər bu müqavilənin bu hissəsinin yerinə yetirilməsi təminatı verir və Türkiyə bunu qəbul edir.



## V HİSSƏ
## Hərbi, dəniz və hava müddəaları
## /152-207-ci maddələr/
## /Giriş, Versal müqaviləsinin V hissəsinə giriş/

### I BÖLMƏ
### Hərbi müddəalar
### /152-180-ci maddələr və əlavə cədvəl [1]1-3/

### I FƏSİL
### Ümumi müddəalar /152-153-cü müddəalar/

*Maddə 152.* /Türkiyənin hərbi qüvvələri bunlardan ibarət olmalıdır: 1. Sultanın şəxsi qvardiyası; 2. daxili nizam-intizam saxlamaq və azlıqların hüquqlarını qorumaq üçün jandarmeriya; 3. ciddi hadisələr və sərhəddin möhkəmləndirilməsində jandarmeriyanın gücləndirilməsi üçün xüsusi dəstələr/.

*Maddə 153.* /6 ay müddətinə digər türk hərbi hissələri tərxis edilib buraxılmalıdır/.

### II FƏSİL
### Osmanlı ordusunun tərkibi, təşkili, kadrları
### /154-164-cü maddələr/

*Maddə 154.* /Sultanın şəxsi qvardiyasının tərkibi, qərargah, piyada və atlılardan ibarət olmalı və 70 əsgər və zabitdən çox olmamalıdır/.

*Maddə 155.* /Türkiyənin qalan hərbi qüvvələri, qərargah, zabitlər, məktəb personalı və qeyri-sıravi qüvvələrdə daxil, 50.000 adamdan çox ola bilməz/.

*Maddə 156.* Jandarmeriya hissələri Türkiyənin bütün

ərazisində legionlar formasında yayılacaq. /hansı ki, bu məqsədlə ərazi dairələrinə bölünəcək/. Bütün legionların ümumi sayı 35.000 adamdan çox olmamalıdır.

Onların xüsusi rolu formasına görə legionlar özlərində artilleriya, texniki silahlara malik ola bilməz/.

*Maddə 157.* /Xüsusi dəstələr piyada, atlı, dağ artilleriyası, istehkamçı və texniki xidmətdən ibarət olacaq. Onların ümumi sayı 15.000 adam olacaq/.

Bu və ya başqa legionun güclənməsi üçün dəstələr bu dəstələrin ümumi sayının üçdə birindən çox olmamalıdır/.

*Maddə 158.* /Sen-Jermin müqaviləsinin 2-ci bölməsinin 120-ci maddəsi/.

*Maddə 159.* /Türk jandarmeriyasının komandirliyində, onun təşkili və öyrədilməsində Türkiyə rəhbərliyi altında müttəfiqlərin yaxud bitərəf ölkələrin zabitləri iştirak edəcək, türk zabit hissəsinin 15%-ni keçməmək şərtilə Beynəlxalq komissiya/ maddə 200 /bu zabitlərin müxtəlif millətlər üçün proporsiyalara müəyyən edəcək.

*Maddə 160.* /Eyni rayonun ərazisində xarici zabitlər prinsipcə mütləq eyni millətə mənsub olmalıdır/.

*Maddə 161.* Boğazlar zonasında və 178-ci maddədə göstərilən adalarda və Lemnos, İmbros, Samofrakiya, Tenedos və Mitilen adalarını çıxmaq şərti ilə ellin və osmanlı jandarmeriya qüvvələri müttəfiqlərarası işğal komandanlığına tabe olacaq.

*Maddə 162.* /Versal müqaviləsinin 178-ci maddəsinə uyğun/.

## III FƏSİL
## Komplektivləşdirmə /165-167-ci maddələr/



*Maddə 165.* Osmanlı hərbi qüvvələri gələcəkdə yalnız könüllük yolu ilə qurulacaq və komplektləşdiriləcək. Komplektləşdirmə milli və dini fərqindən asılı olmayaraq Osmanlı dövlətinin tələbləri əsasında eyni əsaslarla aparılacaq/.

*Maddə 166.* /Unter-zabit və əsgərlərin saxlanılması haqda. Versal müqaviləsinin 174-cü maddəsinə müvafiq/.

*Maddə 167.* /Versal müqaviləsinin 175-ci maddəsi/.

## IV FƏSİL
## Hərbi məktəb, tədris müəssisəsi, hərbi cəmiyyət və assosiasiyalar. /168/169-cu maddələr/

*Maddə 168.* /Türkiyədə bir zabit məktəbinə və unter zabit üçün ərazi dairələri üzrə bir məktəbə malik olmağa icazə verilir. Bu məktəblərdə oxuyanların sayı ordudakı ehtiyaclara mütləq uyğun olmalıdır/.

*Maddə 169.* /Digər başqa təhsil müəssisələri, idman və başqa cəmiyyətlər hərbi məsələlərlə məşğul ola bilməz/

## V FƏSİL
## Gömrük məmurları, yerli, şəhər və kənd polisi, meşə gözətçiləri. /170-ci maddə/

*Maddə 170.* /Gömrük məmurları, polis, meşə gözətçiləri və s. artırılması yerli və kənd əhalisinin artmasına müvafiq olacaq. Bütün bu şəxslər və həmçinin dəmiryol işçiləri hərbi işlərdə iştirak edə bilməz. Xidmətçilərin şəxsi tərkibi jandarmeriya üçün nəzərdə tutulan 165-ci maddə ilə müəyyən edilən prinsiplər üzrə müəyyənləşir.

Osmanlı polisində, hansı ki, türk ordusundan ayrılacaq, xarici zabit və məmurlar, polisin təşkilində onun komandanlığında və öyrədilməsində əməkdaşlıq edəcəklər. Bu xarici tərkibin sayı maksimum 15% olacaq/.



## VI FƏSİL
## Silahlanma, təhcizat, maddi hissələr. /171-ci və 176-cı maddələr/

*Maddə 173.* /6 ay ərzində Türkiyənin müttəfiqlərə qalan hərbi materialı və məntəqələri təhvil verməsi/.

*Maddə 174.* /Hərbi və bütün hərbi təchizatın hazırlanması, leqal aparatlar, Türkiyədə yalnız müttəfiqlərarası hərbi nəzarət komissiyasının icazə verdiyi fabriklərdə istehsal edilə bilər. Digər fabriklər 6 ay ərzində bağlanmalı yaxud ticarət məqsədi üçün dəyişdirilməlidir. Bu digər personala da aiddir.../

*Maddə 175.* Türkiyəyə silah təchizat və hər cürə hərbi material, istehsal etmək, uçan aparatura daxil olmaqla qəti qadağandır. Eyni şey Türkiyədən çıxartmaq və çıxartmaq üçün hazırlamağa da aiddir/.

*Maddə 176.* /Versal müqaviləsi 171-ci maddəsi/.

## VII FƏSİL
## İstehkamlar /177-ci maddədə/

*Maddə 177.* /Boğazlar və adalar zonasında /maddə 178/, istehkamlar mütləq dağıdılmalıdır. Qalan türk istehkamları onların indiki vəziyyətində saxlana bilər, amma tərksilah edilməlidir/.

## VIII FƏSİL

*Maddə 178.* Boğazların azadlığını təmin etmək məqsədi ilə, Boğazlar zonasında, Mərmərə dənizi adalarında və Lemnos, İmbros, Samofrakiya, Tenedos və Mitilen adalarında bütün istehkamlar dağıdılmalı: Fransa, Böyük

Britaniya və İtaliya bütün yolları, dəmir yol xətləri də daxil olmaqla hansı ki, mühərrik batareyaları aparmaq olar, dağıtmaq hüququ alırlar. Göstərilən 4 adada /Mitilen çıxarılır/, yeni dəmir yol xətti və ya yol çəkmək bu 3 dövlətin icazəsi ilə həyata keçirilə bilər/.

Ərazi bölgələri /yuxarıda göstərilən/ və adalar yalnız üç müttəfiq dövlətin birgə fəaliyyəti təsadüfündə hərbi vasitələrlə istifadə oluna bilər...

Birgə fəaliyyət göstərəcək adı çəkilən dövlətlər göstərilən ərazi və adalarda elə hərbi və hava qüvvələri saxlaya bilər ki, onlar Boğazlara təhlükənin aradan qaldırılması üçün vacib hesab ediləcək...

*Maddə 179.* 178-ci maddədə göstərilən bölgə növbəti şəkildə məhdudlaşır... /Avropada Karaşalidəki, Kseros, körfəzindəki məntəqədən şimal-şərqə Kurudağ təpəsi, qərbi Emerli, şərqi Derelava, qərbi Aynartik, şərqi Ortaca-göy, qərbi Muradlı, bu məntəqədə dəmir yolunu Muradlıdan Çerluya keçməklə, Çatalçi dəmiryolu boyunca şimala, Yenigöydən qərbə və Türkiyənin Avropa sərhədinin Qara dənizə çıxan qərb məntəqələrinə Asiyada:

Adramit körfəzindəki məntəqədən /ordan ki, İzmirin sərhəd əraziləri başlayır/ Koca-Punan dağ silsiləsi üzrə şimal-şərqə, qərbi Osmandərə, şərqi Urçanlar, Kara-Der-Sunun sağ sahili boyunca, Maniyas – Qeulun cənub sahili, Pandermidən Susiqerliyə dəmiryolu ilə, Abuliont-Keulun cənub sahili, şərqi Bursa, şərqi İznik şərqi İzmid, qərbi Armasi və təxminən şərqi Şileden 20 km. Qara dənizə çıxış/.

*Maddə 180.* /Bu sərhədlərin dəqiq müəyyənləşdirilməsi üçün Fransa, Böyük Britaniya və İtaliyadan üç nəfər həmçinin Yunanıstan/ yunan ərazisi üçün /və Türkiyədən /türk ərazisi üçün/ hər birindən bir nəfər olmaqla komissiya təşkil edilməsi/.



## ƏLAVƏ CƏDVƏL [1]3

/Türk ordusunun 1.000 adama silahlanması; silah və ya karabin 1.150; ağır və yüngül pulemyotlar 15 yaxud 10; dağ topu 5; heç bir döyüş və ağır toplara icazə verilmir/.

## II BÖLMƏ
## Dəniz müddəaları /181-190-cı maddələr/

*Maddə 181.* /Türk hərbi gəmiləri müttəfiqlərə verilir, amma Türkiyə polis və balıqçılığa nəzarət məqsədi ilə 7 yelkənli gəmi və 6 minadaşıyıcı saxlaya bilər; birinciyə 2 kiçik kalibrli top, ikinciyə isə bir top saxlamağa icazə verilir. Əgər gömrük nəzarəti üçün lazım gəlsə Fransa, Böyük Britaniya və İtaliya daha çoxlu sayda gəmi saxlamağa icazə verə bilər/.

*Maddə 182.* Başqa gəmi almaq yaxud inşa etmək üçün Türkiyə hüquqa malik deyil. Minadaşıyıcılar mütləq patrul gəmiləri ilə dəyişdirilməlidir. Gəmilərin dəyişdirilməsi 20 ildən bir. Yeni yelkənli gəmi 600 tondan çox ola bilməz, patrul gəmiləri – 100 ton.

*Maddə 183.* /Türkiyə köməkçi gəmiləri mütləq tərksilah edilib ticarət gəmilərinə çevrilməlidir.

*Maddə 184.* Su üstü gəmilərdən başqa tikilməkdə olan bütün türk gəmiləri dağıdılmalıdır...

*Maddə 185.* /Versal müqaviləsinin 189-cu maddəsi/.

*Maddə 186.* /Versal müqaviləsinin 191-ci maddəsi/.

*Maddə 187.* /Bütün türk hərbi-dəniz materiallarının müttəfiqlərə verilməsi/.

*Maddə 188.* Müttəfiqlərarası hərbi komissiya, artıq türk

qüvvələri tərxis olunandan sonra türk dəniz qüvvələrində zabit və matrosların, dəniz polisinin sayını müəyyənləşdirir. Bu formada müəyyənləşən birləşmədən başqa heç birinə icazə verilmir/.

*Maddə 189.* /Türk ordusuna aid müddəaları /165-167-ci maddələr/, türk ticarət gəmiləri heç bir hərbi təlimlə məşğul ola bilməz müddəasını əlavə etməklə türk dəniz qüvvələrinədə həvalə edilir/.

*Maddə 190.* /Boğazlar zonasında simsiz teleqraf müttəfiqlərə verilir, Yunanıstan və Türkiyəyə isə orada radiostansiya tikmək qadağandır/.

## III BÖLMƏ
## Hərbi dəniz və təyyarəçiliyə aid müddəalar. /191-195-ci maddələr/

*Maddə 191.* /Sen-Jermin müqaviləsinin 144-cü maddəsi/.

*Maddə 192-195.* /Versal müqaviləsinin 199-202-ci maddələri/.



## IV BÖLMƏ
## Müttəfiqlərarası nəzarət və təşkilat komissiyası /196-205-ci maddələr/

*Maddə 196.* Türkiyədə hərbi, dəniz və təyyarəçiliyə nəzarəti yerinə yetirən müttəfiqlərarası nəzarət və təşkilatı komissiya haqqında.

Komissiya bütün məsələlərdə müttəfiqləri təmsil edir. Bu müddəalara aid müttəfiqlərin qərarları haqqında komissiyaya məlumat verirlər. Versal müqaviləsinin 1-2-ci bölmələrinin 203-cü maddəsi; bölmə – 2; – bölmə 1; – maddə 208, həmçinin bölmə 2, maddə 204/.

*Maddə 197.* /Müttəfiqlərarası komissiya İstanbulda yerləşir; türk ərazisinin digər məntəqələrinə nümayəndələr göndərmək hüququna malikdir. Versal müqaviləsinin 205-ci maddəsinə müvafiq/.

*Maddə 198.* /Sen-Jermin müqaviləsi. 151-ci maddə/.

*Maddə 199.* /Sen-Jermin müqaviləsi. 207-ci maddə/.

*Maddə 200.* /"Hərbi nəzarət komissiyası" kimi – komissiyanın vəzifələri haqda Versal müqaviləsi 2-3-cü bölmə 208-ci maddə; "hərbi təşkilatı komissiya" kimi müttəfiqlərarası hərbi komissiya bu məqsədi güdür: Osmanlı hökuməti ilə birgə türk ordusunun təşkili ilə məşğul olmaq; 156-cı maddədə göstərilən ərazi dairələri müəyyənləşdirmək və bu rayonlarda müxtəlif hərbi hissələr yerləşdirmək; türk ordularında və jandarmeriya hissələrində milliyyətcə eyni proporsiyalar müəyyənləşdirmək.

*Maddə 201.* /Versal müqaviləsi bölmə 2, maddə 209, bölmə 4 maddə 208/.

*Maddə 202.* /Versal müqaviləsi maddə 210/.

## V BÖLMƏ

**Ümumi müddəalar /206-cı və 207-ci maddələr/**

Maddə 207. /Versal müqaviləsi maddə 179/.

## VI HİSSƏ
## Hərbi əsirlər və qəbrlər /208-225-ci maddələr/

### I BÖLMƏ
### Hərbi əsirlər. /208-217-cci maddələr/

*Maddə 208.* /Versal müqaviləsi. maddə 214/.

*Maddə 209.* /Versal müqaviləsi. maddə 216/.

*Maddə 210.* /1918-ci il oktyabrın 30-dan təzminat üzrə bütün xərc Türkiyə üzərinə düşür/.

*Maddə 211.* /Versal müqaviləsi. maddə 218. 1 may 1919-cu il əvəzinə – 15 iyun 1920-ci il/.

*Maddə 212-214.* Versal müqaviləsi. maddə 222/.

*Maddə 216-217.* /Versal müqaviləsi. maddə 223-224-cü maddələr/

### II BÖLMƏ
### Qəbrlər /218-ci və 225-ci maddələr/

*Maddə 218.* Osmanlı hökuməti Britaniya, İtaliya və Fransa hökumətlərinə onların əsgər və matroslarının qəbrləri yerləşən ərazilərə tam və şərtsiz hüquqlar verir, həmçinin qəbrsanlıq və həmin əsgər və zabitlərə abidələr qoymaq, yaxud bu qəbrsanlığa getmək üçün yollar salmağa icazə verir.

Ellin hökuməti də öhdəlik götürür ki, həmin öhdəlikləri oda qəbul edir, çünki bu ərazilərin bir hissəsi Boğazlar zonasına və adalara düşür ki, bura onun



suverenitetinə verilib.

*Maddə 219.* /6 ay müddətinə Böyük Britaniya, Fransa və İtaliya hökumətləri Türkiyə və Yunanıstana 218-ci maddəyə müvafiq veriləcək ərazi haqda məlumat verməlidirlər. “Adı göstərilən sahələrdə Qallipol yarımadasında yerləşən torpaq sahələri də daxil edilir”.

*Maddə 221.* /Böyük Britaniya, Fransa və İtaliya qəbristanlıq və abidələrin qorunması, həmçinin ölənlərin meyidi və qəbirlərini aparmaq məsələsini komissiya və təşkilat verə bilər/.

*Maddə 222.* /Söhbət gedən sahələrdə, heç bir vergi alınmayacaq. Buraya Britaniya, Fransa və İtaliya hökumətinin, həmçinin ziyarətçilərin gəlişi azaddır.

Türkiyə və Yunanıstan həmişəlik olaraq sahələrə gedən yolları “müdafiə” edəcəklərini öhdələrinə götürürlər.

*Maddə 224.* Tərəflər ərazilərində yerləşən əsgər qəbrlərinə hörmətlə yanaşacaqlarını üzərlərinə götürürlər/.

*Maddə 225.* /Versal müqaviləsi. 226-cı maddə/.

## VII HİSSƏ
## Sanksiya /226-230-cu maddələr/

*Maddə 226.* /Versal müqaviləsi. 228-ci maddə/.

*Maddə 227-228.* /Versal müqaviləsi. 229-230-cu maddələr/.

*Maddə 229.* /San-Jermin müqaviləsi. 176-cı maddə/.

*Maddə 230.* Türkiyənin 1 avqust 1914-cü il tarixədək olan ərazisində müharibə illərində vəhşilik etmiş şəxslər üzərində məhkəmə. Bu şəxsləri mühakimə etmək üçün məhkəmələr göstərmək hüququ müttəfiqlərə aiddir. Əgər MC bu məqsədlə xüsusi tribunal təyin etsə, Türkiyə onun qərarına tabe olmağa məcburdur.

# VIII HİSSƏ
## Maliyyə müddəaları.
## /230-260-cı maddələr və 2 əlavə/

*Maddə 231.* /Hücum müharibəsinə görə Türkiyənin məsuliyyətinin 1-2-ci bölmələri. Neyyi sülhün 1-2-ci bölmələri, 121-ci maddəsinin eyni/.

Belə bir şəraitdə, bu müqavilədən irəli gələrək ərazilərin yeni bölüşdürülməsini nəzərə alaraq, Türkiyəyə keçmiş Osmanlı imperiyası gəlirinin bir hissəsi saxlanır, müttəfiq dövlətlər təzminat məsələsinə münasibətdə Osmanlı hökumətinə olan iddialardan imtina edirlər. /yalnız bu hissədəki müddəaların, IX hissəyə bərabər kimi saxlanması şərti ilə/.

Müttəfiq dövlətlər Türkiyəyə yardım və dəstək vermək arzusunda olaraq, Osmanlı hökuməti ilə bununla razılaşırlar ki, xüsusi maraqlı dövlətlərdən – Fransa, İngiltərə və İtaliya – hər birindən bir nümayəndə olmaqla maliyyə komissiyası yaradılır, hansı ki, Osmanlı komissarı məşvərətçi səslə qoşula bilər...

*Maddə 232.* Maliyyə komissiyası elə tədbirlər görəcək ki, onlar bunu Türkiyənin ehtiyatlarının dəstəklənməsi və artırılması üçün vacib hesab edəcəklər...

Maliyyə komissiyası büdcənin, maliyyə qanunlarının yerinə yetirilməsinə və Türkiyənin vəziyyətinə nəzarət edəcək...

*Maddə 233.* Maliyyə komissiyasına Osmanlı ümumi borc Şurası və Osmanlı bankı ilə Türkiyədə pul dövriyyəsini tənzim etmək həvalə ediləcək.

*Maddə 234.* Osmanlı hökuməti öhdəsinə götürür ki, maliyyə komissiyasının razılığı olmadan heç bir xarici və



daxili borc etməsin.

*Maddə 235.* /Avropa Dunay Komissiyasına münasibətdə Türkiyənin öhdəliyinin analoqu: Versal müqaviləsi, maddə 352/.

*Maddə 236.* Türkiyənin bütün ehtiyatları mədaxildən başqa maliyyə komissiyasının sərəncamına veriləcək, hansı ki, onları bu şəkildə istifadə edəcək:

/İlk növbədə Türkiyə maliyyə komissiyasının və işğalçı ordunun xərclərini ödəyəcək, ikinci növbədə – müttəfiq hökumətlərin onların vətəndaşlarına vurulan zərərə görə iddialarını ödəyəcək/.

*Maddə 238.* /Neyyi sülhünün 124-cü maddəsi/.

*Maddə 239.* Maliyyə komissiyasının razılığı olmadan Osmanlı hökuməti nə Osmanlı vətəndaşlarına nə da başqa şəxslərə heç bir konsessiya verməyəcək.

*Maddə 240.* Dövlətlər, hansı ki, onların xeyrinə Türkiyədən ərazilər ayrılıb, bu ərazidə yerləşən bütün əmlak və mülkiyyətə sahib olurlar.

*Maddə 241.* Dövlətlər, hansı ki, onların xeyrinə Türkiyədən ərazilər ayrılıb, ya 1913-cü il balkan müharibəsi nəticəsində, ya müqavilə qüvvəsində mütləq 1 noyabr 1914-cü il tarixədək mövcud olan Osmanlı ümumi borcu üzrə ödəmə ilə əlaqədar illik mükəlləfiyyətdə iştirak edəcəklər.

Balkan dövlətləri və Asiyada təşkil olunmuş dövlətlər, hansı ki, xeyrinə Türkiyədən ərazilər alınıb, mütləq illik mükəlləfiyyət üzərinə düşən vergi hissəsini ödəməlidir.

*Maddə 242.* Bu hissənin tətbiqində, Osmanlı ümumi borcu indiyə qədər Məhərrəm qətnaməsinə “tabe” olan borc kimi qəbul ediləcək...

1 noyabr 1914-cü il tarixədək bağlanan borclar, Osmanlı ümumi borclarının Türkiyə, Balkan dövlətləri və Asiyada təşkil edilən yeni dövlətlər arasında bölüş-

dürülərkən nəzərə alınmalıdır.

*Maddə 243.* İllik ödənişin yüksəkliyini müəyyən etmək üçün güzəştə gedilənərazi hissələrindən Türkiyənin ümumi mədaxilinin orta səviyyəsi götürülür.

*Maddə 246.* Osmanlı hökuməti Məhərrəm qətnaməsi və sonrakı qətnamə üzrə malik olduğu hüquqların hamısını maliyyə komissiyasına verir.

Osmanlı borc Şurası Britaniya, Fransız və İtalyan nümayəndələrindən və Osmanlı bank təmsilçilərindən təşkil ediləcək və əvvəlki kimi fəaliyyət göstərəcək...

*Maddə 248.* Bütün daşınar və daşınmaz əmlak, hansı ki, Osmanlı borc İdarəsinə məxsus olmuşdur... Tamamilə bu müəssisənin tabeliyində qalır...

*Maddə 249.* Osmanlı hökuməti ehtiyat fonda olan bütün hüququnu maliyyə komissiyasına verməyə razılaşır.

*Maddə 250-256.* /Ümumi müddəalar/.

*Maddə 257.* Müttəfiq dövlətlərin Osmanlı hökumətinə münasibətdə tələbləri ödənilsə, müharibəyə qədərki Osmanlı borcları ləğv edilən kimi, maliyyə komissiyası öz fəaliyyətinə xitam verir. Onda Osmanlı hökuməti MC-Şurası ilə birgə, Osmanlı hökumətinə MC-üzvü olan dövlətlərin öz yardım və inzibati dəstəyi məsələsinə baxacaq...

*Maddə 258.* Türkiyə 1 avqust 1914-cü il tarixdən Osmanlı bayrağı altına keçən alman gəmilərini müttəfiqlərə verəcək və özü bu məsələ ilə bağlı ola biləcək iddialarla hesablaşacaq.

*Maddə 259.* 277-ci maddəni pozmamaqla..., Türkiyə Brest-Litovsk və Buxarest müqavilələri və əlavə müqavilələrin bütün şərtlərindən istifadə etməkdən imtina edir.

O, öhdəlik götürür ki, yuxarıda göstərilən müqavilələrin yerinə yetirilməsində əldə etdiyi bütün pul sənədlərini, pulları, qiymətli vekselləri ya Rumıniyaya, ya



da başqa müttəfiq dövlətlərə verir.

## ƏLAVƏ I.
## /5 noyabr 1914-cü il vəziyyətinə Osmanlı ümumi borcunun cədvəli/

## ƏLAVƏ II /§§1-6/
## /Maliyyə komissiyasının təşkili və iş qaydaları haqda ətraflı məlumat/

## IX HİSSƏ
## İqtisadi müddəalar
## /261-317-ci maddələr/

### I bölmə
### Ticarət münasibətləri.
### /261-268-ci maddələr/

*Maddə 261.* Kapitulyasiya rejimi... o, müttəfiq dövlətlər xeyrinə bərpa ediləcək ki, 1 avqust 1914-cü il tarixədək birbaşa və ya dolaya yolla bundan istifadə edib, onun qazancı isə o, müttəfiq dövlətlərə şamil ediləcək ki, 1 avqust 1914-cü ilədək bundan istifadə etməyib.

*Maddə 262.* Müttəfiq dövlətlər hansı ki, 1 avqust 1914-cü il tarixədək Osmanlı imperiyasında poçt kontorlarına malik olub, Türkiyədə poçt kontorlarını bərpa etmək hüququna malikdirlər.

*Maddə 263.* /İdxal tarifi haqqında əvvəlki /1907-ci il/ konvensiya müttəfiqlər üçün yenidən qüvvəyə minir, amma maliyyə komissiyası istənilən vaxt idxal tarifini dəyişdirə bilər/...

*Maddə 264.* /Maliyyə komissiyası ümumiyyətlə "Türkiyənin haqlı idarəsi və iqtisadi bərabərlik naminə" müttəfiq dövlətləri vətəndaşlarına... istənilən vergi və tarif



müəyyən edə bilər.

*Maddə 265.* /Versal müqaviləsinin 273-cü maddəsinin oxşarı/.

*Maddə 266.* /Versal müqaviləsinin 271-ci maddəsi/.

*Maddə 267.* /Versal müqaviləsinin 275-ci maddəsi/.

*Maddə 268.* /Versal müqaviləsinin 273-cü maddəsinin eyni/.

### II BÖLMƏ
### Müqavilələr /269-280-ci maddələr/

Maddə 269. /Versal müqaviləsi. 282-ci maddə. Amma yalnız 7-bənd/.

*Maddə 270.* /Versal müqaviləsi. 283-cü maddə/.

*Maddə 271.* /Radio-teleqraf konvensiyasının bərpası haqda/.

*Maddə 272.* /Türkiyə sənaye və ədəbiyyat haqqında beynəlxalq konvensiyalara qoşulmağı öhdəsinə götürür/.

*Maddə 273.* /Türkiyə 11 çoxtərəfli beynəlxalq konvensiyalara qoşulmağı öhdəsinə götürür/.

*Maddə 274.* /Versal müqaviləsi. 289-cu maddə/

*Maddə 275.* /1 avqust 1914-cü il tarixdən sonra Türkiyənin müttəfiqləri ilə imzaladığı razılaşmalar haqqında; Versal müqaviləsi. 290-cı maddə/.

*Maddə 276.* /Versal müqaviləsi. 291-ci maddə/.

*Maddə 277.* /Türkiyənin Rusiya və Rumıniya ilə bağladığı müqavilələrin ləğvi haqqında. Versal müqaviləsi 292-ci maddəsinin analoqu/.

*Maddə 278.* /Türkiyənin Rusiyaya verdiyi imtiyazların ləğvi haqqında. Vers.müq. 293-cü maddənin təkrarı/.

*Maddə 279.* /Versal müqaviləsi 294-cü maddə/.

*Maddə 280.* /Versal müqaviləsi 295-ci maddə/.

## III BÖLMƏ
## Sənaye mülkiyyəti
## /281-286-cı maddələr/

*Maddə 281.* /Versal müqaviləsi 306-cı maddə/.
*Maddə 282.* /Versal müqaviləsi 307-ci maddə/.
*Maddə 283.* /Versal müqaviləsi 309-cu maddə/.
*Maddə 285.* /Versal müqaviləsi 317-ci maddə/.
*Maddə 286.* /Neyi sülhünün 195-ci maddəsi/.

## IV BÖLMƏ
## Əmlak, hüquq və maraqlar
## /287-303-cü maddələr/

*Maddə 287.* /Əmlak, hüquq və maraqlar – müharibə illərində müsadirə olunmuşlar da daxil – Türkiyə müttəfiq vətəndaşları və onlar tərəfindən 1 avqust 1914-cü ilədək nəzarət edilən cəmiyyətlər. MC-Şurası tərəfindən təyinat üzrə münsiflər komissiyası vasitəçiliyi ilə mütləq sahiblərinə qaytarılmalıdır, yalnız kapitulyasiya qüvvəsində onlardan başqa. Amma bu yalnız müttəfiq vətəndaşlarına aiddir, müharibə zamanı keçmiş türk vətəndaşlarına deyil/.

*Maddə 288.* /Müttəfiq dövlətlər vətəndaşlarına gəldikdə, keçmiş müharibə zamanı türk vətəndaşı olan, onların əmlakı və hüquqları hansı formadadırsa elə də qaytarılır/.

*Maddə 289.* /Müttəfiqlərin sekvestre hüququnun saxlanması və osmanlı əmlak, hüquq və marağının öz qanunları üzrə ləğvi. Bu qayda 17 oktyabr 1912-ci il tarixədək türk suverenliyi altında olan ərazilərə şamil edilmir/.



*Maddə 292.* /Türkiyə öz vətəndaşlarını müttəfiq ölkələrdə saxlanan yaxud ləğv olunan əmlaka görə əvəz ödəyir/.

*Maddə 293.* /O, müttəfiqlərin saxlanması, hansı ki, Türkiyənin /hüquqi himayəçisi/ hesab edilir, sekvestr hüququ və osmanlı əmlakı ləğvi hüququ, öz qanunu ilə hüquq və maraqlar, necə ki, iş o ərazilərdən gedir ki, 17 oktyabr 1912-ci il tarixdən sonra Türkiyədən alınmışdır. Bu qayda hüquqi şəxslərin əmlakına tətbiq edilmir, hansı ki, müttəfiqlər daha çox marağa malikdirlər/.

*Maddə 294.* /Əsas müttəfiqlərin tələbi ilə Türkiyə mütləq türk ərazilərində dəmiryol konsessiyalarını öz əlinə alır və onun maliyyə komissiyasının göstərişi ilə başqasına verir. Verilən konsessiyanın qiyməti MC Şurasının təyin edəcəyi arbitr tərəfindən müəyyən edilir, /Verilmədən alınan miqdar cəmiyyət iştirakçıları arasında bölünür; bu şəraitdə alman, avstriya, macar və bolqar vətəndaşlarının hüququ təzminat komissiyasına verilir/.

*Maddə 295.* /Türkiyə Almaniya, Avstriya, Macarıstan, Bolqarıstan və onların vətəndaşlarına Türkiyədə əmlak hüququndan istifadəni qadağan edir, bu hüquqlar mütləq ləğv edilməlidir; əgər mülkiyyətçi kimi dövlətin özüdürsə onda onların hüququ təzminat komissiyasına verilir/.

*Maddə 296.* /Belə ləğvetmə hüququndan Türkiyədən ayrılmış ərazi əldə edən dövlətdə istifadə edə bilər/.

*Maddə 298.* /Bütün ləğvedilmə və başqa qətnamələrin hüquqi qüvvəsinin qəbulu/.

*Maddə 299.* /Müttəfiqlərin 30 oktyabr 1918-ci il tarixdən sonra ləğvedilmə və başqa qətnamələrinin hüquqi qüvvəsinin qəbulu.

*Maddə 300.* /Türkiyə və onun vətəndaşları müttəfiqlərin öz əmlakına münasibətdə fəaliyyətinə heç bir iddia

edə bilməz/.

*Maddə 301.* /Türkiyə öhdəsinə götürür ki, 6 ay müddətinə müttəfiqlər ölkəsində yerləşən türk əmlakına və b. aid bütün kontrakt və b. sənədləri müttəfiqlərə versin, həmçinin bütün bu əmlak, hüquq və b. haqda məlumat versin və 1 iyul 1914-cü il tarixdən sonra olan bütün sazişlər haqqında.

*Maddə 302.* /Türkiyə və onun vətəndaşlarının müttəfiqlərə və onların vətəndaşlarına borcları ödəmək qaydaları: borc malları ölkəyə valyuta ilə ödənilir/.

## V BÖLMƏ
## Kontraktlar, məhkəmə qərarları
## /304-309-cu maddələr və əlavə §1-21/

*Maddə 304.* Düşmənlə bağlanan bütün kontraktlar, müttəfiq dövlətin qanunvericiliyinə uyğun olaraq, vətəndaşı o, razılığa gələn tərəfə məxsusdur hansı ki, 1 avqust 1914-cü il tarixədək osmanlı vətəndaşı olmayıb /ya saxlanacaq, ya da ləğv ediləcək/.

*Maddə 305.* /Versal müqaviləsi. 300-cü maddə; maddə Yaponiyaya aid edilmir/.

*Maddə 306.* /Veksel, çek və köçürmələr haqda; Versal müqaviləsi. 301-ci maddə/.

*Maddə 307.* /Müharibə illərində osmanlı hakimiyyətinin məhkəmə qərarları və icraedici tədbirləri, müttəfiq vətəndaşlarının və onların iştirak etdikləri cəmiyyətlərin marağına ziddir, yenidən baxılacaq, zərərçəkənlər isə 287-ci maddə ilə müəyyənləşən kimi, münsiflər komissiyası qərarı ilə əmlakı qaytarılır/.

*Maddə 308.* /Osmanlı vətəndaşları və müttəfiq vətəndaşları və yaxud keçmiş osmanlı vətəndaşları arasında



kontraktlar haqda mübahisə başlasa, "osmanlı məhkəmələrinin çıxardılması" ilə milli yaxud konsul məhkəmələri tərəfindən həll edilir.

*Maddə 309.* /Bu məhkəmənin qərarı Türkiyədə türk-məhkəmə hakimiyyəti tərəfindən təsdiq olmamış yerinə yetiriləcək.

### Əlavə (§§ 1-21)

/§2-də qüvvədə olan kontraktlar forması göstərilir, 7-ci §-da isə göstərilir ki, bütün növbəti paraqraflar yalnız sığorta kontraktlarına aiddir. Qalanlar bütünlüklə versal müqaviləsi. 299-300-cü maddələri /§§ 1-24/ təkrar edilir/.

## VI BÖLMƏ
## Cəmiyyət və konsessiyalar.
## /310-316-cı maddələr/

*Maddə 310.* /Türk ərazisində qalan bütün müttəfiq konsessiyaları, hansı ki, 294-cü maddə üzrə, yeni sahibə verilə bilər, maliyyə komissiyası tərəfindən müharibəyə qədərki hüquqlarını hamısı bərpa edilir. Osmanlı hökuməti öhdəsinə götürür ki, yeni iqtisadi şəraitlə bağlı olaraq bu kontraktları dəyişsin və 29 oktyabr 1914-cü illə bu müqavilə qüvvəyə minənədək olan dövr arasında onların fəaliyyət müddətini uzatsın/.

*Maddə 311.* /Həmçinin Türkiyədən ayrılan ərazilərdə müharibəyə qədərki konsessiya saxlanılır, bu şərtlə ki, mənsub dövlət müttəfiq dövlətlər vətəndaşlarında "onlara verilən təminatı saxlayır və yaxud onlara bərabər qiymətli təminat verir". Lakin, 6 ay müddətinə bu dövlət konsessiya almaq hüququna malikdir. Bu təsadüfdə konsessiyaçı mükafatlandırılır. Mükafatın miqdarı haqqında mübahisə zamanı münsiflər məhkəməsi, hansı ki, 2 üzvü maraqlı tərəfin hökumətindən təyin edilir, üçüncü və onların razılığı, yaxud razılıq əldə olunmasa MC-ti Şurası tərəfindən/.

*Maddə 312.* /Dövlət hansı ki, balkan müharibələrindən sonra yaxud bu müqavilə ilə türk ərazilərinə sahib olub, konsessiyaya münasibətdə Türkiyəni onun hüquqlarında əvəz edir. Amma bu dövlətlər arasında, konsessiya və kontraktlara sahiblər sonuncu yeni ölkə qanunvericiliyinə və yeni iqtisadi şərtlərə uyğunlaşdırmaq haqda razılaşma müəyyən edə bilər. 6 ay müddətinə razılaşma olmasa işi arbitraj həll edir. /311-ci maddəyə uyğun/.

*Maddə 314.* /Müharibə dövrünün türk konsessiyaları müttəfiqlərə etiraf etməyə məcbur deyillər/.



*Maddə 315.* /Bütün türk konsessiyaları, /30 oktyabr 1918-ci il tarixdən sonra verilmiş, həmçinin 1 iyul 1914-cü il tarixdən sonra və bu müqavilənin qüvvəyə minməsinədək alman, avstriya, macar, bolqar və osmanlı vətəndaşlarına yaxud onlara tabe olan cəmiyyətlərə /verilmiş konsessiyalar ləğv edilir/.

*Maddə 316.* /Türkiyədə müttəfiq vətəndaşı tərəfindən nəzarət edilən cəmiyyət, 5 il müddətinə öz hüququnu müttəfiq dövlətlərdən birinin qanunu üzrə fəaliyyət göstərən digər müttəfiq cəmiyyətə verə bilər/. Analoji qətnamə türk ərazisindən pay alan digər dövlətə də tətbiq edilir. Nə Türkiyədə, nə başqa dövlətlərdə cəmiyyətlər, hansı ki, müttəfiq qanunları üzrə fəaliyyət göstərir başqa rejimə tabe ola bilməz.

## VII BÖLMƏ
## Ümumi qətnamələr. /317-ci maddə/

*Maddə 317.* /Bu hissə və VIII hissə üçün "müttəfiq dövlətlər vətəndaşı" anlayışına aiddir: 1/ müttəfiq dövlətlərin cəmiyyət və birlikləri daxil olmaqla onların protektorluğu altında olan ölkə və dövlətlərin bütün vətəndaşları; 2/ avqust 1914-cü illədək müttəfiq ölkələrin müdafiəsi altında olanlar; 3/ müttəfiq vətəndaşları nəzarətində olan osmanlı cəmiyyətləri; 4/ dini və xeyriyyə müəssisələri və tədris müəssisələri, hansı ki, müttəfiq vətəndaşları maraqlıdırlar/.

## X HİSSƏ
## Təyyarəçilik. /318-327-ci maddələri/

*Maddə 318-319.* /Versal müqaviləsi. 313-314-ci maddələr/.

*Maddə 320.* /Müttəfiq hava gəmilərinin təyyarə meydanlarından istifadəsi haqda; Versal müqaviləsi. 315-ci maddə/.

*Maddə 321.* /Türkiyə müttəfiqlərin göstərdikləri yerdə aerodromlar tikmək öhdəsinə götürür/.

*Maddə 322-323.* /Versal müqaviləsi. 317-318-ci maddələr/.

*Maddə 324.* /Türkiyə özünün keçmiş müttəfiqlərin 318 və 319-ci maddələrdən istifadə etməkdən məhrum edir/ onlar MC-nə üzv olmasınadək yaxud onlara təyyarəçilik haqda 13 oktyabr 1919-cu il tarixli konvensiyaya qoşulanadək/.

*Maddə 325.* /Türkiyə öhdəsinə götürür ki, nə özünün keçmiş müttəfiqlərinin vətəndaşlarına nə öz vətəndaşlarına 324-cü maddədə göstərilən vaxtadək təyyarəçilik sahəsində konsessiya verməyəcək/.

*Maddə 326-327.* /Versal müqaviləsi. 319-320-ci maddələr/.



## XI HİSSƏ
## Limanlar, su yolu və dəmir yolu
## /328-313-cü maddələr/

### I BÖLMƏ
### Ümumi qətnamələr
### /328-333-cü maddələr/

*Maddə 328-330.* /Versal müqaviləsi. 321-323-cü maddələr/.

*Maddə 332-333.* /Versal müqaviləsi. 325-326-cı maddələr/.

### II BÖLMƏ
### Gəmiçilik. /334-352-ci maddələr/

#### I FƏSİL
#### Azad gəmiçilik /334-cü maddə/

*Maddə 334.* /Versal müqaviləsi. 327-ci maddə/.

#### II FƏSİL
#### Beynəlxalq əhəmiyyətli limanlar
#### /335-345-ci maddələr/

*Maddə 335.* /Azad zona ilə birgə növbəti "Şərq limanları" beynəlxalq əhəmiyyətli limanlar elan edilir; San-Stefanodan Dolma-Baxçayadək Konstantinopol; Haydar-Paşa; İzmir; İsgəndərun; Kayffa; Bassora; Trabzon /352-ci maddənin şərti ilə/ və Batum /işlənəcək qətnamə üzrə/.

**1. Gəmiçilik**

*Maddə 336.* /MC – üzvü olan dövlətlərin vətəndaşları, əmlak və gəmiləri üçün beynəlxalq əhəmiyyətli gəmilərin tam bərabərliyi. Ticarətin azadlığı məhdudiyyəti hamı üçün eyni olmalıdır/.

## 2. Rüsum və əmlak mükəlləfiyyəti

*Maddə 337.* /MC-nin üzvü olan bütün millətlər üçün rüsum və əmlak vergisi yalnız gəmiçilik və limanın marağı tələbi və ehtiyacı üçün eyni miqdarda tutula bilər/.

*Maddə 338.* /Gömrük və başqa vergi elə olmalıdır ki, hansı ki, onun bayrağı altında məhsul aparılan, yaxud liman onun suvereniteti altında yerləşən dövlətdə fəaliyyət göstərir. Əgər xüsusi iqtisadi ehtiyac yoxdursa, onda göstərilən vergi elə olmalıdır, necə ki, dövlətin başqa sərhəddində yaxud hava və su yollarında mövcuddur/.

## 4. Azad zonalar

*Maddə 341.* /Azad zonalarda mağaza və anbarlar tikilməsinə icazə iqtisadi ehtiyaca uyğun olmalıdır. Azad zonada istifadəyə buraxılan ərzaqlar statistik rüsumdan başqa vergiyə məruz qalmamalıdır. Göstərilən limana sahib dövlət orada bu və ya başqa istehsala icazə verə bilər. Bütün bunlar sahibkarın milliyyətindən asılı deyil/.

*Maddə 342.* /Statistik rüsum 0,001 faizi keçməməlidir. Başqa heç bir vergi... alınmamalıdır/.

*Maddə 343.* /Dövlətə göndərilən mallar, hansı ki, limana malikdir, azad zonada 338-ci maddəyə müvafiq vergi qoyula bilər.



## 5. Mübahisələrin həlli

*Maddə 345.* /Bü fəslə aid olan mübahisələr MC-nin müəyyənləşdirdiyi qaydaya müvafiq şəkildə həll edilir. Limandan istifadəyə mane ola biləcək mübahisələr sürətləndirici formada həll edilə və ona uyğun qabaqcadan qərar çıxarıla bilər/.

## III FƏSİL
## Maritsa və Dunay aid müddəalar.
## /346-348-ci maddələr/

*Maddə 346.* Sahil dövlətlərdən birinin MC-nə müraciətinə uyğun Maritsa beynəlxalq çay elan ediləcək və /Versal/ müqaviləsinin 332-338-ci maddələrində göstərdiyi kimi beynəlxalq çay rejiminə tabe ediləcək.

*Maddə 347.* /Belə müraciət təsadüfündə /necə ki, 348-ci maddədə/, Maritsa sahil dövlətlərdən və Böyük Britaniya, Fransa və İtaliyadan, hər birindən bir nəfər olmaqla, beynəlxalq komissiyasının idarəsinə veriləcək/.

*Maddə 348.* /Türkiyə Almaniya, Avstriya, Macarıstan və Bolqarıstanla Dunay haqda müqavilələrə daxil edilən bütün qətnamələri qəbul etməyi öhdəsinə götürür/.

## IV FƏSİL
## Bir neçə limandan bir neçə dövlətin istifadəsini qəbul edən müddəalar /349-352-ci maddələr/

*Maddə 349.* Türkiyənin Aralıq dənizi və Egey dənizinə azad çıxması təmin edilməsi üçün, Türkiyədən ayrılan ərazi və limanlarda onun azad tranziti qəbul edilir.

/Yeni ümumi konvensiya bağlananadək 328-ci maddədə göstərilən azad tranzit nəzərdə tutulur. Ətraflı-maraqlı hökumətlərlə xüsusi razılaşma/.

*Maddə 350.* İzmir limanında Türkiyəyə. Əgər MC-ti tərəfindən müddət müəyyən edilməsə daimi olaraq icarəyə sahə veriləcək, hansı ki, 341-344-cü maddələrdə göstərildiyi kimi azad zonalarda ümumi rejim altına alınacaq.

/Sahənin sərhəddi, onun dəmir yol sahəsi ilə əlaqəsi və bütün istifadə qaydaları 3 nəfərdən ibarət komissiya tərəfindən müəyyən ediləcək – Türkiyədən, Yunanıstandan və MC-dən və hər 1 ildən bir dəyişdirilə bilər/.

*Maddə 351.* Batum vasitəsilə Qara dənizə çıxış Gürcüstana, Azərbaycana və İrana, eynilə Ermənistana verilir. Bu buraxılış qaydası 349-cu maddə ilə göstərildiyi şərtlərlə olacaq.

*Maddə 352.* Ermənistana Qara dənizə azad çıxış Trabzon limanı vasitəsilə müəyyən edilir, buraxılış qaydaları 349-cu maddədə göstərilən şərtlə olacaq. /Sonradan Trabzona münasibətdə və Ermənistana münasibətdə 350-ci maddə/.

## III BÖLMƏ
## Dəmir yol /353-362-ci maddələr/



## I FƏSİL
## BEYNƏLXALQ DAŞINMAYA AİD MÜDDƏALAR /353-357-ci maddələr/

*Maddə 353.* /Müttəfiqlərin yükləri üçün az-çox əlverişlilik haqda; /Versal müqaviləsi. 365-ci maddə/.

*Maddə 354.* /Türkiyə yüklərin daşınması haqda beynəlxalq razılaşma imzalamaq öhdəsinə götürür/.

*Maddə 355-356.* /Versal müqaviləsi. 367-368-ci maddələr/.

## II FƏSİL
## Dəmir yol vasitələri /maddə 358/

*Maddə 358.* /Versal müqaviləsi. 370-ci maddə/.

## III FƏSİL
## Dəmir yol xəttinin təhvil verilməsi /359-360-cı maddələr/

*Maddə 359.* /Konvensiyaçıların hüquqlarının saxlanması ilə, dəmiryol xətlərini elə təhvil vermək ki, bütün ləvazimat mümkün qədər yaxşı vəziyyətdə olsun və yolla bərabər hərəkət edən ləvazimatı da təhvil vermək üçün Türkiyənin öhdəliyi... Fikir ayrılığını MC-ti tərəfindən təyin edilən münsiflər məhkəməsi həll edir/.

Maddə 360. /Türkiyə, hecas dəmir yoluna olan bütün hüquqlardan imtina edir və ora haqda maraqlı dövlətlərin qəbul edəcəyi bütün qərarları qəbul edir; göstərilən qətnamələr "dini nöqteyi nəzərdən dəmir yolunun xüsusi vəziyyətini" nəzərə almalıdır/.

## IV FƏSİL
## Dəmir yolunun istismarı haqda razılaşma
## /361-362-ci maddələr/

*Maddə 361.* /Versal müqaviləsi. 372-ci maddə. Yeni sərhəd boğazların təşkili sonradan razılaşdırılacaq/.

*Maddə 362.* /Maraqlı dövlətlərin texniki nümayəndələrindən ibarət daimi komissiya müxtəlif ərazilər üzrə verilən xəbərləri, vaqonların dəyişdirilməsi və b. məsələləri müəyyənləşdirir. Hansı ki, 1 avqust 1914-cü ilədək Osmanlı imperiyası əraziləri hesab edilirdi/.

## IV BÖLMƏ
## Müxtəlif /363-368-ci maddələr/

## I FƏSİL
## Sular rejimi /363-cü maddə/

*Maddə 363.* /Sen-Jermin müq. 326-cı maddəsinin eyni/.

## II FƏSİL
## Teleqraf və telefon. /364-365-ci maddələr/

Sualtı kabellər. /366-367-ci maddələr/

*Maddə 366.* Türkiyə öhdəsinə götürür ki, İstanbulda İstanbul-Konstanta Kabelinə hüququnu müttəfiq dövlətlərin göstərəcəyi cəmiyyətə verir.

*Maddə 367.* Türkiyə özü xüsusən öz adından və özünün vətəndaşları adından müttəfiq dövlətlərin xeyrinə Ciddi-Suakim və Kipr – Latakiya kabelinə olan bütün



hüquqlarından imtina edir.

## IV FƏSİL

Bir sıra icraedici tədbirlərə aid müddəalar. /maddə 368/

*Maddə 368.* /Versal müqaviləsi. 375-ci maddə/.

## V BÖLMƏ
## Mübahisələrin həlli və daimi müddəalarının yenidən baxılması. /369-371-ci maddələr/

*Maddə 369-370.* /Versal müqaviləsi. 376-377-ci maddələr/.

*Maddə 371.* /MC-ti Şurasının 3 ildən sonra... 328-330-cu, 332-334, 353 və 355-356-cı maddələrinin dəyişdirilməsi haqda. Müttəfiqlər göstərilən maddələrdən yaranan mənfəətdən onların ərazi hissələri üçün tələb edə bilməzlər, hansı ki, qarşılıqlı verilmir/.

## VI BÖLMƏ
## Xüsusi müddəalar. /372-373-cü maddələr/

*Maddə 372.* /Versal müqaviləsi. 379-cu maddə/.

*Maddə 373.* /Müttəfiq vətəndaşlarına Türkiyədə bu hissədəki məsələlərə münasibətdə bütün hüquqlardan istifadə etmək qadağan edilmir/.

## XII HİSSƏ
## Əmək. /374-414-cu maddələr və əlavə/

/1919-1920-ci illərin bütün müqavilələrindən: Versal müqaviləsi. 387-427-ci maddələrinə bax/.

# XIII HİSSƏ
## Müxtəlif müddəalar.
## /415-433-cu maddələr və əlavələr/

*Maddə 415.* /Versal müqaviləsi. 126-cı maddə/.
*Maddə 416.* /Versal müqaviləsi. 436-cı maddə/.
*Maddə 417.* /Versal müqaviləsi. 439-uı maddə/.
*Maddə 418.* /Versal müqaviləsi. 440-cı maddə/.
*Maddə 419.* /Müharibə illərində Türkiyənin batırdığı gəmilər haqda məlumat vermək üçün Türkiyənin öhdəliyi/.

*Maddə 420.* /29 oktyabr 1914-cu il tarixdən sonra əldə edilmiş bütün tarixi əhəmiyyətli əşyalar və incəsənət məhsulları, arxivlərin müttəfiq hökumət və vətəndaşlarına verilməsi üçün Türkiyənin öhdəliyi/.

*Maddə 421.* /Türkiyənin özünün qanunvericiliyini ləğv etməsi və maliyyə komissiyası tərəfindən bəyənilən, bütün millətlərə eyni hüquq verən yeni qanunlar qəbul edilməsi üçün öhdəliyi/.



## ƏLAVƏ §1-8

/Qədim 1700-cu ildən əvvəl verilmiş qərarlar. /§1/. "Qədimliyin müdafiəsi haqda qanunvericilik mütləq daha genişlənməli, /§2/. Heç bir qədimi şey litsenziya olmadan ölkədən çıxardıla bilməz... /§3/. Qədim incəsənət əsərinin korlanmasına görə cinayət məsuliyyəti. /§4/. Qazıntı aparmaq üçün yalnız "arxeoloji təcrübəsi" olanlara icazə verilməsi /§7/. Qazıntının nəticəsi arxeoloq və maraqlı türk nazirliyi arasında bölünə bilər. /§8/.

*Maddə 422.* Türkiyənin 1 avqust 1914-cu il tarixdən sonra çıxardılmış dini, arxeoloji, tarixi və rəssamlıq əhəmiyyətli əşyaları Türkiyədən ayrılmış ərazilərin hökumətlərinə təhvil vermək öhdəliyi.

*Maddə 423.* Osmanlı hökuməti öhdəsinə götürür ki, İstanbulda Rusiya Arxeologiya İnstitutunda yerləşən indi onun himayəsində olan kitab, sənəd və əlyazmaları, saxlasın və onu o, dövlətə versin ki, müttəfiq hökuməti Rusiya hüququnu məhdudlaşdırmaq formasında göstəriş hüququnu özündə saxlayacaq. Bundan sonra Osmanlı hökuməti hər hansı bir müttəfiq dövlətdən bu arxivə, kitablar və sənədlərə baxmaq hüququ olsa onu təmin etməlidir.

*Maddə 424.* /Türkiyənin bütün arxivlərin, sənədlərin və b. onun güzəştə getdiyi ərazilərə aid olanların, təcili olaraq bu ərazilərin verildiyi dövlətə verməsi/.

*Maddə 425.* /Qarşılıqlı əsaslarla Türkiyə, ərazisinin bir hissəsini verdiyi dövləti arxiv və sənədləri araşdırmaq üçün mütləq icazə verir hansı ki, bu ərazilərdə vəqfə torpaqlarının idarə olunmasına və yaxud bu ərazidə bu və ya başqa müəssisəsinə və vətəndaşın maraqlarına aiddir.

*Maddə 426.* /Türkiyə qəbul edir və əgər bu vacibdirsə,

öhdəlik götürür ki, Türkiyədə 30 oktyabr 1918-ci il tarixlə və yeni məhkəmə qaydalarının tətbiqi arasında, olan dövrdə müttəfiqlərin məhkəmə qərarlarını yerinə yetirəcək, hansı ki, 136-cı maddə ilə müəyyənləşib.

*Maddə 427.* Türkiyə öhdəlik götürür, necə ki, o, onun bu müqavilə ilə mövcud sərhədlərinə aiddir, ali şuranın qərarı ilə Konstantinopolda sağlamlıq məsələsinin tətbiqi və yaxud şuranın rəhbərliyi ilə sanitar idarəçiliyinə aid məsələlər üzrə müttəfiq dövlətlərin qərarını qəbul edir və həyata keçirir/.

*Maddə 428.* /Eyni öhdəliyi Türkiyə adı çəkilən səhiyyə şurasının kompetentlərinə aid olan, həmçinin İsgəndərunda dəniz və karantin şurasının qərarlarına münasibətdə də qəbul edir, hansı ki, bu qərarlar Türkiyədən ayrılan ərazilərə aiddir. Eyni zamanda sanitar tədbirləri və hecasa ziyarətə görə nəzarəti sahəsində bu ərazilərdə müttəfiqlərin hüquqlarını qəbul edir.

*Maddə 429.* /Versal müqaviləsi. 437-ci maddə/.

*Maddə 430.* /Sen-Jermin müqaviləsi. 380-ci maddə/.

*Maddə 431.* /Türkiyə 6 ay müddətinə öz qanunvericiliyini yeniləşdirmək və bu müqavilənin yerinə yetirilməsi üçün inzibati və başqa tədbirlər görməyi öhdəsinə götürür/.

*Maddə 432.* Bu müqavilənin bütün məsələlərdə və dolayı yolla qəbulunda, Türkiyə borclu qalır ki, MC-Şurasının vacib saydığı məsələlərdə araşdırmalarının tətbiqini qəbul etsin.

*Maddə 433.* Razılığa gələn ali tərəflər razıdırlar ki, Rusiya MC-nə üzv qəbul edilən kimi, bu müqaviləyə qoşulmaq, hüququ tanınsın, o, şərtlə hansı ki, müttəfiq dövlətlər və Rusiya, razılaşacaqlar və sonuncunun hüquqlarına zərər vurmadan.



Fransız, ingilis və italyanca tərtib edilmiş bu müqavilə ratifikatsiya ediləcək. Fikir ayrılığı təsadüfündə fransız mətni eyni qüvvəyə malik olacaq. Bundan başqa 1 hissə /MC-statusu/ və XII hissə /əmək/ hansı ki, fransız və ingilis mətni həmçinin eyni əhəmiyyətə malik olacaq.

## ӘLAVӘ 3

Boğazlarda rejim haqqında konvensiya Böyük Britaniya Fransa, İtaliya, Yaponiya, Bolqarıstan, Yunanıstan, Rumıniya, SSR İttifaqı, S.X.S. dövləti və Türkiyə arasında 24 iyul 1923-cü il tarixdə Lozannada imzalanmışdır.

Tərəflər Aralıq dənizi və Qara dəniz arasındakı Boğazlarda bütün millətlərin gəmilərinin azad keçməsini təmin etməyi düşünərək, bugünkü müqavilənin 23-cü maddəsini nəzərə alaraq, və, nəzərə alaraq ki, bu azadlığın saxlanması ümumi sülhə və dünya ticarətinə vacibdir, bu məqsədlə qərara gəliblər bu konvensiyanı imzalasınlar...

*Maddə 1.* Razılığa gələn ali tərəflər, Dardanel boğazı, Mərmərə dənizi və Bosforda, dənizdə və havada azad keçid və gəmiçilik prinsipini qəbul etmək və elan etməyə razılaşıblar, sonradan ümumi "Boğazlar" adlanacaq.

*Maddə 2.* Boğazlarda ticarət gəmilərinin və hərbi gəmilərin müharibə və dinc zamanda keçməsi bundan sonra buradakı əlavənin qətnamələri ilə nizama salınacaq.



## ӘLAVӘ

Ticarət və ticarət hava gəmilərinin, hərbi gəmilərin və hərbi hava gəmilərinin boğazlardan keçməsi üçün qayda

**§1**

Ticarət gəmiləri, qospital gəmiləri, yelkənli gəmi və balıqçılıq gəmiləri, həmçinin qeyri-hərbi hava gəmiləri

**a) Dinc zamanda:**

Bayrağından, yükündən və heç bir formalıqdan asılı olmadan, gündüz və gecə tamamilə azad gəmiçilik və keçid...

v) hərb zamanı, əgər Türkiyə bitərəf qalarsa: tam azad gəmiçilik və keçid. Bitərəf dövlət kimi, Türkiyənin hüquq və öhdəliyi, ona hüquq verə bilməz ki, Boğazlarda gəmiçiliyi məhdudlaşdıran hər hansı bir tədbir görsün, hansı ki, suları və havası, müharibə zamanı tamamilə azad olmalıdır, əgər Türkiyə bitərəfdirsə, dinc zamanda olduğu kimi.

s) hərb zamanı, əgər Türkiyə döyüşən tərəfdirsə: bitərəf gəmilərin və bitərəf qeyri hərbi hava gəmiləri üçün azad gəmiçilik, əgər gəmi və hava gəmisi düşmənə kömək etmirsə, xüsusəndə qaçaq mallar, düşmən ordusu və düşmən vətəndaşı aparmırsa. Türkiyə adları çəkilən gəmiləri və hava gəmilərini yoxlamaq hüququna malik olacaq... Düşmən gəmisinə, beynəlxalq hüquq normaları əsasında yoxlama tədbir görülsə Türkiyə hüququna zərər vurulmamalı.

Düşmən gəmilərinin Boğazlardan istifadə etməsinin qarşısını almaq üçün Türkiyə vacib hesab etdiyi tədbiri görməkdə tam hüquqa malikdir.

## §2
Köməkçi gəmilər, hərbi nəqliyyat və hərbi hava gəmiləri daxil olmaqla hərbi gəmilər

**a) Dinc zamanda:**

Gecə və gündüz, bayrağından asılı olmayaraq, heç bir formalılıq olmadan, tamamilə azad keçid, amma ümumi qüvvələrə aid aşağıdakı qeydləri nəzərə almaqla.

Maksimum qüvvə, hansı ki, hər hansı dövlət Qara dəniz istiqamətində Boğazlardan keçirəcək, o, qüvvəni keçməyəcək hansı ki, Qara dəniz sahilində ən böyük dövlətə məxsusdur və keçid zamanı bu dənizdə mövcuddur; amma dövlətlər Qara dənizə istənilən zaman, istənilən şəraitdə üç gəmidən və 10.000 tondan çox olmamaq şərti ilə qüvvə göndərmək hüququnu özlərində saxlayırlar. Türkiyə üzərinə heç bir məsuliyyət düşməyəcək, necəki bu o, gəmilərə daxildir ki, Boğazlardan keçir.

(Sahil dövlətlər hər il yanvarın 1-də və iyulun 1-də Qara dənizdə öz gəmilərinin tərkibi haqqında Boğazlar komissiyasına məlumat verir).

v) Müharibə zamanı, əgər Türkiyə bitərəf qalsa;

Bayrağından asılı olmayaraq, 2 a paraqrafda göstərilən məhdudiyyətlə gündüz və gecə tamamilə azad keçid.

Lakin bu məhdudiyyət döyüşən dövlətlərə tətbiq olunmur, Qara dənizdə döyüşənlərin hüququ tapdalanmır.

Bitərəf dövlət kimi Türkiyənin hüquq və öhdəliyi, ona hüquq verə bilməz ki, Boğazlarda gəmiçiliyi məhdudlaşdıran hər hansı tədbir görsün, hansı ki, suyu və havası müharibə zamanı tamamilə azad qalmalıdır, əgər Türkiyə bitərəfdirsə, necə ki, dinc zaman olduğu kimi.

Boğazlarda döyüşən hərbi gəmilər və hərbi hava gəmilərinə hər hansı zəbt həyata keçirmək, yoxlamaq



hüququ və başqa düşmən fəaliyyəti göstərmək qadağan ediləcək.

Necə ki, bu təchizat və təmirə aiddir, hərbi gəmilər dəniz bitərəfliyinə aid 1907-ci il XIII Havana konvensiyasını rəhbər tutacaqlar. (Hava gəmiləri üçün həmçinin).

s) hərb zamanı, əgər Türkiyə döyüşən tərəfdirsə.

Bayrağından, tabeliyindən asılı olmayaraq, 2 a paraqrafda göstərilən məhdudiyyətlə bütün hərbi gəmilər üçün tamamilə azad keçid.

Tədbirlər, hansı ki, Türkiyə mütləq düşmən gəmilərinə və Boğazlardan istifadə edən hava gəmilərinə mane olmaq üçün görəcək, o, xarakter də olmayacaq ki, bitərəf gəmilər və hava gəmilərinin azad keçməsinə mane olsun və bu məqsədlə, Türkiyə öhdəsinə götürür ki, gəmi və hava gəmilərini lazımi təlimat və lotsmanla təmin etsin.

Bitərəf hərbi hava gəmiləri Boğazlardan öz məsuliyyəti hesabına keçə bilərlər və onların xarakterinə aid sorğu hüququna tabe olacaqlar. Bu məqsədlə hava gəmiləri mütləq yerə yaxud dənizə enməli, elə zonada, hansı ki, bu məqsədlə Türkiyə müəyyən edəcək və tikəcək.

## §3

a) Türkiyə ilə sülh vəziyyətində olan dövlətlərin sualtı qayıqları mütləq Boğazlardan su üstü formada keçməlidir.

v) Boğazlardan keçən xarici, hərbi gəmilər, bu haqda Türk xüsusi siqnalı ilə dayanmadan məlumat verir.

(Hava gəmiləri Boğazların dar hissələri tərəfdən 5 kilometr zolaqda uçur və qəza təsadüfünlə enmək hüququna malikdir).

## §4
## Hərbi gəmilərin keçid müddətinin məhdudlaşdırılması

Boğazlardan tranzit keçən hərbi gəmilər heç bir təsadüfdə, dənizdə qəza və faciəni çıxmaq şərtilə orada onların keçməsi üçün lazımi vaxtdan çox qala bilməz, əgər gəminin təhlükəsizliyi tələb edərsə gecə ərzində lövbərdə qalmağı çıxmaq şərti ilə.

## §5

a) Bu əlavənin 1, 2 və 3-cü paraqrafları gəmilərin, hərbi gəmilərin və hava gəmilərinin Boğazlardan və üzərindən keçməsinə tətbiq edilir və Türkiyənin vacib saydığı qayda qoymaq hüququna zərər vurmur, necə ki, bu eyni dövlətin hərbi gəmiləri və hərbi hava gəmilərinin sayına aiddir, hansı ki, eyni zamanda türk liman aerodromlarında ola bilər, həmçinin onların olması müddəti.

v) Qara dəniz sahili dövlətlər də o, hüquqa malik olacaqlar, necə ki bu onların və aerodromlarına aiddir...

*Maddə 3.* 4-9-cu maddələrdə şərtləndirilmiş tədbirlər



Boğazlar sularına və sahillərinə tətbiq ediləcək, həmçinin adalara, hansı ki, onlarda yerləşir və yaxud onlarla qonşuluqda yerləşir.

*Maddə 4.* Aşağıda göstərilən zona və adalar silahsızlaşdırılacaq.

1. Dardanell boğazının hər iki sahili və Bosfor boğazı...

(Silahsızlaşdırılmış zona belə müəyyən edilir: Qollirol yarımadası, Kaeron-Kumbaqi-Kavak xətti şimali-qərbə; Eski-İstanbul-Karabiqa xətti cənub-şərqə; Bosfor zonası 15 kilometr eninə qərbə və Boğazlar salihindən şərqə).

2. Mərmərə dənizinin Əmir-Əli-Ədazi adasından Başqa bütün adaları.

3. Egey dənizində, Samofrakiya, Lelmnos, İmbros, Tenedos və Kroliç adaları.

*Maddə 5.* (Yerlərdə silahsız zonaların sərhədlərini müəyyən etmək üçün Fransa, Böyük Britaniya, İtaliya və Türkiyə nümayəndələrindən ibarət komissiya təyin edilir).

*Maddə 6.* Silahsız zonalarda və adalarda heç bir istehkam, heç bir daimi artilleriya qurğuları, sualtı fəaliyyət silahı, hərbi hava uçuşları qurğuları, heç bir dəniz bazaları mövcud ola bilməz.

Heç bir hərbi qüvvələr, polis və jandarmeriya qüvvələrindən başqa orada qala bilməz. (Bu qüvvələr artilleriyaya malik ola bilməz).

Silahsız zona sularında və adalarda sualtı fəaliyyət üçün heç bir silah mövcud ola bilməz...

Türkiyə tranzitlə silahsız zona və türk ərazi adalarında öz silahlı qüvvələrini keçirmək hüququnu saxlayır, həmçinin onların ərazi sularında, hansı ki, orada türk gəmiləri lövbər salmaq hüququna malik olacaq.

Türk hava gəmiləri həmişə Boğazlar suları üzərində və türk silahsız ərazi zonalarında azad uça bilər və hər yerdə

tamamilə azad olaraq torpağa və dənizə enə bilər.

Türkiyə və Yunanıstan bərabər surətdə, silahsız zonada və adalarda və onların ərazi sularında, personalın yerdəyişməsini apara bilər...

Türkiyə və Yunanıstan adları göstərilən zonalar və adalarda öz ərazilərində məxsusluq üzrə bütün teleqraf, telefon və optik müşahidə və məlumat sistemləri təşkil etmək hüququna malik olacaqlar.

Yunanıstan öz gəmilərini silahsız yunan adaları sularında apara bilər, amma bu sulardan Türkiyəyə qarşı əməliyyat aparmaq üçün istifadə edə bilməz.

*Maddə 7.* Mərmərə dənizi sularında heç bir sualtı fəaliyyət silahları qurulmayacaq.

Türk hökuməti Mərmərə dənizinin nə Avropa sahili rayonunda, nə də Bosforun Darişeyədək silahsız zonasından şərqə yerləşən, Anadolu hissəsi sahil rayonunda boğazlardan keçidi məhdudlaşdırmağa qadir olacaq heç bir daimi top yaxud minaatan batareya qurğuları yerləşdirə bilməz.

*Maddə 8.* İstanbulda, İstanbul, Peru, Qalatu, Skutari həmçinin Şahzadələr adası daxil olmaqla və onun bilavasitə ətrafında paytaxtın ehtiyacı üçün maksimum 12.000 adam dura bilər. İstanbulda arsenal və dəniz bazaları saxlanıla bilər.

*Maddə 9.* Əgər, müharibə təsadüfündə, Türkiyə və Yunanıstan, onların döyüşən dövlət hüququndan istifadə edərək, yuxarıda göstərilən silahsız vəziyyəti dəyişdirməyə məcbur olsalar, onda onlar borcludurlar ki, sülhün bağlanması üzrə, bu konvensiyada göstərilən rejimi bərpa etsinlər.

*Maddə 10.* İstanbulda beynəlxalq komissiya təsis ediləcək..., hansı ki, "Boğazlar Komissiyası" adlanacaq.

*Maddə 11.* Komissiya öz funksiyalarını Boğazlar suları



üzərində həyata keçirəcək.

*Maddə 12.* Komissiya, türk nümayəndəsinin sədrliyi ilə, Fransa, Böyük Britaniya, İtaliya, Yaponiya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Rusiya və Serb-Xorvat-Sloven dövlətinin nümayəndələrindən ibarət olacaq, necə ki, onlar bu konvensiyanı imzalayan dövlətlər hesab edilir...

Bu konvensiyaya qoşulmaqla Birləşmiş Ştatlar Komissiyada bərabər hüquqa malik olacaq.

Eyni hüququ, eyni şərtlərlə, Qara dəniz sahili müstəqil dövlətlərdə, (hansı ki, bu maddənin birinci bölməsində adları çəkilməyib) saxlayacaqlar.

*Maddə 13.* Komissiyada təmsil olunan hökumətlər mütləq, mükafatlanma qayğısına qalacaq, hansı ki, onun nümayəndəsi malik olma hüququ ala bilər. Komissiyanın bütün əlavə xərcləri adları çəkilən hökumətlərin payına düşür...

*Maddə 14.* Komissiyaya həvalə ediləcək ki, yəqin etsin ki, hərbi hava gəmilərinin keçməsinə aid qətnamələr lazımı şəkildə gözlənilir...

*Maddə 15.* Boğazlar Komissiyası MC-nın müşahidəsi altında işləyəcək, hansı ki, o hər il onun missiyasının yerinə yetirilməsi haqqında hesabat və məlumat göndərəcək, bundan başqa ticarət və gəmiçilik üçün faydalı ola biləcək məlumatlar; bu məqsədlə komissiya Boğazlarda gəmiçilikdə aparıcı olan Türk hökumət xidməti ilə əlaqəyə girəcək.

*Maddə 17.* Bu konvensiyanın qətnaməsi Türkiyənin öz gəmilərini türk sularında azad yerdəyişməsini həyata keçirmək hüququna zərər vurmayacaq.

*Maddə 18.* Boğazların və qonşu zonaların silahsızlaşdırılmasını hərbi cəhətdən təmin etmək və hərbi əməliyyatların Boğazlarda azadlıq və təhlükəsizliyi pozmamaq arzusunda olaraq, razılığa gələn ali tərəflər növbəti

qətnamə haqda razılaşıblar:

Əgər azad keçid haqda qətnamə, gözlənilməz hücum yaxud hər hansı hərbi əməliyyat, yaxud müharibə təhlükəsi ilə Boğazlarda azad gəmiçilik yaxud silahsız zonanın təhlükəsizliyini pozarsa, onda razılığa gələn ali tərəflər və bütün təsadüfdə Fransa, Böyük Britaniya, İtaliya və Yaponiya buna o, vasitələrlə mane olurlar, hansı ki, MC-ti bu məqsədlə qərara alacaq.

Əvvəlki bölmədə göstərilən fəaliyyətlə vəziyyət dayandırılan kimi Boğazlarda status bu konvensiyada göstərilən qətnamələr bərpa edilir.

Bu qətnamə, silahsızlaşdırma və Boğazlarda azadlığa aid qətnamələrin tərkib hissəsi olaraq, MC-ti statusu ilə razılığa gələn ali tərəflərin hüquq və öhdəliyinə zərər gətirə bilməz.